**N.Q.Adilova.** Regionlarda aqrar sahənin dinamik inkişafı və əmək ehtiyatlarından səmərəli istifadə olunması.......................................................................................... 65


## P E D A Q O G İ K A   B Ö L M Ə S İ


**F.N.Rüstəmova.** Biologiyanin tədrisində ekoloji məşğələlərin rolu................................. 71
**Z.M.Mirzəyev.** Müasir Azərbaycan təhsili və onun inkişaf istiqamətləri........................... 74
**А.Г.Расулова.** Роль мультимедийных средств в обучении биологии………………... 78
**S.A.Əliyev.** Distant təhsildə informasiya mühitinin idarə edilməsi.................................. 81


## P S İ X O L O G İ Y A   B Ö L M Ə S İ


**Ö.Gültekin.** Özünügerçəkləşdirmənin psixoloji mahiyyəti................................................ 87
**H.Nergiz.** Sosiallaşmanın psixoloji məsələləri.................................................................. 93
**Ş.Hüseyin.** Yeniyetmələrin deviant davranışını şərtləndirən sosial-psixoloji amillər.......... 98


## S İ Y A S Ə T Ş Ü N A S L I Q   B Ö L M Ə S İ


**A.B.Nəcəfova.** Heydər Əliyev və gənclər siyasəti........................................................... 104
**E.A.Cəfərov.** Türkiyənin Orta Şərqdə artan təsiri və ABŞ.................................................. 108
**N.D.Atamoğlanova.** Azərbaycançılıq konseptual ideya kimi........................................... 113
**R.S.Hüseynov.** Türkiyə-Azərbaycan münasibətlərində regional strateji əməkdaşlıq prioritetləri.......................................................................................................... 117
**R.Uslu.** Azərbaycan-Türkiyə ikitərəfli münasibətlərinin inteqrasiya potensialı.................. 123


## T A R İ X   B Ö L M Ə S İ


**Y.M.Babanlı.** Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası və xaricdə yaşayan azərbaycanlıların təşkilatlanması prosesi............................................................ 127


## Ə D Ə B İ Y Y A T Ş Ü N A S L I Q   B Ö L M Ə S İ


**N.S.Vəliyeva.** Çarlz Dikkens və Uilyam Meykpis Tekkerey yaradıcılığında təhsil problemi.......................................................................................................... 133
**F.M.Mustafayev.** Harlem İntibahı və Lənqston Hyuz yaradıcılığı.................................... 139

## FİLOLOGİYA BÖLMƏSİ

**H.A.Saliyeva.** Xarici dillərin ünsiyyət vasitəsi kimi müasir dövrdə rolu............................ 145
**L.F.Məmmədəliyeva.** Müstəqillik dövründə Anar publisistikasında Heydər Əliyev obrazı.................................................................................................................................... 149
**А.Н.Бекирова.** Метафора и метонимия………………………………………………... 158

## BİOLOGİYA BÖLMƏSİ

**Ч.Ч.Алиева.** Влияние групп крови на жизнедеятельность человека........................... 161
**У.О.Нуриева.** Изучение стволовых клеток в молекулярной биологии……………... 164

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2013 - № 37**

UOT № 576.32/.36

# ИЗУЧЕНИЕ СТВОЛОВЫХ КЛЕТОК В МОЛЕКУЛЯРНОЙ БИОЛОГИИ

**У.О.Нуриева**
Университет Одлар Юрду
Баку, ул.К.Рагимова 13
e-mail: nuriyeva.ulya@gmail.com

***Açar sözlər:*** kök hüceyrələri, bioloji tibb, implantasiya, differensiasiya
***Keywords:*** stem cells, biological medicine, implantation, differentiation
***Ключевые слова:*** стволовые клетки, биомедицина, имплантация, дифференциация

Понятие «стволовые клетки» вошло в науку уже более 10 лет назад, однако использоваться для лечения различных заболеваний они стали относительно недавно. Интерес к стволовым клеткам возрос, когда была обнаружена их уникальная способность к быстрому размножению и принятию практически любого «облика» - дифференциации. Организм взрослого человека насчитывает приблизительно 200 различных типов клеток. В процессе жизнедеятельности они требуют постоянного обновления по мере старения и отмирания клеток. Стволовые клетки – это основа всех без исключения типов клеток в организме. Они способны к самообновлению и, что самое главное, в процессе деления образуют специализированные клетки различных тканей. Стволовые клетки обновляют и замещают поврежденные клетки во всех органах и тканях. Они служат для восстановления организма человека с момента его рождения. В процессе жизни в организме снижается количество стволовых клеток. Чем взрослее организм, тем меньше стволовых клеток. У новорожденного 1 стволовая клетка встречается на 10 тысяч, к 20-25 годам – 1 на 100 тысяч. К 50-летнему возрасту в организме уже остается всего 1 стволовая клетка на 500 тысяч. Вследствие старения и тяжёлых заболеваний истощается запас стволовых клеток и организм не может восстановиться.

Израильский ученый Инбар Фридрих Бен-Нун 2011 году вместе с группой ученых вывел 1 стволовую клетку вымерших видов животных. Благодаря этому можно спасти виды, которые на грани исчезновения. Британский ученый Джон Гердон и японский исследователь Синя Яманака были удостоены Нобелевской премии в области физиологии и медицины в 2012 году за «открытие возможности перепрограммирования зрелых клеток в плюрипотентные». Работы этих ученых показали, что биологические часы возможно запустить заново. Сейчас многие рассчитывают, что на основе этих работ удастся разработать методы получения необходимых стволовых клеток для медицины. На Украине 26 февраля 2013 г. разрешили провести клинические испытания при помощи стволовых клеток для лечения панкреонекроза, гепатитов, ожоговой болезни, сахарного диабета II типа и

критической ишемии нижних конечностей. Это дает надежду на то, что многие неизлечимые в настоящее время болезни когда-нибудь будут побеждены. Современная медицина не только выращивает и культивирует стволовые клетки, но и научилась трансплантировать их в организмы животных и человека.

Сегодня одно из наиболее перспективных направлений современной биомедицины - это возможность лечения стволовыми клетками . На сегодняшний день изучение стволовых клеток имеет важное значение в развитии молекулярной биологии, и одновременно является актуальной проблемой, так как уделяет особое внимание интерференции РНК, техники микрочипов, методу генных ловушек, протеомному анализу и генетической трансформации. Благодаря стволовым клеткам стало возможно лечение многих неизлечимых заболеваний. Шотландские ученые с помощью 3D-печати 4 февраля 2013 г продвинулись на шаг вперед к созданию полноценных органов. Был использован учёными специальный «клапанный» принтер, который заряжается «биочернилами», состоящими из культуры ЭСК. Принцип работы заключается в том, что крошечным взрывом воздуха клетки вытесняются из резервуара. А сам поток контролируется открытием и закрытием микроклапана. Клетки были высажены на специальную культуру, и напечаталось несколько шариков меньше миллиметра. «Мы в состоянии напечатать миллионы клеток в течение нескольких минут, – говорит один из авторов разработки Уилл Шу из Университета Хэриот-Уотт в Эдинбурге. - Наше устройство размером со стандартный настольный лазерный принтер». Была разработана универсальная методика 3D-печати тканей при помощью стволовых клеток. Их можно перепрограммировать в любые необходимые клетки органов и тканей. Эта работа, опубликованная в журнале Biofabrication, вселяет веру в то, что полноценная печать органов и других биологических структур вскоре будет возможной. В разрешении главных вопросов биологии стволовых клеток - самообновления и дифференцировки, а также управления ими, достигнут большой прогресс в развитии молекулярной биологии. В 2012 году М.Сайто с группой японских исследователей из Университета Киото впервые в истории науки смог вырастить яйцеклетки из стволовых клеток, а 23 января 2013 г. та же группа вырастила из стволовых клеток ткани почек, надпочечников и половые клетки: были получены 5 типов клеток почек, а также выращен фрагмент почечного канальца, участвующего в фильтрации крови. Необходимо отметить, что новейшие методы молекулярной биологии , как интерференция РНК, сразу же находят применение в молекулярной биологии стволовых клеток и являются весьма продуктивными.

По нашему мнению, стволовые клетки усовершенствуют медицину и, вполне возможно, что через одно или два десятилетия большинство из нас будут знать кого то или будут теми, кто получил трансплантацию стволовых клеток. Стволовые клетки перспективны для лечения большинства основных болезней с которыми люди сталкиваются в течении их жизни, в том числе рака, сердечно-сосудистых заболеваний, болезни Паркинсона, травмы спинного мозга, и многими др. Стволовые клетки сегодня на пике открытия, что позволит в недалеком будущем сделать невозможное в медицине возможным, ведь недаром XXI век по праву считается веком биотехнологий и наук о человеке.

**Литература**


1. Синя Яманака. Научные труды. 2012
2. Корочкин Л.И. Биология индивидуального развития. М., 2002
3. Репин В.С , Ржанинова А.А., Шаменков Д.А. Эмбриональные стволовые клетки: фундаментальная биология и медицина.
4. Владимирская Е.Б. Биологические основы и перспективы терапии стволовыми клетками. М., Медицина и здоровье, 2007


## MOLEKULYAR BİOLOGİYADA KÖK HÜCEYRƏLƏRİNİN TƏDQİQİ

**Ü.O.Nuriyeva**


**XÜLASƏ**

Məqalədə kök hüceyrələrinin öyrənilməsi məsələləri araşdırılmışdır. Kök hüceyrələrinin insan organizmi üçün vacibliyi göstərilmişdir.


## STUDY OF STEM CELLS IN MOLECULAR BIOLOGY

**U.O.Nuriyeva**


**SUMMARY**

This paper is dedicated to the study of stem cells. The importance of stem cells for human organism stressed.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

# B İ O L O G İ Y A   B Ö L M Ə S İ

UOT № 612.118.221.2

## ВЛИЯНИЕ ГРУПП КРОВИ НА ЖИЗНЕДЕЯТЕЛЬНОСТЬ ЧЕЛОВЕКА

**Ч.Ч.Алиева**
Университет Одлар Юрду
Баку, ул.К.Рагимова 13
e-mail: just_aliyeva@mail.ru

***Açar sözlər:*** qan qruplu, qan köçürmə, qan qrupu – xəstəliklər
***Keywords:*** blood group, blood transfusion, blood group – diseases
***Ключевые слова:*** группа крови, переливание крови, группа крови — заболевания

Каждый человек рождается с определенной группой крови. Группу крови закладывают генотипы родителей. Группа крови - это описание индивидуальных антигенных характеристик эритроцитов, определяемое с помощью методов идентификации специфических групп углеводов и белков, включённых в мембраны эритроцитов животных. Существуют две важнейшие классификации группы крови человека - система АВ0 и резус-система. Система АВ0 была предложена Карлом Ландштейнером в 1900 году. Система Rh (резус-система или резус крови) - это антиген (белок), который находится на поверхности эритроцитов. Он был обнаружен в 1940 году Карлом Ландштейнером и А.Вейнером. Таким образом, существуют четыре группы крови:

- α и β: первая (0),
- A и β: вторая (A),
- α и B: третья (B),
- A и B: четвёртая (AB).

Люди с группой 0(I)Rh- считаются «универсальными донорами», т.е. их кровь может быть перелита любому нуждающемуся. А люди с группой AB(IV) Rh+ - считаются «универсальными реципиентами», т.е. они могут получить кровь от любой группы крови.

Одной из важных задач в медицине является переливание крови, которое тесно связано с группой крови. Раньше переливали цельную кровь по группам, но это было очень рискованно, потому что часто наблюдалось сложное осложнение. Но в настоящее время переливаются только компоненты крови: эритроцитарная масса, тромбоцитарная масса и свеже-замороженная плазма. Для осуществления этого процесса необходимы банки крови. В Азербайджане при Министерстве Здравоохранения в Институте гематологии и трансфузиологии имени Б.Эйвазова существует Центральный банк крови, который служит для обеспечения больных безопасной и

качественной кровью.

Сегодня появляются всё новые исследования о том, как группа крови влияет на здоровье, жизнь, предрасположенность к определенным болезням, характер и привязанности человека. Группа крови также может определять особенности реагирования иммунной системы, а следовательно, она даёт предпосылки к развитию различных заболеваний в зависимости от того, к какой из четырех групп отнесла нас природа.

У людей с I группой крови, в основном, высокий риск заболевания сердечно-сосудистой системы – гипертонической болезни. Обладатели I группы крови, особенно с отрицательным резусом, наиболее предрасположены к развитию заболеваний бронхов и лёгких: туберкулёз, бронхиальная астма, хронический бронхит. У них, в основном, также наблюдается предрасположенность к язвенной болезни желудка и двенадцатиперстной кишки (гастрит, колит). Существует мнение, что первая группа крови обуславливает развитие на слизистой оболочке желудка мембранных рецепторов, чувствительных к Helicobacteri Pilori. По этой причине у людей с данной группой крови снижена устойчивость слизистой желудка к действию пищеварительных ферментов. Они также могут иметь проблемы с почками, страдать от аллергии, гепатита и гемофилии.

Обладатели II группы крови, в основном, имеют слабую иммунную систему; вероятно, у них щитовидная железа не вырабатывает достаточное количество гормонов, что приводит к проблемам со здоровьем. Люди с этой группой крови более уязвимы в отношении образования камней в желчных протоках, у них часто развивается хронический холецистит (воспаление желчного пузыря).Они также склонны к таким заболеваниям как остеопороз, сахарный диабет, приобретённый митральный порок сердца, пневмания, инфаркт миокарда и синдром хронической усталости. Склонность к ревматизму наблюдается у лиц со второй группой крови.

У обладателей III группы крови, в основном, крепкий иммунитет, но и их болезни не щадят Они имеют более высокий риск заболевания поджелудочной железы, предрасположенны к опухолям толстой кишки. Частым инфекциям мочеполовых путей наиболее подвержены женщины с третьей группой крови (особенно, если инфекция вызвана кишечной палочкой). Обладателей III группы крови иногда также настигают цистит, гонорея, стрептококковые инфекции, радикулит, болезнь Паркинсона (тяжёлое поражение нервной системы).

IV группа – это самая эволюционно-молодая группа. У обладателей этой группы, в основном, сниженный иммунитет, поэтому у них и постоянные простуды, ОРВИ, все инфекционные заболевания. Они подвержены также резким скачкам артериального давления. Представители этой группы также склонны к гаймориту, анемии, заболеваниям кожи и инсульту. Однако, в отличие от обладателей первой группы, у обладателей четвертой группы инсульты носят облегченный характер и характеризуются более благоприятным прогнозом.

В настоящее время учёными разных стран мира доказано и открыто, что кроме четырех групп крови существуют и две группы крови. В феврале 2012 года, американские ученые из Вермонтского университета в сотрудничестве с японскими и французскими учеными провели исследование по проблеме несовместимости крови, используя масс-спектрометр, и обнаружили на поверхности эритроцитов два белка — ABCB6 и ABCG2, которые и определяют две новые «дополнительные»

группы крови – Лангерайс (Lan) и Джуниор (JR). Эти две новые группы крови названы именами открывших их учёных – Лангерайс и Джуниор. Предположительно, более 50.000 японцев имеют группу крови Джуниор с отрицательным резус-фактором (JR-). Это может повлечь трудности при переливании крови или несовместимости крови матери и плода. Как считают учёные, обнаруженные группы крови являются «вопросом жизни и смерти» для некоторых людей.

Таким образом, из вышеуказанных можно сделать вывод, что группа крови – это индивидуальный признак, присущий всем людям и не зависящий от расы, пола или возраста. Она передаётся по наследству и до конца жизни неизменна. Группа крови также определяет общее состояние организма, пищевые предпочтения, предрасположенность к определенным болезням, наклонности, характер и привязанности человека.

**Литература**

1. Островский А.Г., Карашуров Е.С. «Переливание крови, препаратов крови и кровозаменителей». П., 2000
2. Минеева П.В. «Группы крови человека». С-Пб., 2004
3. Дроздова М.В. «Заболевания крови». Учебное пособие. 2009
4. www.uvm.edu - «Blood Mystery Solved».

## QAN QRUPLARININ İNSAN HƏYATINA TƏSİRİ

**Ç.Ç.Əliyeva**

**XÜLASƏ**

Məqalə qan qruplarının öyrənilməsinə və qan qruplarının insan həyatına təsirinə həsr olunmuşdur. Hər bir insan müəyyən qan qrupu ilə doğulur. Qan qrupu valideynlərin genotipi əsasında yaranır. Qan qrupu eritrositlərin individual antigenlik xarakteristikasının təsviridir, hansı ki heyvan eritrositlərinin membranasında olan xüsusi qrup zülal və karbohidratların identifikasiya metodu ilə təyin olunur.

## INFLUENCE OF BLOOD TYPES ON HUMAN ACTIVITY

**Ch.Ch.Aliyeva**

**SUMMARY**

This article is dedicated to the study of blood types and their influence on human activity. Each person is born with a certain blood type. The blood type is determined by parental genotypes. Blood type is a this description of individual anti-gene characteristics of the erythrocytes, defined by methods of identification of specific groups of carbohydrates and proteins included in membranes of animal erythrocytes.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 81

# МЕТАФОРА И МЕТОНИМИЯ

**А.Н.Бекирова**
Университет Одлар Юрду
Баку, ул.К.Рагимова 13
e-mail: gusik-2006@rambler.ru

***Açar sözlər:*** söz, metafora, metonimiya
***Keywords:*** word, metaphor, metonymy
***Ключевые слова:*** слово, метафора, метонимия

Слово, как и известно, является основной единицей языка, самым заметным элементом его художественных средств. И выразительность речи связана прежде всего со словом.

Слово в художественным тексте - это особый мир. Художественное слово - зеркало индивидуально-авторского отношения к действительности, особенного восприятия окружающего мира. В художественном тексте своя точность - метафорическая, и свои истины - художественные откровения; меняются целые функции слова, которые задаются контекстом: "хотел бы в единое слово / я слить мою грусть и печаль" (Г.Гейне).

Метафорические высказывания в художественном тексте связаны с выражением индивидуального восприятия окружающего мира. Искусство - это самовыражение личности. Из метафор сплетается литературная ткань, которая создает образ, волнующий нас и эмоционально воздействующий на нас образ художественного произведения. Слова приобретают дополнительные значения, стилистическую окраску, создают особый мир, в который мы погружаемся, читая художественную литературу. И в устной речи, не только в литературной, но и в разговорной, мы, не задумываясь, используем все выразительные средства речи, чтобы речь была убедительнее, эмоциональнее, более образной. Особенную выразительность нашей речи придают метафоры.

Метафора - это способ создания языковой картины мира на основе уже имеющихся в языке значений:

1) стертая, окаменелая, сухая или историческая метафора: нос лодки, игольное ушко и т.д.

2) фразеологизмы - образные устойчивые сочетания слов, обладающие метафоричностью, эмоциональностью, экспрессивностью, воспроизводимостью в памяти большинства носителей языка: замкнутый круг, мертвая хватка, седьмая вода на киселе и т. д.

3) одиночная метафора: бездомное сердце;

4) развернутая метафора:

*И вот мне приснилось, что сердце мое не болит.*
*Оно - колокольчик фарфоровый в желтом Китае.*

5) традиционно-поэтическая метафора: огонь любви, утро жизни;
6) индивидуально-авторская метафора: гроб тротуара.

Метафора может быть одновременно и олицетворением, и аллегорией, и перифразой, и гиперболой, и литотой, и мейозисом, и другим тропом!

Слово метафора в переводе с греческого означает "перенос". Имеется в виду перенос наименования с одного предмета на другой. Чтобы такой перенос смог произойти, у этих предметов должно быть какое-нибудь сходство, они должны быть чем-то похожими, смежными. Метафора - это слово или выражение, которое употребляется в переносном значении на основе сходстве двух предметов или явлений по какому-либо признаку.

В результате переноса значения с одного предмета или явления на другой создается образ. Метафора - одно из ярких средств выразительности поэтической, художественной речи. Но в то же время их отсутствие не означает отсутствие выразительности художественного произведения.

Метафора в широком смысле - иносказание вообще; в более узком смысле - обозначение предметов или явлений одного ряда с помощью свойств, характерных для предметов или явлений другого ряда. Существуют метафоры языка и метафоры стиля; первые являются выражениями привычными, со стертой образностью (встает солнце, идет дождь, идут часы - так называемые "мертвые" метафоры), а вторые, метафоры стиля, есть как раз то, что мы используем в терапии. Метафоры бывают простыми и развернутыми. Пример простой метафоры: "Куда, куда вы удалились, весны моей златые дни?" (А.С.Пушкин) - здесь название года соотнесено с периодами жизни человека, и слово "весна" получило метафорическое значение "юность". Пример развернутой метафоры: "Вот охватывает ветер стаи волн объятием крепким и бросает их с размаха, в дикой злобе на утесы, разбивая в пыль и брызги изумрудные громады" (М.Горький).

Метафора и метонимия по сути два основных типа отклонений от базового нормативного уровня ("нулевой степени"). Психологи давно подметили важную особенность нашего восприятия - сходство между вещами определить всегда труднее, чем различие. Л.С.Выготский писал: "... осознание сходства требует первичного обобщения или понятия. Напротив, осознание различия не требует от мысли непременного образования понятия и может возникнуть совершенно другим путем".

Есть вещи, между которыми сходство устанавливается быстро и легко, и другие, между которыми оно если и обнаруживается, то на основании слишком общих признаков, которые, ввиду своей универсальности, не позволяют выделить сколько-нибудь ценный познавательный элемент из сравнения двух вещей. Например, между такими вещами как "нож" и "карандаш", несомненно, есть нечто вроде "сходства" - например, обе эти вещи являются твердыми на ощупь. Но твердыми на ощупь кроме этих двух вещей являются миллиарды других. Вот почему признак "быть твердым на ощупь" не является основанием для сравнения только этих двух вещей, он не специфичен для "ножа" и "карандаша".

Вслед за Н.С.Трубецким, лишь специфические признаки при сопоставлении двух вещей я буду называть основанием для сравнения этих вещей. "Две вещи, не имеющие основания для сравнения, или, иными словами, не обладающие ни одним признаком (например, чернильница и свобода воли), никак не могут быть противо-

поставлены друг другу" - писал Трубецкой. Но с этим утверждением можно согласиться лишь отчасти.

Две вещи, не имеющие основания для сравнения, действительно не могут быть противопоставлены по данному критерию. Но это говорит лишь о том, что наличие, либо отсутствие общих признаков между сравниваемыми в составе смысловых единств вещами позволяет нам выделить в сфере металогии два класса тропов и, соответственно, два механизма тропообразования.

**Литература**

1. Сериков А.Е. Метафора и метонимия в практическом действии. Вестник Самарской гуманитарной академии. Серия «Философия. Филология.» – 2007. – №1, стр.132-142
2. Авеличев А.К. Общая риторика. М., 1986, стр.5-23
3. Арбатов Б.М. Речетворство. 1923
4. Bədii əsərlərdə təkririn üslubi xüsusiyyətləri, 2005

## METAFORA VƏ METONİMİYA

**A.N.Bəkirova**

**XÜLASƏ**

Məqalədə metafora və metonimiya kimi linqvistik anlayışların qısa şərhi verilir.

## METAPHOR AND METONYMY

**A.N.Bekirova**

**SUMMARY**

This work presents a brief overview of such linguistic concepts as metaphor and metonymy.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 070

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ ANAR PUBLİSİSTİKASINDA HEYDƏR ƏLİYEV OBRAZI

**L.F.Məmmədəliyeva**
Azərbaycan Universiteti
Bakı AZ1141, S.Dadaşov küçəsi 84
e-mail: raminrovsan@mail.ru

***Açar sözlər:*** publisistika, siyasət, ümumilli lider, ədəbiyyat
***Keywords:*** publicism, policy, national leader, literature
***Ключевые слова:*** публицистика, политика, общенациональный лидер, литература

Yeni Azərbaycan nəsrinin parlaq simalarından biri, İstiqlal və Şərəf ordenli Xalq yazıçısı Anarın zəngin və çoxşaxəli yaradıcılığında publisistik əsərlərin xüsusi yeri var. Hələ 60 illik yubileyi münasibəti ilə Ümummilli liderimiz Heydər Əliyevin yazıçıya ünvanladığı təbrik məktubunda deyilirdi: "Ölkədə və cəmiyyətdə baş verən əsaslı dəyişikliklər yazıçı Anara həm də publisist və tədqiqatçı şöhrəti də gətirmişdir." Anarın publisistik əsərləri arasında ümummilli lider, ulu öndər Heydər Əliyevin şəxsiyyətini və onun ölkəmizin tarixində tutduğu şərəfli mövqeyini publisistik yöndə işıqlandıran "Şəxsiyyətin miqyası" (1998), "Qalib gəldi, qalib getdi" (2003) kimi əsərləri xüsusi dəst-xətti ilə seçilir. Bu əsərlərin də bilavasitə əks olunduğu "Unudulmaz görüşlər" (2009) adlı monoqrafiyasında yazıçı-publisist dahi rəhbərlə bağlı bütün maraqlı nüanslara, keçmiş Sovetlər Birliyi dönəmində açıqlanması qeyri-mümkün olan vacib məqamlara yeni prizmadan, publisistik rakursu nöqteyi-nəzərindən həssaslıqla yanaşmışdır.

Dünyaşöhrətli siyasətçi, ümummilli liderimiz Heydər Əliyevin dərin zəkası, ictimai fəaliyyəti, uzaqgörən siyasəti yuxarıda adları sadalanan bu publisistik əsərlərin əsas məğzini təşkil edir. Dahi rəhbərin istər xalqımıza bəxş etdiyi gözgörəsi və ya pərdəarxası dəyərli xidmətləri, istərsə də ədəbiyyatçılara, xüsusən də AYB-yə verdiyi xüsusi dəyər Anar publisistikasında öz yüksək qiymətini almışdır. Şəxsiyyətin miqyası dedikdə həm bu dahi insanın gördüyü işlərin miqyasını, eyni zamanda bu işlərin tarixdə doğurduğu əks-sədanı nəzərə alan publisist "Hər iki meyarla Heydər Əliyev dahi şəxsiyyətdir" deyir. Bu əsərlərdə Anar həm elmi, həm bədii və həm də siyasi publisistikanın gözəl bir vəhdətini uğurla sintezləşdirmişdir.

1969-cu ildən siyasət meydanına atılan bu əvəzolunmaz siyasi lider hələ sovetlər imperiyasının sərt rejimi şəraitində DTK-ya sədrlik etdiyi müddətdə belə bir qrup gizli təşkilat yaratmaq istəyən gənclərin həyatını xilas edə bilmişdir. Həmin dövrdə həbs olunmuş gənclərdən birinin - Tofiq Məhərrəmoğlunun şəxsən Anara nəql etdiyini publisist oxucuya belə çatdırır: "Heydər Əliyev hamımızı kabinetinə çağırdı. Sütül, cılız cavanlar idik. Sizsiniz bu hökuməti yıxmaq istəyənlər? dedi güldü. Gedin ağlınızı başınıza yığın, öz işinizlə məşğul olun və xalqımıza gördüyünüz xeyirli işlərlə xidmət edin dedi" (2; 293). Məhz H.Əliyevin şəxsi cəsarəti, nüfuzu, riski sayəsində onların heç biri nəinki cəzalandı-rılmır, cox az bir zamanda azadlığa buraxılırlar. Ulu öndərə həsr olunmuş "Şəxsiyyətin

miqyası" və "Qalib gəldı, qalib getdi" əsərləri publisistikanın yeni, təkmil bir formasıdır, üslubu, yazı manerası ilə orijinal bir janr xüsusiyyətlərinə malikdir.

Anarın dahi rəhbər H.Əliyevə həsr etdiyi ən dəyərli əsərlərindən biri də *"Unudulmaz görüşlər*" adlı mükəmməl tərtibatda, nəfis şəkildə nəşr etdirdiyi geniş həcmlı monoqrafiyasıdır. Neçə illərdən bəri üzərində ciddi-cəhdlə işlədiyi kitabın işıq üzü görməsi nahayət həm Anarsevərlərin böyük sevincinə, Əliyevşünasların isə maraq və diqqətinə səbəb oldu. Əsər Azərbaycan respublikası Prezidentinin sərəncamı ilə Heydər Əliyev mükafatına layiq görüldü. Əsərdə publisistikanın ən yaxşı nümunələri toplanmışdır. Memuar janrı həm də dəqiqlik, düzgünlük tələb etdiyindəndir ki, Anar bu əsərdə hadisələri olduğu kimi, təhrif etmədən yazıçı-ədəbiyyatçı rakursu nöqteyi-nəzərindən işıqlandırmaq istəmişdir. Bu əsərdə Anar dahi rəhbərin real portretini cızmaqla tarixin onun boynuna qoyduğu ən böyük borcun altindan çıxmış oldu. Bilənlər yaxşı bilir ki, Anar qələmini heç vaxt yalanla kökləməmişdir. Buna görə də müəllif bu əsərdə tarixi hadisələrdən söz açarkən yaddaşına o qədər də etibar etməmiş, həmin dövrün mətbuatında getmiş materiallardan da geniş istifadə etmişdir. Müəllif yeri gəldikcə dahi rəhbərin ona, onun fəaliyyətinə, xüsusilə də "Qobustan" toplusuna göstərdiyi dəstəyi daim qədirbilənliklə xatırlayır. Belə ki, Anar dəfələrlə qeyd etdiyi kimi, "Qobustan" jurnalı çapdan çıxarkən ona haqlı və haqsız tənqidlər yağdırılmağa başlayır. Bəziləri onu millətçilik ideyaları yaymaqda ittiham edir, digərləri isə quruluşun əleyhinə olduğunu iddia edirdilər. Məhz H.Əliyevin səyi və təşəbbüsü ilə hələ sovet rejiminin sərt dövründə belə "Qobustan" jurnalı nəinki bağlandı, hətta ona Teatr cəmiyyətində iki iş otağı ayrılır, Mədəniyyət nazirliyinin nəşri kimi statusu müəyyənləşdi. "Ədəbiyyatçıların bəxti onda gətirib ki, H.Əliyev ədəbiyyatı sevirdi, - deyən publisist bu əsərdə Anar müstəqillik dövrünün bir sıra hadisələrinə də işıq salmışdır. Anarın çoxşaxəli publisistikasında diqqəti çəkən ən mühüm məqamlardan biri də odur ki, o hər hansı diqqətiçəkən bir məqamı yerindəcə, olduğu kimi doğru-dürüst qiymətləndirmə məharətinə malikdir. Tarix boyu dövlət xadimləri, sultanlar, şahlar onların xalqa bəslədiyi diqqət və qayğısı müqabilində daim qiymətləndirilmiş, şəninə şer"lər, poemalar yazılmış, əsərlər həsr edilmişdir. Elə bu baxımdan xalqa xüsusən elm, sənət adamlarına, ədəbiyyatçılara olan qayğısı baxımından ulu öndər H. Əliyevə həsr olunmuş əsərlər də kifayət qədər sanballı, oxunaqlıdır. Bütün dünyanın bəlkə də qibtə edəcək qədər yaxşı tanıdığı, dünya şöhrətli siyasətçi, Azərbaycan xalqının ümumilli lideri Heydər Əliyevin də yeri tarix durduqca görünəcəkdir. Onun xalqımıza bəxş etdiyi görünən və görünməyən pərdəarxası xidmətlərini sadalamaq bəlkə də bir qədər şablonçuluq və təqlidçilik kimi görünə bilər. Lakin onu tanıyanlar yaxşı bilir ki, intuitiv qeyri-adi hafizəyə malik bu nadir tarixi şəxsiyyət Azərbaycanın elm sənət adamları, ölkəsinin incəsənəti, mədəniyyəti haqda ən xırda detalları belə dəqiqliyi ilə yaddaşına həkk etmişdir. Təbii ki, Heydər Əliyev ölkəmizin tarixi, ədəbiyyatı, incəsənəti xüsusilə mədəniyyəti haqqında nə qədər geniş və əhatəli bilgilərə malik idisə, onun daim inkişafı haqda da bir o qədər çox düşünürdü. Hamıya yaxşı məlumdur ki, onun rəhbər olduğu illərdə şübhəsiz ki, ölkədə mədəniyyətin çiçəklənməsi, ədəbiyyatın yüksəlişi üçün bütün mümkün olan, hətta mümkünsüz ğörünən işlər belə həyata keçirilirdi. Şübhəsiz ki, dahi rəhbərin gördüyü xidmətlər zaman-zaman çözülərək öz layiqli dəyərini daha sanballı əsərlərlə tamamlayacaq. Qeyd etmək lazımdır ki, müstəqillik illərində müasir dövr yazarlarımızın Heydər Əliyevə həsr etdikləri əsərlər də illər keçdikcə öz layiqli dəyərini alacaqdır. Bu baxımdan Anarın "Unudulmaz görüşlər" əsəri zamanında və yerində yazıl-mış dahi rəhbərlə daha isti münasibətlərdən ilhamlanmış parlaq yazıçı düşüncələridir. Əsə-

rin girişində AYB-nin katibi, 525-ci qəzetin baş redaktoru R.Məcid "Memuar ədəbiyyatının dəyərli örnəyi" adlı məqaləsində yazır: "Unudulmaz görüşlər"də Anar bədii və siyasi publisistik dil elementlərini böyük məharətlə qovuşdurub. Bunun sayəsində müəllif xatırladığı məqamlara xas ikili məzmunu, yəni həm siyasi, həm də mədəni ədəbi çaları, həm siyası, həm də mədəni ədəbi çaları, həm də məhrəm rəngləri ustalıqla qələmə alıb" (3; 8). Əsər Heydər Əliyevin müxtəlif illərdə, etdiyi çıxışlardan fraqmentlər şəklində təsvir edilir. Dahi rəhbərin əvvəlcə Xalq şairi R.Rzaya, N.Rəfibəyliyə daha sonra Anar yaradıcılığına verdiyi dəyər-qiymət olduğu kimi öz əksini tapmışdır. Hələ 60 illik yubileyi münasibəti ilə Anara ünvanlanmış təbrik məktubunda isə bir çox mühüm məqamlar işıqlandırılmışdır. Məktubda deyilir: "Qürur və ləyaqət simvolu olan ulu "Dədə-Qorqud" eposunun qəhrəmanlarını müasirlərimiz üçün daha doğma və əziz edən məhz sizin yaradıcılığınız olmuşdur. Təşəbbüsünüzlə yaranan "Qobustan" toplusu azərbaycançılıq ideyalarının carçısına çevrilərək bütöv bir nəslin milli, mənəvi-əxlaqı qayə və duyğularının formalaşmasında böyük rol oynamışdır" (3; 13).

Daim mədəniyyət, incəsənətə böyük önəm verən dahi rəhbər Anarın milli-mənəvi sərvətimiz olan "Dədə-Qorqud" haqqında film yaradılması təşəbbüsünü, "Qobustan" toplusunu yaratmaq, yaşatmaq qədər mühüm və çox gərəkli bir işin öhdəsindən necə uğurla gəldiyini çıxışlarında daim dönə-dönə vurğulamışdır. Hətta dahi dövlət xadimi o vaxtlar "Qobustan" ətrafında gəzən şaiələri də bir-bir yada salaraq toplunu millətçilik ideyaları yaymaqda suçlayanları da yaxşı xatırladığını bildirir. Lakin bütün bunlara baxmayaraq "Qobustan" jurnalı o vaxt çox böyük işlər gördü", - deyə Heydər Əliyev jurnalın bütün yaxşı məziyyətlərini daim vurğulayırdı. Rəhbəri tərəfindən qiymətləndirilən Anar bütün müsahibələrində onu həmişə dəstəklədiyini belə bildirmişdir: "Mən H.Əliyevi dəstəkləmişəm, dəstəkləyirəm və dəstəkləyəcəyəm" (3; 29) (525-ci qəzet, 10 fevral, 2003-cü il).

Kitabın bilavasitə adını daşıyan "Unudulmaz görüşlər" adlı məqaləsində yazıçı-publisist H.Əliyevin yoxluğunu (ötən beş il ərzində) daim hiss etdiyini ürəkağrısı ilə vurğulayır. Publisist yazır: "Heydər Əliyevin ölüm günündən beş il keçir. Zaman ötdükcə bu bənzərsiz insanın xalqımızın həyatında, hər birimizin həyatında oynadığı müstəsna rolu daha aydın dərk edirik. Onun yeri daim görünür. Şəxsən mən onun yoxluğunu hər gün hiss edirəm." (3; 42).

Daha sonra Anar prezident haqqında Elmira Axundovanın yazmış olduğu sanballı çoxcildliyin də yüksək dəyərə malik olduğunu bildirmişdir. 2001-ci ildə Gülüstan sarayında prezidentə həsr olunmuş həmin kitabların təqdimat mərasimində kitabın bütün yaxşı məziyyətlərindən söz salaraq həm də bir qədər öz təkliflərini də əlavə etməyə çalışmişdir. Anar arzulayırdı ki, Elmira Axundova kitabının yeni cildlərində Prezidentin dilimiz haqda verdiyi məşhur fərmandan Bakıda açılacaq Şəhidlər muzeyindən və Şuşada Cıdır düzündə Azərbaycanın milli bayrağı fonunda Heydər Əliyevin şəklini görəcəyimizdən bəhs etsin.

Anar fəxri adların verilməsinin əleyhinə olduğunu dönə-dönə bildirsə də, Prezidentin onu təltif etdiyi fəxri adlar və yubiley münasibətilə ona ünvanladığı təbrik məktubundan sonra fikirlərindən daşınmış, "deməsinlər özü alıb, özgələr almasını istəmir" (3;43), - deyə fəxri adların Yazıçılar Birliyinin başqa layiqli üzvlərinə də verilməsi barədə məsələ qaldırmalı olur.

Heydər Əliyevə daim yüksək ehtiram bəsləyən Anar bunu bəzi "baqqal düşüncəli insanların təmənnalı bir cəhd kimi qiymətləndirməsindən" də böyük narahatlıq keçirdiyini

danmır. Hələ yenicə müstəqillik əldə etmiş AYB və onun ədəbi orqanlarını xilas edərək büdcəyə qəbul edən, ədəbi həyatımızın bir çox problemlərini asanlıqla həll edən, klassiklərimizin xatirəsini həmişə uca tutan, onların xatirəsini əbədiləşdirmək üçün yüksək səviyyəli yubiley tədbirləri təşkil edən, muzeylər yaradan, heykəllər ucaldan, bir çox sənətçi və yazarların ağır xəstəlikdən sağalması üçün əlindən gələni edən Heydər Əliyevə bunun müqabilinda təşəkkür və minnərdarlığını bildirəndə bunu bəzi dardüşüncəli insanların məddahliq kimi yozmasından böyük publisist daim narahat olurdu. Publisist yazır: "Qürur duyuram ki, Heydər Əliyev hakimiyyətdə olanda da, bütün vəzifələrdən uzaqlaşdırılıb təklənəndə də bir çox yazıçılarımızın o cümlədən mənim ona münasibətim zərrə qədər də dəyişmədi, əksinə, bəziləri Heydər Əliyevdən üz döndərəndə ona əvvəlkindən də artıq diqqət və qayğı göstərirdik."

Hətta o dövr Yazıçıların IX Qurultayı ərəfəsində H.Əliyevi də dəvət edəndə o bunu belə desək, dilucu bir təklif kimi qəbul edir. Axı deyir mən kiməm, yazıçı deyiləm. Həm sovet, həm Azərbaycan rəhbərliyində mənə qarşı böyük ədalətsizliklər edilir, əleyhimə böhtanlar quraşdırır və yayırdılar",- deyən Heydər Əliyev o dövrdə böyük təzyiq və təqib altında olduğunu da gizlətmir. Qurultaya dəvətinin də xətir naminə olduğunu düşünən böyük siyasətçi Anarın onu böyük məmnunuyyətlə dəvət etdiyini öyrənəndə çox sevinmiş, ürəklə iştirak edəcəyini bildirmişdir.

Məlumdur ki, Sovetlər dönəmində bir sıra yazıçı, şairlərimiz, o cümlədən B.Vahabzadə, M.İbrahimbəyov, R.İbrahimbəyov, X.Rza və b. əsərlərində dissident ruhu açıq-aşkar hiss olunur və hər an təzyiqlə üzləşirdilər. Anarın "Qobustan" toplusu da mahiyyət etibarı ilə bu qəbildən idi. Lakin H.Əliyevin səyi ilə müxtəlif maneələr aradan qaldırıldı.

1980-ci illərdə Azərbaycan Yazıçılar Birliyinin (keçmiş Azərbaycan Yazıçılar İttifaqı) sədri İmran Qasımov dünyasını dəyişəndən sonra Birliyə namizədik uğrunda xeyli söz-söhbət baş qaldırır. Məsələ genişlənir, Anarın ətrafında söz-söhbətlər səngimir. Heydər Əliyev Anarı necə tanıdığını belə bildirir: "Hətta sizin və atanızın bədxahları da etiraf edirlər ki, siz ciddi yazıçısınız, geniş biliyə maliksiniz, iki dili də mükəmməl bilirsiniz. Amma bir çoxları etiraf edirlər ki, siz həyatımızın ancaq kölgəli tərəflərini təsvir edirsiniz. Əsərlərinizdə işıqlı tərəflər azdır" (3; 62 ).

Mirzə İbrahimovun Yazıçılar İttifaqının sədri seçildiyini bilən Nigar xanım Rəfibəyli ağır yataqda yastığının altından üç manat çıxarıb nəzir verir, bunu dilənçilərə payla, deyir əhd etmişdim ki, səni seçməsələr nəzir verəcəm, - deyə sevinclə pulu Anara uzadır.

"Unudulmaz görüşlər" kitabında bir sıra ayrı-ayrı məqamlara diqqətlə nəzər salan müəllif əsərdə Elmira Axundovanın H.Əliyevə həsr etdiyi çoxcildliyin III cildində verdiyi belə bir sitatı da nəzərə çatdırır. O dövr Qorbaçovun ətrafındakı erməni lobbisinin təsiri ilə H.Əliyevin yüksək vəzifədən azad edilməsi Ermənistan KP MK-nın I katibi Dəmirçiyanın böyük sevincinə səbəb olmuşdur. O, "Ən vacib işi görmüş olduq", - deyibmiş. Qarabağ hərəkatını başlamaqdan qabaq H.Əliyevi yıxa bildik, bu çox mühüm məsələ idi (3;73). Müəllif Dəmirçiyandan başqa bir sitat da gətirir. 1988-ci ilin martında İrəvanda teatr meydanında çıxış edən Dəmirçiyan deyir: "Qoy erməni xalqı elə düşünməsin ki, mən xalqımın düşməniyəm. Erməni xalqının iki düşməni var - Mustafa Kamal Atatürk və Heydər Əliyev. M.K.Atatürk ölüb, H.Əliyevsə bütün vəzifələrdən uzaqlaşdırılıb. Amma nə qədər ki, o sağdır, biz problemlərimizi həll edə bilməyəcəyik. Onu fiziki cəhətdən ara-dan götürmək lazımdır (3;73). Daha bir mühüm sitat: Qarabağ separatçılığının əsas ideo-

loqlarından Levon Ter-Petrosyan bir dəfə ermənilərə müraciətlə: "XX əsrdə türklər tarixə iki böyük lider veriblər" demişdi – "Kamal Atatürk və Heydər Əliyev. Nə qədər ki, Heydər Əliyev hakimiyyət başındadır, Qarabağdan gözünüzü çəkin" (3; 74).

Deməli, Qarabağı Azərbaycandan qoparmaq üçün H.Əliyevi aradan götürmək, ya ən azı yüksək vəzifədən uzaqlaşdırmaq gərək idi. Kitabda digər bir mühüm məqam da diqqəti çəkir. Özünü pantürkizmin, panislamizmin barışmaz düşməni elan edən İqor Muradyan adlı birisi Heydər Əliyevi mətbuatda açıqca hədələyir, daşnak terroristlərin həyasızca qətlə yetirdikləri Türkiyə və Azərbaycan siyasi xadimlərinin siyahısını tərtib etmişdi. Siyahının sonunda isə yazırdı ki, Əliyevi qətl etmək yox, erməni xalqına etdiyi pisliyə görə məhkəmə qarşısına çixarmaq lazımdır. H.Əliyevin o dövr siyasətdən müvəqqəti uzaqlaşdırılması Azərbaycana baha başa gəldi", - deyən publisist bundan az sonra A.Aqanbekyanın Parısdə ermənilər qarşısında çıxış edərək Dağlıq Qarabağın Ermənistana qatılması haqqında fikir söyləməsi də, bu fitnəkar təklifin Sovet rəhbərliyi ilə razılaşdırıldığı fikrini də ürəkağrısı ilə yazır. Bu dəhşətli xəbəri eşidərək böyük təlaş keçirən Anar dərhal Qorbaçova 9 səhifəlik məktub göndərmiş və Qarabağın qədim Azərbaycan torpağı olduğunu, Aqanbekyanın çıxışına münasibət bildirməsini tələb etmişdir (məktuba M.İbrahimov, S.Rüstəm, B.Vahabzadə, N.Xəzri, İ.Şıxlı, H.Abbaszadə, Elçin də imza atmışlar).

Məktubu alan Qorbaçov az sonra heç bir sərhəd dəyişikliyi olmayacağını bildirsə də, buna baxmayaraq Anar, Elçin Azərbaycan Televiziyası ilə çıxış edərək məsələyə münasibət bildirir. Çıxışında Anar onu da bildirir ki, əgər Dağlıq Qarabağ ermənilərinə muxtariyyət statusu verilərsə, onda Ermənistanda kompakt şəkildə yaşayan 200 min azərbaycanlının (heç bir inzibati qurumu yoxdur və hüquqları təmin olunmur) muxtar vilayətinin təşkil olunmasını tələb edirik. Təəssüf ki, onu dəstəkləyən olmur və az sonra erməni millətçiləri üstəlik bütün azərbaycanlıları qəddar şəkildə Ermənistandan qovurlar.

Əsər boyu Anar prezidentlə keçirdiyi görüşləri, söhbətləri olduğu kimi qeyd edərək, həyatının ən munis dəqiqələri hesab etdiyini də vurğulamışdır. İlk dəfə Heydər Əliyevlə Şuşa səfərində iştirak etdiyini böyük qürur hissi ilə dilə gətirən publisist Şuşada onları Qarabağın icra başçısı Gevorkovun qarşıladığını bildirir. Publisist yazır: "Gevorkov H.Əliyevi salamlayaraq dedi: "Bizim torpağa xoş gəlmisiniz".

Heydər Əliyev də cavabında "Sizin niyə, öz torpağımıza xoş gəlmişik." Dedi (3;79).

Anar "Qobustan" toplusuna rəhbərliyi dövründə Elturan Acalov adlı bir memarın yazısına görə hətta istintaq orqanlarına cəlb edilmişdir. Şuşa şəhərinin əsasını qoymuş Pənah xana heykəl qoymaq kimi humanist bir təklif irəli sürmüş bir müəllifin yazılarına görə yenə də baş redaktor kimi Anar sorgulara cavab verməli olmuşdur. Mərkəzi Komitəyə çağırılmış Anar bir sıra absurd iddialarla üzləşməli olur. Publisist yazır: - "Görün bir nə yazıblar" - deyirdilər.

- Şuşada Pənah xana heykəl qoymaq. Özü də bu təklifi edən kimdir? - Elturan- "Turan eli" pantürkistlərin arzusudur.

Katib: - Buna necə yol verirsiz yoldaş Anar? - deyə soruşanda mən: - Peterburqda bu şəhərin əsasını qoyan I Pyotrun, Moskvada Moskvanın əsasını qoyan Yuri Dolqorukinin, Tbilisidə Tbilisinin əsasını qoyan Vaxtanq Qorqasalının heykəlləri qoyulub-deyirdim-Şuşanın əsasını qoyan Pənah xana heykəl ucaltmaq təklifinin nəyi qəbahətdir? O ki, qaldı müəllifin adına, Elturan adını ona ata-anası verib, mən dəyişə bilmərəm ki..."

Əsər boyu Heydər Əliyevlə keçirdiyi bütün görüşlərini Anar böyük diqqət və ehtiramla qələmə almışdır. Hər cümləsi, hər sətrindən qürur və şərəf duyğuları süzülən "Unudulmaz görüşlər" kitabı bir ziyalının dahı rəhbəri haqqında qəlbində illərdən bəri bəslədiyi sevgi və sayğılarının bariz nümunəsidir. Əsərdə prezidentlə bağlı maraqlı, yumoristik xatirələr də həssas publisist qələmindən yan keçməmişdir. Məlumdur ki, Heydər Əliyev xaraktercə ciddi olduğu qədər, həm də incə yumor hissinə malik idi. Bir dəfə səfərlərinin birində Bakı vağzalında aktyor Nodar Şaşıkoğlu da prezidentlə getmək istədiyini xahiş edir.

Nodar: - Heydər Əliyeviç, xahiş edirəm məni də özünüzlə aparasız- dedi -Sizi müşahidə etmək istəyirəm. Bəlkə haçanda sizin rolunuzu oynamalı oldum.

Heydər Əliyev: - Mənim rolumu oynamaq lazım deyil-dedi –mən özüm öz rolumu çox yaxşı oynayıram.

Bütün vəzifələrdən uzaqlaşdırılan uzaqgörən siyasətçi meydanda cismən tək qalsa da vüqarı, məğrurluğu, dəyanəti ilə, ən əsası miqyası ilə yenə də hamıda uca, hamidan yüksəkdə olduğunu söyləyən publisist bütün vəzifələrdən uzaqlaşdırılandan sonra ilk dəfə onunla Moskvada- Kremldə Qurultaylar Sarayında görüşdüyünü bildirir. Ə.Vəzirov yüksək vəzifəyə təyin olunsa da H.Əliyevin onunla bir növ yuxarıdan aşağıya danışırdı. Həmin vaxtlar Heydər Əliyev Vəzirova Qarabağ məsələsini həll etməyin asan olmadığını da bildirirdi.

Moskvada sanki kimsəsiz, tənha qalmış siyasi arenadan uzaqlaşdırılmış H.Əliyev Qorbaçovun məkrli niyyəti, onun ətrafindakı ermənipərəst qüvvələrin təhriki ilə vaxtilə MK-da Qorbaçov H.Əliyevdən aşağı vəzifədə idi) şər, böhtan kompaniyasının obyekti olmuş, bezikmişdi. Anar eşidəndə ki, H.Əliyev ziyalılardan onu axtarmadıqları üçün inciyib. Anar dərhal zəng etmiş, onun Bakıya gəlmək üçün ondan kömək istəməsindən bərk mütəəssir olmuşdur. O, H.Əliyevin Bakıya gəlməsi, Ali Sovetin Deputatı seçilməsi, Bakıda rahat yaşaması üçün şərait yaratmasını xahiş etmək üçün prezident Ayaz Mütəllibovun yanına getmişdir.

Məlumdur ki, 1991-ci ildə dünyanın hegemon imperiyalarından biri olan SSRİ heç kəsin təsəvvürünə belə gəlməyəcək şəkildə süquta uğradı. Həmin dövrdə H.Əliyev çox çətinliklə Bakıya, buradan da Naxçıvana gələ bildi. Naxçıvan Ali Sovetinin sədri seçildi. O, Naxçıvanda hakimiyyət başında olanda Muxtar respublikanın adından "sovet" sözünün çıxarılması, Ali Sovetin Məclis adlandırılması və nəhayət ilk dəfə olaraq müstəqil cümhuriyyətin üçrəngli Milli bayrağının ilk dəfə Naxçıvanda dalğalanması, bu barədə Azərbaycan Ali Sovetinə də müraciət olunması yaxşı məlumdur. Görüşlərinin birində H.Əliyev: "Görürsünüz də - dedi, - Moskvada işləməyə qoymadılar, Bakıda yaşamağa qoymadılar, Naxçıvanda işləməli oldum" (3; 86).

1991-ci illərdə yenicə müstəqillik əldə etmiş ölkəmiz şübhəsiz ki, böyük siyasi oyunlar meydanına çevrilmişdi. Bir tərəfdən Ermənistanla Azərbaycan arasında başlanan müharibənin gərginləşməsi, Şuşanın, Laçının işğalı, digər tərəfdən cənubda "Talış-Muğan" respublikasının yaradılması, Surət Hüseynovun başçılığı ilə başlanan qarşıdurmalar, çəkişmələr və s. ölkəmizin hər an vətəndaş müharibəsi meydanına çevrilməsinə, parçalanmasına gətirib çıxara bilərdi. Belə bir vəziyyətdə xalqımız yeganə ümidini H.Əliyevin hakimiyyətə qayıdışında görürdü. Xalqın təkidlı tələbi ilə yeganə xilaskar kimi hakimiyyətə qayıdan H.Əliyev bütün qalmaqalları, bütün iğtişaşları bir-bir səbrlə, təmkinlə yoluna qoymağa başladı. Anar "Gecə düşüncələri" adlı esselərində də yazırdı: "Heydər Əliyev siyasi şahmatın qrossmeysteridir, onunla yarışmaq istəyənlər isə hə-

lə də nərd oynayırlar, zər atırlar: "ya bəxt" (3; 88).

Müstəqil dövlətimizin ilk Milli Məclisinin aparılması H.Əliyevin xahişi ilə Anara tapşırılır. İlk dəfə bu qədər məsuliyyətli bir işin öhdəsindən gəlməyin çətinliyini yaxşı dərk edən Anar bir qədər tərəddüd etsə də, H.Əliyev: "Yazıçılar birliyinin 700 nəfər üzvü ilə bacarırsansa, 125 nəfərlik deputatla da bacararsan" (3; 98),- deyə onu ürəkləndirir. İclasın sonunda isə: "Gördün ki, bacardın",- kəlmələri Anar üçün prezident tərəfindən ən böyük qiymət olur.

Əsər boyu H.Əliyevin dəfələrlə böyük dövlət tədbirlərində, qədim dastanımız olan "Kitabi-Dədə-Qorqud" dastanının 1300 illik yubiley gecəsi, qırgızların məşhur "Manas" dastanlarının yubiley tədbirlərində gah filoloq-dilçi, gah tarixçi, gah da ki, etnoqraf kimi ən xırda detalları belə dəqiqliyi ilə danışması bir qədirbilən vətəndaş ziyalı olaraq Anarın qəlbini daim qürur hissi ilə doldururdu.

Prezident tərəfindən diqqət və qayğının əyani sübutu olaraq bəzi yazıçıların mənzillə təmin edilməsi, gənc yazıçılara təqaüdlərin verilməsi, bu tipli bütün çıxış və söhbətlər "Unudulmaz görüşlər" adlı xatirə-memuar kitabında sətirbəsətir, olduğu kimi, fraqmentlər şəklində əks olunmuşdur.

Yazıçılar Birliyindən daha çox təmənna umanlar məqsədə çatmayanda Birliyin gərəksiz bir qurum olduğunu iddia edərək ona düşmən kəsilərkən onları kəsərli cavablarla yerində oturdan yenə də H.Əliyev idi. O, bütün çıxışlarında Yazıçılar Birliyini yüksək qiymətləndirirdi.

Yazılarında hər hansı bir yanlışlığa yol verməməkçün 1994-cü illərin qəzet materiallarına əsaslanaraq fikirlərini daha doğru-dürüst təqdim etmək üçün publisist Prezidentin o dövr həyəcanlı çıxışlarını belə xatırlayır: "İndi bizə gəlib çatan siqnallar göstərir ki, Bakı şəhərində Azərbaycan dövlətçiliyi artıq təhlükə altındadır. Ayrı-ayrı düşmən qüvvələri, silahlı qüvvələr dövlət çevrilişinə başlamışlar. Ona görə də nə qədər gec olsa da, nə qədər çətin olsa da, mən sizi ayağa qalxmağa dəvət edirəm. Əziz bakılılar, əziz Bakı sakinləri! Mən sizin hamınızı bu gərəkli işimizə qoşulmağa çağırıram. Xahiş edirəm zəhmət çəkəsiniz, nə qədər çətin olsa da, Prezident Aparatının qarşısına toplaşasınız. Bu gün kim Azərbaycanın müstəqilliyini, dövlətçiliyini qorumaq istəyirsə, mən onu Azərbaycan Respublikası Prezident Aparatının önünə dəvət edirəm" (3; 112). Bu cür çıxışlardan sonra kim evdə oturar. Elə həmin dəqiqə Anar Y.Səmədoğlu ilə dərhal Prezident aparatının yanına gəlmiş H.Əliyevə qoşulmuşlar.

Publisist kitabda həmçinin gənc yazıçı kimi ilk dəfə olaraq 60 illiyi münasibətilə prezident H.Əliyev tərəfindən "İstiqlal" ordeni ilə təltif edilməsini, Gəncədə Nigar Rəfibəylinin heykəlinin açılmasını, Rəsul Rzanın 90 illik yubileyinin təntənəli şəkildə Respublika sarayında təşkil edilməsində (baxmayaraq ki, Anar bu təklifi həmişə ləngidirdi) prezidentin dəstəyini daim xatırlayan publisist yazır: "...Moskvaya R.Rzadan danoslar yazırdılar, onu millətçi, pantürkist kimi qələmə verirdilər. Belə bir şəraitdə hörmətli H.Əliyev R.Rzaya Sosialist Əməyi Qəhrəmanı adı verdi. Bu adı R.Rza yaradıcılıq cəsarəti ilə qazanmışdısa, H.Əliyev də bunu özünün siyasi cəsarəti ilə qazanmışdı. Bu hər ikisinin böyük vətəndaşlıq qələbəsi idi. Ona görə də, hörmətli Prezident, mən bu gün R.Rzanın oğlu kimi də, bir Azərbaycan vətəndaşı, Azərbaycan ziyalısı kimi də Sizə ən səmimi təşəkkürümü bildirirəm (3; 118).

Heydər Əliyev adına fondun yaradılması, Azərbaycanda "Mədəniyyət" adlı kanalın yaradılması barədə təkliflərini də vaxtilə Anar Prezidentə ünvanlamışdır.

AYB-nin Tərcümə mərkəzinin büdcəyə götürülməsi, binanın əsaslı təmiri, yazıçı-

ların yaradıcılıq evinin yaradılması, yaşlı və gənc yazıçılara təqaüdlərin ayrılması və s. kimi təklifləri böyük məmuniyyətlə qəbul edən H.Əliyev yolunun layiqli davamçısı oğlu İlham Əliyevin dəstəyini xüsusi qeyd edən publisist "Unudulmaz görüşlər" kitabında bütün bunlardan iftixarla, qürurla söz açır. Latın qrafikalı əlifba ilə kitabların nəşrinin həyata keçirilməsi üçün Prezident İ.Əliyevə ilk dəfə müraciət edən yenə də Anar oldu. Nəşr olunacaq kitabların siyahısını prezident İ.Əliyevə göndərən Anar xahişinin qısa bir zamanda reallaşmasında da böyük məmnunluq duyduğunu dönə-dönə qeyd etmişdir. Lakin bəzi bədxahlar yenə də bu işdə gah Anarın maddi marağı olduğunu, gah da öz ata-anasının əsərlərini çap etdirmək naminə etdiyini iddia edənlər də bu cəfakeş yazıçını nə qədər qıcıqlandırırdı.

Ötən əsrin 70-ci illərindən başlayaraq, publisistin özünün də qeyd etdiyi kimi, dahi rəhbərin ömrünün sonuna kimi isti-isti yerindəcə qeyd edilərək bütün xatirələri toplanmış "Unudulmaz görüşlər" kitabı Anarın H.Əliyevlə olan isti, məhrəm münasibətlərinin mükalimələr şəklində canlı, əyani sübutudur. Kitabda müasir memuaristikamızın ən yaxşı nümunələri toplanmışdır. "Unudulmaz görüşlər" xatirələr toplusu müstəqillik dövründə yazılmış publisistik janra daxil olan ən sanballı əsərlərdən biri sayıla bilər. Prezident H.Əliyevin bir növ ədəbı portreti, xarakteri canlandırılmış bu əsərdə Anar əsasən yaddaşına söykənərək publisistikanın maraqlı, oxunaqlı janrı olan xatirə janrında yazmış olduğu bu kitabı oxucuya müasir, mükəmməl bir formada təqdim etmişdir. Əsər illər durduqca yaşayacaq və seviləcək, Əliyevşünaslıqla məşğul olan hər bir kəsin stolüstü kitabı, Heydərsevərlərin maraqlı xatirə mənbəyi olacaqdır. Milli ruhlu publisist sonda yenə də folklorumuza üz tutaraq əsəri belə bir bayatı ilə tamamlayır:

*Burdan bir atlı getdi,*
*Atın oynatdı getdi.*
*Gün kimi şəfəq saçdı,*
*Ay kimi batdı getdi.* (3; 144)

Lakin nikbin publisist qələmi bu misraları heç vəchlə H.Əliyevə aid etmir. O, ay kimi batmadı, onun şəfəqləri həmişə Azərbaycanımızı işıqlandıracaq deyərək həm özünü, həm də oxucusunu buna tam əminliklə inandırmağa çalışmışdır.

## Ədəbiyyat


1. Anar. Əsərləri, III cild. Bakı, Nurlan, 2004, 689 s.
2. Anar. Əsrin əsiri. Bakı, Azərnəşr, 2010, 712 s.
3. Anar. Unudulmaz görüşlər. B., Təhsil, 2009, 272 s.


## IMAGE OF HEYDAR ALIYEV IN ANAR'S WORKS IN THE PERIOD SINCE INDEPENDENCE


**L.F.Mamedaliyeva**


**SUMMARY**


This work is dedicated to the interpretation of Heydar Aliyev in the contemporary works by Anar, prominent Azeri writer and publicist.

## ОБРАЗ ГЕЙДАРА АЛИЕВА В ПУБЛИЦИСТИКЕ АНАРА В ЭПОХУ НЕЗАВИСИМОСТИ

**Л.Ф.Мамедалиева**

**РЕЗЮМЕ**

Статья посвящена интерпретации образа Гейдара Алиева в современных публицистических работах видного азербайджанского писателя-публициста Анара.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

# F İ L O L O G İ Y A   B Ö L M Ə S İ

UOT № 81

## XARİCİ DİLLƏRİN ÜNSİYYƏT VASİTƏSİ KİMİ MÜASİR DÖVRDƏ ROLU

**H.A.Saliyeva**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: saliyeva-1987@mail.ru

***Açar sözlər:*** xarici dil, dialoq, idiomatik sözlər, mübtəda, obyekt
***Keywords:*** foreign language, dialogue, idiomatic words, subject, object
***Ключевые слова:*** иностранный язык, диалог, идиоматические слова, подлежащее, объект

Dil nədir? Dil insanlar arasında başlıca ünsiyyət vasitəsidir. Bu, onun ictimai və ümumxalq xarakteri daşıması, xalqın tarixilə sıx surətdə bağlı olması ilə əlaqədardır. Bir an belə cəmiyyəti dilsiz təsəvvür etmək olmaz. Çünki dil vasitəsilə insanlar öz fəaliyyət dairəsini sahmana salır, gündəlik tələbatla əlaqədar öz fikir və mülahizələrini bir-birinə söyləyir, istehsalatda, məişətdə, adət-ənənələrində yeni yaranan fəlsəfi-estetik mülahizələri, elmi-texniki kəşfləri bir-birinə və nəsildən-nəslə çatdırırlar. İnsanlar arasında vahid dil olmasaydı, onlar cəmiyyət halında da birləşə bilməzdilər. Deməli, insan cəmiyyətinin təşəkkülü də bilavasitə dilin ünsiyyət vasitəsi kimi yaranması ilə bağlı olmuşdur.

Ünsiyyət nədir? Ünsiyyət sözü ərəb sözü olub (elif, nun, sin), əlaqə qurma, fikir-məlumat mübadiləsi, obyekt və subyekt arasında rabitə və s. anlamına gəlir.

Nitq - insanların ünsiyyət qurmaq məqsədilə istifadə olunan bir prosesdir. Dil və nitq bir-birilə möhkəm bağlıdır və bu bağılıq onu göstərir ki, dil ünsiyyət zamanı və insanlar danışdıqları vaxt mövcud olur. İngilis dili də beynəlxalq dil olub, hal-hazırda mühüm ünsiyyət vasitəsi kimi böyük rol oynayır.

İngilis dilində ünsiyyət vasitələrinə kömək edən vasitələrdən biri də idiomlardır. Hər bir dil üçün əsas material sözdür və dil öyrənmək istəyən hər kəs gündəlik olaraq yeni söz və söz birləşmələri öyrənir. Həmin söz birləşmələrinin tərkibində idiomlar xüsusi yer tutur. İngilis dili idiom və idiomatik birləşmələrlə zəngin dildir. İdiomlara bütün üslublarda rast gəlmək mümkündür: yazıda, danışıqda, bədii ədəbiyyatda və s. Hətta qəzetlər belə idiomatik ifadələrlə zəngindir. İdiomları təşkil edən sözlər bir yerdə öz əvvəlki mənalarını itirir və birləşmə tərkibində yeni məna çalarlığı yaradır. Məsələn:

*I could eat a horse.* Dəhşətli dərəcədə acam.
*Money doesn't grow on trees.* Pulun qədrini bilmək lazımdır.
*We are all at six and sevens.* Biz çaş-baş qalmışıq
*I got there in the nick of time.* Mən ora ən son anda çatdım.

İdiomları təşkil edən sözlərin çoxu məcazi məna daşıyır. Müasir ingilis dilində sözlərin həqiqi mənalarına nisbətən, məcazi mənalarından daha çox istifadə olunur. Məsələn, "to catch" feli həqiqi mənadan daha çox məcazi mənada işlədilir. Misallara nəzər sa-

laq.

Həqiqi məna:

*I have been fishing, but caught absolutely nothing!*

Məcazi məna:
1. *Yesterday I caught the bus*
2. *Try to catch his eyes*
3. *You'll catch your death of cold.*
4. *Wait while I catch my breath*

*Get something off your chest - to talk about something that has been worrying you for a long time so that you feel anxious* - dərdini bölüşmək, ürəyini boşaltmaq; yüngülləşmək.

*Talk about it! It might help to get it off your chest*

*Put your foot in sth- to speak carelessly and rudely; hurt one's feelings without intending to* - ehtiyatsızlıq etmək, səhv etmək; yaraya duz səpmək.

*Shoot your mouth off (about something) - to give opinions without knowing all the facts$ talk as if you know everything* - ağız dolusu danışmaq; özünü öymək; tərifləmək.

*Jump down somebody's throat – (informal) to suddenly become very angry at someone scold severely or angrily* - qəfildən kiməsə hirslənmək, danlamaq, acıqlanmaq; bir kəsi dəng etmək.

Azərbaycan dilində olduğu kimi, ingilis dilində də söz sırası ünsiyyətin yaranmasında əsas amillərdən biri sayılır.

Azərbaycan dilində ilk olaraq mübtəda sonda isə xəbər gəlir, ikinci dərəcəli üzvlər isə mübtəda və xəbər arasında olur. Məsələn: İnsanlar hər məntəqədə artıq səs verəcək seçiciləri gözləyirdilər.

İngilis dilində bunun əksi olaraq ilk öncə mübtəda, ondan sonar xəbər daha sonar isə ikinci dərəcəli üzvlər gəlir. Məsələn: *John hurried past us without stopping.*

Dialoqlar və monoloqlar da ünsiyyət vasitəsi kimi istifadə olunur.

Dialoqlar şifahi dildə üstünlük təşkil etdiyi halda monoloqların yazılı ədəbiyyatda daha çox üstünlüyü var. Dialoqlarda şərhçi tələb edir ancaq monoloqlarda şərhçi tələb etmir çünki fərdin özü şərhçi olunur.

Bu gün ingilis dilinin yayılma coğrafiyasına nəzər salsaq görərik ki, bu dil təxminən dünyanın bütün ərazilərini əhatə edir. Avropada ingilis dili bir nömrəli ünsiyyət vasitəsi olmaqla sadəcə dövlət dili statusu daşıdığı ölkələrin yox, həmçinin digər ölkələrin (Fransa, Portuqaliya, İtaliya, İspanya, İsveç, Norveç və s.) xalqları tərəfindən danışılır. İngilis dili nəyinki Avropada, hətta İngiltərə daxilində müxtəlif dialektlərə bölünür. Lakin ədəbi dil kimi London dialekti qəbul olunmuş variant *(Received Pronunciation)* hesab olunur.

Hər hansı bir dilin beynəlxalq dil olması təsadüfi hal deyil. Buradan bu kimi məsələlər meydana çıxır: Necə oldu ki ingilis dili beynəlxalq dilə çevrildi? Onun Beynəlxalq dil olmasını şərtləndirən başlıca amil nədir?

Bu məsələlərin həllinə iki aspektdən yanaşa bilərik: tarixi və social aspektlərdən.

Tarixi cəhətdən ingilis dilinin globallaşması prosesi birmənalı şəkildə bu cür izah edilə bilər: Anglo-Sakson tayfalarının danışdığı Qərbi-German (West-Germanic) dialektindən törəyən ingilis dili Anglo-Sakson krallığı vasitəsiylə Şotlandiyanin cənub-şərqinə yayılmışdır.Daha sonra Birləşmiş Krallığın kolonial rejimində ingilis dili Britaniya İmperiyasının (British Empire) koloniyalarinda ümümişlək dilə çevrilmişdir. Yeni meydana gəlmiş xalqlar da siyasi çətinliklərdən yaxa qurtarmaqçün ingilis dilində danişmağa başlamışlar. Nəhayət, Britaniya İmperiyasının yüksəlişi nəticəsində bu dil Şimali Amerika, Hindistan, Afrika, Avstraliya, və bir çox regionlarda yayılmışdır. Birləşmiş Ştatların XX əsrin ortalarından başlayan hegemonluğu da ingilis dilinin dünyada geniş yayılmasını surətləndirmişdir. Amerikaya ingilis-dili XVII əsrdə Şimali Amerikaya gəlmiş ingilis-dilli Britaniya Koloniyalari (British Colonies) vasitəsiylə gəlmişdi. Ümumiyyətlə, ingilis dili tarixən Saksonların, Normanların, Danimarkların, Norveç Vikinglərinin təsiri altına düşərək bugünkü vəziyyətini almışdır.

Sosial aspektə gəldikdə isə ingilis dilinin dünyəviləşməsini şərtəndirən başlıca amillərin tapılmasında fikir ayrılığı meydana gəlir. Bəzi alimlərin fikrincə, dilin ümumi lingivistik imkanları onun beynəlxalq dil olmasnın başlıca səbəbidir. Məsələn: ingilis-dilli ölkələri inner, outer və expanding (hərfi tərcümədə daxili, xarici, genişlənmiş) olmaqla üç qrupa ayıran hind alimi Braj Kaçrunun fikrincə, ingilis dilinin zəngin lüğət fondu, sözlərdəki geniş sinonimlik imkanları, fonetik cəhətdən səlis və axıcı bir dil olması bu dilin bir çox xalqlarda maraq doğurmasına və asanlıqla mənimsənilməsinə gətirib çıxarmışdır. İngilis yazıçısı Robert McCrum isə özünün "The English story" (İngilis dili hekayəsi) əsərində ingilis dilinə tarix boyu və indi də digər dillərdən çoxsaylı sözlərin daxil olduğunu vurğulayır. Yazıçı ingilis dilindəki çoxsayli alinma sözlərin bu dilin dünyəvi dil hesab edilməsinin əsas səbəbi kimi gostərir.

İkinci grup alimlər isə ingilis dilinin dünyaya diffuziyasinin əsas səbəbini bu dildə danışan dünya ölkələrinin müasir sosial-ictimai həyatdakı hegemonluğu ilə izah edir. Belə ki, ingilis dilinin dünyaya diffuziyasina toxunan alman dilçisi Professor Ulrich Ammon özünün "English as a Language of Science" (İngilis dili elm dili kimi) əsərində yazır: "bir ölkədə texnika və biznesin dominantlığı o ölkənin dilinin qlobal bir dilə çevrilməsinə imkan yaradır". Bu mövzuyla bağlı Ammonun fikirlərini dəstəkləyən dilçi alim Deyvid Kristal isə özünün "English as a global language" (Ingilis dili qlobal dil kimi) əsərində bir çox sənaye yeniliklərinin məhz Amerika və İngiltərənin adı ilə bağlı olduğunu vurğulayaraq bu yeniliklərlə tanış olmaq istəyən hər bir kəsin ingilis dilini öyrənməsinin vacib olduğunu qeyd edir. Alim beləliklə dilin kim tərəfindən danışılmasının böyük əhəmiyyətini vurğulayır.

Hazırda Dünyadakı 6 milyard insandan təxminən 350 milyonu ingilis dilində danışır. Dünyada elmi və texnoloji informasiyaların təxminən 85%-i ingilis dilində ötürülür və ən böyük dünya qlobal informasiya şəbəkəsi olan "İnternet"də də ingilis dili aparıcı dildir.

## Ədəbiyyat

1. Musayev O. Ingilis dilinin qrammatikası.
2. Bayramov H.A. Azərbaycan dilinin frazeologiyasının əsasları. Bakı, 1978
3. Cahangirov F.F. İngilis dilindən leksik çalışmalar toplusu. Bakı, Nurlan, 2003
4. Hacıyev E.İ. Müasir ingilis və Azərbaycan dillərində köməkçi nitq hissələrinin funksi-onal-semantik xüsusiyyətləri. Bakı, Mütərcim, 2006
5. Hacıyeva Ə.H. İngilis və Azərbaycan dillərində somatik frazeologizmlərin struktur-se-

mantik xüsusiyyətləri. Bakı, Nurlan, 2004

## CONTEMPORARY ROLE OF FOREIGN LANGUAGES AS A MEAN OF COMMUNICATION

**H.A.Saliyeva**

**SUMMARY**

This work is about the importance and the undeniable role of English in every field of human activities in today's world. Objective historical factors which have stipulated that phenomenon are briefly analyzed.

## СОВРЕМЕННАЯ РОЛЬ ИНОСТРАННЫХ ЯЗЫКОВ КАК СПОСОБ ОБЩЕНИЯ

**Х.А.Салиева**

**РЕЗЮМЕ**

В статье подчёркнута важность и неоспоримая роль английского языка во всех сферах человеческой деятельности в современном мире. Вкратце анализированы объективные исторические факторы, способствовавшие возникновению данного положения вещей.

2013 - № 37

UOT № 82.0

# HARLEM İNTİBAHI VƏ LƏNQSTON HYUZ YARADICILIĞI

**F.M.Mustafayev**
Azərbaycan Dillər Universiteti
Bakı, R.Behbudov küçəsi 60
e-mail: fuadhud@yahoo.com

***Açar sözlər:*** zənci, Harlem, İntibah
***Keywords:*** negro, Harlem, Renaissance
***Ключевые слова:*** негр, Гарлем, Возрождение

***Harlem İntibahı*** hələ XX əsrin əvvəllərində yaranmış böyük ədəbi, bədii, fəlsəfi-estetik bir cərəyandır. Bu cərəyanı bir sıra görkəmli yazıçı və şairlər alqışlamış, öz əsərlərində təsvir etmişlər. Belələrindən Ceyms Ueldon Conson (James Weldon Johnson – 1871-1938), Zara Nil Hörston (Zara Neale Hurston – 1891-1960), Klod Makki (Claude Mckey – 1890-1948), Lənqston Hyuz (Langston Hughes – 1902-1967) və başqalarını misal göstərmək olar. Böyük Amerika şairi, yazıçısı, tənqidçisi və qaradərililərin azadlığı uğrunda mübarizə aparan siyasətçi Lənqston Hyuz 1940-cı ildə çap etdirdiyi «Böyük dəniz» (The Big Sea) əsərində yazırdı:

«1920-ci illər Manhəttənin qara İntibah illəri idi» (The 1920’s were the years of Manhattan’s black Renaissance, 2, 706). Hal-hazırda Harlem İntibahı həddindən ziyadə aşıb-daşan qeyri-adi bir qüvvəyə malikdir – musiqi və rəqsdə olduğu kimi poeziya və nəsr əsərlərində də bu ideya hələ əsrin ortalarından Amerika mədəniyyətinin və tarixinin ən güclü hissəsinə çevrilmişdir. Alen Lokun əsrin birinci 25 illiyinin ortalarında nəşr etdirdiyi «Yeni Zənci» (The New Negro, 1925) əsəri əsasən iki şeyə xidmət edirdi: birincisi, o öz oxucularına Amerika zəncilərin arxada qalan dərd-bəlalı tarixini, keçmişini təsvir edir, ikincisi, qara Amerikalıların Harlemə toplaşmalarından Harlem İntibahının əmələ gəldiyini vurğulayırdı. Zəncilər artıq Harlemdə mənzil sahibləri idilər, onların klubları, kafeləri, böyük musiqi salonları, teatrları var idi. Harlem artıq Nyu-Yorkun Aşağı Şərq hissəsinin XIX əsrin sonlarında və XX əsrin ilk iki onilliyində Nyu-Yorka gəlib orada artıq güclü ədəbiyyat, incəsənət nümunələri yaratmış adamların məskunlaşdığı yer idi. Belə sənət abidələrinin çox hissəsi Iddiş (Yiddish) dilində Yəhudi qaçqınları ilə yanaşı dünyanın hər yerindən gəlmiş digər millətləri təmsil edən mühacirlər tərəfindən yazılmışdı. Bu hal özünü kiçik ölçüdə 1950-1960-cı illərdə San-Fransiskoda da biruzə vermişdi. Deməк lazımdır ki, Harulem bunların hamısından fərqlənirdi, çünki Harlemdə qaçqınlar müxtəlif millətləri və dinləri təmsil edirdilər. Harlemdə olanlar müxtəlif yerlərdən gəlmiş yoxsul kəndlilər idi. Burada olan qaradərili insanlar dünyanın hər yerindən ABŞ-a axın edən adamlar olmaqla, həm də ağrılı keçmişlərini özləri ilə ABŞ-a gətirmişdilər. Bura gələn qaradərili insanlar «gələcək vəd edən yeni» torpağa gəlmişdilər. Bu torpaq Avropalılarla yanaşı, Amerikaya gələnlərə də hər şey vəd edirdi. Onlara (yəni qara dərililərə – F.M.) həm də Avropalı qaçqınlara hətta Harlemdə müxtəlif yüksək keyfiyyətli yağlı vədlər verirdi. Harlem çiçəklənən anlarını yaşayırdı. Həm də xatirələrdən əlavə köhnə rəhimsizliklər, xürəffat, mövhumat hamını, xüsusilə də qara dərili insanları

bir maqnit kimi Harlemə çəkirdi, onları yeni alovlu yaradıcılığa səsləyirdi. Bu bir növ Amerikalı zəncilər üçün yeni ümid yeri idi. Zəncilər Harlemdə hər şeyi yenidən başlamaq istəyirdilər. Amerikada elə yeni bir şey düzəltsinlər ki, onun dünyada analoqu olmasın. Amerikanın hər yerindən, şəhərlərdən, kəndlərdən, fermalardan, plantasiyalardan, bir az da ABŞ-nin kənarlarından gələn insanlar birləşərək Harlem Intibahının yaradıcıları oldular. Məsələn, Lənqston Hyuz Coplində (Joplin) doğulsa da Missouridə, Lerencdə, Kanzasda böyüdü, Klivlendə, Mexikoya və Nyu-Yorka gəlməzdən qabaq bir az da Vaşinqton D.C.-də yaşadı, sonra Nyu-Yorka köçdü. Zora Niil Hörston, Florida Ştatında Etonvilldə böyüyüb başa çatdı, Çikaqoda, Naşvildə və Danimarkada yaşadıqdan sonra Nyu-Yorka gəldi. Klaud M.Kay Yamaykada doğuldu, keçmiş Sovetlər Ittifaqını gəzib dolaşdıqdan sonra Nyu-Yorka gəlib çıxdı və s. Bütöv bunlar Harlem İntibahının ancaq bir hissəsi olmaqla yanaşı onu yaradanların kiçik hissələridirlər. Belə böyük istedad sahibi olan, Harlemdə cazın, vokalın, rəssamlığın, improvizyanın, rəqsin əsasını qoyan insanlar demokratik düşüncəli insanların diqqətini Harlemə cəlb etdilər. Böyük rəssamlarla, heykəltəraşlarla, musiqiçilərlə yanaşı istedadlı qaradərili şairlər, esseçilər, nasirlər, tarixçilər və jurnalistlər ordusu da yarandı. Böyük dinləyici, oxucu kütləsi də qazanıldı. Bütün bu hallar Harlem Intibahının özülünə çevrildi.

Birgə işləyərək, Harlem Intibahını yaradanlar onun ənənələrini, varisliyini yaradaraq zənciləri qəm, kədər, qüssə kimi anlayışlardan bir qədər təmizlədilər. Belə yaradılmış davamlı dəyərlər insanları yeniliyə səsləyir gələcəyə ümidlə baxmağa vadar edirdi. Məsələn, Ceyms Veldon Consonun 1930-cu illərdə çap etdirdiyi «Qara Manhattan» (Black Manhattan) romanı Harlem İntibahının nailiyyətlərinin tezliklə ölkənin hüdudlarından aşdığını aydınlaşdıraraq göstərir ki, bu əsər böyük-böyük işlərin qara dərili Amerikalılar tərəfindən edildiyini sübut edir və bununla onlar fəxr edə bilirlər ki, bunları məhz Amerikalı, qaradərili insanlar ediblər və bu onların özləri tərəfindən yazılıb yaradılmışdır.

Həmçinin Harlem Intibahı ABŞ-ın böyük mədəniyyətinin bir hissəsidir və onu məhz Amerikalı zəncilər yaratmışlar. Bu ağdərili Amerikalılar üçün çağırış idi, və bu çağırış bu gündə qalmaqdadır. Bir çox məvhumlar içərisində Harlem Intibahı əsərlərinin bizə göstərmək istədikləri bunlardır: saysız-hesabsız, açıq və qapalı dominant «ağ» - «white» incəsənətin Birləşmiş Ştatların hər «yerində» Amerikalılara, Amerika cəmiyyətlərinə təsir etmək istəməsi; ikincisi Amerika pullarından istifadə edərək, istedadları, əməkçəkənləri üzə çıxararaq, onlara ağalıq etmək, onları sıxıb ümidsizləşdirmək idi. Ağ dərili Amerikalılar heç zaman istəmirdilər ki, qaralar öz incəsənətini, ədəbiyyatlarını adət və ənənələrini yaradıb onunla fəxr edərək bizimdir deməsinlər. Belə təzyiqlərə, hər cür irqiayrıseçkiliklərə baxmayaraq yuxarıda adlarını çəkdiyimiz cəsur insanlar böyük irq dağlarını aşaraq öz mənşələrini sübuta yetirdilər, onların da öz ədəbi, bədii nümunələrinin olduğunu dünyaya car çəkdilər. Bütün bu çətinliklərə baxmayaraq, onlar Harlem Intibahının yaradıcıları ilə birləşərək, onlara dayaq duraraq öz incəsənət nümunələrini yaratmağa kömək etdilər. Belələrindən ən nəhənglərindən biri özünün 1926-cı ildə iyun ayında çap etdirdiyi «Zənci rəssam və irqi dağ» (The Neqro Artist and the Racial Mountain) incəsənət əsərində çoxlu işlənilməmiş materiallar olduğunu deyən Lənqston Hyuz oldu.

Öz miraslarını qoruyub saxlayanlar və onu nəsildən-nəsilə ötürənlər, musiqiçilər, aktyorlar, rəssamlar və Harlem Intibahını yaradan şəxslər göstərdilər ki, onların özləri bilirlər ki, köhnəni saxla onu mühafizə et nə deməkdir. Həmin insanların çoxu bilirdilər ki,

mahnalırda, oxumaq üçün məsləhət görülən hekayələrdə, poemalarda təsvir olunan hadisələrin çoxunu qaralar həyatda özləri yaşayıblar. Lənqston Hyuzda özünün həyatda yaşadığı dəhşətlərin bir hissəsini «Zənci rəssam və irqi dağ» romanında təsvir etmişdir. Sonralar bir sıra aktyor, senarist, şair, yazıçı və incəsənət adamları olan gənc nəslin nümayəndələri «Harlem İntibahı» ənənələrini qoruyub saxlaya bilmiş və onu daha da inkişaf etdirmişlər.

Lənqston Hyuzun müasirlərindən biri Alain Lock özünün «Yeni Zənci» əsərində yazırdı: zəncilərin dairələrində ənənəvi olaraq yeni psixoloji durum yaranıb və onlar artıq nə yeni zənci nədə qoca zənci idi. Qoca zənci (Old Negro) artıq o, mif deyil bir insandır. Hələ Harlem Intibahı dövründə bir çox cavan yazıçılar yazmağa başlayanda, artıq Ceyms Veldon Conson məşhur bir insan idi. Harlem Intibahın yenicə başlayanda 49 yaşlı Ceyms Conson məktəb müdiri, qazet redaktoru, hüquqşünas, mahnı müəllifi, xarici konsul, yazıçı, şair, siyasi xadim olmuşdur. *(O siyasi xadim kimi «Qaraların Milli Tərəqqisi Assosiyasının başçısı olmuşdur. – The National Association for the Advancement of Colored People – NAACP)* Consonun mübarizəsi, şeiriyyəti Afrika mənşəli zəncilərin Amerikada ağ insanlarla bərabər hüquqları uğrunda mübarizə aparmaqdan ibarət idi. O, daima çalışırdı ki, qaralar Amerikada Afrika mənşələrinə, irsinə sahib dura bilsinlər. Bütün bu fikirlərimizi o, aşağıdakı kimi təsvir etmişdir:

*“The world does not know that a people is great until that people produces great literature and art.” (2, p. 718)*

Əgər bir xalq böyük ədəbiyyat və incəsənət nümunələri yaratmırsa dünya həmin xalqın nə qədər böyük xalq olduğunu bilmir.*

Onun «God’s Trombones» şeirlər kitabı sərbəst şeirlər şəklində yazılıb və həddən artıq təsiredici şeirlərdir. Harlem Intibahını təsvir edərkən Lənqston Hyuz özünün «Zənci rəssam və irqi dağ» əsərinə (ön söz kimi) “God’s Trombones” – Allahın nəsiyyətləri» (moizələri) Ceyms Veldon Consonun «Allahın nəsiyyətləri kitabının son bəndindən «Qoy mənim xalqım azad olsun» (Let My People Go») götürübdür. Əsər belə başlayır.

*Listen! - Listen !*
*All you sons of Pharaoh,*
*Who do you think can hold God’s people*
*When the Lord God himself has said,*
*Let my people go? (2, p. 2086)*

*Qulaq asın! Qulaq asın!*
*Siz hamınız Fironun oğlanlarısınız,*
*Necə fikirləşirsiniz kim Allahım*
*insanlarının qabağını kəsə bilər*
*Böyük Allah özü deyib,*
*Qoy mənim xalqım azad olsun?*

Yuxarıda verilmiş epiqrafdan sonra Lənqston Hyuz yazır: *So I am ashamed for the black poet who says, “I want to be a poet, not a Negro poet”, as though his own racial world were not as interesting as any other world. I am ashamed, too, for the colored artist who runs from the painting of Negro faces to the painting of suncets after the manner of the academicians because he fears the strange un-whiteness of his own features. An artist*

* Bu və bundan sonrakı tərcümələr bizimkidir.

*must be free to choose what he does, certainly, but he must also never be afraid to do what he might choose.*

Gəlin verilmiş bu parçanı birgə təhlil edək. Bu gənc şairin ailəsi güman ki, orta sinif zənci ailəsidir. Onlar nə elə varlı nə də acından ölləndirlər. Onlar baptist kilsəsində hörmətlə qarşılanan özündən razı bir ailədir. Ata ağ dərili insanların böyük klublarının birində başçı vəzifəsində çalışır, anası isə şəhərin varlı ailələrinə hərdən bir cazibədar tikişlər tikir və ya onların şənliklərinə başçılıq edir, məsləhətlər veriridi.

Ailənin övladları isə ağlarla bir məktəbdə oxuyur, evlərində ağların qəzet və jurnallarını mütaliə edirdilər. Uşaqlar evdə dəcəllik edərkən ana həmişə onlara «Neqrlərə oxşamayın» (Don't be like niggers), ata isə «baxın görün, ağ insanlar işləri necə yaxşı görürlər» (Look how well a white man does things) deyirlər və beləliklə ağ sözü qeyri-ixtiyari olaraq onların şüurlarında təmizlik-paklıq simvoluna çevrilir, bu isə uşaqlarda gələcəkdə gözəllik, əxlaq və pul kimi məvhumlar yaradır (formalaşdırır) və onların ağlında «Mən də ağ olmaq istəyirəm» ideyasını formalaşdırır. Mən inanıram ki, bu gənc şairin də ailəsi belə orta sinifli zənci ailələrindən biridir. Bu parçadan aydın olur ki, belə tərbiyə olunmuş, ailədən çıxan gənc sənətkar üçün öz xalqının üstün və gözəlliyini dərk edə bilməsi nə qədər çətindir. Yəni üz qaradərili insanlarının üstün cəhətləri ona ailədə tərbiyə edilməyib. Belə «Yüksək təbəqəli» zənci ailəsinin isə öyünəcək heç bir şeyi yoxdur. Bütün bunlar gənc sənətkarların aşa bilməyəcəyi irq dağıdır.

Lakin qeyd etmək lazımdır ki, aşağı rütbəli qara camaat da var, özüdə onlar qara dərili insanların çox hissəsidirlər. Onlar həftənin altıncı günlərində bir az ingilis arağı içən nə kənd nədə özləri üçün vacib olmayan insanlardırlar. Onlar bu fırlanan həyat üçün tənbəl öyrədiliblər. Beləəri Vaşinqtonda Yeddinci küçədə, Çikaqoda Dövlət küçəsində, ABŞ-ın hər yerində yaşayan, dini mahnılar oxuyan, bir az bu gün işlə, sabah bir az dincəl, bir az rəqs et fəlsəfəsi ilə yaşayan insanlardılar. Belə zənci kütləsi cazdan, spriçualzlardan qorxmayan zəncilərdilər və onların arasından böyük sənətkarlar yetişdirib öz rəngləri ilə fəxarət duyan insanlardırlar. Belə zəncilər üçün yazılmamış çoxlu mövzular mövcuddur. Ancaq belə zənci sənətkarlar üçün öz mənbələrini, irslərini, ritmlərini dərin yumorlarını, Bluzlarını göstərmək, onlarla fəxr etmək üçün olan şərait ironiya və göz yaşları ilə doludur, çünki onların qarşılarında olan böyük bir dağ var. Irq dağı. Belə maneələr özlərini böyük və kiçik şəhərlərin hər yerində asılmış elanlarda daha aydın göstərirlər:

**If You are a Stranger in the City**

*If you want a job*
*If you want a place to live*
*If you are having trouble with your employer*
*If you want information or advice of any kind*

*CALL UPON*
*The CHICAGO LEAGUE ON URBAN*
*CONDITIONS AMONG NEGROES*
*3719 South State Street*

*Telephone Douglas 9098* *T.ARNOLD HILL. Executive Secretary*

*No charges – no faces. We want to help YOU*

Bax bu yuxarıda yazılmış elandakı "əgər"lərin hamısı zəncilərin qarşılarında duran İrq dağıdır və Lənqston Hyuz bu dağı aşmaq üçün harlemlilərin hansı əzab əziyyətdən keçməli olduqlarını əyani surətdə belə verilmiş elanlar vasitəsi ilə əyani şəkildə təsvir et-

mişdir.

Öz əsərlərində Lənqston Hyuz Harlemliləri təsvir edərkən yazırdı: bir dəfə klubda işləyən görkəmli zənci qadın Filadelfiyada 11 dollar verərək Rəkel Mellerdən (Raquel Meller) məhşur bir Andalusiyan mahnısını oxumasını xahiş etdi. Halbuki bir neçə gün əvvəl həmin qadın böyük zənci müğənnisi Klara Smisin (Clara Smith) zənci xalq mahnılarını dinləmək istəmədiyini söyləmişdi. Bax belə yuxarı sinif nümayəndələri hətta bu gündə zənci kilsələrində belə mahnıların və spriçuelzləri oxunmasını istəmirlər. Onlar ağların sönük mahnılarını öz səs-küylü melodiyalarından üstün tuturlar. Biz qışqırıqlara inanmırıq, Allahın evində nordiklərə məxsus sakit, qəmgin və cansıxıcı mahnılara qulaq asmaq daha yaxşıdır. Beləliklə, əsil zənci şairlərinin qarşılarında belə Qara İrq Dağı Yaranır. «Rəngli adam hara, poeziya hara!» - Bu çox qəribədir və ya kloun (Necədə heyratəmizdir!)

Bax belə şeylər onların öz aralarına nifaq salır və qaraların qabaqcadan az hörmətə malik olduqlarına bir sübuta çevrilir. Müəllif Harlemlilərin və bütöv qaraların necə qadağalarla qarşılaşdığını başqa bir ailə reklamında aşağıdakı kimi təsvir edir:

***SELF-HELP***

1. *Do not loaf, Get a job at once.*
2. *Do not live in crowded rooms. Others can be obtained.*
3. *Do not carry on loud conversations in street cars and public places.*
4. *Do not keep your children out of school.*
5. *Do not send for your family until you get a job.*
6. *Do not think you can hold your job unless you are industrious, sober, efficient and prompt.*

***Cleanliness and freesh air are necessary for good health. In case of sickness send immediately for a good physician. Become an active member in some church as soon as you reach the city.***

Verilmiş bu reklamdan məlum olur ki, zənci rəssam həmişə ayıq-sayıq olmalı, daima işini itirmək qorxusu altında yaşamalı, yaxşı şeylərdən yazmalıdır. Belə yaradıcı zəncilər isə həmişə kəskin tənqid altında yazır, böyük təqiblərə məruz qalırlar. Bir çox qara dərili insanlar Cin Tumerin «Şəkər qamışı»-nı oxumurlar, ona nifrət edirlər. Bu səbəbə görə də Filadelfiyada bir klubda işləyən qadın utanır ki, belə şeyləri onun irqinin nümayəndələri yaradıblar. Istər-istəməz keçmiş instinkttiv «Ağ yaxşıdır» onun şüurundan keçir, illərlə ağ müəllimlərdən aldığı təhsil, oxuduğu ağ kitablar, qəzetlər, Puritan qayda-qanunları onu spriçuelzləri, cazı sevməməyə məcbur edir. Beləliklə, o özünün həqiqi sifətini görmək belə istəmir və deyir – "I want to be white". Lakin o, demək istəmir ki, "I am a Negro and Beautiful". Harlemliləri «Zənci rəssam və irqi dağ» əsərində real təsvir edən Lənqston Hyuz kitabını aşağıda verilmiş parçada olduğu kimi bitirir:

«Bax bu hallara görə»; "I want to be a poet, not a Negro poet" deyən gənc zənci şairin yerinə utanıram, çünki elə bil ki, onun öz irq dünyasında maraqlı heç bir şey olmadığına görə, belə dediyi üçün utanıram. Mən utanıram ki, zənci rəssam öz qara sifətini, sönən günəşin rəngini ağ insanların qorxusundan real çəkə bilmir. Mənə görə isə rəssam mövzu seçimində azaddır. O, mövzu seçərkən heç zaman qorxmamalıdır.

Qoy zənci cazının cingiltili sədaları, Bessi Smisin oxuduğu blyuzlar, o qədər çalınıb-oxunsunlar ki, zənci ziyalılarının tıxanmış qulaqlarını açsınlar. Bəlkə onlar da hər

şeyi başa düşdülər. Qoy Pol Robsonun oxuduğu – "Water Boy" – Rudolf Fişerin Harlem küçələri haqqında yazdıqları Cin Tumerin Corciya haqqındakı aydın bilikləri və Aaron Duqlasın çəkdikləri qəribə, qara fantaziyaları belə lovğa orta sinif nümayəndələri olan zənciləri, ağdərililərə hörmətlərindən, ağ kitab və qəzetlərdən üz döndərib, bəlkə, öz gözəlliklərinin parıltısını görə bildilər. Onda biz gənc zənci rəssamları da öz qara dərili incəsənətimizi də utanıb xəcalət çəkmədən yarada bilərik. Belədə ağdərililər onu qəbul etsələr biz də məmnun olarıq, onlar bunu qəbul edə bilməsələr bunun əhəmiyyəti yoxdur. Biz bilirik ki, biz gözəllik, həm də çirkin. Tom-tom, çığırır, tom-tom gülür. Əgər rənglilər bunu bəyənirlərsə biz şad olarıq; bəyənmirlərsə də yenə eybi yoxdur. Çünki biz gələcək üçün öz güclü qəsrimizi qururuq və biz bilirik ki, biz öz mənimizlə dağın zirvəsindəyik.» (3, 2091).

Bu misal göstərir ki, Lənqston Hyuz öz zənci xalqını, Amerikada, Harlemdə yığışan qaradərililəri həmişə irq dağının zirvəsində görür, özləri kimi mübariz görmək istəyir, öz əsərlərində belə təsvir edir və onları həmişə zirvəyə səsləyir.

## Ədəbiyyat

1. Abeltina R.B. English and American Literature. Riga, 1976, 340 p.
2. Glencoe Literature. American Literature. Glence Mc.Graw-Hill. New York, 2000, 1206 p.
3. The Harper. Amerikan Literature. Longman. New-York, 1999, 2867 p.
4. M.Hecker, A.Golovenchenko, B. Kolesnikov. American Literature. Moscow, 1978, 254 p.

## THE HARLEM RENAISSANCE AND LANGSTON HUGHES' CREATIVE ACTIVITY

**F.M.Mustafayev**

## SUMMARY

This article deals with the Harlem Renaissance and the fate of black Americans who lived in Harlem in the 20th Century. Harlem is called a city within a city. The writers and artists who lived in Harlem section of New York in 1920 and early 1930s gave their own contribution to Harlem Renaissance, the author claims.

## ГАРЛЕМСКОЕ ВОЗРОЖДЕНИЕ И ТВОРЧЕСТВО ЛЭНГСТОНА ХЬЮЗА

**Ф.М.Мустафаев**

## РЕЗЮМЕ

Статья посвящена теме Гарлемского Возрождения и судьбе чернокожих американцев, проживавших в Гарлеме в 20-м веке. Гарлем часто называют «городом в городе». Автор подчёркивает, что писатели и деятели искусств, проживавшие в гарлемском секторе Нью-Йорка в 20-х и начале 30-х годов прошлого века, внесли свою лепту в Гарлемское Возрождение.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

# ƏDƏBİYYATŞÜNASLIQ BÖLMƏSİ

UOT № 82.0

## ÇARLZ DİKKENS VƏ UİLYAM MEYKPİS TEKKEREY YARADICILIĞINDA TƏHSİL PROBLEMİ

**N.S.Vəliyeva**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: bsbinbaku@yahoo.com

***Açar sözlər:*** təhsil, roman, satira, canlı, meşşan, yumor
***Keywords:*** education, novel, satire, vivid, snob, humour
***Ключевые слова:*** образование, роман, сатира, яркий, сноб, юмор

Çarlz Dikkens və Uilliam Meykpiis Tekkerey XIX əsr İngilis Tənqidi realizm ədəbi cərəyanının ən görkəmli nümayəndələri olmuşlar. Bu dövrdə kapitalizm yeni nəhəng inkişaf mərhələsinə qədəm qoymuşdu. İngiltərə klassik kapitalist ölkəsinə çevrilmiş və öz mövqeyini həm daxildə, həm də xaricdə möhkəmləndirir, bazar tutmaq adı ilə özünün koloniya siyasətini həyata keçirirdi.

Bu dövr başdan ayağa ziddiyyətlər, müharibələr və inqilablarla dolu bir dövr olsa da, eyni zamanda tərəqqi və təhsil əsri idi. Bu illər dünyada dəmir yolları çəkilir, buxar maşınları yaradılır, elm hərtərəfli inkişaf etdirilirdi. Digər tərəfdən isə dərin ictimai-siyasi dəyişikliklər baş verir, yoxsulluq, ədalətsizlik, eybəcərlik aləmi bir-birinə qatır, insanın-insan trəfindən amansızcasına istismarı güclənirdi. Elmi yeniliklərin kəşfi, təhsil geniş vüsət alır, başqa bir tərəfdən də möhtəkirlik, iri his-paslı zavodlar, uşaq əməyinin istismarı, uzun iş saatları, az əməkhaqqı bir neçə adamı varlandırır, həmin əsrin ortalarında İngiltərəni dünyanın ən varlı ölkəsinə çevirirdi.

İngiltərə hələ XIX əsrin otuzuncu illərində kapitalizmin yeni yüksək inkişaf mərhələsinə keçmişdi. 50-60 il həmin dövrdən qabaq kiçik manifakturalarla dolu olan ölkə artıq böyük sənaye ölkəsinə çevrilmiş, Mançester, Birminqəm kimi iri sənaye şəhərləri yaranmışdır. Artıq nə kəndlilər, nə də mülkədarlar hakim sinif deyildilər. Onları fəhlələr, proletariat və burjuaziya sinifləri əvəz etmişdi. Get-gedə İngiltərənin bu siyasətinə qarşı həm daxildə, həm də ölkənin xaricində böyük etirazlar baş verir, azadlıq hərəkatları artırdı. Məsələn, İrlandiya və Hindistanda belə hərəkatlar ümumi xalq üsyanına çevrilirmişdi. Belə hal ingilis ədəbiyyatçılarının gözlərindən qaça bilməzdi, onlar müxtəlif janrlarda əsərlər yazaraq, öz səslərini dövrün ədalətsizliyinə qarşı ucaldırdılar.

Həmin dövrdə ictimai-siyasi dəyişikliklərlə yanaşı yeni ədəbi hərəkatlar da yaranmağa başlamışdır. Belə inqilabi hərəkatlardan biri də Çartist hərəkatı idi. Çartistlər öz ədəbiyyatlarını yaratdılar, bu da fəhlə sinfinin öz ədəbiyyatlarını yaratmaq yolunda ilk cəhdi idi. Maraqlı bir şeyi qeyd etmək lazımdır ki, həmin dövrdə böyük yazıçılar Çarlz Dikkens, Uilyam Meykpis Tekkerey, Bronte bacıları, xüsusilə Şarlotta Bronte və Elizabet Qaskell kimi böyük yazıçılar ordusu hələ əmələ gəlməmişdi deyə, Çaristlərin öz aralarından çıxanlar məqalələr, kiçik hekayələr, mahnılar, epiqramlar və poemaları özləri yazırdı-

lar. Həmin dövrdə əsas janr poeziya idi. Çartistlərin yaratdığı əsərlər onların sələfləri romantik şairlərə söykənirdi, onlar şifahi xalq poeziyası əsasında günün aktual problemlərindən, fəhlələrin hüquqlarından, mübarizələrindən, yoxsulların bədbəxt talelərindən yazırdılar. Həmin əsərlər də təbii olaraq yüksək sənət əsərləri hesab edilməlidirlər. Belə şairlərdən Ernest Counz, Tomas Hud və başqalarının adını çəkmək olar. Çartist ideyaları bir çox proqressiv fikirli insanların diqqətlərini özünə cəlb edə bildi, ölkədə baş verən ədalətsizliklərdən xəbərdar olan, böyük yazıçılar ordusu yarandı. Çünki onlar ilklər idilər. Məsələn, Ernest Counz Çartist hərəkatının liderlərindən biri olmaqla yanaşı, həm də diqqəti özünə çəkən demokratik fikirli bir şair idi. Həmin dövrdə Ernest Counz «Aşağı sinfin mahnısı» - (*The Song of the Lower Classes*) - şeirinin müəllifi idi. Çartist hərəkatı zamanı və ondan sonrakı dövrlərdən bu günə qədər əməkçi insanlar arasında bu şeir çox məhşurdur. Şeirin əsas məzmunu aşağıdakı kimidir:

Biz lap aşağıdayıq. Ola biləcəyimizdən də aşağıdayıq.
Varlılar çox yüksəkdədirlər, onları biz belə yüksək etmişik.
Biz bədbəxtlər, zənginlərin ayaqları artında olan yerimizi yaxşı bilirik.
Lakin biz, əkib becərməyi, toxumağı bilsək də geyməyi, yeməyi bilmirik.
Biz öz payımızı yaxşı bilirik.

Eyni ideya ən görkəmli Çartist şairlərdən Tomas Hudun çox məşhur şeirlərindən biri olan «Köynəyin mahnısı» (*The Song of the Shirt*) şeirində də gözəl təsvir edilmişdir:

Şair həmin şeirində üzgün barmaqları, qızarmış
gözləri cır-cındır içərisində oturub tikiş tikən
qadınla köynəyin mahnısını» oxuyarkən təsvir edir.
Ona tik, tik, tik, yoxsulluq, aclıq, çirkab və səfalət
içində mahnı oxu deyir.

Çartist yazıçılar belə tənqidi yazıları ilə əzilən zəhmətkeşləri öz hüquqları uyğunda vuruşmağa səsləyir, gələcəyə inanırdılar. Onlar böyük humanist olaraq nəhayət sonda ədalətin qalib olacağına dərindən inanırdılar. Həmin illərdə klassik tənqidi əsərləri ilə diqqəti cəlb edən ədalətsizliklərdən yazmağa başladılar və bu hal da yeni bir ədəbi cərəyanın yaranmasına gətirib çıxartdı, onu da «Tənqidi Realizm» ədəbi cərəyanı adlandırdılar. Beləliklə, böyük tənqidi realizm romançılar nəsli yarandı. Onlar Çarlz Dikkens, Uilyam Meykpis Tekkerey, Şarlotta Bronte, Elizabet Qaskell və bir sıra başqa realist yazıçılardılar. Onlar müasir ictimai və sosial həyatın tipik nümayəndələrini tapıb müxtəlif şəraitdə təsvir etməyi bacardılar. Onlar Çartizm ideyalarından bəhrələnərək əsərlərində sosial ədalətsizliyi təsvir edir, kəskin sinfi mübarizəni ədəbiyyatda canlandırır və yeni Tənqidi Realizm ədəbi cərəyanının yaranmasına səbəb olurlar.

Belə əsərlərdən Çarlz Dikkensin «Ağır günlər» və Elizabet Qaskellin «Meri Barton» əsərlərini qeyd etmək olar. Həmin yazıçıların böyük və üstün cəhətləri ondan ibarət idi ki, onlar öz müasirlərinin həyatını realist bir şəkildə ifadə etməklə bərabər həmişə onların dərin hümanizm və rəğbətləri adi zəhmətkeş insanların tərəfində olmasıdır.

Çarlz Dikkens öz yaradıcılığına Çartist hərəkatı zamanı başlamış və ən yüksək zirvəyə yüksələ bilmişdir. Çartist hərəkatı Çarlz Dikkens yaradıcılığına çox ciddi təsir etmişdir.

Çarlz Dikkens 1812-ci ildə İngiltərənin cənubunda Portsmusda (*Portsmouth*) anadan olmuşdur. O, hələ kiçik yaşlarından əzab-əziyyətə qatlaşmalı olmuşdur. Onun ailəsi yoxsul orta sinfə aid idi. Onun atası Portsmusda böyük hərbi dəniz stansiyasında çinovnik işləyirdi. Böyük ailəsi onun az məvacibi ilə güclə dolanırdı. Çarlz ailənin böyük uşağı idi. Onun atasının uşaqları oxutmağa gücü çatmırdı. Onun atası kefcil adam idi və qazandığından çox xərcləyirdi. Tezliklə o, işini itirir və borclar həbsxanasına düşür. Ailəyə mənsub olan hər şey, hətta Çarlza məxsus sevimli kitabları belə satılır. Onun atası, anası, qardaş və bacıları Marşalsii borclular türməsində yaşayırdılar. Çarlz onlara bazar günləri baş çəkirdi. Orada Dikkens müxtəlif insanları görür və onların həyat hekayələrini öyrənirdi. Sonralar gördüklərini «David Kopperfild», «Pikvik Peypə» və «Balaca Dorrit» əsərlərində təsvir etmişdir.

Bir ildən sonra Dikkens uzaq qohumların birindən vərəsəlik alır və bütöv borcları ödəyir, ailəsi türmədən azad olur. Atası müxtəlif şəhərlərdə işləyir, daima şəhərdən-şəhərə köçür və uşaqlarına təhsil verməyə çalışsa da buna nail ola bilmir, amma Dikkens bacısı ilə qədim Roçester şəhərində ilk dəfə orta məktəbə getmməli olmuşdur. Lakin təhsil haqqını ödəyə bilmədikləri üçün oradan ayrılmalı olmuşlar. O, on yaşından Defonu, Fildinqi, Smoleti və bir sıra başqa avropalı yazıçıları sevə-sevə oxuyurdu. Onun ən sevimli kitabları «Don Kixot» və «Ərəb gecələri» olmuşdur.

Çarlz Dikkens hələ köhnə dəbli Uellimqton Hous Akademiya - (*Wellington House Academy*) - məktəbində təhsil alarkən məktəbin müdirinin kobud, cahil, savadsız bir adam olduğunu, onun uşaqlar haqqında heç bir şey bilmədiyini yaxşı görmüşdür. O bilirdi ki, təlim-tərbiyə nə olduğunu bilməyən cahil, ancaq uşaqları daima ağacla kötəkləməyi yaxşı bilirdi. Sinifdə Latın dilindən başqa heç nəyi öyrətmirdi.

Çarlz Dikkens bir çox sosial romanlar yazsa belə özü siyasətlə heç zaman məşğul olmamışdır. O, daima evsiz-eşiksiz insanların taleləri ilə maraqlanmış, onlar haqqında düşünmüş, onların təhsillərinin qayğısına qalmış, «Yoxsul Qanun»un (*Poor Law*) - əksinə çıxmışdır. Həmin qanuna görə evsiz insanlar küçədə yaşaya bilməzdilər. Beləlari mütləq şəraiti türmədən azca yaxşı olan yetimxanalarda yaşamalı idilər.

Çarlz Dikkens bir çox sosial romanların – «David Kopperfild» (*David Copperfield*, 1850); «Müdafiəsiz ev» (*Bleak House*, 1853); «Ağır illər» (*Hard Times*, 1854); «Balaca Dorrit» (*Little Dorrit*, 1857); «İki şəhərin nağılı» (*A Tale of Two Cities*, 1859) müəllifidir. Bütün bu əsərlərində Dikkens inqilabi hərəkatı müdafiə etmiş, ölkədə olan haqsızlığa, ədalətsizliyə, ictimai-siyasi bərabərsizliyin, yoxsulluğun, savadsızlığın, qəddarlığın əksinə çıxışmış, uşaq əməyinin istismarının yolverilməz olduğunu realistik tərzdə təsvir etmişdir. O, özünün bütün əsərlərində təsvir etdiyi problemlərin realist ideyalarına görə böyük ədəbi demokrat adını almışdır. O, avtobioqrafik əsəri «Deyvid Kopperfild» uşaq əməyinin işdə, məktəbdə qəddarcasına istismarının əksinə çıxırdısa, «Nikolas Niklbi» romanında ictimai-siyasi problemləri realist bir şəkildə təsvir edərək, Ingilis məktəblərində şagirdlərin təlim-tərbiyə prosesində olan eybəcərlikləri satira atəşinə tutmuşdur. Dikkensin həmin əsəri çap olunandan sonra ona hər tərəfdən təziqlər olmuşdur.

Qeyd etmək lazımdır ki, Dikkens hələ Poor Law qanununun əksinə yazdığı «Oliver Tvist» əsərini yazıb qurtarmamış «Nikolas Nikkilbi» romanını yazır. 1838-1839-cu illərdə yazılmış bu roman dövrün daha bir aktual problemindən; şagirdlərin İngilis özəl internat məktəblərində aldıqları təhsildən bəhs edir.

Nikolas Niklbi tipik bir ingilis internat məktəbində müəllim olur. Bu məktəbdə oxuyan uşaqların valideynləri yox idi. Atılmış unudulmuş, yarı-ac şagirdlər məktəb müdiri

və onun həyat yoldaşı tərəfindən qəddarcasına istismar olunurlar. Qadın ev işlərində onları amansızcasına işlədir, onlar da öz taleləri ilə barışmalı olurdular.

Dikkens Ingiltərənin müxtəlif şəhərlərini gəzərək çoxlu məktəblərdə olmuş, həmin məktəblərin pis halına acımışdır. O, gördüklərini realist bir tərzdə təsvir etmiş, ingilis təhsil sisteminin bərbad vəziyyətini tənqid atəşinə tutmuşdur. Əsər çap olunandan sonra Dikkensə hər tərəfdən hücum olunmasına baxmayaraq, tezliklə bütöv ingilis təhsil sistemində reforma edilmişdir. Beləliklə, Dikkensdən sonra tənqidi realizm жanrında yazılan çoxlu əsərlər yarandı.

Öz sələfləri Conasan Svift və Henri Fildinqin ənənələrini davam etdirən Tekkerey ingilis ədəbiyyatında ən görkəmli realist və satirist yazıçılarından biri idi.

İnqilabı demokratik fikirli, rus yazıçılarından biri Çernışevski Tekkereyi aşağıdakı kimi qiymətləndirmişdir:

«Tekkerey böyük istedada malikdir. Onu, «Şöhrətpərəstlik yarmarkası» əsərinin müəllifini, həmin dövrün bütöv Avropa yazıçılarından təkcə biri, Dikkenslə eyni cərgəyə qoymaq olar. Onun nə zəngin incəsənət aləmi, nə qədər dəqiq müşahidə qabiliyyəti, nə böyük, həyat dərsli, insan ürəyi, nə böyük, parlaq və alicənab məhəbbət gücü, nə qədər incə yumor hissi, nə qədər dəqiq və aydın tapıntıları, nə qədər möcüzəli təsvir qabiliyyəti varmış.»

Çernışevskinin belə böyük qiymət verdiyi Uilyam Meykpis Tekkerey Ingilis krassik tənqidi realizminin ən görkəmli nümayəndələrindən biridir. Öz əsərlərində o, dövrünün yüksək sinfinin nümayəndələrini canlı təsvir edərək, onların klassik cəmiyyətdəki həyat tərzlərini, xarakterlərini, zövqlərini açıb göstərə bilmişdir. O, yüksək sinfin nümayəndələrinin tiranlığını, zülümkarlığını, qürurunu, riyakarlığını, ikiüzvlüyünü, snobçuluğunu, simasızlığını, qəddarlığını real təsvir etmişdir. Onun insan təbiəti, daxili aləmi haqqında çox geniş biliyi var idi və onu analitik şəkildə, kəskinliklə öz qəhrəmanlarının təsvirində işlədə bilmişdir.

Tekkereyin əsərlərində incə yumor çatışmırdı. Onun tənqidi çox güclü, satirası kəskin və acı idi. O, mənfi obrazları təsvir etməkdə dahi olsa da onun müsbət surətləri kifayət qədər zəif alınırdı, lakin onun bütöv mənfi və müsbət obrazları həyati, real və canlı idilər. Tekkerey həmişə arzulayardı ki, bütövlükdə qadın və kişiləri həyatda necə idilərsə də eyləcə də təsvir edə bilsin.

Demək lazımdır ki, ingilis ədəbiyyatında ictimai satira bu gün də Tekkereyin 19-cu əsrdə təsvir etdiyi hadisələr klassik misal kimi qalmaqdadır.

Hindistanda Kəlküttə şəhərində çiçəklənən orta sinif ailəsində anadan olmuş, Tekkerey altı yaşı olanda doğulduğu Kəlküttədən Ingiltərəyə təhsil almağa göndərilmiş və Kembric Universitetində təhsil almağa başlamışdır. Tələbə ikən o, universitetin sxolastik qayda-qanunlarına dözmür, gülməli şəkillər çəkir rəssam olmaq istəyir, seir yazır, əsasən parodiyalara üstünlük verirdi. O, universiteti bitirmədən Almaniyaya, İtaliyaya və Fransaya səyahət edir və Almaniyada ona çox dərin təsir göstərən Höte ilə görüşür. Sonralar o, Londona dönür təhsilini davam etdirmək istəyir, lakin qarşısına çıxan çətinliklərə görə ona nail ola bilmir, jurnalistliyə başlayır, yumoritik hekayələr yazır, gülməli şəkillər çəkir və 1836-cı ildə Izabella Şou (*Isabella Shawe*) adlı bir qadınla evlənir və onların üç qızları olur. Axırıncı qızı olandan sonra Izabella xəstələnir və Tekkerey ona sədaqətlə xidmət edərək onun sağalmasına çalışır, ancaq ona nail ola bilmir. Sonda onun xəstə qadını Tekkerey dünyasını dəyişəndən sonra bir neçə il də yaşayır. Müəllif «Snoblar kitabı» əsəri ilə ciddi yaradıcılığa başlayır. Bu əsərində Tekkereyin ilk diqqəti cəlb edən

əsəri «Snoblar kitabı» - (*The Book of Snobs*) - romanıdır. Bu kitabı ilə müəllif varlı, yuxarı sinfin nümayəndələrini satira atəşinə tutaraq, həm də onların davamçıları orta sinfin nümayəndələrini də ifşa edir. Müəllifi özünün kəskin qələmi ilə hər iki sinfin nümayəndələrini və onların davamçılarını kəskin satira atəşinə tutur. Beləliklə, demək lazımdır ki, bu əsər onun şah əsəri olan «Şöhrətpərəstlik yarmarkası» - (*Vanity Fair*) - əsərinin müqəddiməsi olmuşdur.

«Snoblar kitabı» əsərində müəllif Ingilis cəmiyyətində müxtəlif dairələrin satirik təsvirini verməklə, snobların böyük qalareyasını yaratmışdır: Böyük şəhər snobları (*Great City Snobs*), Universitet snobları (*The University Snobs*), və s.

Şöhrətpərəstlik yarmarkası və ya «Adsız qəhrəman romanı» adlı əsərinin adından məlum olur ki, U.M.Tekkerey çalışır ki, cəmiyyyətdə olan ayrı-ayrı fərdləri deyil, bütövlükdə ingilis burjua-aristokratik cəmiyyətini təsvir etməyə can atmışdır.

«Şöhrətpərəstlik yarmarkası» əsəri bütövlükdə təkcə burjua-aristokratik cəmiyyəti deyil, onu idarə edən qanunları təsvir edən ictimai-siyasi romandır. Müəllif 19-cu əsrin əvvəllərində baş verən hadisələri təsvir etməklə sanki müasir Ingiltərənin geniş satirik panoramasını realist tərzdə təsvir edə bilmişdir.

Roman sosial keçmişi fonunda hər şeyə; obrazlara, onların hərəkətlərinə, fikirlərinə ümumilikdə yüksək cəmiyyətdə olanların hamısına Tekkerey hücum edir. Onların şöhrətpərəstliyiklərinə, hiyləğərliklərinə, xürrafatlılıqlarına, aristokratların korrupsiyaya uğramalılıqlarına (*The Cranleys, Lord Steyne*); burjuaziyanın nümayəndələrinin (*The Osbornes, The Sadleys*) dar-düşüncəliliyinə, acgözlülüyünə və s. pis xüsusiyyətlərinə amansızcasına hücum çəkirdi. O qəddarcasına snobçuluğu, riyakarlığı, pulgirliyi, tüfeyliliyi və burjua cəmiyyətinin dayağı olan bir sıra bunun kimi halları satira atəşinə tuturdu.

Tekkereyin əsas qayəsi (fabulası) ədəbi əsərin və orada təsvir edilən hadisələrin məzmununu deyil obrazların geniş təsviridir. Müəllif müxtəlif insanları, onların fikirlərini, düşüncələrini, hərəkətlərini müxtəlif situasiyalarda təsvir edərək demək istəyir ki, pulun hökümdar olduğu, onun idarə etdiyi cəmiyyətdə, tək-tək qəhrəman ola bilməz. Tekkerey beləliklə bütöv burjua cəmiyyətini satira atəşinə tutaraq romanının adını «Şöhrətpərəstlik yarmarkası» və ya «Adsız qəhrəman romanı» adlandırmışdır. Tekkerey həmin romanında universitet təhsilində olan çatışmamazlıqdan, bürokrat ünsürlərin korrupsiyasnı satira atəşinə tutaraq həmin səhnələrin realist təsvirini ustalıqla vermişdir.

Dikkens və Tekkerey öz zəmanələrinin ən görkəmli yazıçılarındandırlar. Onların hər ikisini də bu gün də sevə-sevə oxuyurlar. Onları sevən müasirləri, oxucuları həmişə bir-biri ilə müqayisə etmiş, onların oxşar və fərqli cəhətlərini açmağa can atmışlar.

Beləliklə, onlar qərara gəlmişdilər ki, Dikkens öz qəhrəmanlarını sadə insanlar arasından tapıb onları tipik qəhrəman səviyyəsində (Oliver Tvist, Nikolas Niklbi və s.) təsvir edə bilmişdisə, Tekkerey öz qəhrəmanlarını orta sinif və aristokratik cəmiyyətin nümayəndələri Pitt Kroli, Ribeka və s. kimi təsvir edə bilmişdir.

Tekkereyin realizmi Dikkens realizmindən fərqlidir; O fantaziya və lirizm ilə az bağlı olsa belə, onun realizmi çox səlis və əsaslıdır. Dikkens isə öz qəhrəmanlarını bir qədər sentimental ruhda təsvir edərək ədəbiyyatda yeni bir xarakterik xüsusiyyət yaratdı. Sonralar həmin ideya ingilis ədəbiyyatında obyektiv üsul adlandırıldı.

Dikkens Tekkereydən çox optimist idi. Tekkerey insanın gələcəkdə dəyişəcəyinə inanmırdı, məhz böyük rus yazıçısı Çernışevski, ona məqalənin əvvəlində verdiyi böyük tərifə rəğmən, Tekkereyi 1857-ci ildə “Современник” jurnalında çap etdirdiyi məqaləsin-

də onu bu xüsusiyyətinə görə tənqid etmişdir.

Beləliklə, qeyd etmək lazımdır ki, hər iki dahi sənətkarı birgə götürdükdə, onların hər ikisinin də romanları 19-cu əsrin ortalarında Ingilis cəmiyyətinin bütöv sinifləri haqqında realistik təsvir yaratmışlar.

## Ədəbiyyat


1. R.B.Abeltina. English and American Literature. Riga, 1976, 340 p.
2. Г.В.Аникин., Н.Г.Михальская. История Английской Литературы. «Учпедгиз», Москва, «Высшая школа», 1975, 528 с.
3. Л.И.Тимофеева. Основы теории литературы. «Учпедгиз», Москва, 1963, 454 с.


## THE PROBLEM OF EDUCATION IN CHARLES DICKENS'S AND W.M.THACKERAY'S CREATIVE ACTIVITY

**N.S.Veliyeva**

## SUMMARY

This article is focused on the comparison of Charles Dickens's creative activity with that of William Makepeace Thackeray.

## ПРОБЛЕМЫ ОБРПЗОВАНИЯ В ТВОРЧЕСТВЕ ЧАРЛЬЗА ДИККЕНСА И УИЛЬЯМА ТЕККЕРЕЯ

**Н.С.Велиева**

## РЕЗЮМЕ

В работе представлен сравнительный анализ творчества двух английских писателей 19-го века – Чарльза Диккенса и Уильяма Мейкписа Теккерея.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

# T A R İ X   B Ö L M Ə S İ

UOT № 94(5)

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI VƏ XARİCDƏ YAŞAYAN AZƏRBAYCANLILARIN TƏŞKİLATLANMASI PROSESİ

**Y.M.Babanlı**
Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutu
Bakı AZ1143, H.Cavid prospekti 31
e-mail: y_babanli@rambler.ru

***Açar sözlər:*** Azərbaycan, diaspor, lobbi
***Keywords:*** Azerbaijan, diaspora, lobby
***Ключевые слова:*** Азербайджан, диаспора, лобби

Qədim dövlətçilik ənənələrinə malik Azərbaycanın milli diasporunun formalaşmasının çoxəsirlik tarixi vardır. Lakin buna baxmayaraq, müstəqil dövlətimizin olmaması milli diasporun inkişafına imkan verməmiş, dünyada yaşayan azərbaycanlıların həmrəyliyi və birliyinə öz mənfi təsirini göstərmişdir. XX əsrin sonlarında dünyada cərəyan edən qlobal geosiyasi proseslər milli dirçəliş və milli özünüdərkin inkişafına təkan verdi. Bu hadisələr Azərbaycan diasporunun da çanlanmasına və özünəqayıdışına səbəb oldu. Qeyd edək ki, bu sahədə ilk əməli addım hələ ötən əsrin 70-80-ci illərdə Heydər Əliyevin tərəfindən atılmış və o Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə böyük qətiyyət, əzm və cəsarət nümayiş etdirərək, xalqın tarixi yaddaşının qorunması, mədəniyyətimizin tərəqqisi, Azərbaycanın bütün dünyada tanınması istiqamətində ciddi işlər görmüşdür. Tarixçi alim M.Qasımlının yazdığı kimi, "...həmin dövrün mövcud siyasi reallıqları diaspor problemi ilə milli ideoloji zəmində açıq və sistemli şəkildə məşğul olmağa imkan verməsə də, mədəniyyət, incəsənət, elm sahəsində ciddi iş aparılır, respublikamızın nailiyyətləri təbliğ edilir, dünya azərbaycanlılarının Vətənlə əlaqəsinə xidmət edəcək hər bir imkandan istifadə edilirdi. Xarici ölkələrlə mədəni əlaqələrin güclənməsi, tərcümə işinin vüsətlənməsi, xaricdə yaşayan həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr cəmiyyətinin ("Vətən" cəmiyyəti) yaradılması oldu". Bu, xaricdə yaşayan həmvətənlərimizin birliyinə və doğma vətənlə əlaqəsinə xidmət edərək, soydaşlarımızda milli qürur hissi oyadır, onlarda ana yurda marağı artırdı. 1976-cı il 5 oktyabr tarixində Azərbaycan KP MK bürosunun Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyətinin işini yaxşılaşdırmaq tədbirləri haqqında qərar qəbul edilmişdir" **[1]**.

Lakin bəşəri fenomen olan və hər bir xalqın milli-mənəvi-strateji maraq dairəsində olan diasporun dövlət siyasətinin ən mühüm istiqamətlərindən birinə çevrilməsi və xarici siyasətdə əsas prioritet hesab olunması Azərbaycan Respublikasının müstəqilliyi əldə edildikdən sonra mümkün oldu. Tədqiqatçı-alim V.Arzumanlı "Azərbaycan Diasporu" kitabında bu məsələni belə xarakterizə etmişdir: "Tarixi şəraitə və reallıqlara nəzər yetirsək görərik ki, Sovet imperiyasında yaşadığımız yetmiş il ərzində biz dünyadan, həmçinin xaricdə yaşayan soydaşlarımızdan təcrid olmuşduq. Diasporumuzun formalaşması

əsrin əvvəlindən başlasa da, yalnız səksəninci illərin axırlarından güclü vüsət aldı. Tariximizə milli oyanış, milli dirçəliş dövrü kimi daxil olan həmin illərdən etibarən xaricdə azərbaycanlıların milli mədəniyyət mərkəzləri, xeyriyyə cəmiyyətləri və fondları, assosiasiyaları yaranmağa başladı" **[2]**.

1991-ci il oktyabrın 18-də Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisə baş verdi. Həmin gün Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi və Azərbaycan Respublikası öz dövlət suverenliyini bəyan etdi. Azərbaycanın tarixdə ikinci dəfə öz müstəqilliyini bərpa etməsi, təkcə ölkə ərazisində yaşayan azərbaycanlıların həyatında deyil, bəşər tarixinin müxtəlif dövrlərində dünyanın müxtəlif coğrafiyasına səpələnən, özünə ikinci vətən seçən soydaşlarımızın və həmvətənlərmizin həyatında yeni bir mərhələnin başlanmasına vəsilə oldu. Bu müstəqillik xaricdə yaşayan həmvətənlərimizlə, soydaşlarımızla həmrəyliyimizin və birliyimizin əsas təminatçısına çevrildi. Zaman keçdikcə, müstəqillik yolunda addımladıqca bunu hiss etməyə başladıq və Azərbaycan Respublikasının milli dövlətçiliyində, xarici siyasət strategiyasında diasporun mühüm rol oynadığının şahidi olduq. Bu gün müasir dünyamızın mürəkkəb və ziddiyyətli bir dövrdə müstəqillik yolunda ilk addımlar atan Azərbaycan Respublikası onun hüdudlarından kənarda yaşayan soydaşlarımızın qayğı və problemləri ilə yaxından maraqlanmağı, onların hüquq və azadlıqlarını qorumaq üçün əməli fəaliyyət göstərməyi özünə borc sayır. Bir faktı sadalamaq kifayət edər ki, Xarici İşlər Nazirliyinin vəzifələri və funksiyalarında "Azərbaycan Respublikasının, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının təmin edilməsi və xaricdə yaşayan həmvətənlərlə əlaqələrin və əməkdaşlığın inkişafına yardım göstərir" nəzərdə tutulmuşdur. Bu bir daha Azərbaycan Respublikasının xarici siyasətinin əsas prioritetlərindən biri xaricdə yaşayan azərbaycanlıların mənafeyinin və əsas azadlıqlarının təmin edilməsi məsələsini özündə əks etdirir **[3]**.

Diaspor amili hər bir sahədə, hər bir uğurda özün göstərməyə başladı. Qəbul edilən strateji sənədlərdə, proqram, konsepsiyalarda və s. bu sahəyə xüsusi yer verilmişdir. Təsadüfi deyil ki, milli təhlükəsizlik konsepsiyasında da xaricdə yaşayan azərbaycanlıların hüquq və əsas azadlıqlarının təmin edilməsinə və onların milli özünəməxsusluğunun və dəyərlərinin qorunub saxlanılmasına kimi məsələlər öz əksini tapmışdır. Dövlət müstəqilliyi bərpa edildikdən sonara milli həmrəyliyin və birliyin təminatı, dünya azərbaycanlılarının vahid milli ideya ətrafında birləşməsi dövlət quruculuğunun əsas məqsəd və vəzifələrindən biri kimi meydana çıxdı. Dövlət maraqları ilə milli mənafenin vəhdəti sovet dövründən sonra ictimai şüurda inqilabi hadisə, milli təkamüldə yeni mərhələ idi. Bunun əsas zəmini milli dövlətçiliyin bərpası və xalqı birləşdirən dəyərin ortaya çıxması oldu. Buna isə tarixən azərbaycanlıların milli kültüründə, təfəkküründə ağsaqqal amilinin olması səbəb bu məsələyə təkan verdi. Bir sözlə, Heydər Əliyevin dünya çapında tanınan və qəbul olunan azərbaycanlı olması, azərbaycanlıların fəxarət duyduğu və onlar arasında böyük nüfuza malik şəxsiyyətin olması, milli idealogiyanın təşəkkül tapmasına və hamılıqla qəbul olunmasına səbəb oldu. Onun təşəbbüsü və iradəsi ilə Azərbaycan Respublikası dünyada yaşayan soydaşlarının hüquq və mənafelərinin təminatçısı olduğunu rəsmən bəyan etdi və xaricdə yaşayan azərbaycalılarla sistemli iş aparılmasına başlanıldı. Bu istiqamətdə atılan ilk addım hələ Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri işləyəndə onun təşəbbüsü ilə 1991-ci ilin dekabr ayının 16-da Ali Məclisin sessiyasında atıldı. Həmin sessiyada milli həmrəylik və birlik gününün təsis

olunması ilə bağlı qərar qəbul edildi. Qərarda hər il “31 dekabr”ın “milli həmrəylik və birlik günü” kimi bayram edilməsini nəzərdə tutan müddəa ilə yanaşı, bu günün bütün Azərbaycan ərazisində qeyd edilməsi barədə Ali Sovet qarşısında vəsatət qaldırılmasını və bu məsələnin rəsmiləşdirilməsini zəruriliyini əks etdirən xüsusi bənd salındı. Bu qərardan 9 gün sonra - 26 dekabr 1991-ci il tarixində Azərbaycan Respublikasının Ali Sovetinin Milli Şurası hər ilin dekabr ayının 31-nin “Dünya Azərbaycanlılarının Həmrəylik günü” kimi elan olunması barədə qərar verldi **[4]**. Bununla, 1990-cı ildən geniş milli hərakata çevrilmiş diaspora quruculuğu azərbaycançılıq məfkurəsində öz idealoji əsasını tapdı.

Tarixi zərurət və xalqın təkidli tələbi ilə Heydər Əliyevin yenidən respublika rəhbərliyinə qayıdışı, sosial-ictimai həyatın bütün sahələrinə, o cümlədən dünya azərbaycanlıları ilə əməkdaşlıq istiqamətində mahiyyətcə yeni dövrün başlanmasına səbəb oldu. O, milli mənliyin və milli özünüdərkin ən ümdə məsələ olduğunu bəyan etdi və diaspora sahəsinin dövlətin prioriteti elan etdi. O bunu belə ifadə edirdi: “Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycançılığını, öz dilini, dinini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır” **[5]**.

“31 dekabr Dünya azərbaycanlılarının həmrəyliyi günü” münasibətilə 1993-cü ildən başlayaraq hər il, Azərbaycan Respublikası Prezidentinin dünya azərbaycanlılarına müraciəti və onları təbrik etməsi, xarici səfərləri zamanı Azərbaycan icmasının üzvləri ilə görüşlərin keçirilməsi ənənə halı aldı və bu da vətəndən kənarda yaşayan hər bir azərbaycanlıya mənəvi güc verməklə, onun hüquqi dövlətinin olduğuna əsas verdi.

Azərbaycanlıların təşkilatlanması məsələsi ilk növbədə tarixi və idealoji məsələ olaraq qalırdı. Xaricdə yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin müzakirə edilməsi zərurətini nəzərə alaraq, 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlıların I Qurultay keçirilməsi barədə Heydər Əliyevin sərəncam imzalaması bu möhtəşəm məsələnin gercəklənməsinə istiqamətləndi. Həmin ilin noyabr ayının 9-10-da Bakıda keçirilən I qurultay diasporun formalaşması və inkişafına stimul olaraq, “dövlət və diaspor” münasibətlərində silsilə tədbirlərə yol açdı. Heydər Əliyevin çıxışını yekunlaşdırdığı “Mən fəxr edirəm ki, azərbaycanlıyam” kəlməsi dünya azərbaycanlılarının şüarına çevrildi **[6]**. Bununla da “diaspor” anlayışı yalnız dövlət siyasətinin deyil, milli idealogiyanın, ictimai şüurun aparıcı istiqamətlərindən birinə çevrildi. Ölkənin əksər ictimai-siyasi qüvvələrinin qəbul etdiyi “azərbaycançılıq” idealogiyasının bu sahədə üstün cəhəti ondan ibarətdir ki, o, milli maraqlarımızı bütün çalarları ilə əhatə etməsidir. Bu idealogiyanın milli diaspor üçün cəlbedici olan digər xüsusiyyəti etnik rəngarəngliyi qorunması ilə bərabər, konseptual bütövlüyü, tamlığı, milli özünüdərkə imkan verən bütünlüyü və müəyyənliyidir. Burada daha bir əhəmiyyətli amil - vətəndaş cəmiyyəti anlayışı xüsusi qeyd edilməlidir. Bu məfkurə poloetnik zənginliyə malik respublikamızda etnik mənsububiyyətindən asılı olmayaraq, ölkə ərazisində və onun hüdudlarından kənarda yaşayan azərbaycanlılara mənəvi və hüquqi müstəvidə bərabər münasibət bəslənilməsini nəzərdə tutur. Buna görə də ötən əsrin 90-cı illərindən digər ölkələrə köçmüş ruslar, yəhudilər və digər millətlərin nümayəndələri Azərbaycan diaspora nümayəndələri ilə əlaqələr qurur və onların işində fəal iştirak çıxış edirlər.

Diaspor quruculuğunda mühüm sahələrdən biri də xaricdəki soydaşlarımızla bağlı

dövlət siyasətinin hazırlanması və həyata keçirilməsidir. Diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanının - Azərbaycan Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli 54 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi) yaradılması, 27 dekabr 2002-ci il tarixində xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edən qanunun qəbul olunması və Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanması və 21 fevral 2003-cü il tarixində bu Qanununun tətbiq edilməsi barədə fərmanın verilməsi müvafiq qanunvericilik bazasının formalaşmasına və hazırkı inkişafla nəticələndi. Bu qanun "Xaricdə yaşayan azərbaycanlılar" anlayışının tərifini verməklə, dünya azərbaycanlılarının statusunu müəyyənləşdirməklə, onların hüquqlarının müdafiəsinə hesablanmış bir addım oldu. Qanuna əsasən, "xaricdə yaşayan azərbaycanlılar" anlayışı Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş və hazırda Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan şəxslərə və onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edən şəxslərə aid edilir".

Bu tədbirlərin davamı olaraq, 2006-cı ilin 16 mart və 2011-ci il 5-6 iyul tarixlərində Bakı şəhərində Dünya Azərbaycanlılarının ikinci və üçüncü qurultayı keçirilmiş, diaspor quruculuğu prosesi inkişaf edərək yeni mərhələyə qədəm qoymuşdur **[6]**. Diasporçuluq artıq sosial-mədəni sferadan, ictimai-siyasi fəaliyyət sferasına çevrilmişdir ki, bu da lobbi fəaliyyətinin təkamülü və inkişafına əsas yaratmışdır. Birinci ölkəmizin dünyada geniş autoriyaya malik nüfuzlu Avroviziya Mahnı Müsabiqəsindəə qələbəsi, ikincisi 155 dövlətin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi, bu yaxınlarda isə 2015-ci ildə ilk Avropa Olimpiya Oyunlarının Bakıda keçirilməsi barədə qərarın qəbul edilməsi həm dövlətimizin, həm də müvəqqəti və daimi milli diasporumuzun və lobbimizin uğuru hesab etmək olar **[7]**.

Hal-hazırda bu sahədə gənclərlə işə xüsusi əhəmiyyət verilir. Bildiyimiz kimi xaricdə Azərbaycanlılardan ibarət daimi və müvəqqəti diaspor kontingenti mövcuddur. Daimi diasporu əsasən müxtəlif vaxtlarda tarixi vətəndən miqrasiya edən və ikinci vətəndə məskunlaşan şəxslər təşkil edirsə, müvəqqəti diaspor potensialı, təhsil almaq və işləmək üçün xaricə üz tutan gənclər, uzunmüddətli ezamiyyətə göndərilən şəxslərdən ibarətdir. Birinci kateqoriyaya daxil olan işlərdə mexanizm yaradılıb və uğurla davam edir. İkinci ilə isə bir neçə ildir sistemli işə aparılır. Qeyd edək ki, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı" təsdiq edilmiş və burada əsas proritetlərdən biri gənclərin diaspor-lobbi quruculuğu işində iştirakının təmin edilməsi nəzərdə tutulmuşdur. Bununla konkret olaraq bu sahə ilə bağlı məsələlərin həyata keçirilməsi üçün aidiyyatı dövlət orqanları qarşısında vəzifələr qoyulmuşdur. Xarici ölkələrdə yaşayan azərbaycanlı gənclə-rin real potensialının müəyyən edilməsi məqsədilə xarici ölkələrdə təhsil alan və işləyən

gənclər haqqında məlumat bazasının yaradılması ilə bağlı təkliflərin hazırlanması, xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin fəaliyyətinin əlaqələndirilməsi üçün Dünya Azərbaycanlı Gənclərinin II Konqresinin keçirilməsi, Diaspor və lobbiçilik işinin təşkilində gənclərin iştirakının artırılması ilə əlaqədar "Xarici ölkələrdə təhsil alan və məzun olmuş azərbaycanlı gənclərin beynəlxalq forumlarının keçirilməsi" Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planında öz əksini tapmışdır **[8].**

Həmçinin, bu istiqamətdə konkret iş kimi 12 mart 2012-ci il tarixində Bakı şəhərində dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlı gənclərin Azərbaycan Respublikasının milli maraqlarının qorunması, xalqımızın zəngin mədəni irsinin təbliği, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması, soydaşlarımızın hüquq və azadlıqlarının müdafiəsi işinə cəlb olunması və beynəlxalq səviyyədə əməkdaşlığın təmin olunması məqsədilə təsis olunan Dünya Azərbaycan Gənclər Birliyinin fəaliyyətini qənaətbəxş hesab edə bilərik **[9]**. Bütün bunlar, Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsinə, koordinasiya edilməsinə və inkişafına töhfə verir. Bir daha Dünya azərbaycanlılarının milli həmrəyliyi və birliyinin təminatçısının müstəqil və suveren Azərbaycan Respublikası olduğunu sübut edir. Bu gün Azərbaycanın dövlət səviyyəsində həyata keçirdiyi diaspor siyasəti nəticəsidir ki, planetin hansı hissəsində yaşamasından asılı olmayaraq azərbaycanlıların "vahid ailə" kimi birləşməsinə zəmin yaranıb. Hazırda bu sahədə yeni mərhələyə başlanılmışdır. Belə ki, xaricdə Azərbaycanın mədəniyyət və ticarət evlərinin yaradılması, milli tariximizi əks etdirən eksponatların sərgisinin keçirilməsi, milli brend məsullarından ibarət yarmarkaların təşkili kimi tədbirlərin reallaşdırılması ənənəsinin davam etdirilməsi mühüm əhəmiyyətə malikdir.

Hazırda biz informasiyanın sürətlə hərəkət etdiyi və dominantlıq etdiyi bir dövrdə yaşayırıq. Buna görə də bu sahədə müasir təsisatlar yaratmaq və internetin imkanlarından maksimim dərəcədə istifadə etmək lazımdır. Beynəlxalq fəaliyyətə keçmək, yaxın diasporlarla birgə fəaliyyət haqqında əməkdaşlıq etmək vacibdir. Lobbi institutu təsis edilməli, proqramlar hazırlanmalı və onların icra mexanizmi yaradılmalıdır. Diaspor sahəsində lider institutu yaradılmalı, diaspor təşkilatlarına rəhbərlik etmək istəyində olan şəxslərin hazırlanması, onlarda siyasi mədəniyyətin və təşkilatçılıq qabiliyyətinin yüksəldilməsi məqsədilə treniqlər təşkil edilməlidir. Akademik dairələri habelə qeyri hökumət təşkilatlarını bu işə cəlb etmək gərəkdir. Xarici ölkələrin mətbuat orqanlarında Azərbaycanla bağlı materiallar yerləşdirilməli, Azərbaycanlı alimlərin iştirakı ilə elm-təhsil müəssələrində Azərbaycan günləri keçirilməli, mühazirə və seminarlar təşkil olunmalıdır. Azərbaycanlıların müəllifi olduğu kitabları tərcümə edərək kitabxanalarda, universtetlərdə sərgisinin təşkil edilməlidir. Muzeylərdə ölkəmizin tarixini-mədəniyyətini əks etdirən eksponatlardan ibarət güşələr yaradılmalıdır. Azərbaycanlıların elm-təhsil ocaqlarında, radio-televiziyada işləmələrinə, seçkili orqanlarda iştirakına dəstək verilməlidir. Zənnimizcə, bütün bunlar milliyi qorumaqla, bəşəri inkişafa töhfə vermək məqsədi daşımalıdır. Çünki, əsl vətəndaşlıq olmaq üçün milli təsübkeşliklə bəşəri ruhun birləşməsindən keçir.

## Ədəbiyyat

1. Qasımlı M. Heydər Əliyev - İstiqlala gedən yol (1969-1987-ci illər). Bakı, 2006
2. Arzumanlı V. Azərbaycan Diasporu. Bakı, Qartal, 2001
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəsmi saytı - www.mfa.gov.az
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin prezident kitabxanası -

www.files.preslib.az
5. Azərbaycan Diasporu: Böyük yolun başlanğıcı. Bakı, Çaşıoğlu, 2006
6. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı: www.president.az
7. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı - www.diaspora.gov.az
8. "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət proqramı
9. Vikipediya Açıq Ensklopediya - http://az.wikipedia.org/wiki/D%C3%BCnya_Az%C9%99rbaycanl%C4%B1_G%C9%99ncl%C9%99r_Birliyi

## REAFFIRMATION OF THE INDEPENDENCE OF AZERBAIJAN AND AZERI ORGANIZATIONS ABROAD

**Y.M.Babanli**

### SUMMARY

This article is about the work done in the field of creating Azeri organizations abroad following the reaffirmation of Azeri independence. The author makes some suggestions to improve the current situation in this field.

## ВОССТАНОВЛЕНИЕ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ И ПРОЦЕСС ОРГАНИЗАЦИИ АЗЕРБАЙДЖАНЦЕВ, ПРОЖИВАЮЩИХ ЗА РУБЕЖОМ

**Я.М.Бабанлы**

### РЕЗЮМЕ

Статья повествует о работе по организации проживающих за рубежом азербайджанцев после восстановления независимости Азербайджана. Для улучшения текущей ситуации в этой области выдвинут ряд предложений.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2013 - № 37**

UOT № 323

# AZƏRBAYCAN-TÜRKİYƏ İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİNİN İNTEQRASİYA POTENSİALI

**Ramazan Uslu**
Ağrı Universiteti
Erzurum Yolu 4 Km 04100 Merkez, Ağrı, Türkiyə
e-mail: ruslu@hotmail.com

***Açar sözlər:*** Azərbaycan, Türkiyə, türk dünyası, regional əlaqələr, Dağlıq Qarabağ münaqişəsi, strateji münasibətlər, Atatürk, inteqrasiya
***Keywords:*** Azerbaijan, Turkey, Turkic world, regional relations, the Nagorno-Karabakh conflict, strategic relationships, Ataturk, integration
***Ключевые слова:*** Азербайджан, Турция, тюркский мир, региональные отношения, Нагорно-Карабахский конфликт, стратегические отношения, Ататюрк, интеграция

Azərbaycan-Türkiyə münasibətlərinin sürətli inteqrasiya müstəvisinə keçmə potensialını araşdırmaq üçün, ilk növbədə, bu ölkələrin bu aspektdən ikitərəfli münasibətlərini təhlil etmək lazımdır.

Azərbaycan-Türkiyə münasibətlərində iqtisadi, hətta siyasi inteqrasiyanı əngəlləyə bilən nəinki əsaslı səbəb yoxdur, bu iki ölkənin və xalqın birləşməsi əslində təbii haldır. Burada məşhur "bir millət, iki dövlət" formulunun yada salınması yerinə düşür. Başqa sözlə, bu xalqları ilk növbədə onların dilləri, tarixləri, mədəniyyətləri, dini mənsubiyyəti, digər ölkə və xalqlarla oxşar münasibətləri birləşdirir. Son üç əsr ərzində Azərbaycanın müstəmləkə əsarətində olması bu ölkələr arasında əlaqələrin, demək olar ki, kəsilməsinə səbəb olmuşdu. Bununla bərabər, əvvəl Rusiya imperiyasının, sonra isə Sovet İttifaqı rəhbərliyinin bütün qadağalarına baxmayaraq, mədəniyyət və ədəbiyyat sahəsində gizli münasibətlər saxlanılırdı. Onu da qeyd etmək vacibdir ki, Azərbaycanın 1918-ci ildə Rusiyadan əldə etdiyi ilk müstəqilliyi çox qısa bir müddət - iki ildən az - davam etsə də, bu dövr ərzində Azərbaycan-Türkiyə əlaqələri müəyyən dərəcədə bərpa olunmuşdu. Lakin 1920-ci ildə Sovet ordusunun təcavüzü nəticəsində Azərbaycan bu dəfə Sovet imperiyasının əsarəti altına düşmüş və ölkələr arasındakı münasibətlər yenidən kəsilmişdi (11, s.53-56).

Yalnız XX əsrin sonlarında, Azərbaycan növbəti dəfə müstəqillik əldə etdikdən sonra iki ölkə arasında münasibətlər yenidən bərpa olunmuşdur. O vaxtdan keçən 20 il ərzində Azərbaycan-Türkiyə münasibətləri bütün sahələrdə inkişaf etmişdir. Qısa müddət ərzində bir çox ölkələri sıxışdıraraq, Türkiyə ticarət dövriyyəsinə görə Azərbaycanın əsas tərəfdaşına çevrilmişdir.

Burada çox vacib bir məqamı da qeyd etmək zəruridir. Azərbaycan-Türkiyə inteqrasiyasından danışılanda bəzən bu ölkələrin bir federativ dövlətdə birləşməsi haqqında fikirlər səslənir. Müasir dövrdə belə təkliflərin meydana çıxmasının iki əsas səbəbi vardır. Birincisi, Azərbaycan və Türkiyə xalqlarının yaxınlığı təkzibolunmaz bir reallıqdır. Digər səbəb siyasi-hərbi xarakterlidir və Azərbaycanın təhlükəsizliyinin təmin olunması tələbindən irəli gəlir: əvvəla, Azərbaycan Ermənistan tərəfindən geniş miqyaslı təcavüzə məruz qalmışdır (torpaqlarının 20%-i işğal edilmişdir) və, məlum olduğu kimi,

düşmən dövlətin təcavüzkar planları bununla bitmir: bütün beynəlxalq hüquq normalarına zidd olaraq, Naxçıvana, digər Azərbaycan və Türkiyə torpaqlarına iddialar açıq şəkildə səslənir. Bu baxımdan, vahid dövlət planı əhəmiyyətli dərəcədə cəlbedici və cazibədar görünür. Lakin belə təklifləri irəli sürərkən nəzərə almaq lazımdır ki, bu halda BMT-də və digər beynəlxalq qurumlarda bir səs itirilir. Başqa sözlə, bu halda xarici siyasətdə, beynəlxalq münasibətlərdə alternativ seçim, manevr, diplomatik təsir imkanları bir qədər məhdudlaşır ki, bu da nə Türkiyənin, nə də Azərbaycanın maraqlarına uyğun deyil (12, s.78-81).

Ümumilikdə isə, Azərbaycanla Türkiyə arasında elm, təhsil və mədəniyyət sahəsindəki əməkdaşlığın siyasi tərəfdaşlıq istəkləri səviyyəsində həllinə dair tarixdən bir cox faktlar ortaya qoymaq mumkundur. Məsələn, hələ 1918-ci il sentyabrın 6-da Sultan VI Mehmetin İstanbulda Azərbaycan numayəndələri, oktyabr ayında isə Azərbaycanın İstanbuldakı fövqəladə səlahiyyətli numayəndəsi Ə.M.Topcubaşovla görușu zamanı tərəflər Osmanlı və Azərbaycan türkləri arasında qardaşlıq munasibətlərinin movcud olduğunu bildirirdilər. Sultan VI Mehmet Ə.M.Topcubaşova xitabən qeyd etdi: "Əmin ola bilərsiniz ki, Osmanlı türkləri heç vaxt sizdən koməyini əsirgəməyəcəkdir" (5, s.66).

Tədqiqatcıların qənaətinə görə, Azərbaycan–Türkiyə əlaqələri tarixinin ən az bilinən qismi; Azərbaycan SSR dovrudur. Halbuki, 1920-1922-ci illər arasında TBMM ilə Azərbaycan hokuməti arasında həm diplomatik, həm siyasi və həm də iqtisadi əlaqələr vardı. 1920-ci ilin sonunda TBMM Azərbaycanda təmsilcilik acmış, bir il sonra da Azərbaycanın təmsilciliyi Ankarada acılmışdır. Azərbaycan bundan başqa Kars, Trabzon və Samsunda olmaqla, Türkiyədə uc konsulluq yaratmışdır. Bu dovr muddətində Azərbaycan, Türkiyə Milli Azadlıq Hərəkətinə də imkan daxilində maddi və mənəvi yardımlar etməyə calışmışdı (8, s.25).

Vaxtilə Türkiyə hərbi-siyasi və iqtisadi cəhətdən, çətin vəziyyətlə üzləşəndə Mustafa Kamal Paşa özu N.Nərimanova məktub yazmış və borc pul verməsini xahiş etmişdi. Türkiyənin səfiri Məmduh Şovkət bəy 1921-ci il martın 17-də həmin məktubu Nərimanova catdırdı. Nərimanov dərhal 500 kiloluq qızıl gondərdi. Bunun 200 kilosu budcə üçün saxlanmış, qalanı isə ayrı xərclərə sərf olunmuşdu. Daha sonra Rusiyadan 10 milyon qızıl yenə gondərildi. Türkiyənin vəziyyəti bundan sonra bir qədər yungulləşmiş oldu.

N.Nərimanov Mustafa Kamal Paşaya yazırdı: "Paşam qardaş qardaşa borc verməz, əl tutar" (8, s.43). Bununla belə, Azərbaycanın türk dövlətləri ilə munasibətlərinin birinci mərhələsində əlaqələri Türkiyə ilə Moskva tərəfindən tənzimlənən əlaqələr cərcivəsindən kənara cıxmamış, yalnız iqtisadi, mədəni və humanitar xarakter daşımışdır (13, s.228).

Mustəqilliyimizin yenidən bərpasından sonra isə bu munasibətlərdə daha sıx yaxınlaşma muşahidə olunmağa başladı. Şubhəsiz ki, bu sahədə istənilən nəticələr əldə edilməsi birdən-birə mumkun olmadı və tərəflər bir cox problemlərlə qarşılaşdılar. Belə ki, Türkiyənin 1992-ci ildən "Türkdilli dövlətlər birliyi" yaratması və otən illərdə region olkələrinə 1,5 milyard dollar vəsait ayırması da bolgə olkələrinin praqmatik siyasəti nəticəsində gözlənilən nəticəni vermədi. Lakin buna baxmayaraq, Türkiyə regionun kifayət qədər nufuzlu, əhali arasinda rəğbət qazanan olkəsinə cevrilə bildi. Xususən, bu gun Azərbaycan və Gurcustanda bu olkənin muvqeyi həddən artıq mohkəmdir (9, s.560-561).

Türkiyənin Qafqaz siyasətinə həm strateji maraqlar (NATO blokunun umumi strateji maraqları), həm Türkiyənin öz milli mənafeləri, həm etnik (Qafqazda yaşayan türk-

dilli xalqların dəstəyini qazanmaq, onlara lazımi himayə gostərmək), həm də dini amillər (Qafqazın musəlman əhalisinin İranın təsirinə duşməsinin qarşısını almaq) özunu daim qabarıq şəkildə buruzə vermişdir. Hətta, bəzən Türkiyə özünün strateji və milli maraqlarını təhlükə altına qoyaraq, acıq şəkildə etnik-dini təəssubkeşlik numayiş etdimiş (Qərb dövlətləri buna görə Türkiyəni qınamış və belə dövlətə güvənməyin qeyri-mumkun olduğuna eyham vurmuşlar) və nəticədə öz müttəfiqləri ilə munasibətlərinə sərinlik gətirmişdir.

SSRİ-nin movcud olduğu və bugunku türk-musəlman xalqlarının hələ milli mustəqillik əldə etmədiyi dovrdə Qərb dövlətləri Türkiyənin belə hərəkətlərini muəyyən qədər dəstəkləyir, təbii qəbul edir və bunu Türkiyənin guclənməsi, türk-musəlman birliyinin real təhlukəsi kimi qiymətləndirmirdilər. Əslində, Qərbin SSRİ-nin bu qəbildən olan əhali qrupuna təsir göstərmək, həmin xalqları Moskvadan narazı salmaq və onlarla hansısa şəkildə iş aparmaq üçün başqa imkanı da yox idi (14, 110-112).

Lakin SSRİ-nin dağılması, mustəqil dövlətlərin yaranması ilə Qərb Türkiyənin bu dövlətlər və xalqlar arasında mohkəmlənməsinə, onları etnik-dini yaxınlıqdan istifadə edərək öz ətrafında birləşdirməsinə və beləliklə də, Avropada öz movqeyini daha da guclənditməsinə hec bir vəchlə yol verə bilməzdi. Odur ki, Qərb dövlətləri Türkiyənin Qafqazda, Orta Asiyada “NATO-nun umumi maraqlarını qorumaq” adı altında vaxtilə dəstəklənən sərbəst və təkbaşına fəaliyyətini hazırda o qədər də qəbul etmirlər.

## Ədəbiyyat

1. Abbasbəyli A., Atmaca T. Muasir dovrdə Azərbaycan və Türkiyə munasibətləri. // Dircəliş XXI əsr, 1998, № 10, s.33-37.

2. Abbasov A. Atatürkun maarif, mədəniyyət və incəsənətə dair fikirləri. // Bilgi dərgisi, təhsil, mədəniyyət, incəsənət seriyası, 2000, № 2, s.6-10.

3. Abdullayev M. Azərbaycan–Türkiyə əlaqələri. Bakı, Mutərcim, 1998, 112 s.

4. Abdullayev M.İ. Azərbaycan–Türkiyə mədəni əlaqələrində yeni mərhələ (1970 – 1990-cı illər). // Dövlət və huquq, Bakı, 1998, №1, s.149-152.

5. Abdullayev M. Beynəlxalq munasibətlər tarixi (XX əsr). Dərs vəsaiti. Bakı, ABU-nun “Beynəlxalq Universitet” nəştiyyat və poliqrafiya mərkəzi, “Təhsil” EİM, 2003, 540 s.

6. Azərbaycanda Atatürk Mərkəzinin 2002-ci il üçün hesabatı. Bulleten (Azərbaycanda Atatürk Mərkəzinin rubluk nəşri), AzAtaM (Qış buraxılışı), Bakı, 2002, s.15-24.

7. Azərbaycanda Atatürk Mərkəzinin rəsmi acılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Bülleten (Azərbaycanda Atatürk Mərkəzinin rubluk nəşri), AzAtaM, Bakı, 2004, №2 (10), s.6-8.

8. Azərbaycanda Atatürk və Türkiyə Cümhuriyyəti araşdırmaları (1941–2003). Biblioqrafiya (tərtib edən: Samirə Məmmədova). Bakı, AzAtaM, 2003, 130 s.

9. Həsənov Əli. “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti”. Bakı, 2005, 686 s.

10. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyinə həsr olunmuş elmi-praktiki konfrans. Bakı, AMEA, 2002, 128 s.

11. Azərbaycan–Türkiyə əlaqələri butun sahələrdə və səviyyələrdə qardaşlıq, dostluq uzərində qurulmuşdur. Dircəliş – XXI əsr, 2005, xususi buraxılış, s.51-58.

12. Kemal O. Dunyada türk cumhuriyetleri, türk halkları. İmal yayınevi, Ankara, 2002, 106 s.

13. Kona G.G. Türkiye ve Azerbaycan Cumhuriyetleri arasındaki ilişkilerin geliştirilmesinde folklorik ünsürlerin gücü ve önemi. AMEA-nın Folklor İnstitutu, "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə" II Uluslararası Folklor Konfransının materialları. Bakı, 17-21 mart 2004-cü il, s.221-236.
14. Алиев И.О. О некоторых вопросах этнической истории Азербайджанского народа. Баку, Нурлан, 2002, 160 с.

## POTENTIAL FOR AZERI-TURKISH INTEGRATION

**Ramazan Uslu**

## SUMMARY

Turkish-Azeri relations have always been based on the common history and culture, the coincidence of strategic interests in the geopolitical aspect, both in the times of Ottoman Empire and in our days. This paper examines the main priorities of strategic cooperation between two states. The author analyzes the policy pursued by the Turkish government in the Nagorno-Karabakh problem, the participation of Turkish companies in the transportation of Azeri oil to Turkish sea ports, etc.

## ИНТЕГРАЦИОННЫЙ ПОТЕНЦИАЛ ДВУСТОРОННИХ АЗЕРБАЙДЖАНО-ТУРЕЦКИХ ОТНОШЕНИЙ

**Рамазан Услу**

Турецко-азербайджанские отношения основаны на общих истории и культуре, совпадении стратегических интересов в геополитическом аспекте как во времена Оттоманской империи, так и в наши дни. В статье исследуются основные приоритеты регионального стратегического сотрудничества этих двух государств. Представлен анализ официальной политики турецкого правительства относительно Нагорно-Карабахской проблемы, участия турецких предприятий в транспортировке азербайджанской нефти через турецкие морские порты и др.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 323

# TÜRKİYƏ-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNDƏ REGİONAL STRATEJİ ƏMƏKDAŞLIQ PRİORİTETLƏRİ

**R.S.Hüseynov**
AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu
Bakı AZ1001, İstiqlaliyyət küçəsi 8
e-mail: r_huseynov008@mail.ru

***Açar sözlər:*** Azərbaycan, Türkiyə, əməkdaşlıq, tərəfdaşlıq, türk dünyası, regional əlaqələr, strateji münasibətlər, strateji maraqlar
***Keywords:*** Azerbaijan, Turkey, cooperation, partnership, Turkic world, regional relations, strategic relationships, strategic interests
***Ключевые слова:*** Азербайджан, Турция, сотрудничество, партнёрство, тюркский мир, региональные отношения, стратегические отношения, стратегические интересы

Türkiyə ilə Azərbaycan arasındakı əlaqələr istər Osmanlı, istərsə Cumhuriyyət dövründə milli, mədəni, tarixi irsin, mənəvi əlaqələrin ümumiliyi, geosiyasi və strateji maraqların bir çox cəhətdən üst-üstə düşməsi ilə şərtlənir. Osmanlı dövründəki qarşılıqlı əlaqələrdə müəyyən ziddiyyətlər yaransa da, Cumhuriyyət dövründə bu əlaqələr əsasən müsbət xarakter daşımış və hər iki dövlətin fəal səmərəli əməkdaşlığını təmin etmişdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra bu əlaqələr daha da güclənmişdir. Bu da mövcud əlaqələrin gələcəkdə daha da möhkəmlənməsinə şərait yaratmışdır. Region dövlətləri arasında reallaşdırılan layihələr subregional inteqrasiyanın, sülh və sabitliyin, nəqliyyat təhlükəsizliyinin möhkəmlənməsinə öz töhfəsini verəcəkdir.

Türkiyə dövlətinin Azərbaycanın üzləşdiyi ən böyük problem olan Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu mövqe də birmənalıdır. Dost ölkə münaqişənin beynəlxalq hüquq normaları çərçivəsində və Azərbaycanın ərazi bütövlüyünün qorunması şərtilə həllinə tərəfdardır (1, s.34-35). Türkiyə dövləti beynəlxalq təşkilatilar çərçivəsində də Azərbaycanın haqlı mövqeyini daim dəstəkləyir. Ölkə başçılarının qarşılıqlı səfərləri bütün sahələrdə əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə müsbət təsir göstərməkdədir. Türkiyə Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, beynəlxalq hüquq normalarına müvafiq həllinin tərəfdarıdır və öz regional siyasətini həmin istiqamətdə qurur. Ümumiyyətlə, Türkiyə Dağlıq Qarabağ münaqişəsində digər "güc mərkəzləri"nə nisbətən həmişə birtərəfli, düzgün siyasi mövqe nümayiş etdirir. Türkiyənin Azərbaycanda strateji maraqları Dağlıq Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərir. Lakin Türkiyə münaqişənin həllində vasitəçi rolu oynamadığından, bir qədər kənarda qalmaq məcburiyyətindədir (2, s.7-8).

Türkiyənin Azərbaycanda strateji maraqlarının təmin edilməsinin Dağlıq Qarabağ münaqişəsinə təsir edən müsbət tərəflərini aşağıdakı şəkildə göstərmək olar:

1. Azərbaycanla Türkiyə arasındakı tarixi dostluq və strateji tərəfdaşlıq münasibətləri Azərbaycan dövlətinin regionda siyasi mövqeyinin möhkəmlənməsini şərtləndirir;

2. Türkiyə ilə olan yaxın münasibətlər Azərbaycanın NATO ilə inteqrasiyasına müsbət təsir edir. Iki dövlət arasındakı hərbi əlaqələr Azərbaycan ordusunun güclənməsinə

xidmət edir ki, bu da gələcəkdə Dağlıq Qarabağın işğaldan azad olunması uğrunda başlaya biləcək müharibədə Azərbaycan ordusunun qələbəsinə inamı daha da artırır;

3. Türkiyənin Azərbaycanın enerji sektorunda və digər iqtisadi sahələrdəki strateji maraqlarının təmin edilməsi bu dövlətin Azərbaycana olan siyasi diqqətini artırır;

4. Türkiyənin ABŞ və Qərbi Avropa ilə hərbi-siyasi əməkdaşlığı və NATO-da iştirakı Rusiya və İranın Azərbaycana təzyiqlərini əhəmiyyətli dərəcədə neytrallaşdırır. Bu amil Dağlıq Qarabağ münaqişəsinin həllində Rusiya və İranın birtərəfli siyasətinin dərinləşməsinin qarşısını alır;

5. ABŞ-ın xüsusi maraq kəsb etdiyi Azərbaycanın enerji layihələrinin Türkiyə ərazisindən keçməsi və bu layihələrin reallaşmasında Türkiyəyə arxalanması Türkiyənin regiondakı nüfuzunu artırır və bu amil Ermənistanın regionda işğalçılıq siyasətinin qabağını kəsir;

6. Türkiyənin işğalçı Ermənistanla rəsmi əlaqələr qurmaması, Ermənistan önündə Azərbaycan torpaqlarının işğaldan azad edilməsi şərtini qoyması Ermənistanın Dağlıq Qarabağ münaqişəsinə dair mövcud qeyri-ədalətli mövqeyini dəyişə bilər;

7. Cənubi Qafqazın mühüm iqtisadi layihələrindən Ermənistanın kənarlaşdirilmasında Azərbaycanla Türkiyənin vahid siyasəti Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən əl çəkməsinə müsbət təsir edə bilər (3, s.42-49).

Türkiyənin Azərbaycandakı strateji maraqlarının təmin edilməsi Dağlıq Qarabağ münaqişəsinə öz mənfi təsirlərini də göstərir. Belə ki, Qafqaz və Qara dəniz bölgəsi Rusiya və Türkiyə arasında tarixi müharibələr məskəni olmuşdur. Hazırda da hər iki dövlətin regionda ciddi strateji maraqları formalaşmışdır. Bu maraqların təminatı ilə əlaqədar həyata keçirilən xarici siyasət arasında toqquşmalar mövcuddur. Türkiyənin Azərbaycandakı maraqlarını Rusiya öz dövlətçiliyi üçün təhlükə hesab edir. Rusiya ərazisində türkdilli qurumlar mövcuddur. Həmin qurumların Türkiyəyə inteqrasiyasını Rusiya qəbul etmir. Bu səbəbdən Türkiyənin təsirlərini azaltmaq məqsədilə Rusiya Cənubi Qafqazda Türkiyəyə qarşı güclənmək məcburiyyətindədir. Azərbaycan Rusiyadakı türkdilli qurumların Türkiyəyə inteqrasiyasında əlverişli geosiyasi mövqeyə malikdir. Rusiya Azərbaycanın Türkiyə ilə sıx münasibətlərindən ehtiyatlanaraq Azərbaycana təzyiq vasitəsi olaraq Dağlıq Qarabağ münaqişəsini dəstəkləyir. Rusiya və İran Türkiyənin Azərbaycanda və Gürcüstanda hərbi-siyasi maraqlarının təmin olunmasına NATO-nun region maraqları kimi baxır. Bu səbəbdən də Rusiya və İran Azərbaycanın NATO-ya inteqrasiyasının qabağını kəsmək məqsədilə Dağlıq Qarabağ münaqişəsində Ermənistanı müdafiə edirlər. Türkiyənin türk dünyası siyasəti İranın dövlətçiliyi üçün təhlükə olduğundan Türkiyənin region maraqlarının əleyhinə olaraq İran Ermənistanı müdafiə edir.

Sadalanan fikirlərdən belə bir nəticə ortaya çıxır ki, Türkiyənin Azərbaycandakı strateji maraqlarının təmin edilməsi uğrunda həyata keçirdiyi siyasət Dağlıq Qarabağ münaqişəsinin həllinə həm müsbət, həm də mənfi təsir edir. Mənfi təsirlərə baxmayaraq, Türkiyə Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllını özünün Azərbaycanda və bütövlükdə Cənubi Qafqazdakı strateji maraqlarının yüksək səviyyədə təmin edilməsi üçün mühüm şərt hesab edir və bu istiqamətdə pözitiv siyasət həyata keçirir. Azərbaycan dövlətinə isə Türkiyənin Dağlıq Qarabağla bağlı mövqeyi və beynəlxalq siyasəti sərf edir.

Ümumilikdə, ölkələrarası strateji əməkdaşlıq və iqtisadi inteqrasiyanın iki mühüm, zəruri aspekti vardır:

- resursların birləşməsi üçün əlverişli şəraitin – uyğun qanunvericiliyin, informasiya təminatının, infrastruktur və institusional mühitin yaradılması;
- milli iqtisadiyyatların faktiki yaxınlaşması – ticarət dövriyyəsinin, qarşılıqlı investisiyaların, əmək resursları axınının sürətli artımı, informasiya və texnologiya mübadiləsinin güclənməsi (4, s150-151).

Azərbaycanla Türkiyənin strateji iqtisadi əməkdaşlığının əsasını Xəzərin karbohidrogen resurslarına əsaslanan enerji layihələri təşkil edir. Bu layihələrin əsas məqsədi Avropanın enerji təhlükəsizliyinin təminatı – enerji mənbələrinin çeşidlənməsi vasitəsilə Avropanın Rusiyadan enerji asılılığının azaldılmasıdır.

Enerji sahəsində Azərbaycan-Türkiyə əməkdaşlığı Türkiyə şirkətlərinin bu layihələrdə iştirakı və Bakı neftinin Türkiyə limanlarına nəqli ilə məhz bu layihələrdən başlanmışdır. Gürcüstanın bu layihələrə cəlb olunması yalnız növbəti mərhələdə, Azərbaycan neftinin Türkiyəyə boru vasitəsilə çatdırılması - Bakı-Tbilisi-Ceyhan (BTC) və Bakı-Tbilisi-Ərzurum (BTƏ) neft və qaz kəmərlərinin çəkilməsi qərarından sonra baş verdi və beləliklə, üçtərəfli əməkdaşlığın əsası qoyuldu. Bu işbirliyində maraqlı olan Avropa ölkələri də regionda iqtisadi inteqrasiyaya təkan verirlər (5, s.130).

Öz növbəsində xarici siyasətlərini bu cür regional inteqrasiya yönümündə quran Azərbaycanla Türkiyə iqtisadi və sosial inkişafın sürətlənməsi, daxili bazarların daha çox açılması və bu yöndə meydana çıxan problemlərin aradan qaldırılması istiqamətində islahatlar həyata keçirir. Bu qayələrin gerçəkləşdirilməsi məqsədilə ölkələrarası birgə fəaliyyət planları işlənib həyata keçirilir. Apardığımız təhlil bu tip planların müəyyən prinsiplərə əsaslandığını göstərir:

- Siyasi məqsədəuyğunluluq. Təcrübə göstərir ki, regiondakı beynəlxalq münasibətlərdə bu amil yüksək əhəmiyyətə kəsb edir. Ermənistanın meqalayihələrdən kənarda qalması da məhz bununla izah olunur.
- Biznes və kommersiya maraqları. Bir çox ölkədə (o cümlədən Aİ, Türkiyə, Cənubi Qafqaz və Orta Asiya ölkələrində) liberal bazar iqtisadiyyatı dəyərlərinin prioritetliyi elan olunduğundan imzalanan dövlətlərarası iqtisadi sənədlərdə biznes strukturlarının mənfəət maraqları ön plana çəkilir.
- Ortaq dəyərlərə bağlılıq. Burada əsasən iqtisadi dəyərlər qabardılsa da, digər motivlər də çox ciddi şəkildə nəzərə alınır.
- Sosial-iqtisadi inkişaf. Birgə fəaliyyət planı hər iki ölkənin iqtisadi və sosial tərəqqisini təmin etməlidir. Bu məsələ tranzit ölkələr üçün xüsusilə əhəmiyyətlidir. Burada konkret vəziyyətdən asılı olaraq, mövcud çoxsaylı mexanizmlərdən və ya onların kombinasiyalarından istifadə oluna bilər. Təcrübə göstərir ki, zəif, o cümlədən tədqiq olunan ölkələr üçün yetərli olan əsas mexanizm inkişaf etmiş ölkələrin şirkətlərinin qeyri-neft sektoruna yatırdığı və qabaqcıl texnologiyalara əsaslanan xarici real investisiyalardır.
- Digər əmtəə və xidmətlərin ticarəti. Bu məsələdə bir sıra aspektlər mövcuddur.
- Enerji ticarəti. Avropa Birliyi ölkələri üçün bu bənd xüsusi əhəmiyyətə malik olsa da, "Avropa qonşuluq siyasəti"ndə bu mövzu çox qabardılmır və beləliklə, tranzitiv ölkələrin maraqlarının prioritetliyi təsəvvürü yaranır. Əslində isə Avropa Birliyi üçün enerji amili olduqca önəmlidir, çünki Birliyin onsuz da yüksək olan enerji asılılığı proqnözlara görə sürətlə artacaqdır, belə ki, əgər hazırda idxal məcmu istehlakın 50%-ni təşkil edirsə, 2030-cu bu, 80%-ə çatacaqdır və bu səbəbdən də Aİ-nin son 50 ildə Şərqə yönəlik irəli sürdüyü inteqrasiya təşəbbüsləri əslində tamamilə enerji strategiyası və enerji əməkdaşlığı üzərində qurulmuşdur (5, s.141-158).

Azərbaycan hokuməti Türkiyə ilə munasibətlərin normal, sivil, qrşılıqlı faydalı iqtisadi-siyasi əməkdaşlıq və tərəfdaşlıq mustəvi uzərinə kecirmək üçün cox ciddi və məqsədyonlu iş apararaq, tezliklə musbət nəticələrə nail oldu. Hər şeydən əvvəl, region dövlətlərini və beynəlxalq qurumları iki olkə arasındakı munasibətlərin əvvəlki dovrdə olduğu kimi sırf etnik amillər əsasında deyil, iki mustəqil dövlətin beynəlxalq birgəyaşayış normalarına soykənən qarşılıqlı mənafeyi uzərində qurulduğuna inandırmaq mumkun oldu. Bu da Azərbaycanın beynəlxalq munasibətlər sisteminə daha uğurlu inteqrasiyası qarşısında əlverişli imkanlar acdı (8, s.32).

Müxtəlif dövlətlərin, o cümlədən, region ölkələrinin bu layihələrin gerçəkləşdirilməsindən əldə etdikləri dividendlər içərisində aşağıdakıları xüsusi qeyd etmək vacibdir:

1. Bölgə ölkələrinin sosial-iqtisadi inkişafına verilən təkan.
2. Bölgədə inteqrativ proseslərin güclənməsi. BTC-nin davamınca hər üç ölkənin iştirakı ilə BTƏ kimi digər meqalayihə gerçəkləşmiş və Bakı-Tbilisi-Kars (BTK) dəmiryol meqalayihəsinin də reallaşdırılması nəzərdə tutulur. Bundan başqa məhz BTC-dən sonra regionda ticari əlaqələr və ölkələrarası əmək miqrasiyası gücləndi.
3. Həm Avropa, həm də bölgə ölkələrinin Rusiyadan asılılığını xeyli azaltması. İndiki mərhələdə Azərbaycanın uduşu yalnız öz neftinin ucuz və alternativ kəmərlə Avropaya daşımaqdan ibarətdirsə (əvvəllər Bakı nefti Novorossiyskdən nəql olunurdu), AB ölkələrinin uduşu ikiqatdır: həm fərqli enerji mənbəyi, həm də fərqli nəql marşrutu: "BTC Layihəsi özəlliklə Azərbaycanın Rusiyadan asılılığını azaltmaq baxımından olduqca önəmlidir. Türkiyə və Gürcüstan isə tranzit ölkələrdir" (9, s.213).

Araşdırmalara görə, yaxın 30-70 ildə qlobal enerji böhranı qaçılmazdır. Belə resursların tükəndiyi bir şəraitdə Qafqaz və Trans-Qafqaz neft layihələrinin önəmi əhəmiyyətli dərəcədə artır. Digər tərəfdən bu layihələr onlara cəlb olunmuş və oxşar sosial-iqtisadi inkişaf səviyyəsinə malik olan region ölkələri - Azərbaycanla Türkiyə arasında əməkdaşlığın dərinləşməsi üçün stimul yaradır. İnteqrasiya prosesinin reallığını təsbit edən bir sıra amillər vardır. Bunların içərisində ən əhəmiyyətlisi artıq həyata keçirilən və ya reallaşdırılması nəzərdə tutulan layihələrdir ki, bunlar bütün iştirakçı dövlətlərə böyük dividendlər gətirir. İkinci amil bu dövlətlərin Avropa İttifaqına inteqrasiya və Qərbin mütərəqqi dəyərlərinə, xüsusən də müasir texnologiyalara yiyələnmə məqsədidir. Burada həm nəzəri, həm də təcrübi xarakterli bir məqam maraq kəsb edə bilər. Azərbaycan və Türkiyə arasında kifayət qədər güclü inteqrativ əlaqələr yaranarsa, bu, hər iki ölkənin Aİ-yə daxil olmasını asanlaşdıra da bilər.

İstənilən halda regionda strateji tərəfdaşlıq statusu Aİ-yə üzvlük prosesində, sözsüz ki, mühüm bir arqumentə çevrilə bilər. Regional inteqrasiyanın real olaraq möhkəmlənməsi hər iki ölkənin beynəlxalq nüfuzunu artırar, başqa dövlətlərin onlara münasibətlərində güclü transformasiyaya səbəb olar.

İki ölkə arasında inteqrasiyanın gömrük ittifaqına qədər yüksəlməsi nəticəsində də bu ölkələr aşkar uduşlar əldə edə bilərlər. Əvvəla, bu, sərhəd və gömrük prosedurlarının sadələşdirilməsi nəticəsində bir tərəfdən ölkələrarası ticarətin və deməli, daxili istehsalın daha da stimullaşdırılmasına, digər tərəfdənsə dövlətin əlavə xərclərdən azad olmasına, üçüncüsü isə, bəzi hallarda sərhədlərdə və gömrük terminallarında mövcud olan korrupsiya və süründürməçilik hallarının xeyli azalmasına gətirib çıxarar. Azərbaycan-Türkiyə işbirliyində ciddi problemin olmaması aşkardır. Tarixləri, dilləri, dinləri bir olan bu iki cəmiyyəti ayıran yalnız sərhədlərdir (10, s.109-111).

Tarixdə sürətli inteqrasiya, yəni iki və ya daha çox ölkə və ya xalqın qısa bir zamanda inteqrasiyanın yüksək pillələrini reallaşdırması halları az olmamışdır. Lakin, demək olar ki, həmişə bu, icbari inteqrasiya olmuşdur, başqa sözlə, bəzi ölkələrin digərləri tərəfindən zəbt olunması hesabına baş vermişdi. Burada təklif olunan variant isə bu hallardan köklü surətdə fərqlənir, könüllülük əsasında və qarşılıqlı uduşu nəzərdə tutur.

## Ədəbiyyat

1. Abbasbəyli A., Atmaca T. Muasir dovrdə Azərbaycan və Türkiyə munasibətləri. // Dircəliş, XXI əsr, 1998, №10, s.33-37.

2. Abbasov A. Atatürkun maarif, mədəniyyət və incəsənətə dair fikirləri. // Bilgi dərgisi, təhsil, mədəniyyət, incəsənət seriyası, 2000, №2, s.6-10.

3. Abdullayev M. Azərbaycan–Türkiyə əlaqələri. Bakı, Mutərcim, 1998, 112 s.

4. Abdullayev M.İ. Azərbaycan–Türkiyə mədəni əlaqələrində yeni mərhələ (1970 – 1990-cı illər). // Dövlət və huquq, Bakı, 1998, №1, s.149-152.

5. Abdullayev M. Beynəlxalq munasibətlər tarixi (XX əsr). Dərs vəsaiti. Bakı, ABU-nun "Beynəlxalq Universitet" nəştiyyat və poliqrafiya mərkəzi, "Təhsil" EİM, 2003, 540 s.

6. Azərbaycanda Atatürk Mərkəzinin 2002-ci il üçün hesabatı. Bulleten (Azərbaycanda Atatürk Mərkəzinin rubluk nəşri), AzAtaM (Qış buraxılışı) Bakı, 2002, s.15-24.

7. Azərbaycanda Atatürk Mərkəzinin rəsmi acılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. Bülleten (Azərbaycanda Atatürk Mərkəzinin rubluk nəşri), AzAtaM, Bakı, 2004, №2 (10), s.6-8.

8. Azərbaycanda Atatürk və Türkiyə Cümhuriyyəti araşdırmaları (1941–2003). Biblioqrafiya (tərtib edən: Samirə Məmmədova). Bakı, AzAtaM, 2003, 130 s.

9. Həsənov Əli. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, 2005, 686 s.

10. Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 10 illiyinə həsr olunmuş elmi-praktiki konfrans. Bakı, AMEA, 2002, 128 s.

11. Azərbaycan–Türkiyə əlaqələri butun sahələrdə və səviyyələrdə qardaşlıq, dostluq uzərində qurulmuşdur. Dircəliş, XXI əsr, 2005, xususi buraxılış, s.51-58.

12. Kemal O. Dunyada turk cumhuriyetleri turk halkları. İmal yayınevi, Ankara, 2002, 106 s.

13. Kona G. G. Türkiye ve Azerbaycan Cumhuriyetleri arasındaki ilişkilerin geliştirilmesinde folklorik unsurlerin gücü ve önemi. AMEA-nın Folklor İnstitutu "Ortaq turk kecmişindən ortaq turk gələcəyinə" II Uluslararası Folklor Konfransının materialları. Bakı, 17-21 mart 2004-cu il, s.221-236.

14. Алиев И.О. О некоторых вопросах этнической истории Азербайджанского народа. Баку, Нурлан, 2002, 160 с.

## STRATEGIC PRIORITIES FOR REGIONAL COOPERATION IN TURKISH-AZERI RELATIONS

**R.S.Huseynov**

**SUMMARY**

Turkish-Azeri relations are based on common history and culture as well as on the coincidence of geopolitical and strategic interests both during the period of the Ottoman Empire and in modern times. This paper examines the main priorities of the regional strategic cooperation between these two states. Detailed analysis of the position of Turkish government in Nagorno-Karabakh problem and the participation of Turkish companies in the transportation of Azeri oil is included.

## ПРИОРИТЕТЫ РЕГИОНАЛЬНОГО СТРАТЕГИЧЕСКОГО СОТРУДНИЧЕСТВА В ТУРЕЦКО-АЗЕРБАЙДЖАНСКИХ ОТНОШЕНИЯХ

**Р.С.Гусейнов**

**РЕЗЮМЕ**

Турецко-Азербайджанские отношения основаны на общности исторического и культурного наследия как в период Оттоманской империи, так и в наши дни. В данной статье исследуются основные приоритеты регионального стратегического сотрудничества двух государств. Представлен подробный анализ официальной позиции турецкого правительства относительно Нагорно-Карабахской проблемы и участия турецких компаний в транспортировке азербайджанской нефти через турецкие морские порты.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 316.42: 304.444:327

# AZƏRBAYCANÇILIQ KONSEPTUAL İDEYA KİMİ

**N.D.Atamoğlanova**
Azərbaycan Televiziyası
Bakı AZ1011, M.Hüseyn küçəsi 1
e-mail: natavan_demircioglu@mail.ru

***Açar sözlər:*** azərbaycançılıq, milli birlik, dövlətçilik, milli-mənəvi dəyərlər, Azərbaycan diasporu, konseptual ideya

***Keywords:*** Azerbaijanism, national unity, statehood, national cultural values, Azeri diaspora, conceptual idea

***Ключевые слова:*** азербайджанство, национальное единство, государственность, национально-духовные ценности, азербайджанская диаспора, концептуальная идея

Azərbaycançılıq ümummilli məfkurə olaraq, milli birliyin təminatı, Azərbaycanın dünyaya inteqrasiyası, mədəniyyətimizin bütövləşməsi, vahid Azərbaycan ideyasının yayılması kimi mühüm məsələləri özündə birləşdirir. Ölkəmizdə azərbaycançılıq ideyası dövlətçilik təfəkkürünə əsaslanır. Milli dövlətçilik konsepsiyasının əsasını isə dövlət müstəqilliyinin qorunması, Azərbaycan Respublikasının, harada yaşamasından asılı olmayaraq, bütün azərbaycanlıların Vətəni kimi dərk edilməsi prinsipi təşkil edir.

Azərbaycançılıq diaspor siyasətinin də mühüm tərkib hissəsidir. Azərbaycanın diaspor siyasətinin əsas istiqamətləri xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanmasını formalaşdırmaqdan, onların yaşadıqları cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirakına yardımçı olmaqdan, tarixi Vətənlə əlaqələrinin genişləndirilməsinə şərait yaratmaqdan və Azərbaycan həqiqətlərinin dünyaya çaptdırılmasında onların iradəsini səfərbər etməkdən ibarətdir.

Azərbaycançılıq məfkurəsində etnik mənsubiyyətindən asılı olmayaraq, respublikamızın ərazisində yaşayan və ya başqa ölkələrə köçmüş bütün vətəndaşalara hüquqi və mənəvi cəhətdən bərabər münasibət göstərilir. Məhz buna görə mühacirətdə yaşayan qeyri-azərbaycanlı vətəndaşlar - ruslar, yəhudilər və başqaları Azərbaycan diaspor təşkilatları ilə əlaqə yaradır və onların işində iştirak edirlər.

Azərbaycançılıq konseptual ideya olaraq, xaricdə yaşayan azərbaycanlılarla işi dövlət səviyyəsində uğurla həyata keçirməyə, onları ölkəmizdəki müxtəlif layihələrə cəlb etməyə və Vətənə daha sıx bağlamağa imkan vermişdir. Ulu Öndər Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I qurultayında dövlət siyasətini izah edərkən, onun vacib xüsusiyyətlərini göstərmişdi: «Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq».

Dövlət siyasətinin mühüm strategiyası olan azərbaycançılıq, müasir ideologiyamızın əsas xəttidir. Heydər Əliyev bildirirdi ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas meyar olmuşdur. Ulu Öndərin fikrincə, azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxla-

maq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Azərbaycançılıq ideologiyası Azərbaycan lobbisini formalaşdıran qüvvələrin, Azərbaycanın mənafeyinə xidmət etməyi qarşısına məqsəd qoyan təşkilatların, şəxslərin fəaliyyətinin mühüm siyasi-ideoloji, mənəvi əsasını təşkil edir. Lobbiçilik hərəkatında onun səfərbəredici təsir gücündən səmərəli istifadə olunmalıdır.

Heydər Əliyev Azərbaycanın dünya birliyində layiqli yer tutmasında güclü amil olan Azərbaycan diasporunun formalaşmasını, azərbaycanlıların milli həmrəyliyini və azərbaycançılıq ideologiyasının dünya miqyasında reallaşması zəruriliyini önə çəkirdi.

Azərbaycançılıq ideyası milli-mənəvi dəyərlər sistemimizlə də yaxınlıq təşkil edir. Azərbaycan xalqına məxsus ailəyə bağlılıq, yurda bağlılıq, qohumluq münasibətlərinin möhkəmliyi, inam və əxlaqi keyfiyyətlərdə bütövlük, sadiqlik kimi cəhətlər zamanın sınaqlarından çıxaraq gəlib, bu gün azərbaycançılıq, dövlətçilik keyfiyyətləri ilə birləşir.

Azərbaycan xalqının tarix boyu qazandığı milli-mənəvi dəyərlərin azərbaycançılıq ideyalarının yaranmasında əvəzsiz rolu var. Azərbaycançılıq ideyasının formalaşmasında mühüm rol oynayan bu amillər özünün əxldaqi və etik keyfiyyətlərinə görə bəşər mədəniyyətinin tərkib hissəsini təşkil edir. Azərbaycanlıların milli-mənəvi dəyərləri ümumtürk ruhunun və Şərq ənənələrinin dərin kökləri üzərində inkişaf edir. Azərbaycançılıq bu xüsusiyyətləri ayırmır, daha də birləşdirir və zənginləşdirir. Hazırda qloballaşan dünyada Türk, Şərq, Azərbaycan milli-mənəvi dəyərləri Qərb-Avropa mədəniyyəti ilə yaxınlaşaraq yeni keyfiyyət qazanır. Azərbaycançılıq bu məqamda daha çox gərəkli görünür.

Azərbaycançılıq ideyası inkişaf edərək, milli-mənəvi dəyərlərlə birləşərək, Azərbaycan xalqının siyasi, dövlətçilik şüurunda, mədəni-mənəvi həyatında əsas amilə çevrilməlidir.

Ulu öndər Heydər Əliyevin Azərbaycan diasporu nümayəndələrinə tövsiyyələri də azərbaycançılığın inkişafında müstəsna əhəmiyyət daşıyır.Ümummilli lider dünyanın müxtəlif ölkələrində rəsmi səfərlərdə olarkən Azərbaycan diaspor nümayəndələri ilə görüşmüş, onlara öz tövsiyyələrini vermişdir. Bu gün bu tövsiyyələr Heydər Əliyev irsinin qiymətli nümüunələridir və dünyanın hər bir tərəfinə səpələnmiş azərbaycanlılar üçün proqram xarakterli vəsiyyətlərdir. Heydər Əliyev xaricdə Azərbaycan diasporunun nümayəndələri ilə görüşündə diasporumuzun nəinki bir ölkə daxilində birləşməsini, təşkilatlanmasını tövsiyə etmişdi, eyni zamanda ayrı-ayrı ölkələrdə yaşayan Azərbaycan diaspor nümayəndələrinin birliyinin vacibliyindən söhbət açmışdır. O, demişdir: «Mən müxtəlif ölkələrə səfərlərə gedəndə həmişə azərbaycanlılarla görüşürəm. Soruşuram niyə bəs az görünürsünüz? Cavab verirlər ki, bir-birimizlə əlaqələrimiz o qədər yaxşı deyil. Nədənsə millətimiz hələ bir-biri ilə sıx əlaqələr qurmağa nail ola bilməyib…. Azərbaycanlılar artıq bilirlər və daha çox bilməlidirlər ki, indi azərbaycanlılar üçün Ana Vətən var. Azərbaycan azad, müstəqil dövlət olaraq bütün azərbaycanlıların doğma vətən torpağıdır». Ulu öndər söhbətlərində bildirirdi ki, yaşadığı ölkə daxilində və qeyri ölkələrdə yaşayan azərbaycanlıların bir-biri ilə sıx əlaqələri vacibdir. Bu əlaqələr ölkəmizin problemlərinin onlar arasında bilinməsinə və onların bu problemlərin həllində yaxından iştirak etməsinə yardım göstərə bilər. Bu isə çox vacibdir. Ulu öndər bu tövsiyələri verəndə Azərbaycan cəmi bir neçə il idi ki, müstəqillik qazanmışdı. Özünün problemləri həddindən artıq çox idi. İndi isə Azərbaycan bir dövlət olaraq dünya birliyinin müstəqil üzvü kimi artıq möhkəmlənmiş, varlanmış və problemlərinin xeyli bir hissəsini

çözmüş ölkədir. O, indi daha çox imkanlara malikdir.

Ümummilli liderin Azərbaycan diasporu ilə bağlı ideyalarının həyata keçirilməsi sonralar Prezident İlham Əliyevin də başlıca vəzifələrindən birinə çevrildi. Onun təşkilatçılığı ilə 2006-cı ilin martında Dünya Azərbaycanlılarının ikinci qurultayı keçirildi. Bu tədbirdə Prezident İlham Əliyev Heydər Əliyevin ideyalarını daha da inkişaf etdirərək təkcə dünya azərbaycanlılarının birləşdirilməsi ilə kifayətlənməməyi, Azərbaycan və türk diasporlarının birləşərək məkrli düşmənə qarşı vahid cəbhədə mübarizə aparması ideyasını irəli sürdü. Beləliklə, ümumtürk-azərbaycan diaspor quruculuğunun əsasını qoydu.

Prezident İlham Əliyev dünya azərbaycanlılarına müraciətində qeyd edir: «Hazırda qarşımızda ölkəmizin ərazi bütövlüyünü bərpa etməkdən vacib vəzifə yoxdur. Bu, bizim ümummilli işimizdir. Məhz bu amil bizi dövlətimizin müdafiə qabiliyyətinin artırılmasına, silahlı qüvvələrin gücləndirilməsinə xüsusi diqqət yetirməyə sövq edir. Biz yenidən qan tökülməsinin, dağıntıların və humanitar faciələrin qarşısının alınması üçün hələ də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə çalışırıq. Lakin Azərbaycanın bu məsələ ilə bağlı prinsipial mövqeyi dəyişməz qalır: Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini tapmalıdır. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi hər birimizin düşüncəsinə hakim kəsilməlidir…»

Hazırda Azərbaycançılıq konseptual ideya kimi dövlətçiliyimizin əsaslarından biridir. Dynya azərbaycanlıları bu ideya ətrafında tam, sıx, məqsədli şəkildə birləşdikdə daha böyük gələcək və bütöv Azərbaycan bizimlə ola bilər.

## Ədəbiyyat


1. «Azərbaycan diasporuna dövlət qayğısı». Bakı, 2003
2. «Dünya Azərbaycanlılarının I Qurultayının materialları». Bakı, 2001
3. «Dünya Azərbaycanlılarının II Qurultayının materialları». Bakı, 2006
4. Heydər Əliyev: «Müstəqilliyimiz əbədidir». Bakı, Azərnəşr, 2000


## AZERBAIJANISM AS A CONCEPTUAL IDEA

**N.D.Atamoghlanova**

## SUMMARY

This article considers the concept of Azerbaijanism as the guarantor of national unity in Azerbaijan. The idea is based on the consciousness of statehood. The author gives brief analysis of main principles of this idea suggested by the late Azeri president Heydar Aliyev.

# АЗЕРБАЙДЖАНСТВО КАК КОНЦЕПТУАЛЬНАЯ ИДЕЯ

**Н.Д.Атамогланова**

**РЕЗЮМЕ**

В статье рассматривается понятие «Азербайджанство» как гарант национального единства в Азербайджане. Данная идея основана на осознании государственности. Автором представлен краткий анализ основных принципов этого понятия, введённого покойным президентом Азербайджана Гейдаром Алиевым.

2013 - № 37

UOT № 327 (4/9)

# TÜRKİYƏNİN ORTA ŞƏRQDƏ ARTAN TƏSİRİ VƏ ABŞ

**E.A.Cəfərov**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: ejafarli@yahoo.com

***Açar sözlər:*** Türkiyənin xarici siyasəti, Türkiyə-ABŞ münasibətləri, Yaxın Şərq, AKP hökümətinin xarici siyasəti, 11 sentyabr
***Keywords:*** Turkey's foreign policy, Turkish-American relations, Middle East, the foreign policy of AK Party, 9/11
***Ключевые слова:*** внешняя политика Турции, турецко-американские отношения, Ближний Восток, внешняя политика правительства АКП, 11 сентября

Dövrün əsas problemli regionlarından bəlkə də birincisi olan Yaxın və Orta Şərq nəinki region, həm də xarici aktyorların marağındadır. Belə ki, öz təbii sərvətləri, strateji mövqeyi, geosiyasəti və geoiqtisadi vəziyyəti baxımından region daim diqqət mərkəzindədir. Regionda əsas strateji güclü dövlətin Türkiyə olması, ABŞ-ın burada maraqlarının üstünlüyü, Rusiyanın nüfuzunun zəifləməsi və s. bölgədə kimin söz sahibi olacağı mübarizəsini daha da şiddətli edir.

AKP dönəmində Orta Şərq Türk xarici siyasətində daim mərkəzi yer tutmuşdur. Abdullah Öcalanın 1998-ci ilin oktyabrında Suriyadan çıxmasından sonra Suriya ilə münasibətlərin düzəlməsi, ABŞ-ın İraqın işğalı zamanı Türkiyə üçün yaratdığı əlverişli ortam, Türkiyənin "1 Mart Sənədi"ni təsdiq etməməsi və s. səbəblər bu dövrdə Türkiyənin Orta Şərqdə daha təsiredici olmasını şərtləndirdi. Hökumət onsuz da Kamalizmin, Qərbləşmə uğruna bu regiona laqeyd olmasını irəli sürən Əhməd Davudoğlunun fikirləri istiqamətində bir siyasət həyata keçirir.

Türkiyə və ABŞ-dakı bəzi dairələrin iddialarının əksinə, Türkiyənin Orta Şərq siyasətinə daha çox önəm verməsi ABŞ-a qarşı və türk xarici siyasətində bir dəyişiklik deyildi. Əksinə, bəzi məqamlar xaricində bu yanaşma ABŞ tərəfindən dəstəkləndi. Bunun səbəbləri aşağıdakılardır:

1) Birincisi, iqtidarda Rifah Partiyasından çox fərqli olan bir hökumət var. Ona görə, AKP-nin Orta Şərq siyasəti Vaşinqton tərəfindən dəstəklənən bir siyasətdir.

2) Orta Şərqlə əməkdaşlığın ən vacib tərəfi bu dövrdə Buş rəhbərliyi tərəfindən ortaya atılan və Böyük Orta Şərq layihəsi olaraq da tanınan, genişləndirilmiş Orta Şərq coğrafiyasında demokratikləşmə həmləsinin başladılması və AKP kimi bir partiyanın rəhbərliyindəki Türkiyənin bu bölgəyə bir nümunə, model ya da bir ilham qaynağı olaraq təqdim edilməsi.

3) AKP hökuməti bu dövrdə bir yandan Suriya, İran, Səudiyyə Ərəbistanı kimi ölkələrlə əlaqələri genişləndirərkən, İsraillə də əlaqələri, bəzi şifahi çıxışlara rəğmən, ən azından 2009-cu ilə qədər kəsmədən davam etdirirdi. Bu baxımdan İsraillə həm qarşılıqlı ziyarətlər, həm ABŞ ilə birlikdə Konyada hava, Aralıq dənizinin şərqində dəniz təlimləri keçirilmiş, müdafiə hərraclarında İsrailə geniş yer verilmişdir. Bundan əlavə, ABŞ-dakı yəhudi lobbisi ilə də əlaqələr öz səmimiyyətini saxlamışdı (5, s.265).

4) İraqın işğalına görə ABŞ Orta Şərqdə siyasət yeritməkdə çətinlik çəkməyə başlamışdı. İraqın boşaltdığı yeri İran kimi ABŞ üçün problemli bir ölkə, ya da Əhmədinejad kimi populyar bir siyasətçi yerinə yaxın müttəfiqi Türkiyənin doldurması daha əlverişli idi.

5) Türkiyə İraqın işğalından sonra bölgədə təsiri artan İranın Suriya ilə əlaqələrini kəsmək, ya da azaltmaq istəyirdi. Türkiyənin Suriya ilə yaxından əlaqələr qurması bu ölkəni İrandan uzaqlaşdıracağı və Türkiyə vasitəsilə Qərb sisteminə yaxınlaşdıra biləcəyi kimi İsrail ilə sülh prosesinə girməsini də asanlaşdıra biləcəkdi. Ən azından Türkiyə Suriya ilə yaxın əlaqələrini ABŞ-a bu səbəblə açıqlayırdı.

6) Türkiyənin yaxın Şərqdə artan fəaliyyəti müxtəlif məsələlərin həllində də yararlı ola bilərdi. Bu baxımdan Türkiyə 200-ci illər boyunca əvvəllər Suriyanın Hariri sui-qəsdi ilə bağlı olaraq BM araşdırmasına icazə verməyə məcbur edilməsini təmin etdi. İraqlı Sünni və Şiə qruplar ABŞ ilə İraqlı sünni qruplar, İsrail ilə Fələstin, İsrail ilə Suriya, hətta Əfqanıstan ilə Pakistan arasında vasitəçiliyini davam etdirdi.Bu vasitəçilik ABŞ tərəfindən konstruktiv siyasət olaraq görüldü və dəstəkləndi.

Bununla birlikdə, Türkiyənin Orta Şərq siyasətində zaman-zaman ABŞ-ı narahat edən hadisələr də oldu. Hökumətin apardığı "qonşularla sıfır problem" siyasəti müsbət qarşılansa da, bunun İran kimi bir ölkəni də ehtiva etməsi ABŞ üçün narahatlıq yaradırdı. AŞB-ın İran üzərindəki təsirini artırdığı bir mühitdə və hətta nüvə təsislərinin vurulması ehtimalının danışıldığı bir vaxtda Türkiyənin həm qarşılıqlı ziyarətlər etməsi, həm də 2007-ci ildəki kimi bir təbii qaz anlaşması imzalaması ABŞ-da rahatsızlıq yaratdı. ABŞ Türkiyəyə İranla razılaşma etməməsi məsələsində xəbərdarlıq etdi və bu razılaşmanın ABŞ-ın göstərdiyi reaksiya ilə əlaqədar olaraq gerçəkləşməməsi iddiası həm Türkiyə ,həm də ABŞ mətbuatında yer aldı. Yenə da ABŞ rəsmiləri, Türkiyənin İranla girdiyi təmaslarda, Tehranın nüvə enerji məsələsində Beynəlxalq Atom Enerji Agentliyi ilə əməkdaşlığa razı salmaq üçün rol oynamasını istədilər və Türkiyə də bu istiqamətli mesajları həmin dönəmdə İrana çatdırdı.

Yüksək vəzifəli ABŞ rəsmiləri və mütəxəssislər, dövr ərzində, Türkiyəni Orta Şərqdə lider bir ölkə və regional bir güc olaraq görməkdən duyduqları məmnuniyyətləri istər rəsmi açıqlamalarda , istərsə də müxtəlif fikirli təşkilatların hesabatlarında sıxlıqla dilə gətirdilər. Bu açıqlamalar və şərhlər Türkiyədə də əksini tapdı və bu dövrdə Türkiyənin regional bir güc olduğu şəklindəki ifadə və anlayışların ABŞ tərəfindən təsdiqi olaraq görülməsinə və yayılmasına yol açdı.

Türkiyə və xaricdə zaman-zaman dilə gətirilən iddialar var idi: Bu dönəmdə Türkiyənin istiqamətini Qərbdən Orta Şərqə dəyişdirdiyi, Türkiyə xarici siyasətini "Orta Şərqləşdirdiyi" kimi. Bunlar ABŞ rəsmiləri və mütəxəssislər tərəfindən inandırıcı görünmədi. Ticarət, maliyyə, texnolji təcrübə, müdafiə sənayesi kimi sahələrdsə Orta Şərq bölgəsinin Türkiyənin Qərb bağlantısına heç vaxt alternativ olmayacağının fərqində olan Vaşinqtonun əsas narahatçılığı, Ankaranın Orta Şərqə yönəlməsi deyil, Rusiya Federasiyası (RF) və Çin iə əlaqələrini genişləndirib Avrasiyaçı bir xəttə yönəlməsi idi. RF ilə əlaqələrin genişlənməsinə rəğmən AKP iqtidarı dönəmində bu narahatçılığı haqlı çıxaran bir hadisəyə rast gəlinmədi.

Bu dövrdə Türkiyənin Otra Şərq siyasəti ABŞ baxımından bəzi məsələlər də ortaya çıxardı:

2010-cu ildə Türkiyənin Braziliya ilə birliktə İran uranının mübadilə edilməsini nəzərdə tutan müqaviləni reallaşdırması və BMT Təhlükəsizlik Şurasında İrana yönəlmiş

sanksiya qərarına mənfi səs verməsi ABŞ-da ciddi narahatçılıq yaratdı. ABŞ, Çin və Rusiya kimi ölkələri belə müsbət səs verməyə razı salmışkən, Türkiyənin bu seçimi rəhbərliyin reaksiyasını çəkdi (2, s.225).

Buna paralel olaraq, İsraillə əlaqələrin 2009-cu ildən sonra pisləşməsi ABŞ-ı narahat etdiyi müddətdə bu ölkədəki güclü və xüsusilə Konqresdəki təsirli yəhudi lobbisinin Türkiyənin qarşısına keçməsinə səbəb oldu. Bununla birlikdə İsraillə əlaqələrin pozulması ABŞ-la əlaqələrdə birbaşa pisləşməyə səbəb olmadı və Vaşinqton iki müttəfiqi arasındakı əlaqələrin düzəlməsi xahişini dilə gətirməkdən başqa bir mövqe tutmadı. Bu vəziyyət Türkiyə-ABŞ əlaqələrinin, Yəhudi lobbisinin birbaşa təsiri və dəstəyi olmadan da davam edəcəyini, əlaqələrin özünün yetərincə sağlam təməllərə dayanmış olduğunu göstərdi.

Bundan başqa, Türkiyənin Fələstin məsələsi və Qəzzə Zolağı məsələsində təşəbbüskarlığı ələ almağa çalışması, Həmasa və Sudan Dövlət başçısı Bəşirə yaxın durması və demək olar ki, hər regional məsələni həll etmək iddiası daşıması kimi hadisələr, Vaşınqtonda Ankaranın gücünün və potensialının ötəsində tamahkar addımlar atması olaraq görüldü. Misir, İordaniya kimi ABŞ-a yaxın ərəb rejimləri də Türkiyənin Orta Şərqdəki fəaliyyətindən duyduqları narahatçılığı zaman-zaman Vaşinqton rəhbərliyi nəzdində dilə gətirməyə başladılar.

Regionla bağlı C.Buş dönəminin ən öndə olan layihəsi, sözsüz ki, Böyük Orta Şərq layihəsi idi. Böyük Orta Şərq layihəsində Türkiyə önəmli yerə malikdir. Bu önəm xüsusilə iki ünsürdən qaynaqlanır:

Milli görüş gələnəyindən gələn və tarixi olaraq Milli nizam partiyası, Milli salamat partiyası, Rifah partiyası kimi siyasi partiyalarda təşkilatlarda islamçı bir hərəkatın yumşalması demokratikləşməsi və qloballaşma ilə uzlaşması müddəti

Türkiyədəki bu müddətin Orta şərq müsəlman toplumalarına bir nümunə model və ya ilham qaynağı olaraq təqdim edilməsi imkanı

Qurulma müddəti və siyasət anlayışı baxımından ANAP-a bənzəyən AKP-nin iqtidara gəlməsi dinamikası və ABŞ-la münasibətlər baxımından da oxşardı. Keçmişdə milli görüş hərəkatı və onun nümayəndəsi Nəcməddin Ərbakan qərb əleyhinə, İsrailə şübhə ilə və düşməncəsinə baxan, AB üzvlüyünə qarşıçıxan, kapitalizmlə bir problemi olmasa belə dövlətin başçılığı ilə və dünyəvi –mühafizəkar burjuaziyanı gücləndirərək digər müsəlman ölkələrinədə liderlik edəcək bir Türkiyə təsəvvürünə sahibidi. Bu hərəkatın içindən gələn Ərdoğan və Gül də bu təsəvvürdə idi. Amma 2000-ci ildən etibarən daxil olduqları Fəzilət partiyasında "yenilikçilik"adı ilə çıxıb baş nazir olma yarışında Ərbakana rəqib oldular, uğur qazana bilmədikdə isə ayrılıb 2001-ci ilin avqustunda yeni partiya qurdular: AKP (5, s.265).

Bu müddətdə Ərdoğan və Gül 1990-dan etibarən ABŞ-lı diplomat və mütəxəssislərlə təmaslar qurmağa başladı. Bu görüşmələrdə diqqət çəkən məqamlardan biri Ərdoğanın American İsrael public affairs committee , American Jewish congress, *Anti-defamation league* kimi yəhudi əsilli lobbi təzyiq qrupları ilə görüşüb öz düşüncələrini anlatması idi. Bundan sonra AJC bu görüşdən məmnun qalmışdır ki 2004-yanvarda Ərdoğana "Cəsarət mükatı" verdi. Dolayısı ilə Türkiyədəki Milli görüş cizgisinin yeni qrupunun iqtidara gəlmə müddətində keçirdiyi yumşalma Orta şərqdəki islamçı hərəkatlara örnək ola bilərdi. Burada yumşalma dedikdə islamçı hərəkatların demokratiya ilə uzlaşma və və qərb əleyhdarlığını da tərk etməsi yada yumşaltmaları başa düşülür. Yalnız ABŞ deyil , AB də AKP-ni Türkiyədə daxili siyasətdə dəyişiklik edən bir

aktyor, həm də orta Şərqdəki bir dönüş üçün lazımi bir cəhd olaraq görürdü. Bunun öz önəmini artırdığını görən AKP hökuməti BOŞ müddətinə müsbət yanaşdı. Hətta bu proyekt elan edilməmişdən onun haqqında açıqlamalar səslənməyə başladı. Məsələn XİN Gül İKT-nin 2003-Tehran zirvə görüşündə bölgə ölkələrinə yaşadıqları problemlərə və sıxıntılara yeni bir perspektivdən baxmalarını məsləhət gördü. Müsəlman ölkələrinin əvvəlcə özünü tənqid müddətindən keçməsini, özünə yenidən düzəlişlər etməsini təlqin etdi və islami radikal hərəkatların meydana gəlmə səbəblərini yenidən nəzərdən keçirməyi vurğuladı. Baş nazir Ərdoğan isə 2003-noyabrda Harvard universitetində etdiyi çıxışda islam və demokratiyanın bir-biriylə uyğun olduğunu Türkiyə nümunəsində demokratiyanın müsəlman ölkələrində də yaşaya biləcəyini göstərdi. ABŞ idarəçiliyi Corciya əyalətində 2004-iyunda olacaq G-8 Zirvə görüşündə BOŞ-in gündəmə gətiriləcəyini açıqladıqda və bölgə ölkələri dəvət ediləndə bu dəvətə Türkiyə və Yəməndən başqa qatılan olmadı. Baş nazir Ərdoğanın qatıldığı zirvə görüşündə xüsusilə XİN təşəbbüsü ilə Türkiyə proyektin hədəfi kimi deyil, demokratik tərəfdaş olaraq bildirildi. Türkiyənin əsas hədəfi bölgədə demokratiya və sivil toplum formalaşdırmaq olduğu açıqlanan "Demokratiya yardım dialoqu"na İtaliya və Yəmənlə birgə tərəfdaş oldu və bu nazirlik ictimaiyyətin bir qismi və müxalifət tərəfindən fərqli şəkildə qarşılandı. Türkiyə yeni bu çərçivədə təşkil olunan "Gələcək forumu"na nazir səviyyəsində qatıldı.

Türkiyə layihə çərçivəsində bölgədə sivil toplumun formalaşmasına və kiçik ölçülü firmalara dəstəyin təminatına yönələn toplantılara ev sahibliyi etməyi etdirdi.İKT-nin 2004-İstanbul toplantısında İstanbul bildirişi yayınlanaraq demokratiyanın yayılmasını və rejimlərin təmsili səlahiyyətinə qovuşması tələbi dilə gətirildi. Sivil cəmiyyət quruluşu olaraq Türkiyədən rəsmən TESEV-in təyin edildiyi bu müddətdə xüsusilə bölgədəki qadınların ictimai həyata daha geniş daxil olması üçün çalışmalıar başlandı. Ərdoğan da proyekt daxili vəzifələri çərçivəsində 2005 boyunca Suriya, Liviya, Yəmən, Mərakeş, Tunisə səfər etdi.

ABŞ mütəxəssisləri başda Buş olmaqla Türkiyənin model rolundan fəxrlə danışırdılar. Proyekt bir nöqtədə öz sürətini itirəcək. Yenə də bölgədəki idarə sistemlərində önəmli dəyişikliklərə yol açmayacaq kiçik forumlar təşkil ediləcək.

Türkiyə ictimaiyyətində BOŞ başqa anlamda başa düşüldü. 2000-Türkiyədə yüksələn millətçilik İraqın işğalının təsiri ilə bu proyekti ABŞ-ın Türkiyəyə yönəlik istiqrarsızlaşdırma və rejimi dəyişmə cəhdi olaraq gördülər. XİN K.Povel 2004-ci ildə bir çıxışında İraqın demokratik bir islam ölkəsi ola biləcəyini anladarkən Türkiyə nümunəsini göstərərək "İslam cümhuriyyəti" ifadəsini işlətdi və belə çıxışlar sürətləndi. Klinton dövründə ABŞ-ın Türkiyə siyasətini önə çəkən R.Holbruk 2007-ci ildə Türkiyənin Malayziyadan sonra ikinci yumşalmış islam ölkəsi olduğunu söylədi. Bu açıqlamalar bu dəfə də "Türkiyə Malayziya olur mu?" müzakirəsini başlatdı.

11 sentyabrdan sonra Türkiyə Əfqanıstanda terrorla mübarizədə ABŞ-ın dəstəkçisi, NATO-nun hərbi qüvvələrinin tərkib hissəsi rolunda çıxış etdi. 2002-2003 və 2005-ci illər ərzində NATO-nun başçılığı ilə Beynəlxalq Təhlükəsizliyə dəstək Qüvvətlərinində (*International Security Assistance Force* - ISAF) əsas iştirakçı olmuş, 2006-ci ildə isə Əyalət Bərpa Komandasını (*Provincial reconstruction Team* - TRM) yaratmışdı(3, s345).

Beləliklə, göründüyü kimi dövrümüzdə Türkiyə-ABŞ münasibətləri düz xəttlə inkişaf etmir. Belə ki, strateji tərəfdaş olmaqla yanaşı iki ölkə arasında məlum problemlərlə bağlı uzlaşmayan faktorlar var. Ancaq bu problemlər iki ölkə arasında münasibətləri gərginləşdirmir, əksinə daha da möhkəmlənməsinə xidmət edir.

**Ədəbiyyat**

1. Ağalar Abbasbəyli. Dünya siyasəti. Bakı, 2011
2. Ahmet Davudoğlu. Strateji derinlik. İstanbul, 2012
3. Füsun Türkmen. Türkiye-ABD ilişkileri. İstanbul, 2012
4. Tayyar Arı. Yükselen Güç. Türkiye-ABD ilişkileri ve Orta doğu. Bursa, 2010
5. Türk dış politikası. III cild. Red. Baskın Oran. İstanbul, 2013
6. Steven A. Cook. Building a new era in U.S.-Turkey relations. Washington Post, 26 iyun, 2006

## TURKEY'S GROWING INFLUENCE IN MIDDLE EAST AND THE USA

**E.A.Jafarov**

**SUMMARY**

This article highlights the current bilateral relations between Turkey and the United States of America. Factors leading to the clash of interests of the two countries in Middle East are analyzed.

## РАСТУЩЕЕ ВЛИЯНИЕ ТУРЦИИ НА БЛИЖНЕМ ВОСТОКЕ И США

**Э.А.Джафаров**

**РЕЗЮМЕ**

В статье описаны современные двусторонние турецко-американские отношения. Представлен анализ факторов, способствующих столкновению интересов двух стран на Ближнем Востоке.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

# S İ Y A S Ə T Ş Ü N A S L I Q  B Ö L M Ə S İ

UOT № 329.78

## HEYDƏR ƏLİYEV VƏ GƏNCLƏR SİYASƏTİ

**A.B.Nəcəfova**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: nacafova-154bm@mail.ru

***Açar sözlər:*** gənclər siyasəti, təhsil, inkişaf, milli ənənə
***Keywords:*** youth police, education, development, national tadition
***Ключевые слова:*** молодёжная политика, образование, развитие, национальная традиция

Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günü, həm sabahı, həm də ümididir. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, gənclərin cəmiyyətin bütün sferalarında iştirakından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafında dərin izlər buraxdı. Ulu Öndərin 2fevral 1997-ci il tarixdə imzaladığı fərmana əsasən fevralın 2-si Respublikamızda "Azərbaycan Gənclər Günü" elan edildi. "Azərbaycan gənclər siyasəti" adlı sistemli toplusunun hazırlanmasında əsas məqsəd azərbaycanlı gənclərin vahid və milli amal ətrafında daha da sıx birləşməsində, onların ölkəmizin ictimai-iqtisadi, mədəni-siyasi və sosial o cümlədən dövlət və hakimiyyət orqanlarına inteqrasiya olunmasında, bu sahədə maariflənməsində faydalı olmaqdır. Azərbaycanda gənclər günü ilə bağlı hər il silsilə tədbirlərin təşkil olunması, təhsil və ictimai həyatın digər sahələrində yüksək nailiyyət qazanmış gənclərin xüsusi mükafatlarla təltif edilməsi, gənclər tərəfindən təqdim olunmuş layihələrin dövlət tərəfindən maliyyələşdirilməsi, istedadlı tələbə və gənclərin beynəlxalq müsabiqələrdə iştirakının təmin edilməsi deyilənlərə sübutdur.

Ulu Öndər Heydər Əliyevin bizlərə ərmağan etdiyi qüdrətli Azərbaycan dövlətinin daha da inkişaf etdirilməsində, onun əbədiyaşar ideyalarının həyata keçirilməsində hər bir azərbaycanlı gənc öz üzərinə düşən missiyanın məsuliyyətini hiss etməli, tarixi vətənimiz qarşısındakı övladlıq borcumuzu layiqincə yerinə yetirmək üçün əlimizdən gələni əsirgəməməliyik. Əsas vəzifələrimizdən biri də gənclər arasında vətənpərvərlik hissini geniş təbliğ etməkdir. Bu təkcə ona görə deyil ki, biz indi müharibə aparırıq. Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, dünyada başqa varlıqları da qiymətləndirə bilməzsən. İndiki dövrümüzdə vətənpərvərlik ən aktual məsələlərdəndir. Torpaqlarımızın bir qismi işğal olunmuşdur. Biz gənclər özümüzü milli soy-kökünə bağlı və yüksək əxlaqi dəyərlərə malik azərbaycanlı kimi təsdiq etməli, qloballaşan dünyanın bəşəri dəyərlərini dərindən mənimsəməli, bu istiqamətdə möhkəm birlik və həmrəylik nümayiş etdirməklə bugün Azərbaycanın beynəlxalq imicinə xələl gətirməyə çalışan mənfur erməni ideologi-

yasına, respublikamızın iqtisadi uğurlarını, daxili sabitliyimizi gözü götürməyən xarici və daxili qüvvələrə qarşı mübarizədə bütün gücümüzü səfərbər etməliyik. Xalqımızın gücünü bir yerə toplasaq, onun daxili mənəviyyat hissini oyatsaq, tarixi ənənələrini və tarix boyu göstərdiyi qəhrəmanlıq nümunələrini bu gün xalqımıza, xüsusən gənclərimizə çatdıra bilsək, şübhəsiz ki, xalqımız birləşəcək. Mən xəyala qapılmıram, və
və bu ağır problemlər qısa müddətdə dərhal həll oluna bilər. Biz düzgün yolla gedəcəyik və bu problemlərin həll olunması üçün bütün imkanlardan istifadə edəcəyik.

Müasir Azərbaycan gəncliyi inkişafının yeni mərhələsinə qədəm qoyub. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət gənclər siyasətinin düzgünlüyünü bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir. Ölkəmizdə beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və Dünya çempionatlarında iştirak edərək uğurlu nəticələrə imza atırlar. Vaxtilə müxtəlif səbəblər üzündən respublikamızı tərk etmiş idmançılar vətənə qayıdaraq ölkəmizin idman şərəfini uca tutur, üçrəngli bayrağımızı göylərə qaldırırlar.Gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Artıq respublikamızda fəaliyyət göstərən gənclər təşkilatları, ictimai birliklər ölkəmizdə vətəndaş cəmiyyətinin qurulmasına töhfələrini verirlər. Azərbaycanda bütün sahələr üzrə qazanılan nailiyyətlər dövlətimizin iqtisadi-siyasi potensialını, ümumi inkişaf səviyyəsini əks etdirən əsas meyarlardandır. Ölkəmizdə gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Prezident İlham Əliyev gənclərə malik olduqları qabiliyyət və intellektual imkanlar müqabilində geniş meydan verməyin tərəfdarı kimi bu təbəqəyə daim böyük diqqət və qayğı göstərir. Ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha dolğun istifadə edilməsi, həmçinin bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edir. Gənc nəslin fiziki, sosial və mənəvi inkişafını təmin edən fəaliyyət sahələrinin istiqamətləndirilməsi, gənclərin dünya dəyərlərinə yiyələnmələri və digər məsələlər qarşıda duran əsas vəzifələrdəndir.

Respublikamızda həyata keçirilən dövlət gənclər siyasəti gənclərin hərtərəfli inkişafını, onların cəmiyyət həyatında fəal iştirakını təmin etməkdədir. Bu siyasət çox geniş bir spektri- gənclərin təhsili, tərbiyəsi, sağlamlığı, intellektual və mənəvi inkişafı ilə bağlı məsələləri əhatə edir. Artıq Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilmişdir. Mübaliğəsiz demək olar ki, indiyədək mövcud olan təhsil sistemi Azərbaycan xalqına çox böyük nailiyyətlər gətirmişdir. Orta məktəbdə təhsil almaq hamı üçün açıq olub və heç kəs ondan məhrum edilməyib. Bunun özü böyük bir nailiyyətdir. Hər il xarici ölkələrdə təhsil almağa gedən gənclərin sayı artır. Bu da Azərbaycanda intellekt kapitalının inkişafına xidmətin ən mühüm amillərindəndir.

Bununla yanaşı istərdim ki, gənclərimiz həm milli ənənələrimiz əsasında, həm də bəşəri mənəvi dəyərlər əsasında əxlaq, mənəviyyat məsələlərinə nüfuz versinlər. Azərbaycanda gənclər arasında cinayətkarlığın artması, əxlaq pozğunluğunun olması cəmiyyətin mənəviyyatına zərər vurur. Azərbaycanın gen fondu biz gənclərindir. Birinci növbədə profilaktik tədbirlər görülməli, təlim-tərbiyə işləri aparılmalı, valideynlər tərəfindən təhsil ocaqlarında gənclərin tərbiyəsinə ciddi fikir verilməlidir.

Bizim qarşımızda çox böyük vəzifələr durur, əsas vəzifələrdən biri mənəvi tərbiyə məsələsidir. Bilirik ki, indi maddi çətinlik, maddi ehtiyaclar şübhəsiz ki, cəmiyyətdə cürbəcür mənfi halların meydana gəlməsinə gətirib çıxarır. Ancaq bilməliyik ki, mənəvi tərbiyəni daim aparmaq lazımdır.

Azərbaycan gənci bilməlidir ki, xalqın keçmiş tarixinin şəxsiyyəti olmuş Şah İsmayıl, müasir Azərbaycanımızın yaradıcısı olan Heydər Əliyevin quruculuq yolu milli "Mən" in təsdiqlənməsində mühüm amildir. Məhz belə dövlət xadimlərinin zəkası və istedadı müasir Azərbaycan gəncliyinə örnək olmalıdır. Bu gün Azərbaycan gənci bilməlidir ki, zəngin keçmişə malik formalaşmış millət olmağımızı dünyaya bəyan etmək
ilk növbədə milli-tarixi mənliyimizi dərk etmədən mümkün deyildir. Əsl vətənpərvərliyin qələbəsi məhz bu yoldan keçir.

Qarşımızda böyük yol var. Yol hamar deyil, asfalt deyil, yol uzun yoldur, müxtəlif maneələrlə bağlı olan yoldur, o yolu hər birimiz keçməliyik. Bu yol müstəqil Azərbaycanın gələcəyi yoludur. Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməli və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında, ailəsi haqqında düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir. Bu bizim vəzifələrimizdir və güman edirəm ki, hər bir Azərbaycan gənci cəmiyyətdə öz vəzifələrini layiqincə yerinə yetirməyə çalışmalıdır.

Azərbaycanın gələcək inkişafında gənclərin rolu çox böyükdür. Çünki bilirsiniz ki, ölkə əhalisinin əksəriyyəti gənclərdir və onlar bütün sahələrdə çalışırlar.Biz azərbaycanlı gənclər olaraq çalışmalıyıq ki, dünyanın bir çox dillərini – ingilis, alman, fransız, ərəb, fars dillərini də bilək. Çünki müasir dünya ölkələrinin bir-biri ilə sıx əlaqəsi bugün və gələcəkdə insanlardan bir çox dili bilməsini tələb edir. Mən arzu edirəm ki, biz Azərbaycan gənci Şekspiri ingilis dilində, Puşkini rus dilində, Nizamini, Fizulini, Nəsimini Azərbaycan dilində oxuyaq. Ümidvaram ki, bugün məndə bu ümidlər daha da çoxaldı - biz gənclər bundan sonra şanlı tariximizi daha da yaxından öyrənəcək, doğma Azərbaycan dilimizi mənimsəyəcək və bunlar hamısı hər bir gənc Azərbaycan övladında yüksək vətənpərvərlik hissləri yaradacaqdır. Hər bir gənc Azərbaycanın müstəqil gələcəyini təmin etmək üçün vətənimizi, torpağımızı, millətimizi, dilimizi, dinimizi, milli ənənələrimizi sevməlidir. Bunları sevə bilməyən adam, onları özü üçün mənəvi əsas edə bilməyən gənc, həyatda özünə yer tapa bilməyəcəkdir.

## Ədəbiyyat


1. Ə.Qarayev. Azərbaycan Gəncliyi - Azərbaycanın Gələcəyi. Bakı, 2003
2. Ş.Mirzəyev. Xalqa Bağışlanan Ömür. Bakı, 2001
3. R.Mehdiyev. Milli məfkurə, dövlətçilik, müstəqillik, yolu ilə. Bakı, 2006
4. Ş.İsmayılov. Heydər Əliyev və Azərbaycan Gəncliyi. Bakı, 2001
5. A.Talıbova. Azərbaycana daha yaxın olaq. 2009
6. Vətəndaş cəmiyyətinə yol açan ideyalar. Bakı, 2006


## HEYDAR ALIYEV AND YOUTH POLICY

**A.B.Najafova**

## SUMMARY

The youth policy introduced by the national leader of Azerbaijan Heydar Aliyev had a positive impact on Azeri youth. On February 2, 1997, Heydar Aliyev signed a decree

naming February 2 the Day of Azeri youth. The main goal of youth policy pursued in Azerbaijan is to get young people more involved in political and cultural spheres.

## ГЕЙДАР АЛИЕВ И МОЛОДЁЖНАЯ ПОЛИТИКА

**А.Б.Наджафова**

## РЕЗЮМЕ

Система молодёжной политики, введённая общенациональным лидером Гейдаром Алиевым, положительно сказалась на развитии молодёжи Азербайджана. 2 февраля 1997-го года Гейдар Алиев подписал указ, согласно которому 2 февраля было объявлено Днём молодёжи Азербайджана. Основная цель, преследуемая молодёжной политикой в Азербайджане, заключается в более активном вовлечении молодёжи в общественно-политическую и культурную сферу страны.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 159.9

# YENİYETMƏLƏRİN DEVİANT DAVRANIŞINI ŞƏRTLƏNDİRƏN SOSİAL-PSİXOLOJİ AMİLLƏR

**Şahin Hüseyin**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: ruslu2002@yahoo.com

***Açar sözlər:*** faktor, deviant, yeniyetmə, şəxsiyyət
***Keywords:*** factor, deviant, teenager, person
***Ключевые слова:*** фактор, девиантный, подросток, личность

Şəxsiyyətin deviant davranışı haqqında müasir biliklər bizə insanın fəaliyyət və davranışının kifayət qədər mürəkkəb, çoxcəhətli olduğunu göstərir. Bəllidir ki, şəxsiyyətin davranışının əsas təmayülləri bilavasitə yeniyetməlik dövründə formalaşır. Bu yaş dövründə yeniyetmələr özünüdərkə, həyatda, təhsildə, bir sıra mühüm fəaliyyət sahələrində özlərini ifadə etməyə, müəyyən sərbəstliyə can atsalar da, onların həyat, cəmiyyət, sosial təsisatlar haqqında bilikləri, təsəvvürləri bir qədər məhdud, kövrək, müəyyən təsirlər nəticəsində tez dəyişən olur. Bir sıra hallarda bu davranış yeniyetmələrin fərdi meyilləri və müəyyən kənar təsirlər nəticəsində zəruri çərçivədən kənara çıxır, hüquqa, mənəvi-əxlaqi dəyərlərə, sosial normalara zidd xarakter alır. Bir qayda olaraq, yeniyetmələrin deviant davranışı kimi səciyyələndirilən bu davranış forması müxtəlif amillərlə izah edilir. Digər tərəfdən, deviantlıq daha çox mürəkkəb sosial davranış forması kimi təqdim edilsə də, özünü əsasən asosial davranışın təzahürü kimi göstərir.

Belə qiymətləndirmə deviantlığın vahid hüquqi və sosial-psixoloji nəzəriyyəsinin formalaşdırılmasını çətinləşdirən məqamlardan biridir. Bu, deviantlığın kifayət qədər mürəkkəb sosial davranış forması olduğunu göstərir.

Prinsip etibarilə, deviant davranışın vahid nəzəriyyəsinin formalaşmaması problemin geniş hüquqi-psixoloji təhlilinə, müvafiq amillərin təsnifatına və adekvat interpetasiyasına mane olmur. Burada belə bir amili qeyd etmək lazımdır ki, deviantlıq mövzusunda tibbdə, biologiyada, psixologiyada, sosiologiyada və hüquq elmində aparılan müxtəlif polemikalara baxmayaraq, problemi şərtləndirən amillər demək olar ki, eynidir. Problem mahiyyətcə daha çox sosial məzmunlu olduğundan, onu şərtləndirən səbəblər arasında sosial-psixoloji amillər önə çəkilir. Diqqəti çəkən odur ki, yeniyetmələrin deviant davranışı ilə bağlı müxtəlif elm sahələrində aparılan tədqiqatlarda müvafiq sosial amillərə və ya sosial-psixoloji səbəblər toplusuna xüsusi diqqət yetirilir. Bir sıra elm sahələrində isə deviant davranışı öyrənən xüsusi bölmələr yaranmışdır (1, s.221-223).

Deviant davranışı sərtəndirən aşağıdakı amilləri fərqləndirmək olar:

1) Sosial amillər: Evdə və məktəbdən kənar şəraitdə uşağa həmyaşıdlar qruplarının (qeyri-formal), küçənin, sosiumun göstərdiyi xoşagəlməz təsirlər sistemi.

2) Pedaqoji-psixoloji amillər: Uşaqların ailə tərbiyəsində yol verilən qüsurlar və səhvlər, təlim-tərbiyə müəssisələrində uşaq, yeniyetmə və gənclərin tərbiyəsində meydana gələn boşluqlar.

3) Fərdi psixoloji faktorlar: Cəmiyyətə zidd və qeyri-sosial davranışa təkan verən ilkin təbii psixoloji göstəricilər, şəxsi sərvət meyilləri, davranışın özünütənzim mexanizmləri, fərdin sosial normalara neqativ münasibətini inkişaf etdirən psixoloji xüsusiyyətlər (2, s.27-29).

Hüquqazidd davranışın tədqiqi maraq doğuran və çox istiqamətli bir sahədir. Qeyd olunan davranışı izah edən aşağıdakı nəzəriyyələr diqqəti cəlb edir. Bu nəzəriyyələr hüquqazidd davranışının bəzi psixoloji mexanizimləri, müxtəlif formaları və s. xüsusiyyətlərini daha geniş şərh edir. Deviant davranış haqqında müxtəlif konsepsiyalar arasında banisi Z. Freyd olan psixoanalitik meylli tədqiqatlar xüsusi yer tutur. Psixoanalizdə pozuntuların əsas mənbəyi "O"–nun strukturunu təşkil edən şüursuz meyllərlə "Mən" və "Fövqəl–Mən"dən çıxış edən məhdudiyyətlər arasındakı daimi konflikt hesab olunur. Şəxsiyyətin normal inkişafı şüur və şüursuzluq sahələrini balanslaşdıran optimal müdafiə mexanizmlərinin yaranmasını nəzərdə tutur. Freyd həm də təklif etmişdir ki, libido istənilən yaradıcılıq fəaliyyətində çıxış axtarır; insan özünütəsdiqetmə və azadlığa can atır. Lakin azadlıq mədəniyyətin inkişafıyla birgə məhdudlaşır. Libidonun sıxışdırılıb çıxarılması, boğulması seksual enerjinin sublimasiyasına, davranışın sadizm və cinayətə qədər dəyişməsinə gətirib çıxarır (3, 35-39).

Neofreydistlər deviant davranışın təbiətini digər davranış pozuntularıyla – nevrozlar, psixasteniyalar, seksual pozuntular, sayıqlama halları, şəxsiyyətin sosial dezadaptasiyasının müxtəlif formalarıyla yanaşı nəzərdən keçirirlər. Xüsusi diqqət psixoanalitik işlərdə zorakılıq cinayətinin ilk səbəbi hesab olunan aqressivliyin təbiətinə verilir. Anadangəlmə dərk olunmayan meyllər aqressiv enerjini oyadır: Freyddə bu libidodur; Adlerdə hakimiyyətə, digərləri üzərində üstünlüyə meyl; E.Frommda ölümə, əzab çəkməyə mazoxistik meyl; V.Şutsda yaxın ətraf tərəfdən bəyənilmə və tərəfdaş olmadır. Lakin sonrakı tədqiqatlar göstərdi ki, deviant davranışın mahiyyətini yalnız psixoloji amillərin təhlili əsasında aydınlaşdırmaq olmaz (4, s.76-78).

Yeniyetmələrdə deviant davranışın inkişafı müxtəlif davranış xüsusiyyətlərin təzahüründə özünü göstərir, konkret olaraq yeniyetmələrin davranışlarında aqressiya, özünütəsdiq, konfliktə meyl, ətraf mühit elementlərini və normalarını nəzərə almamaq kimi reaksiyalar üstünlük təşkil edir. Deviant davranışlı yeniyetmələrin davranışında aqressiyaya meyillilik mühüm yer tutur. Həmin yeniyetmələrdə sinifdə və ya sinifdən kənar aqressiv davranış müşahidə edilir. Deviant davranışlı yeniyetmələr destruktiv davranışlara yol verərək, məktəbdəki pəncərələrin şüşələrini sındırır, yalanlar uyduraraq dərslərdən yayınır, sinif yoldaşları ilə kobud rəftar edirlər (7, s.51).

Deviant davranışlı yeniyetmələrin digər bir xüsusiyyəti isə özünütəsdiqə ifrat meyillilikdir. Psixoloqların fikrincə, əsasən təlim uğurları və digər nailiyyətlərdə özünütəsdiq edə bilməyən yeniyetmə bacardığı tərzdə bunu etməyə cəhd edir. Deviant davranışlı yeniyetmələr tez-tez sinifdə özündən zəif olanlara, müəllimlərə qarşı kobud davranmaları ilə diqqəti cəlb edirlər. Hazırkı dövrdə deviant davranışlı yeniyetmələrin davranışında konfliktə meyillilik daha geniş yayılmışdır.

Yeniyetmələr səbirsiz və aqressiv olduqlarından sinif yoldaşları, müəllimlər və hətta rəhbər işçilərlə konfliktə girirlər. Belə yeniyetmələr tez-tez sinifdə münasibətləri gərginləşdirən tərəf kimi çıxış edərək, münaqişələrin yaranmasının başlıca səbəbkarı kimi çıxış edir. Bir çox hallarda onlar rəhbər işçilər və müəllimlərlə konflik yaradırlar. Müəllimlərin tələblərini yerinə yetirmir, bir çox hallarda isə dərsləri pozmağa və dərsi əyləncəyə çevirməyə cəhd edirlər. Valideynlər çox vaxt qeyd edirlər ki, belə yeniyetmələr ailədə va-

lideynlər, bacı və qardaşlarla, qonşularla və s. tez-tez konfliktlər yaradırlar. Onların hətta övladları bir çox hallarda ata və anaları ilə konfliktə girirlər, belə hallar olduqdan sonra isə həmin yeniyetmələr evdən qaçırlar. Bu hal valideynlər üçün daha acınacaqlıdir (8, s.67-68).

Valideynlər qeyd edirlər ki, onları daha çox narahat edən fakt məhz onların evdən qaçmalarıdır. Bir çox hallarda yeniyetmələr sosial, ictimai, ailə və nəhayət təlim, tədris normalarını pozurlar. Deviant davranışlı yeniyetmələr ətraf mühit normalarını nəzərə almırlar. Ekspert rəylərinə əsasən bu cür yeniyetmələr nəinki sinif, hətta qrupdaxili normaları pozmağa cəhd edirlər. Deviant davranışlı yeniyetmələr daha çox geyim qaydalarını pozmaları ilə fərqlənirlər . Qeyd olunan fakt müəllimlərlə yanaşı valideyinləri də daha çox narahat edir. Deviant davranışlı yeniyetmələr əksər hallarda nitq mədəniyyətini pozaraq, vulqar sözlər və təhqiramiz ifadələrdən istifadə edirlər. Bu isə valideynlər və müəllimlər tərəfindən qəbul edilməyən olunan faktdır (9, 54-59).

Valideyinlərin qeydlərində maraq doğuran fakt yeniyetmələrin gec saatlarda evə gəlmələridir. Belə halların tez-tez baş verdiyini qeyd edən valideyinlər bu halın qarşısını almağa cəhd edirlər. Deviant davranışlı yeniyetmələrin davranışında yalan danışmaq amili mühüm yer tutur. Qeyd olunan fakt həm müəllimlər, həm də valideyinlər tərəfindən təsdiqlənmişdir. Müəllimlər dəfələrlə qeyd etmişlər ki, həmin yeniyetmələr bir çox hallarda onlara yalan danışaraq dərslərdən yayınır, valideyinlərə yalanlar uydураraq danlaq və tənbehdən xilas olmağa çalışırlar. Bir çox hallarda deviant davranışlı yeniyetmələr müxtəlif referent qrupların təmsilçisi kimi çıxış edirlər. Belə qruplar çox vaxt onların davranışına mənfi təsir göstərir, yeniyetmələri yalana, hüquqazidd hərəkətlərə, mənfi emosiyalara sövq edir.

Müasir şəraitdə yeniyetmələrin deviant davranışın xüsusiyyətləri, faktorları, tədqiqi və profilaktikası probleminə böyük maraq müşahidə olunur. Yeniyetmələrin deviant davranışın əsas xüsusiyyəti ondan ibarətdir ki, o müxtəlif sosial dezadoptasiya vəziyyətləri ilə müşayət olunur. Bu davranış forması mütləq şəkildə insanı xəstəliyə və ölümə gətirib çıxartmır, ancaq qanunauyğun olaraq, sosial dezadaptasiya vəziyyətini meydana çıxarır və gücləndirir. Dezadapdasiya vəziyyəti, öz növbəsində, müstəqil şəkildə deviant davranışın səbəbi ola bilər. Yeniyetmələrin davranışındakı pozuntuların səbəbləri cəmiyyətin mövcud həyatındakı reallıqlar da ola bilər. Yeniyetmələr sosial təbəqələşməni, bir çoxlarının arzu etdikləri təhsili ala, firavan yaşaya bilməmələrini ağır keçirirlər. Son zamanlar həddi-buluğa çatmayanlarda yarım il və ya bir il ərzində dəyərlər sistemi dəyişir. Əsas sosial dəyərlərin rədd edilməsi deviant davranışın ilkin səbəbi hesab olunur. Mənəvi-psixoloji dəyişiklik yeniyetmələrdə deviant davranışda əks olunur və qanun pozuntuları, qaçışlar, narkoloji əlamətə görə xəstəliklər, ciddi sinir-psixi pozuntularla müşayət olunur.

Müasir şəraitdə insanın daxili aləminin, özünügerçəkləşdirməsinin öyrənilməsi olduqca aktualdır. Bu baxımdan, şəxsiyyətinin fəal formalaşma mərhələsində olan yeniyetmələrin deviant davranış təmayüllərinin sosial-psixoloji baxımdan, eyni zamanda, hüquq psixologiyası çərçivəsində araşdırılması olduqca mühüm əhəmiyyət kəsb edir. Belə aktuallıq insanın həyat mövqeyinin formalaşması ilə bağlı bir sıra praktiki məsələlərin həll edilməməsi ilə şərtlənmişdir. Tarixin gedişində bəşəriyyət nə qədər sosial təcrübə toplasa da, dünyaya gələn hər bir yeni nəsil üçün, hər bir ayrıca insan üçün öz yaşadığı sosial-iqtisadi şəraitə uyğun olaraq özünügerçəkləşdirməyə ciddi zərurət olur (11, 97-98).

Yeniyetmələrdə özünügerçəkləşdirmənin inkişaf dinamikasının təşəkkül və təzahür xüsusiyyətlərinin araşdırılması bir neçə cəhətdən xüsusi aktuallıq kəsb edir. Müasir şərait-

də yeniyetmələrdə özünügerçəkləşdirmənin xarakteri və səviyyəsi əvvəlki illərə nisbətən kəskin dəyişməyə məruz qalmışdır. Köhnə stereotiplərlə və yanaşmalarla problemin həlli əslində mümkün deyildir. Çünki özünügerçəkləşdirmənin xarakteri və səviyyələri şəxsiyyətin real və potensial imkanlarının istiqamətlənməsinə, onlarda «mən»in, özünügerçəkləşdirmənin formalaşmasına ciddi təsir göstərir.

Müasir şəraitdə yeniyetməlrin deviant, hüquqazidd davranışına təsir göstərən sosial-psixoloji kifayət qədər çoxsaylı və müxtəlifdir. Eyni zamanda, bu, yeniyetmələrin özünügerçəkləşdirmə meylləri ilə bilavasitə bağlıdır. Yeniyetmələrdə özünügerçəkləşdirmə prosesinin təşəkkülü isə təlimə münasibətlə yanaşı, özünüqiymətləndirmənin, özünəhörmətin, özünəmünasibətin adekvatlıq dərəcəsindən asılıdır. Yeniyetmələrdə özünügerçəkləşdirmənin inkişaf dinamikası birxətli dəyişmə üzrə getməyib, ayrı-ayrı formaların dəyişməsi ilə və müxtəlif amillərin təsiri ilə artan və azalan xətlər üzrə gedir. Burada özünügerçəkləşdirmənin təşəkkülü və formalaşması özü haqqındakı təsəvvürlərin hansı formada təzahürü ilə yanaşı, başqalarının onlara verdiyi qiymətlər sisteminin xarakterindən də asılıdır.

Bəllidir ki, yeniyetməlik yaş dövrünü keçid, «böhran»lı yaş dövrü adlandırırlar. Bu, təsadüfi deyildir. Yeniyetmənin orqanizmində baş verən psixofizioloji dəyişikliklər münasibətlər sferasının yeniləşməsi, özünə və başqalarına münasibətin dəyişməsi və s. onların davranış və rəftarının yenidən qurulması, şəxsi «mən»də yeni protensial imkanların, keyfiyyətlərin dərk edilməsinə ciddi təsir göstərir. Nəzərdən keçirdiyimiz bu amillər yeniyetmənin əqli, intellektual, mənəvi-psixoloji keyfiyyətlərin inteqrasiyasını, ən başlıcası isə öz kimliyinin təsdiqini, ideya və arzularının bu istiqamətdə oriyentasiyasına səbəb olur. Belə halda yeniyetmənin qarşısına çıxan: Mən kiməm? Mənim həyat yolum necədir? Gələcəyim necə olacaq? kimi ilkin suallar onu dərindən düşünməyə və lazımi cavablar axtarmağa məcbur edir (12, s.63-65).

Yeniyetməlik yaş dövrünün özünəməxsus cəhətlərini, məziyyətlərini, onlarda özünüdərketmənin təşəkkülünə təsir göstərən köklü amillərin psixoloji səciyyəsini verməzdən əvvəl bu yaş dövrünə həsr edilmiş tədqiqatların psixoloji təhlilini verməyi başlıca məsələrdən biri hesab edirik. Nəzərdən keçirilən yaş dövrünün mürəkkəb ziddiyyətli, böhranlı xarakteri bu sahəyə olan marağın artmasına və bu yaş dövrünə geniş tədqiqat işlərinin həsr edilməsinə səbəb olmuşdur.

Mövcüd psixoloji, hüquqi, pedaqoji ədəbiyyatın, tezis və elmi məqalələrin təhlilindən aydın olur ki, yeniyetməlik yaş dövrünə həsr edilmiş tədqiqatlar kifayət qədərdir. Lakin bu tədqiqatlarda problemlə bağlı məsələlərin açılmasında, konkret olaraq bizi maraqlandıran mövzunun öyrənilməsində ətraflı, eləcə də problemin həlli yollarını və vasitələrini göstərən elmi mülahizələrə rast gəlinmir. Ən yaxşı halda, yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili yaş və pedaqoji psixologiyada yaş xüsusiyyətlərinin, təlim-tərbiyə prosesinin tədqiqində, ayrı-ayrı psixi funksiyaların ontogenetik inkişaf yönümlərinin təhlilində yeniyetmələrdə ayrı-ayrı keyfiyyətlərin təşəkkülünə ötəri, səthi toxunulmuş, lazımi nəticələr əldə edilməmişdir (13, s.142-143).

Yeniyetməlik dövründə aparılmış tədqiqatların təhlilində F.Rays daha fərqli mövqe nümayiş etdirir. Onun fikrincə, problemin tədqiqinə həsr edilmiş tədqiqatları dörd istiqamətdə qruplaşdırmaq olar:

1. Bioloji yanaşma;
2. Koqnitiv yanaşma;
3. Psixoseksual yanaşma;

4. Sosial yanaşma (14, s.18).

Həmin qruplaşdırmanı geniş şəkildə şərh etsək, görərik ki, birinci istiqamətlə bagli bioloji yanaşmada əsas məsələ cinsi yetişmə və boy artımına yönəlmiş olur. Cinsi yetişmə və fiziki boy artımının ayrı-ayrı proseslərə təsiri başlıca məqsəd kimi vurğulanır. İkinci istiqamət koqnitiv yanaşmadır. Bu yanaşmada iki aspekt əsas götürülür:

1) yeniyetmə təfəkkürünün keyfiyyət modifikasiyası,

2) informasiyanın intellektual işlənilməsi sferasında baş verən kəmiyyət dəyişiklikləri (14, s.23-24).

Yeniyetməlik yaş dövrünün tədqiqi ilə əlaqədar bu müəlliflər cəmiyyətdə mövcud olan etalon və stereotiplərin, norma və standartların, yeniyetmənin özü haqqındakı təsəvvürlərinə, xüsusilə özünə münasibətinə göstərdiyi təsir mexanizmini tədqiq etməyə səy göstərmişlər (23, s.46). Onlar yeniyetməlik yaş dövründə əmələ gələn ziddiyyətləri rolların dəyişməsi prosesi ilə izah edirlər. Bütün bunlar qeyd olunanların yekunu olaraq, aşağıdakı ümumiləşdirilmiş nəticələrə gəlməyə imkan verir:

Hazırki şəraitdə yeniyetməlrin deviant, hüquqazidd davranış meyillərinin artması tendensiyası və onların sosial-psixoloji, hüquqi reablitasiyası məsələləri Azərbaycanda, eləcə də dünyanın bir çox ölkələrində böyük aktuallıq kəsb edir;

- insanların, müxtəlif sosial qrupların sosial-iqtisadi vəziyyəti, sosial münasibətlər sisteminin sürətlə dəyişməsi və transfopmasiyaya uğraması, hərbi münaqişə vəziyyəti, təbii fəlakətlər, kəskin sosial-demoqrafik dəyişikliklər, etnopsixoloji xüsusiyyətlər, yeni sosial şəraitə uyğunlaşma prosesində yaranan ziddiyyətlər deviant, hüquqazidd davranış təmayüllərinin artma tendensiyasını qüvvətləndirir;
- yeniyetmələr belə dəyişikliklərə – deviant davranış təmayüllərinə qarşı daha həssasdırlar;
- yeniyetmənin fəaliyyətində deviant, hüquqazidd davranış təzahürlərinin meydana çıxmasında onun mənsub olduğu bu və ya digər sosial qrupun təsiri, fərdi-psixoloji xüsusiyyətləri də həlledici təsirə malikdir;
- deviant davranış təmayüllərinin hüquqi və sosial-psixoloji reablitasiyası məsələləri bununla bağlı ciddi şəkildə əsaslandırılmış psixoloji profilaktika və tənzimləmə üsüllarının işlənib hazırlanması zərurətini ortaya çıxarır.

## Ədəbiyyat

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2002, 540 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Poliqraf, 2003, 365 s.
3. Bayramov Ə.S. Gənclik və özünütərbiyə haqqında söhbət. Bakı: Gənclik, 1969, 136 s.
4. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı: 1996, 202 s.
5. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 190 s.
6. Bayramov Q.V. İnsan və zaman. Bakı: Azərnəşr, 1982, 181 s.
7. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin inkişafı. Bakı: Maarif, 1991, 292 s.
8. Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili: Psixol. elm. nam. dis. Bakı, 2004, 150 s.
9. Cabbarov R.V. Yeniyetmələrdə ölüm haqqında təsəvvürlərin onların özünüdərketməsinə təsiri // Psixologiya jurnalı. 2005, № 4, s.127-132
10. Əliyev B.H. Şəxsiyyət probleminə yeni baxış / Elm XXI əsrin astanasında elmi-praktik konfransının materialları. Bakı: Renessans, 1998, s.1

11. Əliyev B.H. Emosional halların tədqiqi məsələləri // Dil və ədəbiyyat jurnalı. 1998, №2, s.160-164
12. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986, 236 s.
13. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 2003, 368 s.
14. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı: 2004, 338 s.
15. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003, 282 s.
16. İsmayılov F.K. Ziqmund Freyd. Bakı: Cənclik, 1994, 120 s.
17. Məhərrəmov M.S. İzahlı psixoloji lüğət. Bakı: Azər. Döv. Nəşriyyatı, 1998, 149 s.
18. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002, 38 s.
19. Qadın və uşaqlarda məcburi köməyin travmatik nəticələrinin sosial-psixoloji tədqiqatı. APA. B., 2000, 47 s.
20. Təhmasib C.A. Tələbə şəxsiyyətinin psixoloji xüsusiyyətlərinə dair // Pedaqogika, Psixologiya və Fənlərin tədrisi metodikası jurnalı, 1973, № 5. s. 19-26
21. Psixolojidə kullanılan testlər. İletişim Yayınlar, A.S. İstanbul: 1993, 120s.
22. Rital L.Atkinson, Riçard C.Atkinson, R.Hulçard. Psixolojiyə giriş. I Sosial Yayınlar. Calaloğlu, İstanbul: 1995, 480 s.
23. Rital L.Atkinson, Riçard C.Atkinson, R.Hulçard. Psixolojiyə giriş. II Sosial Yayınlar. Calaloğlu, İstanbul: 1995, 480 s.

## SOCIAL AND PSYCHOLOGICAL FACTORS CAUSING THE DEVIANT BEHAVIOR IN ADOLESCENTS

**Sahin Huseyin**

### SUMMARY

Current knowledge about the deviant behavior of the individual show a complex and comprehensive human activities. The personality is known to be shaped mainly in adolescence. This article explores the social and psychological factors that contribute to deviant behavior in adolescents.

## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ФАКТОРЫ, ОБУСЛАВЛИВАЮЩИЕ ДЕВИАНТНОЕ ПОВЕДЕНИЕ ПОДРОСТКОВ

**Шахин Хусейин**

### РЕЗЮМЕ

Современные знания о девиантном поведении личности свидетельствуют о сложной и всесторонней деятельности человека. Как известно, основные направления личности формируются в основном в подростковом периоде жизни. В статье исследуются социально-психологические факторы, обуславливающие девиантное поведение подростков.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2013 - № 37**

UOT № 159.9

# SOSİALLAŞMANIN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

**Harun Nergiz**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: harun_nergiz@hotmail.com

***Açar sözlər:*** sosiallaşma, şəxsiyyət, xarakter, özünüqiymətləndirmə
***Keywords:*** socialization, personality, character, self-assessment
***Ключевые слова:*** социализация, личность, характер, самооценка

Sosiallaşmaya müxtəlif baxışlar mövcuddur. Bəzi alimlər qeyd edirlər ki, hər hansı bir fərdin sosiallaşması onun həyatındakı keçidlərlə üst-üstə düşür. Belə ki, Kon sosiallaşmanı uşaqlıq, yeniyetməlik və gənclik dövrünə bölür. Digər alimlər, məsələn, Şibutani hesab edir ki, sosiallaşma insanın bütün həyatı boyunca davam edir. Şibutani sosiallaşmanı həyatın yaratdığı yeni şərtlər və şəraitlərə uyğunlaşma kimi izah edir. Sosiallaşma institutları cəmiyyətin tipindən, onun mədəni səviyyəsindən asılı olaraq sosiallaşmaya təsir edə bilirlər. Lakin hər bir cəmiyyət özünə uyğun səviyyədə sosiallaşma yolları tapır. Məsələn, uşaqlar əvvəlcə uşaq bağçasına, sonra isə məktəbə gedir ki, burada da onların sosiallaşması bu institutların təsiri altında həyata keçirilir. Həmyaşıdların sosiallaşmaya təsiri tarix boyunca bu və ya digər formada mövcud olmuşdur (2, s.174-175).

Ədəbiyyatlarda bu prosesin yalnız yeniyetmələrə təsirindən danışılsa da, yeniyetməlik dövründən sonra da qrup təsirinə məruz qalma mövcuddur. Nə üçün qrupun təsiri bu qədər aktualdır və o həmişə mühüm rol oynayırmı? Yeniyetməlik yaşı həddində keçid dövründə olan çoxsaylı psixoloji problemlərin həllində həmyaşıdlar qrupunun rolu məxsusidir. Belə ki, onların verdiyi məsləhəti özünəməxsus həyat tərzi kimi qiymətləndirən yeniyetmə ailə və məktəbdən fərqlənən yeni bir mənbə tapmış olur. Ilk növbədə o, həmyaşıdları arasında ünsiyyət, birgə əməkdaşlıq və birgə rol oynamağa şərait yaradır (3, s.110).

Həmyaşıdlarının qrup təsiri tarix boyu verilmiş cəmiyyət və onun mədəniyyət səviyyəsinə görə dəyişərək, tarix boyu mövcud olmuşdur. Ümid etmək lazımdır ki, gələcəkdə də bu tip sosiallaşma institutunun təsiri dəyişməz olaraq qalmayacaqdır. Dünyada baş verən mədəni və sosial dəyişikliklərin sürəti bu tip institutların yeni situasiyalara adaptasiya olmasına və sosiallaşmanın xarakterinin dəyişməsinə təsir edəcək. Həmyaşıdları ilə ünsiyyət yeniyetmələr üçün informasiya kanalıdır. Bu və ya digər səbəbdən valideynlərindən öyrənə bilmədiklərini həmyaşıdlarından öyrənirlər. Bu kanal vasitəsi ilə gənclərin submədəniyyətləri formalaşır (4, s.26).

Həmyaşıdları ilə söhbət xüsusi hərəkət növü olaraq, şəxsiyyətlər arası münasibətlərə də təsir edir. Bu münasibətlər nəticəsində də qarşılıqlı münasibətlər, sosial rollar dəstinin artması öz şəxsiyyəti haqqında təsəvvürlərin genişlənməsi mümkündür. Kona görə bu, məhz belədir. Həmyaşıdları ilə ünsiyyət emosional kontaktın xüsusi növüdür. O, yeniyetməyə emosional uğur, dayanıqlıq, dostları arasında hörmətə malik ol-

masına kömək edir. Yeniyetməlik dövrü bir çox səbəblərə görə çətin dövr sayılır. Belə ki, bu dövrdə onların valideynlərindən və digər yaşlı nümayəndələrdən daha çox və rahat öz həmyaşıdları başa düşə bilər. Çox vaxt onlar buna elə aludə olurlar ki, həmyaşıdlarından kənarda heç nəyi qəbul etmək istəmirlər (19, s.89).

Yeniyetmədə mənlik şüurunun formalaşması onun öz davranışını, özünün mənəvi keyfiyyətlərini, xarakter və qabiliyyətlərini dərk etməsi ilə başlayır.

Yeniyetmənin mənlik şüurunun xüsusiyyətlərini aydınlaşdırarkən bir cəhəti ayrıca qeyd etmək lazımdır. Yeniyetməlik yaşı dövründə özünüdərketmə tələbatı xüsusi məna kəsb etsə də, onun özü haqqındakı obyektiv biliklərinin səviyyəcə aşağı olması diqqəti cəlb edir. yeniyetmənin bir çox hallarda özünün şəxsi keyfiyyətlərinin düzgün təhlil edilə bilməməsinin köklərini, birinci növbədə, məhz burada axtarmaq lazımdır. Bu əsasda da bəzən yeniyetmənin iddia səviyyəsi ilə kollektivdəki real mövqeyi arasında, özünə münasibəti ilə başqa adamların - yaşlıların və yoldaşların ona münasibəti arasında ziddiyyətdən yaranan münaqişələr meydana çıxır (5, s.67).

İlk dövrlərdə yeniyetmənin mənlik şüurunun əsasını başqa adamların-yaşlıların, müəllim, valideynlər, qonşuların, kollektiv üzvlərinin, yoldaşlarının onun haqqındakı mülahizələri təşkil edir. Yeniyetmə özünün şəxsiyyətini müstəqil təhlil etməyə və qiymətləndirməyə başlayır. Bu baxımdan, yeniyetmənin başqalarının və özünün qiymətləndirmə meyarlarına, əxlaq normalarına yiyələnməsi onda mənlik şüurunun formalaşmasında mühüm əhəmiyyət kəsb edir (6, s.94).

Yeniyetmənin öz şəxsiyyətini dərk etməsi tədrici xarakter daşıyır. O, əvvəlcə təlim fəaliyyətinin icrası ilə bağlı olan keyfiyyətləri (əməksevərlik, təkidlilik, diqqətlilik, səy), sonra başqa adamlarla münasibətləri ifadə edən keyfiyyətləri (yoldaşlıq hissi, həssaslıq, təmkinlik, tərslik), sonra isə özünə münasibəti ifadə edən keyfiyyətləri (şəxsi ləyaqət, şərəf hissi, prinsipiallıq və s.) dərk etməyə başlayır (7, s.23).

Yeniyetmə öz davranış və xüsusiyyətlərini dərk etdikcə, onda özünütərbiyə tələbatı yaranır ki, bu prosesdə də ayırd edilmiş, nümunə və əxlaqı etalon müstəsna rol oynayır.

İlk gənclik yaşı - mənlik şüurunun yaranmasının tamamilə xüsusi mərhələsini təşkil edir. VIII-XI sinif şagirdləri həyati əhəmiyyəti olan müxtəlif suallara cavab axtarırlar: "Mən kiməm?", "Mənim dünyada yerim nədən ibarətdir?", "Mənə ətrafdakı adamlar necə yanaşırlar?", "Mən özüm adamlara necə yanaşıram?". Bu və başqa suallara cavabın axtarılması gənc oğlan və qızların özünü şəxsiyyət kimi dərk etməsi, özünü təsdiq etməsi prosesinə çevrilir (8, s.49-51).

"Mən"in əsasını insanın özü haqqında bilikləri təşkil edir. Bu biliklərin insan üçün heç də adi xarakter daşıdığını söyləmək mümkün deyildir. Onlar insanın özünə münasibətini ifadə edir.

"Mən" obrazının formalaşması mürəkkəb hadisə kimi özünü göstərir. Yeniyetmə oğlan və qızlara özünü 20 sözlə səciyyələndirmək tapşırığı verildikdə onların bir çoxu bu zaman ciddi çətinliklə rastlaşırlar. Onlar 7-12 sözdən sonra nə edəcəklərini bilmirlər. Bu, onu göstərir ki, gənc oğlan və qızların özləri haqqındakı təsəvvürləri bir çox hallarda məhdud xarakter daşıyır, hətta onlarda müəyyən ziddiyyətlər də özünü göstərir (9, s.178-179).

İnsanda eyni vaxtda dörd "mən"lik forması - "Mən - obraz", "Fiziki -mən", "real - mən", "ideal - mən" və "sosial - mən" öz təzahürünü tapmışdır. "Fiziki - mən" - insanın fiziki xüsusiyyətlərini əks etdirir. Bu sosial-psixoloji avtoportretin əsas komponentlərindən biri kimi mühüm əhəmiyyətə malikdir (10, s.77).

Fiziki - mən cinsi identifikasiyanın və ya fiziki özünüeyniləşdirmənin əsasını təşkil edir. Onun formalaşması "bədənin sxemi" haqqında təsəvvürlərin əmələ gəlməsi ilə bilavasitə bağlıdır.

"Real - Mən". İnsan indiki anda özünü necə təsəvvür edir? özünün qabiliyyətlərini, rollarını, statusunu necə qavrayır? O, əslində necə adamdır? "Real mən"in məzmununu həmin suallar təşkil edir. bu zaman insan özünə öz gözüylə baxır. O, özünün "real - mən"i ilə fəxr edə bilər; insanın özü haqqındakı bu obrazı başqa adamlardan gizlətməsi də mümkündür. Bəzi hallarda isə "real mən" ətrafdakı adamların insana verdikləri qiymətlərə uyğun gəlmir.

"İdeal - Mən". İnsan özünü necə görmək istəyir? Hansı keyfiyyətlərə yiyələnməyə çalışır? "İdeal - mən"in məzmununu bu suallara əsasən səciyyələndirmək olar. Adından göründüyü kimi, "ideal mən" insanın özü haqqında idealları ilə bağlıdır. Onun psixoloji baxımdan mənası da, birinci növbədə, bundan ibarətdir: insan öz "ideal mən"ini həyata keçirmək üçün yollar axtarır və bu sahədə böyük səy göstərir. İnsan özünütərbiyə ilə məşğul olarkən adətən özünün "ideal mən"indən çıxış edir (11, s.189-191).

Apardığımız tədqiqatın nəticəsinə əsasən demək olar ki, deviant davranışa meylli yeniyetmələr çox vaxt əlavə «yüklənmələr», müxtəlif kənar təsirlər nəticəsində gərginlik keçirirlər, digərləri isə vaxtı düzgün bölüşdürə bilmədiklərinə görə üzüntüyə, ağır yaşantılara məruz qalırlar. Bu onu göstərir ki, bəzən adi işləri bizim öyrəşdiyimizdən tamam fərqli qaydada yerinə yetirmək lazım gəlir. Ancaq bir çox hallarda insanların, xüsusən yeniyetmələrin hər şeyi əvvəlcədən nəzərə almaq və baş verənlərə adekvat reaksiya vermək imkanı olmur. Bu isə onların dərin mənəvi-psixoloji sarsıntı keçirməsinə səbəb olur (12, s.53).

Odur ki, deviant davranış təmayüllərinə qarşı effektli, səmərəli səmərəli mübarizə aparmaq istəyiriksə, onun incəliklərini - yaranma, formalaşma və təsir mexanizmini hökmən nəzərə almalıyıq. Əks halda bəzən müəyyən sosial qruplarda «kütləvi psixoz» təmayülü kimi özünü büruzə verən hüquqazidd hərəkətləri və onların böyük mənfi fəsadlarını aradan qaldırmaq səyləri gözlənilən nəticəni verməyəcək. Bu mənada, deviant davranış meyllərinin dəf olunması strategiyası işlənib hazırlanan zaman bütün bunları məqsədli şəkildə nəzərə almaq zərurəti yaranır.

Deviant davranış təmayüllərin meydana çıxmasının cəmiyyətdə özünü göstərən yadlaşma prosesi ilə bilavasitə bağlılığı müəyyən edilmişdir. Bu mənada yadlaşmanın mənfi təzahürlərini aradan qaldırmağa səy göstərmək həm də deviant, hüquqazidd davranış probleminin əhəmiyyətli dərəcədə həlli deməkdir. Qeyd olunmalıdır ki, yadlaşma insanın başqalarına və özünə olan münasibətini dəyişir. Münasibətlərdəki hər bir pozulma və xoşagəlməz hallar yadlaşmaya və stresslərə gətirib çıxarmır. Burada münasibətlərin xarakteri ilə yanaşı, onun pozulması həddi də mühüm təsirə malikdir (13, s.164).

Yadlaşmanın aradan qaldırılması mexanizmi bir çox cəhətdən deviant davranış təmayüllərinin reabilitasiyası prosedurları ilə üst-üstə düşür. Hər iki halda insan münasibətlərində münaqişələrin əsas tiplərinə də xüsusi diqqət yetirilməlidir. Subyekt – obyekt münasibətlərində münaqişə bir qanunauyğunluq kimi meydana çıxır. Bu halda insanların yadlaşması onun əlverişsiz şəraitlə barışa bilməməsində təzahür edir. Bu məyusluq hissi ilə, böyük ruhi sarsıntılarla, kəskin stresslərlə müşayiət olunur. Bununla belə yadlaşmanın obyekti tam bəlli olduğu üçün onun özünü və ona olan münasibəti dəyişmək istiqamətində iş aparılması bir o qədər də çətin deyildir. Burada meydana çıxan başlıca çətinlik ondan ibarətdir ki, müxtəlif şəraitlərdə daha səmərəli ola biləcək reabilita-

siya prosedurlarını seçmək heç də asan məsələ deyildir (14, s.101-103).

**Ədəbiyyat**

1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2002, 540 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Poliqraf, 2003, 365 s.
3. Bayramov Ə.S. Gənclik və özünütərbiyə haqqında söhbət. Bakı: Gənclik, 1969, 136 s.
4. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 190 s.
5. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin inkişafı. Bakı: Maarif, 1991, 292 s.
6. Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili: Psixol. elm. nam. dis. Bakı, 2004, 150 s.
7. Əliyev B.H. Emosional halların tədqiqi məsələləri // Dil və ədəbiyyat jurnalı. 1998, № 2, s. 160-164
8. Əliyev Y.M. İnsanın mənəvi saflığı haqqında. Bakı: Azərnəşr, 1965, 56 s.
9. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986, 236 s.
10. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 2003, 368 s.
11. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual məsələləri. Nəzəriyyə. Metodika. Axtarışlar. Bakı: 1998, 344 s.
12. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı: 2004, 338 s.
13. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003, 282 s.
14. İsmayılov F.K. Ziqmund Freyd. Bakı: Gənclik, 1994, 120 s.
15. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002, 38 s.
16. Выготский Л.С. Избранные психологические произведения: М.: 1966, 520 с.
17. Выготский Л.С. Психология искусства: Мн.: Современное слово, 1998, 480 с.
18. Крейн У. Секреты формирования личности: СПб.: Еврознак, 2002, 512с.

## PSYCHOLOGICAL PROBLEMS OF SOCIALIZATION

**Harun Nergiz**

**SUMMARY**

It is noted in this article that there are different views on socialization. Some scholars argue that the socialization in the life of any person coincides with the passages in his (her) life. For example, Kon divided socialization into periods of childhood, adolescence and youth. Other scholars, such as Sibutani, believe that the socialization goes over an entire lifetime.

# ПСИХОЛОГИЧЕСКИЕ ВОПРОСЫ СОЦИАЛИЗАЦИИ

**Харун Нергиз**

## РЕЗЮМЕ

В статье отмечается, что существуют разные взгляды на социализацию. Некоторые учёные утверждают, что социализация личности совпадает с жизненными перепадами. Так, Кон делит социализацию на периоды детства, юношества и молодости. Другие же учёные, например, Шибутани, считают, что социализация продолжается на протяжении всей жизни человека.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

# P S İ X O L O G İ Y A   B Ö L M Ə S İ

UOT № 159.9

## ÖZÜNÜGERÇƏKLƏŞDİRMƏNİN PSİXOLOJİ MAHİYYƏTİ

**Özkan Gültekin**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: ozkan_gultekin64@hotmail.com

***Açar sözlər:*** özünügerçəkləşdirmə, fenomen, neqativ, funksional
***Keywords:*** self-actualization, phenomenon, negative, functional
***Ключевые слова:*** самоутверждение, феномен, негативный, функциональный

Özünügerçəkləşdirmə fenomeninin məzmunca ona yaxın olan inteqrativ sistemlərdən fərqli şəkildə təsvir olunmuş, onları eyniləşdirən və fərqləndirən əsas cəhətlər izah edilmişdir. Çünki həmin inteqrativ sistemlər istər genetik, istərsə də funksional baxımdan özünügerçəkləşdirmədən fərqli statusa malikdir.

Müəyyən edilmişdir ki, özünügerçəkləşdirmə fenomeninin psixoloji statusunu və mahiyyətini araşdırmaq üçün genetik yanaşma prinsipi əsas götürülməlidir. Məhz bu prinsipdən yanaşdıqda problemin genezisini müəyyənləşdirməyə nail olmaq olar. Ontogenetik inkişafda özünügerçəkləşdirmənin nə zaman meydana çıxması, təşəkkülü məsələlərinə münasibət birmənalı deyildir.

Əksər tədqiqatçılar hesab edirlər ki, özünüdərketmə «mən»in meydana çıxması ilə paralel şəkildə təzahür edir (1, s.131). Digərləri isə onun genetik baxımdan daha qədim törəmə olduğunu isbat etməyə çalışırlar. Özünügerçəkləşdirmənin genezisini tədqiq edərkən, ilk növbədə uşağın «özünüayırdetmə», «özünütanıma» kimi qabiliyyətlərinin onun «Mən» haqqında təsəvvürlərindən əvvəl meydana gəldiyini nəzərə almaq lazımdır. «Bütöv Mən» haqqında təsəvvürlər ontogenetik inkişafının sonrakı mərhələlərində və ardıcıl koqnitiv inkişafın sayəsində mümkün olur. Deməli, özünügerçəkləşdirmənin genezisindən danışarkən, ilk növbədə onun formalarından danışmaq daha düzgündür (1, s.136-138).

Göründüyü kimi, bu cavablar düşüncə səviyyəsinin inkişaf pillələrini əyani şəkildə nümayiş etdirir. Aşağı səviyyədə biz ən sadə təcrübənin ifadə tərzini görürük. Burada ötəri tələbatlardan impulsiv razılıq ifadə edilir. Eyni zamanda, yüksək inkişaf səviyyəsində daha mürəkkəb və daha inteqral koordinat sistemi özünü göstərir. Bütün bu tamamlamalar böyük, yetkin yaşlı şəxslərdən alınmışdır və eyni yaş kateqoriyası insan "mən"inin formalaşmasında nəhəng fərqlər diapozonunu əks etdirir.

Z.Freyd müqayisədə "mən" konsepsiyasına daha az yer ayırsa da, C.Lovincerin mərhələlər nəzəriyyəsi və eksperimentləri "mən"in şəxsiyyətin həyat fəaliyyətində nə dərəcədə əhəmiyyətli olduğunu aşkara çıxarır. Bütün bu deyilənlər ümumilikdə şəxsiyyətin "mən"inin üçölçülü modelinin (qeyri-mən, mən və super-mən) inkarı kimi nəzərə çarpsa da, onu fikirlərin formasına və ya zahiri əlamətlərinə görə inkar etmək doğru deyildir. Çünki insan "mən"ini və psixikasını qiymətləndirmək üçün təklif edilən bu bölgü,

"mən"in ayrı-ayrı əlamətlərinin müvafiq modeldə əks etdirilməsinin mümkünlüyünü ifadə edir. Z.Freyd sadəcə, qeyd edir ki, insan psixikasında "qeyri-mən", "mən" və "super-mən" səviyyəsində qiymətləndirilə biləcək keyfiyyət xassələri və əlamətləri mövcuddur.

Bir məqamı da dəyərləndirmək lazımdır ki, bu anlayışlar son nəticədə real fenomenlərin və həyat faktlarının konseptuallaşdırılmasını ifadə edir. Z.Freydin təsvirləri kifayət qədər canlı və obrazlı olsa da, biz anlayışlara real əşyalar kimi baxmamalıyıq. Obrazlı şəkildə deyilsə, insanın daxilində heç də enerjini özünəməxsus şəkildə paylayan hər hansı elektrik stansiyası yoxdur. Hər hansı strukturlaşma öz-özlüyündə bağlı olduğu prosesin müəyyənlik səviyyəsini ifadə edir. Hazırda inkişaf psixologiyası da məhz şəxsiyyətin müxtəlif funksional səviyyələrdə davranışının və strukturlaşmasının tədqiqi ilə məşğul olur.

Z.Freyddən sonra insan "mən"inin inkişafına diqqət yetirən psixoloqların sırası kifayət qədər geniş olmuşdur. "Mən" psixologiyası sahəsində aparılan tədqiqatlar ilk növbədə, onun qızı Anna Freyd tərəfindən davam etdirilmiş və digər tədqiqatçıların əsərlərində öz inkişafını tapmışdır. "Mən" haqqında ilkin təsəvvürlərə görə, o, qətiyyən müstəqil deyil, qeyri-mənin təsirindən mütləq şəkildə asılıdır. Başqa sözlə, "qeyri-mən" "mən"i hara istəyirsə, ora da qovur. Lakin bir müddət keçdikdən sonra psixoloji təsəvvürlərdə "mən"in roluna daha böyük əhəmiyyət verilməyə başlayır. Münaqişələrin həllində və adaptasiya prosesində "mən"in xüsusi rolu qeyd edilir. Bu konsepsiyada müəyyən məqamların nəzərdən qaçırılması aydın sezilir. Belə ki, burada "mən"in "qeyri-mən"dən özünəməxsus enerji mənbəyi kimi faydalanması və bir sıra hallarda münaqişəsiz funksionallaşması məsələsi nəzərə alınmamışdır. "Mən" psixologiyasına görə, "mən" ayrıca enerji mənbəyinə malikdir və ətraf mühitin mənimsənilməsində qavranılmasında öz əksini tapır. Bu, R.U.Uaytın (R.W.White) təklif etdiyi motivasiyanın komponentliyi anlayışı ilə bağlıdır. Bu konsepsiyada şəxsiyyətin təsviri zamanı onun qabiliyyətlərinə xüsusi əhəmiyyət verilir. İnsanlar məhz qabiliyyət, təfəkkür və anlama üsulları ilə ətraf aləmi, dünyanı mənimsəyirlər. Bununla belə, bu konsepsiya da "qeyri-mən"ə münasibətdə birmənalı mövqe tutmur.

Psixoloqlar "mən"in funksionallaşması ilə bağlı fərdi (individual) fərqləri aydınlaşdırmağa səy göstərmişlər. Bu mənada, "mən"in qiymətləndirilməsi üçün müxtəlif ölçmə prosedurları işlənib hazırlanmışdır. Məsələn, "mən" gücü (Barron, 1959), "mən"in inkişafı (Loevinger, 1976, 1985, 1993) və "mən"-nəzarət, "mən"-dayanıqlılıq (Blosk, 1993; Blosk, 1980, Blok, 1989) anlayışları buna əyani misal sayıla bilər. Bu anlayışların ölçülməsi üçün təklif edilən vasitə və metodlar bir-birindən nəzərəçarpacaq dərəcədə fərqlənir. Lakin bütün bu metod və vasitələri birləşdirən ümumi cəhət ondan ibarətdir ki, onlar mahiyyət etibarı ilə eyni psixoloji keyfiyyət xassələrinə diqqəti yönəldirlər. Tələbatların ödənilməsi, stresslərin öhdəsindən gəlmək bacarığı, başqaları ilə yaxın qarşılıqlı əlaqə qurmaq qabiliyyəti və digər sabit psixi xassə və keyfiyyətlərin qiymətləndirilməsi burada ortaq xüsusiyyət kimi meydana çıxır (2, s.103-107).

Biz Z.Freydin şəxsiyyətə energetik sistem kimi yanaşması ilə bağlı baxışlarını dəfələrlə təhlil və müzakirə etmişik. Bu yanaşmaya görə, şəxsiyyət digər energetik sistemlərin tabe olduğu qanunlara müvafiq olaraq fəaliyyət göstərir. Enerji öz təzahür xüsusiyyətlərinə görə dəyişə və transformasiyaya uğraya bilər. Lakin bu zaman o heç də özünün əsas xassə və keyfiyyətlərini itirmir. Bu nəzəriyyəyə görə, psixi xassələrin inkişafı və ya psixi enerjinin təzahürləri bədənin oyanmasına söykənir. Bu isə, psixi və fiziki gərginliyin artması və azalması ilə müşayiət olunur. Belə vəziyyətlər təəşşüqlər və ya ins-

tinktlər kimi qiymətləndirilir. Onlar öz-özlüyündə daim hərəkətdə olan, təsir göstərən qarşısıalınmaz qüvvələri ifadə edir (3, s.45-46).

İlkin psixoloji təsəvvürlərdə bu özünümühafizə instinkləri ilə və nəslin qorunub saxlanılmasına yönələn seksual (cinsi) instinktlər kimi ifadə olunur. Bir qədər sonra isə psixologiyada həyat instinkti bağlı mülahizələr aparıcı yer tutur, "mən" konsepsiyası ilə əlaqədar olan müxtəlif fikirlər ön plana çəkilir. Eyni zamanda, bir müddət sonra insan orqanizminin ölümə məhkum olmasına diqqəti yönəldən psixoanalitiklər ölüm instinkti barədə danışmağa başlayırlar. Bu orqanizmin özünün ilkin, qeyri-üzvi vəziyyətinə qayıtmaq istəyini ifadə edir.

Həyat instinkti enerjisi Z.Freydin konsepsiyasında libido adını almışdır. Ölüm instinkti isə ümumilikdə hər hansı adla assosiasiya olunmur. Bu barədə mühakimələr bir qədər ziddiyyətli xarakter daşıyır və ciddi müzakirə obyekti olaraq qalır. Psixoloqların çoxu onun əvəzinə təvazökarlıq instinkti barədə danışırlar (4, s.106).

Psixoanaliz nəzəriyyəsinə görə, instinktlər gərginliyin azaldılmasına, özünü təminetməyə və həzzə yönəlir. Heyvanlardan fərqli olaraq, insanlar öz tələbatlarını müxtəlif üsul və vasitələrlə ödəmək qabiliyyətinə malikdirlər. Bu şəxsiyyətin təkrarolunmazlığına təmin edir. Bundan əlavə, insanlar öz instinktlərini cilovlamağı, onları bu və ya digər formada öz iradələrinə tabe etdirməyi məqsədəuyğun sayırlar.

Bu məsələ rus psixoloqu V.S.Merlin əsərlərində özünü daha qabarıq şəkildə göstərir. Müəllifə görə, özünügerçəkləşdirmə mürəkkəb psixoloji struktur olmaqla özündə bir sıra komponentləri ehtiva edir:

1. özünəbənzətmənin ( eyniyyətin) dərki;
2. özünün psixi xüsusiyyət və keyfiyyətlərinin dərki;
3. öz «Mən»inin dərki;
4. sosial-əxlaqi qiymətləndirmə (4, s.121).

A.Q.Spirkin isə özünügerçəkləşdirmənin mahiyyətini araşdırarkən aşağıdakılara diqqət yetirməyi məqsədəuyğun hesab edir. Onun fikrincə özünügerçəkləşdirmə insanın öz hərəkətlərini, onun nəticəsini, arzularını, hisslərini, həyatda öz mövqeyini dərk edib qiymətləndirməlidir. Qeyd etmək lazımdır ki, problemə müxtəlif aspektlərdən yanaşma meyli bütün tədqiqatçıların əsərlərində hiss olunur. Əksər tədqiqatçılar özünügerçəkləşdirmə və «Mənlik şüuru» fenomenləri fərqləndirilməyən eyni məzmunlu, sinonim anlayışlar kimi baxırlar. Xüsusilə Qərb psixologiyasında «Mən - konsepsiya», keçmiş sovet psixologiyasında isə «Mənlik şüuru» daha çox ön planda tədqiq olunmuşdur.

K.Rocers «Mən - konsepsiya»ya aşağıdakı kimi tərif verir: «Mən - konsepsiya» fərdin öz şəxsi keyfiyyətlərini, qabiliyyətlərini başqa adamların xüsusi qarşılıqlı əlaqələri, onu əhatə edən gerçəklik haqqında təsəvvürlərdir (5, s.88). Göründüyü kimi, hər bir tədqiqatçı özünəməxsus tərzdə problemi həll etmək istəyir.

Bununla belə, müəyyən edilmişdir ki, özünügerçəkləşdirmə inteqrativ sistem olmaqla, fərdin özü haqqındakı təsəvvürlərini bu və ya digər səviyyədə dərk olunması prosesidir. Deyilənlərdən aydın olur ki, özünügerçəkləşdirmənin mürəkkəb və çoxcəhətli xarakteri, onu müxtəlif anlamlarda təqdim etməyə imkan yaradır. Bir çoxları fenomenə keyfiyyət kimi, bəziləri qabiliyyət kimi, bəziləri isə tələbat kimi yanaşırlar. Bizim fikrimizcə özünügerçəkləşdirmə müxtəlif dinamik dəyişilmələrlə müşahidə olunan prosesdir və hər hansı prosesə məxsus məziyyətləri özündə əks etdirir.

Bu baxımdan, biheviorizmdə özünügerçəkləşdirmə əslində psixi sferanın sıxışdırıl-

mış şəkildə, analitik introspeksiya özünümüşahidə formasında, humanist psixologiya özünügerçəkləşdirmə formulunda, psixoanalizdə isə qeyri-müəyyən sistem kimi təqdim edilir. Ümumi yanaşmalar içərisində ekzistensialist psixologiyanın nəzəri müddəaları problemlə bağlı xüsusi aktuallıq kəsb edir. Onun nümayəndələrindən biri K.Yaspersin fikrincə, «özünügerçəkləşdirmə insanın özünün refleksiyasından başqa bir şey deyildir» (6, s.24). Aydındır ki, ekzistensialistlər özünügerçəkləşdirmənin psixoloji məzmunu deyil, fəlsəfi cəhətlərinə geniş yer vermişlər.

Postsovet məkanının psixoloqları xarici ölkələrin tədqiqatçılarından fərqli olaraq problemə başqa prizmadan yanaşmışlar. Həmin tədqiqat işlərində daha çox «Mənlik şüuru», «Mən obraz», «Özünəhörmət», «özünüqiymətləndirmə» kimi anlayışları müstəqil tədqiqat obyektinə çevirmişlər. Özünügerçəkləşdirmədə deviantlıq – sosial və hüquqi normalardan kənara çıxmanın ayrı-ayrı aspektlərinin araşdırmasında və eksperimental tədqiqində Azərbaycan psixoloqlarının rolu əvəzsizdir (6, s.31).

Nəzərə almaq lazımdır ki, «şüurlu mən»in təşəkkülü və formalaşması mərhələsi yeniyetməlik və gənclik yaş dövrü hesab edilir (İ.S.Kon). Demək olar ki, problemlə bağlı tədqiqat işləri aparmış əksər müəlliflər yeniyetməlik yaş dövrünü özünügerçəkləşdirmənin təşəkkülündə «böhran dövrü» adlandırırlar.

Yeniyetməlik yaş dövrünün psixoloji təhlili göstərir ki, bu dövrdə şəxsiyyətin özünügerçəkləşdirməsi prosesində bir sıra köklü dəyişikliklər, yeni psixoloji məziyyətlər meydana çıxır. Belə vəziyyət özünügerçəkləşdirmənin ayrı-ayrı aspektlərini araşdırmaqda çətinlik yaradır. Demək olar ki, bu müxtəlif psixoloji tədqiqatlarda özünəməxsus şəkildə nəzərə çarpır.

Özünügerçəkləşdirmənin təşəkkül və formalaşmasını öyrənməyə çalışan F.Rays bu istiqamətdə aparılmış tədqiqatları dörd istiqamətdə qruplaşdırır:

a) bioloji yanaşma;
b) koqnitiv yanaşma;
s) psixoseksual yanaşma;
d) sosial yanaşma (7, s.39-41).

Həmin qruplaşmanın şərhi göstərir ki, birinci istiqamətlə bağlı bioloji yanaşma əsas məsələ kimi cinsi yetişmə, koqnitiv yanaşma təfəkkürün keyfiyyət modifikasiyası, informasiyanın intellektual işlənmə səviyyəsində baş verən kəmiyyət dəyişikliklərinin, pçsixoseksual yanaşma şəxsiyyətin emosional sferasının öyrənilməsini, sosial yanaşma isə yeniyetmələrin bir-birlərinə qarşılıqlı təsiri məsələsini ön plana çəkir və bu fonda özünüreallaşdırmanın təşəkkülü məsələlərinin araşdırmağa çalışmışlar (E.Erikson, R.Berns, A.Bandura, A.Freyd, Ə.Əlizadə, Ə.Bayramov, İ.Kon, K.Levin, L.Bocoviç, V.S.Muxina, G.Əliyeva).

Özünügerçəkləşdirmənin formalaşdırılmasından danışarkən bir mühüm məsələyə də diqqət yetirmək zəruridir. Tədqiqatın təhlilindən belə qənaətə gəlmək olar ki, bədən quruluşu və forması eləcədə «gözəllik» və «çirkinlik» anlayışları da özünüdərkin və özünüqiymətləndirmənin formalaşmasına təsir göstərən amillərdir. Belə ki, kök, yöndəmsiz yeniyetmənin öz həmyaşıdları arasında hansı mövqeyə malik olduğunu təsvir etmək çətin deyildir.

Adekvat özünügerçəkləşdirmənin üç başlıca şərhi vardır: birincisi valideynlər tərəfindən uşağın müstəqilliyi qəbul etmək, ikincisi yeniyetmələrin davranışını reqlamentasiya edən hüquqların, qaydaların yaradılması, üçüncüsü valideynlərlə müəyyən sərhədin saxlanması zəminində yeniyetmələrin müstəqil fəaliyyətinə keçirilməsinə şərait

yaradılması (9, s.31).

Özünügerçəkləşdirmənin yeniyetmələr səviyyəsində öyrənilməsi həm təlim tərbiyə sahəsində həm də ailə situasiyalarında neqativ halların aradan qaldırılmasına yardımçı ola bilər.

**Ədəbiyyat**


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: 2002, 540 s.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Poliqraf, 2003, 365 s.
3. Bayramov Ə.S. Gənclik və özünütərbiyə haqqında söhbət. Bakı: Gənclik, 1969, 136 s.
4. Bayramov Ə.S. Etnik psixologiya məsələləri. Bakı: 1996, 202 s.
5. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı: Azərnəşr, 1981, 190 s.
6. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin inkişafı. Bakı: Maarif, 1991, 292 s.
7. Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili: Psixol. elm. nam. dis. Bakı, 2004, 150 s.
8. Cabbarov R.V. Yeniyetmələrdə ölüm haqqında təsəvvürlərin onların özünüdərketməsinə təsiri // Psixologiya jurnalı. 2005, № 4, s.127-132
9. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı: Maarif, 1986, 236 s.
10. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 2003, 368 s.
11. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri. Bakı: 2004, 338 s.
12. Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003, 282 s.
13. İsmayılov F.K. Ziqmund Freyd. Bakı: Gənclik, 1994, 120 s.
14. Məhərrəmov M.S. İzahlı psixoloji lüğət. Bakı: Azər. Döv. Nəşriyyatı, 1998, 149 s.
15. Psixolojidə kullanılan testlər. İletişim Yayınlar, A.S. İstanbul: 1993, 120 s.
16. Rital L.Atkinson, Riçard C.Atkinson, R.Hulçard. Psixolojiyə giriş. I Sosial Yayınlar. Calaloğlu, İstanbul: 1995, 480 s.
17. Rital L.Atkinson, Riçard C.Atkinson, R.Hulçard. Psixolojiyə giriş. II Sosial Yayınlar. Calaloğlu, İstanbul: 1995, 480 s.


## PSYCHOLOGICAL ESSENCE OF SELF-ACTUALIZATION


**Ozkan Gultekin**


### SUMMARY


The phenomenon of self-actualization is described in this article in a way different to other integrated systems which are close in content. Unlike self-actualization, these integrated systems have a different status both genetically and functionally.

## ПСИХОЛОГИЧЕСКАЯ СУЩНОСТЬ САМОРЕАЛИЗАЦИИ

**Озкан Гюльтекин**

### РЕЗЮМЕ

В статье исследуется феномен самореализации с несколько иного контекста, чем близкие к нему по содержанию другие интегративные системы. В отличие от самореализации, эти системы имеют иной статус как с генетической, так и с функциональной точек зрения.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2013 - № 37**

UOT № 37.01:007

# DİSTANT TƏHSİLDƏ İNFORMASİYA MÜHİTİNİN İDARƏ EDİLMƏSİ

**S.A.Əliyev**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: salam.aliyev@oyu.edu.az

***Açar sözlər:*** distant təhsil, İKT
***Keywords:*** distant learning, ICT
***Ключевые слова:*** дистанционное образование, ИКТ

Azərbaycan Respublikasının iqtisadiyyatının sürətlə inkişaf etdiyi bir dövrdə dövlətimizin təhsili də bu qloballaşma prosesindən kənarda deyildir.

Dünya azərbaycanlılarını birliyə və vəhdətə səsləyən, bütün türk xalqlarının yenilməz və vüqarlı şəxsiyyəti olan, müdrik rəhbərliyi, uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, milli təhsil sisteminin qurucusu sayılan Heydər Əliyev təhsil haqqında demişdir: "Cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Təhsilsiz xalq müasir şəraitdə öz imkanlarını həyatına sərf etmək üçün çox problemlərlə rastlaşar. Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir».

Ulu Öndərin layiqli davamçısı olmaqla, özünəməxsus siyasi kursu və dəqiq dövlətçilik konsepsiyası olan, təhsili dövlətimizin davamlı inkişafının əsas amillərindən biri hesab edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənabları da onun inkişafına, dünyanın qabaqcıl ölkələrinin təhsil səviyyəsinə yüksəlməsinə böyük diqqət və qayğı göstərir, təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri kimi daima diqqətdə saxlayır.

Bu səbəbdəndir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 10 iyun 2008-ci il tarixli sərəncamı ilə "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nı təsdiq etməsi dövlətimizin təhsil sistemində yeni müasir dövrün başlanğıcı kimi hesab oluna bilər.

Müasir dövrdə İKT-nin inkişaf etdirilməsi ölkəmizin elmi potensialının vacib göstəricilərindən biri kimi daha çox hiss olunur. Respublikamızda informasiyalaşdırma sahəsində ciddi, uğurlu addımlar atılmışdır. Ümummilli lider Heydər Əliyev 17 fevral 2003-cü il tarixli 1146 nömrəli Sərəncamı ilə respublikamızda informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiq olunması və inkişaf etdirilməsi haqqında "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nı təsdiq etmişdir.

Milli Strategiyanın qəbulundan keçən dövr ərzində Azərbaycan hökuməti tərəfindən bir cox tədbirlər həyata keçirilmişdir. Belə ki, cənab İlham Əliyev dövlətin İKT-nin inkişafında maraqlı olduğunu dəfələrlə bəyan etmişdir. Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 avqust tarixli 355 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texno-

logiyaları ilə təminatı Proqramı(2005-2007-ci illər)"nın həyata keçirilməsi nəticəsində ölkəmizin ümumtəhsil məktəblərində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi sahəsində böyük işlər görülmüşdür.

İndi İKT yalnız təhsil prosesini təmin edən üsul deyil. İKT həm məktəblinin, həm də müəllimin rolunu dəyişir. Belə ki, müəllim təhsil prosesinin həm konsultantı, həm də koordinatoru olmaqla məktəblilərdə qərar qəbul etmə bacarığını dəstəkləyərək inkişaf etdirir.

İKT nəinki insanın əqli imkanlarını inkişaf etdirir, həmçinin yeni inkişaf perspektivləri yaradır, təhsilin inkişafı, keyfiyyətinin yüksəldilməsi üçün maraqlı imkanlar açır.

Müasir insanın fəaliyyəti informasiya mühitində formalaşır. Bu informasiya mühiti tələblərinə uyğun olaraq təhsilin məzmunu, texnologiyaları, təşkili və idarəedilmə metodları dəyişməli, inkişaf etməlidir. Tədqiqatlar sübut edir ki, təhsildə İKT-nin tətbiqi təhsilin keyfiyyətini 75%-dən yuxarı yüksəldə bilər. İnternetin daim artan resurs və servis imkanları təhsilin məzmun və təşkili formalarında ciddi dəyişikliklər edir. Müasir müəllim öz fənnini İKT-nin tətbiqi ilə tədris etməyi bacarmalıdır. Müəllim bu mühitdə özünü sərbəst hiss etməli, qoyulmuş konkret pedaqoji məqsədlərə informasiya texnologiyaları vasitəsi ilə asanlıqla nail olmalıdır.

Təhsilin informatlaşması problemi dünya təhsil təcrübəsində analoqu olmayan sistem problemdir. İKT bu gün elə bir sürətlə inkişaf edir ki, təhsil sistemi bu yeniliklə heç cür ayaqlaşa bilmir. Lakin İKT-nin təhsilin, iqtisadiyyatın, texnologiyanın və intellektin inkişafına təsirini nəzərə alaraq bu problemin həlli ilə bütün dünya məşğul olur, problemlərin elmi və praktik tətbiqinə hər il milyardlarla dollar sərf edilir. İKT-nin tətbiqi hesabına təhsilin kütləviləşib fasiləsiz xarakter daşımaqla keyfiyyəti yüksəlir.

Təhsil sistemində müasir İKT-nin tətbiqi bu gün qloballaşan dünyanın, informasiyalaşan cəmiyyətin zəruri tələblərindən, ehtiyaclarından biridir. Bu işi səmərəli qurmaq üçün bir sıra şərtlər nəzərə alınmalıdır. İnformasiya cəmiyyətinin gələcək qurucuları məktəb illərindən başlayaraq yeni informasiya texnologiyaları ilə təmas qurmalı, ondan sərbəst istifadə etməyi öyrənməlidirlər. İnsan fəaliyyətinin bir çox sahələrində olduğu kimi, təhsildə də müasir İKT-nin tətbiqi fəaliyyət səmərəsini xeyli artıra bilər.

Dərsdə elə texniki vasitə yoxdur ki, texnoloji imkanlarına görə İKT ilə müqayisə edilə bilsin.

Müasir dövrdə Respublikamızda təhsil alma: əyani, qiyabi və sərbəst (eksternat) təhsil kimi üç əsas şəkildə aparılır. Bu gün insan piyada və yaxud hər hansı növ nəqliyyat vasitəsindən istifadə etməklə yol gedərkən və eləcə də asudə vaxtlarında beynəlxalq informasiya vasitəsi olan internet xəttilə bütün fəaliyyət sahələrinə dair hər cür informasiya əldə etmək imkanına malikdir. Belə imkanların əldə edilməsi təhsilin onun mövcud formalarından ciddi fərqlənən yeni formasının - "Məsafədən (Distant) təhsilin" təşkilindən ibarət aktual problem yaratmışdır.

Yeni "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununun (19 iyun 2009-cu il tarixli, 833-IIIQ nömrəli) 1.0.9 bəndində distant təhsil alanlar və təhsil verənlər arasında birbaşa əlaqə olmadan yazışma və elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında xüsusi təhsil formasının mümkünlüyü əksini tapmışdır.

Müasir dövrdə İKT-nin sürətlə inkişafı onun təhsildə də tətbiq olunmasını zəruri edir. İnformasiya və kommunikasiya texnologiyalarından istifadə, dərsin elektron formada

təsviri, digər tərəfdən dərsdə müasir təlim metodlarından istifadə edərək tədrisin distant formada təşkili təhsil alma maraqlarının artmasına səbəb olacaq. Təhsilin bu formada təşkilinin bir çox fərqli üstün cəhətləri var:

- distant formada tələbə və müəllim arasında intensiv əlaqə təşkil olunur;
- distant təhsil üçün hazırlanmısı dərs vəsaitləri təhsilin elmi fəaliyyətinin əsasını gücləndirməyə imkan verir, dərsin effektiv idarəedilməsi realizə olunur,daim yeniləsdirilə bilən tədris vəsaitləri, nizamnamə və proqramlara əsasən müasir təhsilin təskili,öyrənənin öyrədənin subyektiv münasibətindən azad edilməsi;
- dünya təhsil sisteminə daha asan inteqrasiya etmə imkanı verilməsi;
- distant təhsil formasından istifadə etməklə ənənəvi frontal tədris forması ilə müqayisədə individual dərs komponentinin artması;
- distant təhsil formasında sagirdlərin birgə isi təskil olunur: konfranslar, seminar və müzakirələr, intellektual oyunlar və s;
- distant təhsil vaxt və imkan xərclərini azaldır;
- distant təhsil ixtiyari tələbəyə, yasadıgı yerdən aslı olmayaraq istədiyi tədris müəssisəsində istədiyi müəllimdən tədris almaq imkanı verir;

Adından göründüyü kimi, distant təhsil – müəyyən məsafədən keçirilən dərs sistemidir. Məsafədən təhsilin aşağıdakı meyarları mövcuddur:

- şagirdlə (tələbə ilə) müəllim müəyyən məsafə ilə ayrılıblar (bu məsafə həm bir məktəbdə yerləşən sinif otaqları və ya minlərlə kilometrlərdə yerləşən məkan ola bilər);
- təlim çap, səs, video və kompyuter texnologiyalarının köməyi ilə həyata keçirilir;
- müəllimlə şagirdin (tələbənin) ünsiyyəti interaktivdir – şagirdlər (tələbələr) müəllimdən dəstək və əks əlaqəni qəbul edir. Müəllimin əks əlaqəsi eyni zaman və ya vaxt keçdikdən sonra təmin oluna bilər.

Məsafədən təhsil sistemində dərslər internet şəbəkəsinin imkanları və hazır proqram paketləri vasitəsi ilə həyata keçirilir.

İstənilən təhsil proqramları məsafədən həyata keçirilə bilər. Prinsipcə bu sistemlər çox sadə görünür: kompyuter şəbəkəsinin köməkliyi ilə təhsil alan sərbəst öyrənilməsi üçün nəzərdə tutulmuş tədris materiallarını alır.

Distant təhsil şagirdin (tələbənin)sərbəst öyrənməsi şəklində həyata keçirilə bilər. Bunun üçün təhsil verən tərəf aşağıdakı işləri yerinə yetirməlidir:

- onları bir-biri ilə əlaqələndirən proqramları və məlumat banklarını şəbəkə serverində yerləşdirməli;
- distant təhsilin aparılması nəzərdə tutulan ixtisasların kompyuter şəbəkələrində tədris planlarını işləməli;
- tədris planına daxil edilmiş fənlərin tədris proqramlarının şəbəkədə iş üçün uyğunlaşdırılmış versiyalarını işləməli;
- elektron tədris materialları – elektron kitablar, mühazirələr, köməkçi nəzəri materiallar, praktiki iş vasitələri yaratmalı və şəbəkələrdən idarə oluna bilən bazalarda yerləşdirməli, başqa serverlərdə yerləşdirilmiş mənbələrə istinadlar sistemini yaratmalı;
- müəllim-şagird (tələbə) əlaqələrinin yaradılması üçün elektron mühitin interfeysini işləməli;
- biliklərin mənimsənilməsinə nəzarət üçün real vaxt rejimində işləyən interaktiv mühit yaratmalı;
- hər bir fənn üzrə biliklərin qiymətləndirilməsi üçün vəsaitlər yaratmalı və bu prosesin yerinə yetirilməsi qaydalarını işləməlidir.

## Distant təhsil texnologiyaları

Hal-hazırda dünya təcrübəsində mövcud olan distant təhsil modelləri əsasən aşağıdakı 4 qrupa ayrılmış texnologiyalara əsaslanır:

- çap;
- audio (səs);
- kompyuter (məlumat);
- video.

Müasir dünya təcrübəsi isə daha effektiv texnoloji vasitələri təklif edir. Bunu reallaşdırmaq üçün internet texnologiyaları bizimköməyimizə gəlir. İnternet texnologiyalarının distant təhsil üçün verdiyi imkanlar aşağıdakılardır:

- qiyabi və distant təhsilin inteqrasiyası;
- şəbəkəyə əsaslanmış təhsil;
- şəbəkə təhsili və texnologiyalar keysi. İnteraktiv televiziyalar vasitəsilə təhsil və ya kompyuter videokonferensiyalarına əsaslanmış təhsil.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2013-cü il Azərbaycan Respublikasında "İnformasiya-kommunikasiya texnologiyaları ili" elan edilmişdir.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Prezidentinin 10 iyun 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı"nda nəzərdə tutulmuş tədbirlərin icrası ilə bağlı sağlamlıq imkanları məhdud olan uşaqlar üçün "Elektron Təlimləndirən Sistemlər" layihəsi icra olunur.

Xüsusi qayğıya ehtiyacı olan məktəbyaşlı uşaqların distant təhsili ilə əlaqədar "Elektron Təlimləndirən Sistemlər" adlı layihəsi çərçivəsində aşağıdakı işlər görülmüşdür:

- distant təhsilin inkişafı ilə əlaqədar yaradılmış distant tədris mərkəzi, 16 müəllim və 60 şagird İKT avadanlıqları ilə təmin edilmiş,müəllimlər, şagirdlər və valideynlər üçün İKT avadanlıqlarından və texniki vasitələrdən istifadəyə dair metodik vəsaitlər hazırlanmış,müəllim, şagird və valideynlərin təhsil prosesinə cəlb olunması üçün www.mesafedenmekteb.edu.az təhsil portalı yaradılmışdır.

Layihənin əsas məqsədi evdə təhsil alan, sağlamlıq imkanları məhdud olan uşaqları distant təhsilə cəlb etməklə cəmiyyətə inteqrasiyasını təmin etmək və onların təhsil almaq imkanlarının yaxşılaşdırılması ilə yanaşı, kompyuter və elektron resurslardan istifadə bacarıqlarının artırılması və internetə çıxış imkanlarının yaradılmasından ibarətdir.

Nəticə olaraq, məsafədən tədris şagirdlərin öyrənmə prosesinə daha fəal cəlb olunmasına və onların ictimai fəallıqlarının daha da artırılmasına yardım etmişdir. Eyni zamanda internetə çıxış şagirdlərin kompyuter və elektron resurslardan istifadə bacarıqlarının artırılması ilə nəticələnib ki, bu da öz növbəsində şagirdlərin təhsil sahəsində təşkil olunan müsabiqələrdə iştirak etməsinə motivasiya yaradıb. Belə ki, 2010-2011-2012 ci illərdə təşkil olunan "Elektron təhsil" Respublika müsabiqəsində iştirakçılar və qaliblər sırasında xüsusi qaygiya ehtiyacı olan şagirdlərin iştirakının ildən-ilə artması müşahidə olunur. Hal-hazırda bu layihə daha da genişləndirilərək, regionları da əhatə etməyə başlamışdır. Belə ki, Qazax, Tovuz və Ağstafada 18 məktəbdə 24 şagird distant təhsilə qoşulmuşdur.

Amma tək bu layihə bizim üçün kifayət deyildir. Biz distant təhsilin bir forması olan onlayn tədris formasını Odlar Yurdu Universitetidə pilot olaraq qiyabi söbə üçün tətbiq etməyə başlamışıq. Hal-hazırda Milli Paralimpiya Komitəsində və Diasporalarla iş üzrə Dövlət Komitəsində də distant təhsillə baglı işlər gedir.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, yeni əsrdə cəmiyyətin və insanların inkişafı üçün yaradıcı, müstəqil düşünən və inkişaf edən şəxsiyyət formalaşmalı və yetişdirilməlidir. Azərbaycanda da təhsil islahatının əsas prinsiplərindən biri təlim prosesində tələbəyə fəallığı, məntiqi düşünməyi, müstəqil bilik almağı və fərdi inkişaf etmək bacarığını tərbiyə etməkdir.

Distant təhsilin texnologiyalarından, İKT-dən sistematik istifadə bu sahədə sosiallaşma və təhsil almaq problemlərinin effektiv həllidir.

**Ədəbiyyat**

1. Криницкий Н.А., Миронов Г.А., Фролов Г.Д. Автоматизированные информационные системы. М.: Наука. Мат лит, 1982
2. Могилев А.В., Злотникова И.Я., Кравец В.В. Педагогические аспекты дистанционного образования. Воронеж: Изд-во ВГПУ, 1997
3. Əliyev S.A., Süleymanov R.Ə., Abuşov A.Ü., Hüseynova İ.T. Xüsusi qayğiya ehtiyacı olan uşaqlar üçün məsafədən təhsil üzrə müəllim vəsaiti. Bakı: TN, 2012
4. Борякова Н.Ю. Педагогические системы обучения и воспитания детей с отклонениями в развитии. Астрель, АСТ, 2008
5. Демин В.М. и др. Разработка моделей системы анализа учебного процесса - проектирование и технология электронных средств. №1, 2002
6. Əliyev S.A., Süleymanov R.Ə., Abuşov A.Ü., Hüseynova İ.T. Xüsusi qayğiya ehtiyacı olan uşaqlar üçün məsafədən təhsil üzrə şagird vəsaiti Bakı: TN, 2012
7. Норенков И.П. Системные вопросы дистанционного обучения. - Информационные технологии, 2001, №3
8. 2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə dövlət proqramı. http://edu.gov.az/view.php?lang=az&menu=83&id=599
9. "Distance Education with the Internet". Chen-Hsuan Kuan. 2012
10. Əliyev S.A., Süleymanov R.Ə., Abuşov A.Ü., Hüseynova İ.T. Xüsusi qayğiya ehtiyacı olan uşaqlar üçün məsafədən təhsil üzrə valideyn vəsaiti Bakı: TN, 2012
11. Федорова Е.Ф. Системное представление дистанционного образования // Научно-методический журнал «Педагогические и информационные технологии в образовании». 2002, №5
12. Роберт И.В. Современные информационные технологии в образовании. М.: Школа-Пресс, 1994, с.205

## DISTANT LEARNING AND MANAGING IN INFORMATION ENVIRONMENT

**S.A.Aliyev**

**SUMMARY**

The actuality of distant education is considered in this article. The issues of using informational and telecommunicational technologies in education process are priorities in our days. Distant education technologies are distinguished by the wide use of achievements of informational technologies, adding some kind of individualization to the process of education. The interactive coordination between all the participants of educati-

on process is reached with the help of modern telecommunicational means.

## УПРАВЛЕНИЕ ИНФОРМАЦИОННОЙ СРЕДОЙ В ДИСТАНЦИОННОМ ОБРАЗОВАНИИ

**С.А.Алиев**

### РЕЗЮМЕ

В статье рассматривается актуальность проблемы дистанционного образования. В настоящее время вопросы использования информационных и телекоммуникационных технологий в учебном процессе являются приоритетными. Особенностью дистанционной технологии обучения является широкое использование достижений информационных технологий, обеспечивающих индивидуализацию процесса. С помощью современных телекоммуникационных средств обеспечивается интерактивное взаимодействие всех участников образовательного процесса и реализация удаленного процесса обучения.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 372.857

# РОЛЬ МУЛЬТИМЕДИЙНЫХ СРЕДСТВ В ОБУЧЕНИИ БИОЛОГИИ

**А.Г.Расулова**
Университет Одлар Юрду
Баку, ул.К.Рагимова 13
e-mail: r.sabina8@mail.ru

***Açar sözlər:*** multimedia, multimedia vəsaitləri, tədris, biologiya
***Keywords:*** multimedia, multimedia resources, teaching, biology
***Ключевые слова:*** мультимедиа, мультимедийные средства, обучение, биология

Мультимедийные средства на сегодняшний день рассматриваются как один из основных путей модернизации системы образования. Это связано не только с развитием техники и технологий, но и, прежде всего, с переменами, которые вызваны развитием информационного общества. На основе этого ставится задача, которая направлена на обеспечение учебных заведений современными учебными и техническими средствами. За последнее время их видовой состав пополнился такими средствами, как электронные учебники, электронные учебные пособия, средства компьютерного моделирования, Интернет-сайты и другие цифровые образовательные ресурсы. Мультимедиа (от англ. multi - много, media - среда) - это технология, объединяющая информацию (данные), звук, анимацию и графические изображения. Кроме того, мультимедиа - это средства обмена информацией между компьютером и внешней средой, то есть взаимодействие визуальных и аудиоэффектов под управлением интерактивного программного обеспечения с использованием современных технических и программных средств.

После общих понятий, перейдём к полному определению мультимедийных средств. Мультимедийные средства - это комплекс аппаратных и программных средств, позволяющих человеку общаться с компьютером, используя самые разные, естественные для себя среды: звук, видео, графику, тексты, анимацию. В то же следует отметить, что мультимедиа в учебном процессе представлена компьютерными программами, электронными учебниками, компьютерным моделированием в виде разнообразных заданий для самостоятельной работы, учебно-познавательными задачами на разных этапах учебного занятия, компьютерными учебными играми, а также образовательными веб-страницами.

Согласно А.В.Дворецкой (4), выделяют 8 типов мультимедийных средств, используемых в обучении биологии на основании их функционального назначения:

1. Презентации - это электронные диафильмы, которые могут включать в себя анимацию, аудио- и видеофрагменты, элементы интерактивности. Эти компьютерные средства интересны тем, что их может создать любой учитель, имеющий доступ к персональному компьютеру, причем с минимальными затратами времени на освоение средств создания презентации. Например, при защите дипломной работы автор

пользовалась именно данным видом мультимедийных средств.

2. Электронные энциклопедии - являются аналогами обычных справочно-информационных изданий - энциклопедий, словарей, справочников и т.д.

3. Дидактические материалы - сборники задач, диктантов, упражнений, а также примеров рефератов и сочинений, представленных в электронном виде.

4. Программы-тренажеры. Они выполняют функции дидактических материалов и могут отслеживать ход решения и сообщать об ошибках.

5. Системы виртуального эксперимента - это программные комплексы, позволяющие обучаемому проводить эксперименты в "виртуальной лаборатории". Главное их преимущество - они позволяют обучаемому проводить такие эксперименты по биологии, которые в реальности были бы невозможны по соображениям безопасности, временным характеристикам и т.п. Главный недостаток подобных программ - естественная ограниченность заложенной в них модели, за пределы которой обучаемый выйти не может в рамках своего виртуального эксперимента.

6. Программные системы контроля знаний, к которым относятся опросники и тесты. Главное их достоинство - быстрая удобная, беспристрастная и автоматизированная обработка полученных результатов. Главный недостаток - негибкая система ответов, не позволяющая испытуемому проявить свои творческие способности.

7. Электронные учебники и учебные курсы - объединяют в единый комплекс все или несколько вышеописанных типов.

8. Обучающие игры и развивающие программы - это интерактивные программы с игровым сценарием. Выполняя разнообразные задания в процессе игры, дети развивают тонкие двигательные навыки, пространственное воображение, память.

Биология как учебный предмет представляет исключительную ценность для воспитания материалистического мировоззрения, так как ее материал является доступным наблюдению и требует логических выводов на основе наблюдаемых фактов и явлений (Н.М.Верзилин, В.М.Корсунская). Введение мультимедийных средств, как мы поняли, в процесс обучения определяется как технологическая революция в образовании. На современном этапе информационно-технического освоения учителя стоят перед необходимостью освоения новых технологий обучения, таких, как программные продукты, компьютерная поддержка на уроке, определенные категории мультимедиа средств (вышеуказанные 8 видов).

Подчеркивая вышесказанное мной, я бы хотела выразить и свою точку зрения к выбранной теме. Прежде всего, использование мультимедиа и ее средства способствует заинтересованности учащихся к предмету, развитию у них мотивационной деятельности к анализу, синтезу и сравнению, моделированию, установлению причинно-следственных связей, использованию разных видов информации. Именно благодаря такого типа урокам, в которых применяются мультимедийные средства обучения школьники могут в динамике рассмотреть все процессы, самостоятельно смоделировать то или иное явление по заданным условиям или составить гербарии, «посетить» виртуальные экскурсии, а также выполнять лабораторные, практические и другие задания самостоятельно. Немаловажную роль в повышении качества образовательного процесса играет, как правило, грамотное использование мультимедийных средств обучения на занятиях по биологии.

Таким образом, можно смело утверждать, что роль мультимедийных средств в обучении биологии очень значима и важна, потому что они непосредственно участвуют в повышении качества учебного процесса как в целом, так и на уроках биологии.

**Литература**


1. Апатова Н.В. Информационные технологии в школьном образовании. М.: ИОШ РАО, 1994, 228 с.
2. Башмаков М.И., Поздняков С.Н., Резник Н.А. Информационная среда обучения. СПб.: СВЕТ, 1997, 400 с.
3. Даринский Ю.А., Смирнов В.А. Компьютерная поддержка традиционного учебного процесса как особая форма информационной технологии обучения // Новые информационные технологии в образовании. Воронеж: ВГПУ, 1997, с.129-131.
4. Дворецкая А.В. «Основные типы компьютерных средств обучения», 2004, 128 с.
5. А.В.Могилёв. "Интернет приходит в школу", ВГПУ, 2001, 208 с.
6. В.Б.Попов. "Интернет-технологии и развитие образования". Воронеж, ВГПУ, 2001, 102 с.
7. Wilson J.M., Redish E.P. Using computers in teaching physics // Physics Today. 2005, Vol. 42, №1, pp.34-41


## MULTİMEDİA VƏSAİTLƏRİNİN BİOLOGİYA FƏNNİNİN TƏDRİSİNDƏ ROLU

**A.G.Rəsulova**

**XÜLASƏ**

Məqalə multimedia vəsaitlərinin biologiya fənninin tədrisində istifadəsinə həsr olunmuşdur. Multimedia vəsaitlərinin təhsil sisteminin müasirləşdirilməsinin əsas yollarından biri olduğu göstərilmişdir. Multimedia - informasiya, səs, animasiya və qrafikanı birləşdirən bir texnologiyadır. Bundan başqa, multimediya - kompyuter və ətraf mühitlə qarşılıqlı əlaqə yaradan bir vasitədir.

## THE ROLE OF MULTIMEDIA RESOURCES IN TEACHING BIOLOGY

**A.G.Rasulova**

**SUMMARY**

This research work is about the use of multimedia resources in teaching biology. Multimedia resources are specified as one of the main tools in modernization of educational system. Multimedia is a technology which combines information, sound, animation and graphics. Besides, multimedia is a way to create an interaction between computer and environment.

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2013 - № 37**

UOT № 374.3

# MÜASİR AZƏRBAYCAN TƏHSİLİ VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Z.M.Mirzəyev**
Gəncə Dövlət Univeriteti
Gəncə AZ2000, Şah İsmayıl Xətai prospekti 187
e-mail: fuadhud@yahoo.com

***Açar sözlər:*** Azərbaycan təhsil sistemi, inteqrasiya, Azərbaycan təhsilinin inkişaf istiqamətləri
***Keywords:*** Azeri educational system, integration, lines of development for Azeri educational system
***Ключевые слова:*** система образования Азербайджана, интеграция, направления развития образования в Азербайджане

Azərbaycan müstəqillik qazandıqdan sonra təhsil sisteminin inkişafı və təhsilin müasir tələblərə uyğun qurulması üçün şərait yarandı. Bu canlanma böyük şəxsiyyət, ümummilli lider Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışı ilə başlandı və geniş vüsət aldı. Ölkədə bərqərar olmuş iqtisadi və siyasi sabitlik, ümumi irəliləyiş bu sahədə də özünü göstərdi. Onun göstərişinə və xalqın iradə və istəyinə əsasən yeni Azərbaycan Respublikasının 1995-ci ildə Konstitusiyası qəbul olundu ki, burada təhsilin strateji sahə olması təsdiqlənmiş, pulsuz icbari ümumi təhsilə dövlət təminatı verilmiş və dövlətin minimum təhsil standartlarını müəyyən etməsi göstərilmişdi [1; 16].

Azərbaycan Respublikasında təhsil sahəsində islahatların aparılmasına istiqamət verən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" (1999, 15 iyun) təsdiq olundu. Dövlət proqramında milli təhsil sistemində aparılacaq islahatların konsepsiyası, uzunmüddətli inkişaf strategiyası və prioritet istiqamətləri müəyyənləşdirildi [3]. Burada göstərilirdi ki, Azərbaycanın XX əsrdə siyasi, iqtisadi, mənəvi inkişafının ən mühüm məqsədlərindən biri ölkədə müasir təhsil sisteminin yaradılmasıdır. Həmin proqrama uyğun olaraq, 1999-2003-cü illərdə müxtəlif təhsil pillələrində toplanmış potensial saxlanmış, daha da inkişaf etdirilmiş, Azərbaycanın təhsil sistemini tənzimləyən müvafiq hüquqi baza yaradılmışdır. Göstərilən tələblərə cavab verən təhsil sistemi siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməyə çalışır. Burada toplanmış təcrübənin mütərəqqi əsaslarını saxlamaqla müstəqil Azərbaycan Respublikasının strateji məqsədlərini həyata keçirməyə qadir olan intellektual potensialın formalaşdırılmasında inkişaf etmiş ölkələrin özünü doğrultmuş və mövcud elmi-pedaqoji ictimaiyyətin qəbul etdiyi təcrübəsindən istifadə olunmuşdur.

Təhsil sisteminin inkişafı və təhsilin müasir tələblərə uyğun qurulması üçün təhsilə qayğı göstərilməsi inkaredilməz gerçəkdir . Bu gerçəkliyi Ümummilli lider Heydər Əliyev həyata keçirdi. Məhz onun sərəncamı ilə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" (30 avqust 1999-cu il), "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında" (19 iyul 2001-ci il) "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" (13 iyun 2000-ci il) fərmanlar, "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" (1999, 15 iyun)

buna ən gözəl nümunədir.

Azərbaycan təhsili XXI əsrin əvvəllərində özünün beynəlxalq əlaqələrini genişləndirərək dünya təhsil sisteminə inteqrasiya edir. Bu sahədə islahatlar "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" və həmin proqramın komponent və alt-komponentləri üzrə təsdiq olunmuş İnkişaf Proqramları; Azərbaycan hökuməti ilə Dünya Bankı arasında imzalanmış birinci (12 iyul 1999) ikinci kredit (19 sentyabr 2003) əsasında hazırlanmış təhsil sektorunun inkişaf layihələri; beynəlxalq qurumlarla Təhsil Nazirliyi arasında bağlanmış sazişlər üzrə həyata keçirilən layihələr əsasında aparılır [3].

Bir sıra özəl universitetlərin nəzdində ümumtəhsil məktəbləri, Müasir Təhsil Kompleksi, "XXI əsr" və sair kimi özəl ümumtəhsil məktəbləri yaradıldı. Bununla yanaşı, Türkiyənin Azərbaycanda fəaliyyət göstərən "ÇAĞ-Öyrətim" Mərkəzinin Bakı şəhərində və respublikanın ayrı-ayrı bölgələrində 11 lisey və onların filiallarının fəaliyyətinə lisenziya verildi.

Texniki peşə və orta ixtisas təhsili müəssisələrinin şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində də mühüm tədbirlər həyata keçirildi, yeni tipli təhsil müəssisələri yaradıldı. Təhsil sisteminin idarəetmə strukturlarının təkmilləşdirilməsi, onlara daxil olan ümumtəhsil, peşə-ixtisas təhsili, təhsili idarəetmə orqanlarının şəbəkəsi optimallaşdı və bu iş davam etməkdədir. Eyni zamanda bir sıra yeni ali məktəblər yaradıldı, bəzi ali təhsil müəssisələrinin statusu artırıldı və profilləri dəyişdirilərək universitetlərə çevrildi. "2000-2005-ci illərdə Azərbaycan Respublikasının təhsil sistemində tərbiyə işinin inkişaf proqramı" hazırlandı və icra edilməyə başlandı [5].

Respublikada təhsil sisteminin əhatə imkanlarının genişləndirilməsi, onun keyfiyyətinin və rəqabət qabiliyyətinin yüksəldilməsi İKT-nin, müasir innovasiyaların tətbiqindən çox asılıdır. Buraya eyni zamanda təhsil qanunvericiliyinin təkmilləşdirilməsi, təhsili idarəetmənin modernləşdirilməsi, bütün təhsil pillələri üzrə kurrikulumların hazırlanması, milli təhsil sisteminin beynəlxalq standartlara yaxınlaşdırılması və dünya təhsil sisteminə inteqrasiyası və s. daxildir.

YUNESKO XXI əsri "Təhsil əsri" elan etmişdir. Buraya dünya təhsil sistemi üçün dörd prinsip daxildir: 1) bir yerdə yaşamağı öyrətmək; 2) bilik əldə etməyi (öyrənməyi) öyrətmək; 3) işləməyi öyrətmək; 4) yaşamağı öyrətmək. Azərbaycanda da milli təhsil quruculuğunun başlıca məqsədi bu prinsiplərə riayət etmək onların əsasında hərtərəfli inkişaf etmiş insan, əsl şəxsiyyət tərbiyə etmək, yetişdirməkdir.

Azərbaycan Respublikası "Avropa ali təhsil məkanı haqqında Bolonya Konvensiyası"na qoşulmuşdur (19 may, 2005). Azərbaycanın Boloniya prosesinə qoşulması ölkədə vahid Avropa standartlarına cavab verən ali təhsilə nail olmaq zərurətini meydana çıxarıb. 2005-ci ildən etibarən Azərbaycanda bu istiqamətdə islahatlar aparılır.

Bolonya Bəyannaməsinin müddəalarını həyata keçirmək üçün 2006-2010-cu illəri əhatə edən Tədbirlər Planı təsdiq edilmişdir. Ali təhsil islahatlarında ən mühüm mərhələ isə 2009-cu il mayın 22-də Azərbaycan prezidenti tərəfindən təsdiq edilmiş dövlət proqramının qəbul edilməsidir. "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"nın əsas məqsədi ölkədə ali təhsilin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanları-

nın təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır [6].

Son illərdə Azərbaycan Respublikası öz inkişafının yeni mərhələsinə qədəm qoyur. Bu inkişafa daha da təkan vermək, ölkəmizin bütün sahələrdə qələbəsini təmin etmək, əldə etdiyi nailiyyətlərin sayını artırmaq məqsədilə daha yeni bir konsepsiyanın hazırlanması və həyata keçirilməsi üçün sərəncam verilmişdir. Siyasi və ictimai həyatda Heydər Əliyev dəst-xəttini davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2011-ci il noyabrın 29- da "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması haqqında sərəncama imza atmışdır. Konsepsiyada müasir təhsil sisteminin formalaşdırılmasına xüsusi yer verilmişdir. Burada bildirilir ki, təhsildə idarəetmənin təkmilləşdirilməsi davam etdiriləcək, bütün maraqlı tərəflərin cəlb olunmasını təmin edən idarəetmə modelinə üstünlük veriləcəkdir. Bu, bütün növ təhsil müəssisələrinin müstəqilliyinin artırılması, ictimaiyyətin (valideyn, şagird, tələbə, yerli icma və s.) geniş şəkildə cəlb olunması vasitəsilə təhsil ocaqlarının dövlət-ictimai xarakterdə idarə olunması, digər müasir idarəetmə texnologiyalarının tətbiq olunması və s. kimi istiqamətlərdə islahatyönlü tədbirlərlə həyata keçiriləcəkdir. Konsepsiya təhsil sisteminin informasiyalaşdırılması, bütövlükdə təhsil sisteminin yenidən qurulmasına xüsusi diqqət yetirir. Bu məqsədlə də 2013-2020-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramının qəbul edilməsi nəzərdə tutulur. Konsepsiya eyni zamanda Azərbaycan təhsilinin dünya və Avropa təhsil məkanına inteqrasiyasının gücləndirilməsini nəzərdə tutur. Bu məqsədi həyata keçirmək üçün gənclərin xarici ölkələrdə təhsil almalarına dair yeni Dövlət Proqramı qəbul ediləcəkdir [7].

Əminik ki, hər bir azərbaycanlının milli-mədəni, elmi inkişafında mühüm rol oynayan təhsil sistemimiz daha da inkişaf etmək üçün bu İnkişaf Konsepsiyasından çıxış edərək yeni istiqamətlər müəyyən edəcək və dünyamiqyaslı uğurlara imza atacaqdır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası, Maddə 42. Bakı, Qanun, 2008, 64 s.
2. Azərbaycan Milli Ensiklopediyası. Bakı, Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, 883 s.
3. Quliyev Ə. Azərbaycan təhsili müstəqillik illərində // Azərbaycan Milli Ensiklopediyası. Bakı, Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007, s.696
4. Paşayev,Ə., Rüstəmov,F. Pedaqokika. Bakı, Nurlan, 2007, 464 s.
5. www.azerbaijan.az
6. www.azerbaijans.com
7. www.milli.az/news/politics/128637.html


## EDUCATION IN AZERBAIJAN TODAY AND THE LINES OF ITS DEVELOPMENT

**Z.M.Mirzayev**

### SUMMARY

This article is about the educational system in the Republic of Azerbaijan. The author presents an analysis of various lines of its development.

# ОБРАЗОВАНИЕ В СЕГОДНЯШНЕМ АЗЕРБАЙДЖАНЕ И НАПРАВЛЕНИЯ ЕГО РАЗВИТИЯ

**З.М.Мирзоев**

## РЕЗЮМЕ

В статье речь идёт об образовательной системе в Азербайджане. Представлен анализ различных направлений её развития.

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2013 - № 37**

# PEDAQOGİKA BÖLMƏSİ

UOT № 372.857

## BİOLOGİYANIN TƏDRİSİNDƏ EKOLOJİ MƏŞĞƏLƏLƏRİN ROLU

**F.N.Rüstəmova**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: fakhridakhanum@gmail.com

***Açar sözlər:*** məşğələ, münasibət, iştirakçı, təşkilatçı, lahiyə
***Keywords:*** exercise, attitude, participant, organizer, project
***Ключевые слова:*** упражнение, отношение, участник, организатор, проект

Müasir dövrdə orta və ali təhsil məktəblərində, istehsalat sahələrində ekoloji təhsil sisteminin formalaşması və öyrənilməsi problemlərin həlli istiqamətində ən vacib vəzifələrdən biridir. Respublikamızda belə praktiki məşğələlərin biologiyanın tədrisində istifadəsi şagirdlərin təbiətə, biologiya elminə olan marağı ilə yanaşı bu elmin geniş dərk edilməsinə də imkan yaradır.

Müxtəlif əyləncəli ekoloji məşğələlərin tətbiqi ekoloji mədəniyyətin formalaşmasına kömək edir. Ekoloji tərbiyədə müxtəlif forma və vasitələrdən istifadə olunması bu prosesin effektivliyini artırır.

Belə elmi praktiki məşğələlərin aparılmasında məqsəd şagirdlərin əyani, praktiki bacarıqlara yiyələnməsilə yanaşı onlarda təbiətə qarşı məsuliyyətli münasibətin formalaşmasıdır. Şagirdlərdə canlı təbiətə marağın artması ilə yanaşı onların ekoloji bilikləri mənimsəməsi də mühim əhəmiyyət kəsb edir. Bu dövrdə əsas münasibətlər, vərdişlər, insanların dünyaya nöqteyi-nəzəri formalaşır və möhkəmlənir. Uşaqlarda ekoloji mədəniyyət formalaşmaqla yanaşı, təbiətə məsuliyyət hissi də artır.

Müxtəlif əyləncəli məşğələlərdə iştirak edən məktəblilər təbiət haqqında suallara cavab verərkən, özlərini böyük dünyanın bir hissəsi hesab edirlər, təbiətlə və onları əhatə edən insanlarla harmoniyada yaşamağı öyrənirlər. Ekoloji məşğələlər şagirdlərdə təbiət hadisələrinin qarşılıqlı əlaqələri haqqında təsəvvür yaradıb, müşahidə, müqayisə, sistemləşdirmə, analiz etmə, ümumiləşdirmə kimi bacarıqları formalaşdırır.

Belə ekoloji məşğələlər iştirakçılar tərəfindən aparılır. Təşkilatçı oyun prosesində şagirdlərdə etibarlı münasibəti, qarşılıqlı kömək hissini, məsuliyyəti, qayğıkeşliyi artırmaqla yanaşı, ekoloji cəhətdən onların bu elmə marağının da artmasına səbəbkar olur.

Biologiyanın tədrisində belə məşğələlərin dərsdənkənar vaxtlarda aparılması uşaqların təbiət haqqında biliklərini zənginləşdirir, əxlaqi anlayışların formalaşmasına kömək edir, ətraf mühitə humanist münasibətin yaranmasına səbəb olur. Uşaq və yeniyetmələrin ekoloji tərbiyəsində istifadə olunan müxtəlif oyunlar forma və məzmununa görə fərqlənirlər. Məşğələlər didaktik, rollu, işguzar, imitasiya, viktorina, çalışmalar, hərəkətli, kompüter, səyahət, turnir və s. ola bilər.

Məşğələlərin tematik plana uyğun icra edilməsini nəzərə almaq lazımdır ki, layihə-

lər iştirakçılar tərəfindən maraqla qarşılansın. Məhz, ona görə də həmin oyuna qabaqcadan hazırlaşmalı, metodik yollar, qaydalar dürüstləşdirməlidir.

Bu tip məşğələlərdə uşaqların ətraf mühitə münasibətini daha tez öyrənmək olur. Bu prosesdə onların həm yaxşı cəhətləri, həm də nöqsanları tez üzə çıxır. Müəllim praktiki məşğələlərin məzmununa xüsusi diqqət yetirməlidir. Elə məşğələlər seçilməlidir ki, bu uşaqların sağlamlığına, fiziki inkişafına, həmin sahədə bacarıq və vərdişlərin aşılanmasına kömək etsin. Eyni zamanda müəllim məzmunlu, rəngarəng proqram hazırlamaqla yanaşı, yüksək pedaqoji ustalıq nümayiş etdirməyi bacarmalıdır.

Məşğələ vaxtı şagirdlər arasında vəzifə bölgüsü apararkən onların fərdi xüsusiyyətləri, hərəkət və təşkilatçılıq qabiliyyətləri nəzərə alınmalıdır. Oyuna qüvvətli, hərəkətli, fiziki inkişafa malik uşaqlarla yanaşı, zəif uşaqlar da cəlb olunmalı və nəzarətdə saxlanılmalıdır.

Məşğələlərin açıq təbiətdə aparılması vacib şərtlərdən biridir. Bu məqsədlə botanika bağlarında, dendrarilərdə məktəblilərin ekoloji dünyagörüşünün tərbiyə edilməsi aktual pedaqoji problemlərdən olub, şagirdlərin təlim – tərbiyəsində əsas amildir.

Oyun davranışında müəyyən məhdudiyyətlər qoyulur: məsələn, ekoloq rolunda olan iştirakçı ətraf mühiti çirkləndirə, bitkiləri və heyvanları məhv edə bilməz. Bu halda o, ifa etdiyi rola uyğun gəlmir. Məsələn, “Meşə gözətçisi” roluna təbiət sevən şagirdlər seçilir.

Məşğələdə müxtəlif konfliktlər və iştirakçılar arasında mürəkkəb münasibətlər senariləşdirilir. Hər iştirakçı oyunda özü üçün yeni olan vəziyyət ilə qarşılaşır, onların həll olunma üsulları müzakirə olunur. Məşğələnin məzmununa ekoloji problemlər, botanika və zoologiyaya aid oyunlar daxil ola bilər.

Nəticə etibarı ilə sərf olunan vaxt və tədrisin düzgün təşkil olunma imkanları nəzərə alınaraq, ekoloji tərbiyə sahəsində əldə edilmiş nailiyyətlərin nəticəsi müqayisə olunur. Hər yaş dövrü üçün müəyyən olunmuş normalar və tətbiq edilmiş tədbirlər sistemi də nəzərdən keçirilir.

Məşğələnin sonunda iştirakçıların yerinə yetirdikləri öhdəliklər müzakirə olunur. Layihədə müxtəlif vəziyyətlər və onların iştirakçıları göstərilir.

Məsələn, təqdim olunan “rollu məşğələ” yuxarı sinif şagirdləri üçün nəzərdə tutulur. Senarinin məzmununa dayanıqlı inkişaf haqqında anlayış daxildir. Bu anlayış sənaye və kənd təsərrüfatının intensiv inkişaf edən sahələrinin ekologiyalaşmasını əhatə edir. Şagirdlər dərk etməlidilər ki, məsələnin sadə həlli olan sənaye və kənd təsərrüfatı istehsalının həcminin azaldılması iqtisadi səbəblərdən mümkün deyil və ekoloji vəziyyətin yaxşılaşdırılması üçün başqa real yollar axtarmaq lazımdır.

Ekoloji məşğələ təliminin təşkilində əvvəlcə bir meyar tətbiq edilirsə və bu müvəffəqiyyətlə nəticələnirsə onda 2-ci stimul yaradan oyundan istifadə olunur.

Məsələn, şagirdlərin zehnini qüvvətləndirmək məqsədi ilə istifadə olunan məşğələlərdən biri də tapmacalardır. Bu oyunlar şagirdlərdə müstəqil hərəkət etməyə, fəal olmağa və müəyyən qədər də bu işin öhdəsindən gəlməyə öyrədir.

Belə lahiyələrin aparılması şagirdlərin əqli və fiziki cəhətdən inkişafına, əxlaq və əmək tərbiyəsinə müsbət təsir göstərir. Şagirdlər ekoloji məşğələlər vasitəsilə müəyyən hərəkətlərin icrasına düşüncəli sürətdə yiyələnə bilirlər. Biologiyanın tədrisində keçirilən fərqli məşğələlər və tədbirlər şəraitdən asılı olaraq bu vəziyyətdən tezliklə çıxmasında, onların cəldliyi, çevikliyi, sürəti inkişafı köməklik göstərir, fiziki cəhətdən təkmilləşməyə zəmin yaradır (xüsusən o, yarış formasında keçirilərsə).

## Ədəbiyyat


1. T.S.Məmmədov, Ş.A.Gülməmmədova, F.S.Mehdiyeva. Ekoloji oyunlar. 2007
2. T.S.Məmmədov. Ekologiya. Bakı, Elm, 2004
3. Алексеев С.В. Экология. Учебное пособие для 9 класса средней школы. – СПб.: СМИО пресс, 1988
4. Алексеев С.В. Экология. Учебное пособие для 10-11 классов средней школы. – Санкт-Петербург: СМИО пресс, 1989
5. Алексеева Т.И. Адаптация человека в различных экологических нишах Земли: Биологические аспекты. Курс лекций. - М.:, Изд-во МНЭПУ, 1988


## THE ROLE OF ECOLOGICAL EXERCISES IN TEACHING BIOLOGY

**F.N.Rustamova**


## SUMMARY

This article states that the funny exercices in teaching of biology in secondary schools contribute to the development of biology as a science and make children love the nature. The author suggests various kind of environmental games and quizzes to be included in extracurricular activities.


## РОЛЬ ЭКОЛОГИЧЕСКИХ ЗАНЯТИЙ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ БИОЛОГИИ

**Ф.Н.Рустамова**


## РЕЗЮМЕ

В статье отмечается, что развлекательные занятия для школьников способствуют развитию науки биологии и зарождают в них любовь к природе. Автор предлагает включить в программу внеурочных занятий различные виды экологических игр и викторин.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 338.431.2

# REGİONLARDA AQRAR SAHƏNİN DİNAMİK İNKİŞAFI VƏ ƏMƏK EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASI

**N.Q.Adilova**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: aytenoyu@mail.ru

***Açar sözlər:*** əmək bazarı, əmək ehtiyatları, iqtisadi inkişaf, əhalinin məşğulluğu, işsizlik
***Keywords:*** labor market, labor resources, economic development, population employment, unemployment
***Ключевые слова:*** рынок труда, трудовые ресурсы, экономическое развитие, занятость населения, безработица

Aqrar sahənin dinamik inkişafı əmək ehtiyatlarının formalaşması, ondan səmərəli istifadə edilməsi ilə sıx bağlıdır. Əmək ehtiyatlarından səmərəli istifadə edilməsi dedikdə ilk növbədə, onların həqiqətən səmərəli məşğulluğuna nail olmaq başa düşülür. Odur ki, ilk növbədə respublikanın bütövlükdə iqtisadiyyatı, o cümlədən kənd təsərrüfatının inkişafı demoqrafik proseslərlə əlaqələndirilməlidir.

Aqrar sahədə əmək ehtiyatlarının tərkibini öyrənərkən ilk növbədə əmək ehtiyatı ilə əməkqabiliyyətli əhali arasındakı həddi araşdırmaq vacibdir. Məlumdur ki, "əmək ehtiyatları" dedikdə, əməkqabiliyyətli əhali ilə yanaşı, öz əməyini istehsal proseslərinə daxil edə bilən, fizioloji və ruhi cəhətdən sağlam yeniyetmələrin və əməkqabiliyyətli yaşdan yuxarı şəxslərin məcmusu başa düşülür [1, s.123]. Respublikada əmək ehtiyatlarının hazırkı vəziyyətini aşağıdakı cədvəldə görmək münkündür.

Cədvəl 1

Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasında əmək ehtiyatları (min nəfər)

| Göstərici | 2006 | 2011 | 2011-ci ilin 2006-cı ilə nisbəti, % |
|---|---|---|---|
| Azərbaycan Respublikası üzrə | | | |
| əməkqabiliyyətli yaşda əmək qabiliyyətli əhalinin sayı | 5304 | 5875.7 | 1,1 |
| iqtisadiyyatda məşğul olan əməkqabiliyyətli yaşdan yuxarı şəxslər | 103.8 | 133.1 | 1,2 |
| iqtisadiyyatda məşğul olan yeniyetmələr | 13.5 | 6.2 | -0,45 |
| Cəmi | 5421.3 | 6015 | 1,10 |

| Naxçıvan Muxtar Respublikası üzrə | | | |
|---|---|---|---|
| əməkqabiliyyətli yaşda əməkqabiliyyətli əhalinin sayı | 210,4 | 260,4 | 1,2 |
| iqtisadiyyatda məşğul olan əməkqabiliyyətli yaşdan yuxarı şəxslər | 6,4 | 6,7 | 1,04 |
| Iqtisadiyyatda məşğul olan yeniyetmələr | 0,6 | 0,3 | -0,5 |
| Cəmi | 238,5 | 267,4 | 1,12 |

*Mənbə: Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Statistika Komitəsinin materialları, 2012*

Cədvəldən göründüyü kimi, 2011-cu ildə respublika üzrə 6015 min nəfər əmək ehtiyatı mövcuddur. Bu göstərici 2006-cı illə müqayisədə 593,7 min nəfər və ya 10,9% artmışdır. Əmək ehtiyatlarından 5875,7 min nəfərini əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhali, 133,1 min nəfərini əmək qabiliyyətli yaşdan yuxarı əhali, 6,2 min nəfəri isə məşğul yeniyetmələdir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı əhalinin sayı 2006-cı ilə nisbətən 28,2% artsa da, iqtisadiyyatda məşğul olan yeniyetmələrin sayı isə, əksinə 54,07% azalmışdır.

Tədqiqat obyekti olan Naxçıvan regionunda əmək ehtiyatlarının hazırkı durumunu nəzərdən keçirək: belə ki, 2011-ci ildə Muxtar Respublika üzrə 267,4 min nəfər əmək ehtiyatı mövcuddur. Bu göstərici 2006-cı illə müqayisədə 40,2 min nəfər və ya 20,1% artmışdır. Əmək ehtiyatlarından 260,4 min nəfərini əmək qabiliyyətli yaşda əmək qabiliyyətli əhali, 6,7 min nəfərini əmək qabiliyyətli yaşdan yuxarı əhali, 0,3 min nəfəri isə məşğul yeniyetmələrdir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatda məşğul olan əmək qabiliyyətli yaşdan yuxarı əhalinin sayı 2006-cı ilə nisbətən 0,8% artsa da, iqtisadiyyatda məşğul olan yeniyetmələrin sayı isə, əksinə 44,07% azalmışdır.

Naxçıvan Muxtar Respublikasında yaşayan əhalinin yarısından çoxunu əmək qabiliyyətli yaşında olan adamlar təşkil edirlər. Hazırda onların əksəriyyəti Naxçıvanın müxtəlif iqtisadiyyat sahələrində işləyənlərdir. 1940-1998-ci illərdə Naxçıvan Muxtar Respublikası iqtisadiyyatda muzdla işləyənlərin sayı 8.1 dəfə artaraq 20.7 min nəfərdən 70.2 min nəfərə, o cümlədən qadınların sayı 11.5 dəfə artaraq 2.9 min nəfərdən 33.5 min nəfərə, bütün işləyənlər arasında onların xüsusi çəkisi isə 14.4 faiz bəndi artaraq 33.3 m-dən 47.7 faizə qalxmışdır. 1940-cı ildən keçən 60 ilə yaxın bir dövrdə Muxtar Respublikada əmək ehtiyatlarının iqtisadiyyatda məşğulluq səviyyəsinin ən çox artdığı dövr 70-80-cı illərə təsadüf etmişdir. 1970-1980-cı illərdə Muxtar Respublika iqtisadiyyatında muzdla işləyənlərin sayı 26.1 min nəfər və ya 1.7 dəfə artaraq 36.7 min nəfərdən 62.8 min nəfərə, o cümlədən muzdla işləyən qadınların sayı 11.8 min nəfər və ya 1.8 dəfə artaraq 14.6 min nəfərdən 26.4 min nəfərə gəlib çatmışdır. 1980-1990-cı illərdə isə burada iqtisadiyyatda muzdla məşğul olan bütün işçilərin sayı 1.4 dəfə artaraq 62.8 min nəfərdən 83.5 min nəfərə, o cümlədən qadınların layı 41.3 faiz artaraq 26.4 min nəfərdən 37.3 min nəfərə qalxmışdır. 1990-1993-cü illərdə isə Muxtar Respublika iqtisadiyyatında muzdla işləyənlərin sayı 17.9 min nəfər və ya 20.2 faiz azalaraq 88.5 min nəfərdən 70.6 min nəfərə, o cümlədən qadınların sayı 6.0 min nəfər və ya 16.1 faiz azalaraq, 37.3 min nəfərdən 31.3 min nəfərə düşmüşdür. 1993-cü ildən keçən son beş il-

də isə burada muzdla işləyən bütün işçilərin sayı 67.9-70.2 min nəfər, qadınların sayı isə 30.6-33.5 min nəfər arasında tərəddüd etməklə müvafiq surətdə 3.3 və 9.4 faiz azalmışdır. Nəticədə, 1970-1990-cı illərdə iqtisadiyyatda muzdla məşğul olan işçilərin iqtisadiyyatın müxtəlif sahələri arasında bölünməsi nisbəti də xeyli dəyişmişdir. Belə ki, əgər 1990-cı ildə iqtisadiyyatda məşğul olanların 67.1 faizi maddi, 32.9 faizi qeyri-maddi istehsal dairələrində, o cümlədən 10.9 faizi sənayedə, 21.3 faizi kənd təsərrüfatında, 9.3 faizi rabitədə, 18.3 faizi tikintidə, 6.0 faizi ticarətdə, 8.4 faizi səhiyyə, bədən tərbiyəsi və sosial müdafiədə, 15.3 faizi təhsildə məşğul olmuşlarsa, 2011-ci ildə müvafiq surətdə 66.6 faizi maddi, 33.4 faizi qeyri-maddi istehsal sahələrində, o cümlədən 13.3 faizi sənayedə, 30.2 faizi kənd təsərrüfatında, 7.8 faizi rabitədə, 8.0 faizi tikintidə, 7.5 faizi səhiyyə, bədən tərbiyəsi və sosial müdafiədə, 12.9 faizi isə təhsildə məşğul olmuşlar.

Hazırda Muxtar Respublika iqtisadiyyatında muzdla məşğul olanların 54.1 faizi, yəni 1990-ci ilə nisbətən 12.2 faiz bənd, 2011-ci ilə nisbətində 11.7 faiz bənd az hissəsi maddi istehsal dairəsində, müvafiq surətdə bir o qədər çox hissəsi isə qeyri-istehsal dairəsində işləyənlərin payına düşür. 1990-ci ilə nisbətən 2011-ci ildə tikintidə işləyənlərin xüsusi çəkisi 8.3 bənd azalaraq 18.3 faizdən 10.0 faizə, ticarətdə işləyənlərin xüsusi çəkisi 1.4 bənd azalaraq 6.0 faizdən 4.6 faizə düşdüyü halda, mənzil-kommunal təsərrüfatlarında işləyənlərin xüsusi çəkisi 1.3 bənd artaraq 2.7 faizdən 4.0 faizə qalxmış, səhiyyə, bədən tərbiyəsi və sosial müdafiədə işləyənlərin xüsusi çəkisi demək olar ki, cəmi 0.3 bənd artaraq sabit qalmış, təhsil sahəsində çalışanların xüsusi çəkisi 2.5 bənd artaraq 15.3 faizdən 17.8 faizə, dövlət və təsərrüfat idarəetmə orqanlarının, kooperativ və ictimai təşkilatların idarəetmə orqanlarının, aparatında işləyənlərin xüsusi çəkisi isə 2.1 bənd artaraq 2.5 faizdən 4.4 faizə qalxmışdır. Bütün bunlar müqayisə edilən dövrdə Muxtar Respublika iqtisadiyyatında baş verən əsas dəyişiklikləri xarakterizə edən göstəricilərdir.

Əməkqabiliyyətli əhalinin artımına təsir edən amillərdən biri də əməkqabiliyyətliliyin aşağı və yuxarı hədləridir. 2011-ci ildə kənd təsərrüfatında iştirak edən pensiyaçılar ümumi əməkqabiliyyətlilərin 2,6%-ni, yeniyetmələr isə 0,2%-in təşkil etmişlər. Əmək ehtiyatlarının istehsal sahələrinə cəlb olunmasını müəyyənləşdirərkən qeyd olunan amilin nəzərə alınması çox vacibdirAqrar sahədə əmək ehtiyatlarından səmərəli istifadə olunmasında istehsal və əmək qruplarının, həmçinin onların optimal həcminin müəyyən edilməsinin böyük rolu vardır. Keçmiş təsərrüfatçılıq sistemində briqadalar adlandırılan bu qruplar müəyyən bir məhsul istehsalı (kənd təsərrüfatı bitkilərinin becərilməsi, emalı və heyvanların bəslənməsi) ilə məşğul olurlar. Bazar münasibətləri şəraitində müxtəlif fəaliyyətlə məşğul olan kənd təsərrüfatı qurumları möhkəmləndikcə, həmçinin istehsal prosesinin ixtisaslaşma və mexanizmləşmə səviyyəsi artdıqca, bu qrupların da həcmi dəyişə bilər. Bu prosesə isə aşağıdakı göstəricilər təsir edə bilər:

- əkin sahəsinin həcmi;
- məhsuldar mal-qaranın sayı;
- əmək ehtiyatlarının (işçilərin) sayı;
- zəruri kənd təsərrüfatı avadanlıqlarının (maşın və mexanizmlərin) miqdarı və s.

Təhlillər göstərir ki, mövcud istehsal qruplarının (işləyənlərin sayının) optimal həcmini müəyyənləşdirmək üçün aşağıdakı göstəriciləri araşdırmaq lazımdır:

- ayrı-ayrı təsərrüfatlar üzrə;

- əmək məhsuldarlığı, fond verimi və torpaqdan istifadənin vəziyyəti;

- iş günü ərzində işçilərin işlə məşğul olma dərəcəsi, iş rejiminin pozulması səbəbləri (toxumun, gübrənin, kimyəvi maddələrin və s.) həmçinin onların vaxtında daşınmaması);

- yerinə yetirilmiş ümumi işlərdə daimi və kənardan cəlb olunmuş insanların gördükləri işin xüsusi çəkisi;

- işlərin texnika ilə silahlanma səviyyəsi, texnikadan istifadə və s. [3, s.15].

Qeyd etdiyimiz kimi, son illərdə ölkədə əmək ehtiyatlarının sayı getdikcə artmaqdadır. Bu hal, demək olar ki, respublikanın bütün regionlarında müşahidə olunur. Statistik məlumatlardan belə məlum olur ki, Naxçıvan regionunda 2006-cı illə müqayisədə 2011-ci ildə kənd təsərrüfatı sahəsində işləyənlərin sayı 6,4 faizdən artaraq 6,7 faiz olmuşdur. Bu da aqrar sahədə məşğulluq probleminin hər zaman əsas məsələ olaraq qalmasına zəmin yaradır.Kənd təsərrüfatına nisbətən, sənaye müəssisələrinin əmək ehtiyatlarının tərkibi bir qədər fərqlənir. Bu fərq əhalinin müxtəlif yaş qruplarının istehsal proseslərində eyni səviyyədə iştirak etməsi ilə izah olunur.

Cədvəl 2

Aqrar sahə üzrə işçilərin bölgüsü, faiz (%)

| İllər | Aqrar sahədə məşğul olan əhali | o cümlədən | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | Kənd təsər-rüfatı | Emal səna-yesi | Nəqliyyat | Tikinti | Səhiyyə və bədən tərbiyəsi | Maarif, elm | Rabitə və digər sahələr |
| 2005 | 100,0 | 72,4 | 5,6 | 2,6 | 5,0 | 1,6 | 8,3 | 4,5 |
| 2008 | 100,0 | 74,5 | 5,5 | 1,8 | 5,3 | 0,9 | 8,0 | 4,0 |
| 2009 | 100,0 | 76,2 | 5,1 | 1,6 | 4,5 | 1,0 | 7,1 | 4,5 |
| 2011 | 100,0 | 77,9 | 4,6 | 1,1 | 4,3 | 0,9 | 7,0 | 4,2 |

*Mənbə: Azərbaycan Respublikası Statistika Komitəsinin materialları, 2012*

Qeyd etmək lazımdır ki, sənaye və digər dövlət müəssisələrinin işçi qüvvələrinin tərkibi əsasən əməkqabiliyyətli əhalidən ibarətdir, lakin kollektiv və özəl təsərrüfatlarda 16 yaşadək yeniyetmələr, pensiya yaşında olan və ondan yuxarı yaşda kişi və qadınlar, eyni zamanda təsərrüfatın ərazisində yaşayan dövlət müəssisə və təşkilatlarında işləyən əməkqabiliyyətlilər, həmin təsərrüfatın istehsal proseslərində fəal iştirak edirlər. Əmək ehtiyatlarının tərkibindəki bu müxtəliflik göstərir ki, istər sənaye müəssisələrində, istərsə də kənd təsərrüfatında əhalinin müxtəlif yaş qruplarının istehsal proseslərində iştirakı eyni ola bilməz.

Digər tərəfdən, əməkqabiliyyətli əhalinin tərkibinə I və II qrup əmək və müharibə əlilləri, müxtəlif səbəblərdən əmək qabiliyyətini itirənlər, eləcə də işin ziyanlığı və ağırlığına görə pensiyaya çıxan 50-55 yaşında kişilər və 45-50 yaşında qadınlar daxil olmurlar.

Tədqiqat göstərir ki, Azərbaycan Respublikası əmək ehtiyatları ilə təminatına görə digər MDB respublikalarından xeyli fərqlənir. Respublikada əmək ehtiyatlarının əsas mənbəyini kənd əhalisi təşkil edir. Belə ki, onun xüsusi çəkisi ümumi əhalinin tərkibində 48,4% olmuşdur. Hesablamalar göstərir ki, 2011-ci ildə respublika əhalisinin 66,6%-ni əmək ehtiyatları təşkil edir. Əməkqabiliyyətli əhalinin sayı 5539,6 min nəfərə çatmışdır. Bu göstəricilər kənd əhalisinin tərkibində bir qədər fərqlidir.

Əmək ehtiyatlarının dinamikasının təhlili göstərir ki, 2006-cı ilə nisbətən 2011-ci ildə kənddə əmək ehtiyatlarının sayı 2,2%, təxminən əməkqabiliyyətli əhalinin sayı da bir o qədər artmışdır. Kənd əhalisinin tərkibində kişilərin xüsusi çəkisi 48,5% və qadınların xüsusi çəkisi isə 51,5% olmuşdur.

Tədqiqat göstərir ki, bu tərkibdə olan əhalinin sayı dinamik olaraq artır, lakin əməkqabiliyyətli kişi və qadınların artımı arasında qeyri-mütənasiblik müşahidə olunur.

Respublikanın iqtisadi rayonları arasında əmək ehtiyatlarının, o cümlədən əməkqabiliyyətli əhalinin sayı kəskin surətdə fərqlənir. Onların əksər hissəsi Aran, Lənkəran, Gəncə-Qazax və Şəki-Zaqatala iqtisadi rayonlarında yerləşir. Onların arasında əmək ehtiyatlarının qeyri-bərabər bölgüsünə əhalinin təbii artım səviyyəsi, intensiv miqrasiya, əhalinin məşğulluq xarakteri, ərazinin inkişafı və istehsalın ixtisaslaşdırılması səbəb olmuşdur [4, s.45].

Əmək ehtiyatlarının, o cümlədən əməkqabiliyyətli əhalinin formalaşmasında əhalinin yaş tərkibinin dəyişməsinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir. Əhalinin yaş tərkibində baş verən bu dəyişikliklər gələcəkdə sosial-iqtisadi inkişaf proqramları hazırlanarkən mütləq nəzərə alınmalıdır.

Statistik məlumatlara əsaslanaraq qeyd etmək olar ki, 2006-cı ilə nisbətən 2011-ci ildə 15 yaşadək iqtisadi fəal əhalinin xüsusi çəkisi 7,5% azalmışdır. Bu müddət ərzində əməkqabiliyyətli yaşda olan əhalinin xüsusi çəkisi 0,4% yüksəlmişdir, 65 və ondan yuxarı yaşda olan əhalinin sayı da artmışdır ki, bu da əhalinin yaş tərkibinin daha dərindən öyrənilməsini tələb edir. Əhalinin yaş tərkibindəki dəyişikliklərdən biri də respublikanın, o cümlədən kənd əhalisinin qocalığa meyl etməsi və əməkqabiliyyətli əhalinin iş yükünün dəyişməsidir.Respublikada, o cümlədən ayrı-ayrı iqtisadi rayonlarda əmək ehtiyatlarının istehsalata geniş səfərbər edilməsi onların əmək fəallığının yüksəldilməsinin əsas istiqamətlərindəndir.

Əmək ehtiyatlarının və onun ayrı-ayrı sosial-demoqrafik qruplarının əmək fəallığı və bu qrupların istehsal proseslərində iştirak səviyyəsi onların il ərzində işlədikləri adam-gün və ya adam-saatların miqdarını, əmək fəallığını istehsalatda məşğul olanların fəaliyyətini xarakterizə edən ümumi anlayış kimi də qəbul etmək olar. Çünki istehsalatda iştirak edənlərin əmək fəallığı düşünülmüş və yaradıcı şəkildə həyata keçirilir. Deməli, işçilər yalnız əmək funksiyalarını yerinə yetirmir, onlar eyni zamanda istehsalı təkmilləşdirmək üçün ehtiyat mənbələri axtarır, işin keyfiyyətini yüksəldir və bütün vasitələrdən qənaətlə istifadə olunmasına çalışırlar.

Tədqiqat göstərir ki, aqrar sahədə islahatlarla əlaqədar olaraq əmək ehtiatlarının, xüsusilə əməkqabiliyyətli əhalinin müəyyən hissəsi işsiz qalmışdır. Işsiz qalan əməkqabiliyyətlilərin, pensiyaçı və yeniyetmələrin əməyindən daha səmərəli istifadə etmək üçün yeni təsərrüfat formalarının – fərdi sahibkarların, kiçik müəssisələrin, istehsal kooperativlərinin, səhmdar cəmiyyətlərin və fərdi əmək fəaliyyətinin təşkilinə xüsusi fikir vermək lazımdır. Çünki, qeyd olunan təsərrüfat formaları əmək fəallığının yüksəldilməsinə, əmək ehtiyatlarının formalaşmasına, onların düzgün bölgüsünə və istifadəsinə mühüm şərait yaradır.

Əmək ehtiyatlarının sosial-demoqrafik qruplarının məşğulluğunun təmin edilməsi iqtisadi problem olduğu qədər də sosial problemdir. Bu baxımdan standarta uyğun gəlməyən məşğulluq formalarının üstünlükləri çox genişdir. Lakin, əmək ehtiyatlarının ayrı-ayrı sosial-demoqrafik qruplarının psixoloji və digər spesifik xüsusiyyətlərini, eləcə də istehsalda məşğul olmaq imkanlarını, ayrı-ayrı işçi və kollek-

tivlərin optimal əlaqəsini, onların maraqlarını təmin etmək üçün bir sıra məsələlərin nəzərə alınması məqsədəuyğundur. Əmək ehtiyatlarının, sosial-demoqarfik qruplarının əmək fəallığının yüksəldilməsi isə mühüm rol oynayır. Qeyd etmək lazımdır ki, yeni və əlavə iş yerlərindən səmərəli istifadə edilməsi əmək fəallığını yüksəldir, tam məşğulluq prinsipini genişləndirir və dərinləşdirir. Eyni zamanda, müxtəlif sosial-demoqrafik qruplar üçün yeni iş şəraiti yaradılır [5, s.57].

Əmək ehtiyatlarının əmək fəallığının yüksəldilməsinin təkmilləşdirilməsi məsələsinə müxtəlif aspektlərdən yanaşmaq olar: müxtəlif fəaliyyət sferasında məşğulluğun optimallaşdırılması (dövlət, kooperativ, fərdi); işçilərin sosial-iqtisadi marağının təminatı; əmək ehtiyatlarının sosial-demoqrafik qruplarının əmək fəaliyyətinin düzgün təşkili.

Deməli, əmək ehtiyatlarının əmək fəallığı onların istehsal proseslərində fəaliyyətinin faydalılığı və müxtəlif növ məşğulluğun təşkili ilə müəyyənləşdirilir.

### Ədəbiyyat

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları, 1990-2011
2. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin materialları, 2000-2011
3. Abbasov F.H. Azərbaycanda iqtisadi islahatlar və əhalinin məşğulluğu. "Azərbaycan XXI əsrin astanasında". Bakı, 1998
4. Əhmədov A.T., Tağıyeva N.S. Bazar münasibətləri şəraitində əmək təşkili formalarının inkişaf istiqamətləri. Bakı, "Bakı Universiteti" nəşriyyatı, 1998
5. Quliyev T.Ə. Əməyin sosiologiyası. Bakı, "Maarif" nəşriyyatı, 1998
6. Niyazoğlu A. Təhsil həyat səviyyəsinə təsir edən başlıca meyardır. «Himayədar», noyabr 2004, №6, səh.12-18

## REGIONAL DEVELOPMENT OF AGRICULTURE AND THE EFFICIENCY OF LABOR

**N.G.Adilova**

### SUMMARY

This article analyzes the impact of the effective use of human resources for the economic development of the country's economy and agriculture.

## ДИНАМИЧЕСКОЕ РАЗВИТИЕ АГРАРНОЙ СФЕРЫ В РЕГИОНАХ И ЭФФЕКТИВНОЕ ИСПОЛЬЗОВАНИЕ ТРУДОВЫХ РЕСУРСОВ

**Н.Г.Адилова**

### РЕЗЮМЕ

В статье представлен анализ влияния эффективного использования трудовых ресурсов на развитие экономики и сельского хозяйства страны.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 330

# BİZNES PROSESLƏRİNİN ANALİZİ VƏ VERİLƏNLƏR BAZASINA QOYULAN TƏLƏBLƏRİN İŞLƏNMƏSİ

**Kenan Kılıç**
Qafqaz Universiteti
Bakı AZ0101, Bakı-Sumqayıt Şosesi 16-km, Xırdalan
e-mail: kkilic@qu.edu.az

***Açar sözlər:*** bazar iqtisadiyyatı, web texnologiya, informasiya sistemləri
***Keywords:*** market economy, web technologies, information systems
***Ключевые слова:*** рыночная экономика, веб-технологии, информационные системы

Bazar iqtisadiyyatının durmadan yüksələn inkişafı ticarət iqtisadiyyatının özəyini təşkil edən topdan və pərakəndə satış kompaniya və müəssisələrinin müxtəlif coğrafi ərazilərdə yerləşən filiallarının Internet üzərindən WEB texnologiyası əsasında inteqrasiya olunmuş korporativ informasiya sistemləri-korporativ portal bazasinda (KİS) səmərəli, koordinasiya olunmuş iş rejiminin yaradılmasını tələb edir.

WEB texnologiyalarının tətbiqi müəssisənin cografi sahəsinin, KİS-in istifadəçi kontingentinin genişlənməsi, biznes proseslərinin və funksiyalarının artması verilənlər bazasında müxtəlif həcmli və mürəkkəb strukturlu verilənlərin saxlanılmasını tələb edir. Digər tərəfdən, verilənlərin müntəzəm olaraq artması ondan yalnız verilənləri saxlamaq üçün deyil, eyni zamanda strateji planlaşdırma və qərarların qəbul olunması prosesində müxtəlif tipli analiz məsələlərinin həllini: verilənlər arasında müxtəlif tipli, gizlənmiş əlaqələri və digər qanunuyğunluqların öyrənilməsini praktiki baxımdan zəruri edir və nəticədə çox aktual olan məsələ - analitik və gündəlik hesabatların hazırlanmasında toplanmış məlumat bazasından keyfiyyətli və səmərəli istifadə olunması üçün korporativ verilənlərin yadda saxlanılması, seçilməsi və analizi məsələsi meydana çıxır.

Data Mining və BIS-in (Business Intelligence) müasir instrumental vasitələri korporativ verilənlərin yadda saxlanılması, seçilməsi və analizi məsələsinin həllinə imkan versə də, bu vasitələrin istifadəsi müxtəlif predmet sahələrində (makroiqtisadi, sosial, marketinq və tibbi verilənlər bazalarında verilənlərin linqvistik təsvir formalarından istifadə olunur) qərarların qəbul edilməsinin qeyri-rəqəm tipli verilənlər üzərində aparılması baxımından çox vaxt mümkün olmur və bu da verilənlərin təsviri və emalına xüsusi tələblər irəli sürür. Həmçinin, verilənlər bazasına qeyri-səlist sorğuların müasir emalı alqoritmləri də bu məsələlərin həllinə fraqmentar yanaşır və məsələnin tam həllini əhatə etmirlər.

Beləliklə, WEB texnologiya əsasında korporativ informasiya sistemlərinin verilənlər bazasının yaradılmasına və idarəetmə personalına gündəlik və analitik hesabatların hazırlanmasına imkan vermək və qərar qəbuletmə prosesinin keyfiyyətinin artırılması məqsədi ilə verilənlər bazasında verilənlərin analizi və sorğuların emalı alqoritmlərinin işlənilməsi çox aktual məsələdir.

Bu məqsədlə aşağıdakıları həll etmək lazımdır:

- topdan satış və pərakəndə satış müəssisələri nümunəsində biznes prosesləri – predmet sa-

həsi informasiya, struktur və təşkilati baxımdan tədqiq olunmalıdır;
- biznes proseslərinin obyekt-yönümlü modeli, kəmiyyət və keyfiyyət göstəriciləri sistemi işlənilməlidir;
- verilənlər bazasına müxtəlif tipli sorğuların xarakteristikaları və müxtəlif şərtlər daxilində onların realizə məsələləri araşdırılmalıdır;
- korporativ verilənlər bazasının yaradılmasına, verilənlərin analizi və sorğuların emalına olan tələblər müəyyənləşdirilməlidir;
- Web yönümlü korporativ informasiya sistemlərində verilənlərin analizi və sorğuların səmərəli emalı baxımından verilənlər bazasının strukturu seçilməli və arxitekturu işlənilməlidir;
- verilənlər bazasına müxtəlif növlü və qeyri-səlist sorğuların emalı alqoritmləri işlənməlidir;
- alış, satış, material ehtiyatlarının idarə olunması, maliyyə və digər biznes proseslərinin İnternet üzərindən icrasına imkan verən korporativ portalın - informasiya sisteminin proqram təminatı işlənilməlidir.

WEB texnologiyası əsasında yaradılmış korporativ informasiya sistemləri paylanmış WEB proqramları sinfinə aid olduqları üçün aşağıdakı üçbəndli məntiqi arxitektur əsasında layihələndirilməli və yaradılmalıdırlar [1]:

- verilənlər bazasına müraciət səviyyəsi (Data Tier);
- biznes məntiqi səviyyəsi (Logic tier);
- təsvir səviyyəsi (Presentation Tier).

Data Tier səviyyəsinə verilənlər bazası, verilənlər bazasına müraciət interfeysi və saxlanılan prosedurlar aiddir. Middle Tier səviyyəsinə korporativ informasiya sisteminin predmet sahəsi – biznes prosesləri və nəhayət Presentation Tier səviyyəsi – WEB səhifələri aiddir.

Göründüyü kimi, həm verilənlər bazası, həm də WEB səhifələr məhz biznes proseslərində baş verən bütün məntiqi biznes əməliyyatlarının operativ və səmərəli həllinə xidmət edirlər.

Bu baxımdan, verilənlər bazasının və WEB səhifələrin səmərəli təşkili biznes proseslərinin keyfiyyətli və hərtərəfli analizi və biznes proseslərinin adekvat modelinin qurulmasından asılıdır [2].

## Biznes proseslərinin və sorğuların klassifikasiyası

Predmet sahəsi olaraq, dərman preparatlarının topdan satışının təşkili üçün biznes proseslərinin obyekt-yönümlü analizi məsəsləsinə baxılır. Aparılmış tədqiqatlar göstərmişdir ki, dərman preparatlarının topdan satışı müəssisələri [3] aşağıdakı bölmələrdən ibarətdir: alış şöbəsi, qəbul şöbəsi, satış şöbəsi, marketinq şöbəsi, marketinq və planlaşdırma qrupu, logistika qrupu, uçot-əməliyyat şöbəsi, uçot şöbəsi, sertifikatlaşdırma şöbəsi (dərman preparatlarının sertifikatlarının uçotu), mühasibatlıq (alış, satış, daxilolmalar və ödəmələrin uçotu).

Bu tip müəssisələrin KİS-lərinə aşağıdakı funksional tələblər qoyulur [4]:

- verilənlərə sanksiyalı müraciətlərin təşkili. Vəzifə borclarına uyğun olaraq müraciətlərin məhdudlaşdırılması;
- məsafədən (Internet üzərindən) müraciətlərin təşkili;
- ehtiyatların idarəolunması. Ambarda olan qalıqlar üzrə operativ informasiya əldə olun-

olunması;
- alışların idarəolunması. Satıcıların müxtəlif parametrlər üzrə seçilməsi, alışların və ödəmələrin planlaşdırılması;
- satışın idarəolunması. Alıcı borclarına nəzarət və risk limitlərinin müəyyənləşdirilməsi və mal göndərişi prosesinə nəzarət;
- tədarükçü və müştərilərlərlə qarşılıqlı hesablaşmalara tam nəzarət;
- müxtəlif analitik vaxt kəsikləri üzrə idarəetmə hesabatlarının alınması. Menecerlər üçün ətraflı detaylı, bölmə rəhbərləri və müəssisə rəhbəri üçün isə aqreqə olunmuş – umumiləşdirilmiş hesabatların alınması.

Hesabat sənədlərinə aşağıdakı nümunələri göstərmək olar: - debitor və kreditor borcları (qeydiyyat nömrəsi, müştəri-tədarükçü, müqavilə nömrəsi, müqavilə tarixi, müqavilə məbləği, gözlənilən ödəmə müddəti); - tələb olunan alış üzrə hesabat (inventar kodu, materialın adı, ölçü vahidi, tələb olunan alış, əvvəlki alış üzrə - tədarükçünün adı, son alış tarixi, son alış məbləği), müştərilər üzrə vaxti keçmiş borclar (müştəri adı, vaxti keçmiş borcun məbləği, neçə gündür ödəmir, vaxti keçmiş borcun firma fəaliyyətinə ziyanlıq dərəcəsi), ən çox satılan dərmanlar, müəyyən tarix aralığında satılmayan dərmanlar, müştərilərin alıcı səbətinin təhlili üzrə hesabatlar, maya dəyəri hesabatları və s.

Avtomatlaşdırmaya ehtiyacı olan biznes proseslərinə [3] aşağıdakıları aid etmək olar:
- alış;
- ambar və ehtiyyatların idarəolunması;
- satış;
- alıcı və satıcılarla qarşılıqlı hesablaşmalar ;
- marketinq;
- daxili apteklər şəbəkəsinin idarə olunması;
- filialların idarəolunması.

Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, biznes prosesləri arasinda sıx qarşılıqlı əlaqələr mövcuddur və çox hallarda eyni sinif anlayışlar - obyektlər və parametrlərdən istifadə edirlər.

Analiz biznes prosesləri modelinin aşağıdakı sinif obyektlərdən ibarət olduğunu müəyyən etmişdir: ambarlar (WareHouse), dərman-mal kartları (Products), dərman kateqoriyaları (Categories), ölçü vahidləri (Units), müştərilər və tədarükçülər (Customers), alıcı səbəti (Shopping Cart), Sifarişlər (Orders), menecer (Manager), satış operatoru (Operator) və s.

Nümunə üçün göstərmək olar ki, ambar və ehtiyyatların idarəolunması biznes prosesi - WareHourse, Products, Units; satış biznes prosesi - WareHourse, Products, Units, Customers, Operator və Manager və digər obyektlərlə əməliyyat aparırlar və s.

Digər tərəfdən, alış və satış, alıcı və satıcılarla qarşılıqlı hesablaşmalar və s. biznes prosesləri eyni kateqoriya obyektlərdən istifadə etdikləri üçün dərman preparatlarının topdan satışı müəssisələrinin biznes prosesləri modelinə polimorfizm və nəsildən törəmə kimi obyekt-yönümlü funksiyalar xasdır.

Biznes prosesləri və biznes hesabatları böyük həcmdə informasiyalardan istifadə edirlər və bu informasiyalar öz xarakterinə görə iki kateqoriyaya kəmiyyət və keyfiyyət (ən yaxşı satılan, pis satılan, bahalı dərman, yaxşı müştəri, riskli müştəri və s.) bölünürlər.

Bu baxımdan biznes prosesləri modelinin keyfiyyət parametrlərinin verilənlər bazasında səmərəli təsviri üçün qeyri-səlist çoxluqlar nəzəriyyəsindən [5] istifadə edilməsi təklif olunur.

Biznes proseslərinin obyekt-yönümlü analizi verilənlər bazası obyektlərinin, onlar arasında əlaqələrin, obyektlərə xas olan kəmiyyət və keyfiyyət parametrlərin araşdırılması, təsviri və KİS-in verilənlər bazasının strukturunun qurulmasına imkan vermişdir.

Dərman preparatlarının topdan satışı müəssisələrinin biznes prosesləri obyekt-yönümlü analizi aşağıdakılara imkan vermişdir:

- avtomatlaşdırmaya ehtiyacı olan biznes prosesləri tədqiq edilmiş;
- verilənlər bazasının struktur-parametrik modeli müəyyən olunmuş;
- struktur-parametrik cəhətdən hesabatların icrası və onların xarakteri müəyyən olunmuşdur.

Aparılmış analiz və tədqiqatlar verilənlər bazasının yaradılmasına aşağıdakı tələbləri formalizə etməyə imkan vermişdir:

- korporativ hesabatlar sisteminin yaradılması məqsədi ilə kateqorial və linqvistik verilənlərin qeyri-səlist təsviri modeli işlənilməlidir;
- çox da yüksək olmayan əməkhaqqı alan gənc mütəxəssislərin siyahısı, rayonlar üzrə ən yüksək satış göstəricilərinə və ən ucuz qiymətə malik malların siyahısı və bu tipli sorğulara daha dolğun cavab tapılması üçün qeyri-reqlamentar sorğuların emalı alqoritmləri işlənilməlidir;
- qeyri-səlis meyarlar əsasında malların, müştərilərin və biznes proseslərində iştirak edən digər obyektlərin klasterizasiyasının aparılmasına və verilənlər bazasında təsvirinə imkan verən alqoritmlər və metodlar işlənilmədir ki, bu da öz növbəsində müəyyən kriterilər üzrə qruplaşdırılmış malların anbarlarda düzgün yerləşdirilməsinə, müştəri qrupları üzrə uyğun iş metodlarının seçilməsinə və materialların idarə olunmasına və digər verilənlərin analizi məsələlərinin həllinə imkan verəcəkdir.

Digər tərəfdən, müasir korporativ verilənlər bazası verilənlər saxlancı, OLAP-analiz və Business İntelligence vasitələrinə malik olmalıdır.

## Ədəbiyyat

1. http://en.wikipedia.org/wiki/Multitier_architecture
2. http://www.intuit.ru/department/se/devis/. В.И.Грекул. Проектирование информационных систем.
3. http://www.hardline.ru/2/22/981/. Б.Вольфман. ЭЛКО-технологии. Разработка корпоративных систем с использованием современных инструментальных систем.
4. С.В.Корнеев. Системы поддержки принятия решений в бизнесе. "Сети & Бизнес", №6, 2005
5. Борисов А.Н., Алексеев А.В., Меркурьев Г.В. Обработка нечеткой информации в системах принятия решений, Москва, Радио и связь, 1989

## ANALYSIS OF BUSINESS PROCESSES AND DETERMINING REQUIREMENTS FOR DATABASES

**Kenan Kilic**

**SUMMARY**

This research work treats the issues of using new Internet-based technologies in modern business processes.

## АНАЛИЗ БИЗНЕС-ПРОЦЕССОВ И ОПРЕДЕЛЕНИЕ ТРЕБОВАНИЙ К БАЗАМ ДАННЫХ

**Кенан Кылыч**

**РЕЗЮМЕ**

Статья посвящена вопросам внедрения новых интернет-технологий в развитие современных бизнес-процессов.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 338.439.222

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ İSTEHSAL VƏ RESURS POTENSİALINDAN İSTİFADƏ VƏZİYYƏTİNİN TƏHLİLİ

**A.V.Əliyev**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: agshin.aliyev@hotmail.com

***Açar sözlər:*** kənd təsərrüfatı, resurs potensialı, makroiqtisadi göstəricilər, investisiya, təbii-iqlim şəraiti

***Keywords:*** agriculture, resourse potential, macroeconomic indicators, investment, climatic conditions

***Ключевые слова:*** сельское хозяйство, ресурсный потенциал, макроэкономические показатели, инвестиция, природно-климатические условия

Ölkə iqtisadiyyatının ən mühüm sahələrindən biri də kənd təsərrüfatı sahəsidir. Bu sahə ölkə əhalisi üçün ərzaq məhsulları, yüngül və yeyinti sənayesi üçün xammal istehsal etməklə bərabər, cəmiyyətin digər tələbatlarının ödənilməsində də mühüm rol oynayır.

Kənd təsərrüfatı sahəsi iqtisadiyyatın digər sahələri ilə yanaşı ÜDM-nin yaranmasının və milli gəlirin formalaşmasının əsas mənbələrindən biridir. İqtisadiyyatın spesifik sahəsi olan kənd təsərrüfatının mövcudluğu və inkişafı həm təbii-bioloji, həm də istehsal və resurs potensialından asılıdır. Ümumiyyətlə, milli bazarın yaranmasında və inkişafında kənd təsərrüfatı istehsalının xüsusi rolu vardır. Kənd təsərrüfatı sahəsi istehsalının mühüm xüsusiyyətlərindən biri burada əsas istehsal vasitəsi rolunda torpağın çıxış etməsidir. Onun inkişafı isə yararlı torpaq sahələrindən asılıdır. Kənd təsərrüfatı sahəsində torpaqdan düzgün istifadə edilməsi isə istehsalın inkişafının əsas şərtidir. Burada istehsal vasitəsi kimi həm də canlı orqanizmlər, o cümlədən heyvanlar və bitkilər çıxış edir və onların inkişafı bioloji qanunlarla bağlıdır.

Statistik məlumatlara əsasən məlum olur ki, 2000-2011-ci illər ərzində suvarılan torpaqlar demək olar ki, dəyişməz qalıb. Belə ki, cəmi torpaqlar 1,4260 min ha-dan 1,4255 min ha arasında, kənd təsərrüfatına yararlı sahə 1,4230 min ha-dan 1,4210 min ha arasında, əkin yeri 1,1765 min ha-dan 1,2017 min ha arasında (2% artmış), çoxillik əkmələr 1736 min ha-dan 1562 min ha arasında (12% azalmışdır) tərəddüd etmişdir. Kənd təsərrüfatında məşğul əhalinin sayı bir qədər azalmış və 37,9 % xüsusi çəkiyə malik olmuşdur [11].

Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəricilərinin təhlilinə nəzər yetirsək, aşağıdakıları söyləyə bilərik. 2000-2011-ci illər arasında müəssisələrin ümumi sayı 241 vahid azalmış, o cümlədən gəlirlə işləyənlərin sayı 735 vahid artmış, zərərlə işləyənlərin sayı 976 vahid azalmışdır. Mənfəətin məbləği 608 min manatdan 41912 min manata qədər artmış, zərərin məbləği isə 3923-4992 min manat arası tərəddüd etmişdir. Balans gəliri 3315 min manat zərərdən 36920 min manat gəlirə qədər artmışdır. Satışdan əldə edilən pul gəliri 14,1 dəfə artaraq 207904 min manata, ümumi gəlir 65 dəfə artaraq 71623 min manata çatmışdır. Təsərrüfatda çalışan işçilərin orta illik sayı 23,7 min nəfər-

dən 16,2 min nəfərə qədər azalsa da onlara hesablanmış əmək haqqı fondu 7,9 dəfə artaraq 28445 min manata çatmışdır. Təsərrüfatda çalışan işçilərin əmək məsarifi demək olar ki, 2 dəfə, bir nəfər əmək qabiliyyətli işçinin il ərzində işlədiyi adam-günün sayı 45 vahid azalmışdır, bu azalma və bundan qabaqkı iqtisadi göstəricilərin artımı kənd təsərrüfatının ümumi məhsulun 9,2 dəfə artaraq 198806 min manata çatmasında, əmək məhsuldarlığın-bir işçiyə düşən ümumi məhsulun 13,5 dəfə artaraq 12283 manata çatmasında əhəmiyyətli rol oynamışdır. Bütün maliyyə-təsərrüfat fəaliyyəti üzrə rentabellik 19,2 %-dən 21,3%-ə qədər, kənd təsərrüfatı məhsullarının rentabelliyi isə 14,6 %-dən 19,7%-ə qədər artmışdır. Tədqiqat ilində əsas fondlar 2,5 dədə, kənd təsərrüfatı təyinatlı əsas istehsal fondları 2,1 dəfə, kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri 2 dəfə, bir təsərrüfata düşən kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri 2,3 dəfə artaraq müvafiq olaraq 439374 min manat, 390227 min manat, 373022 min manat və 195,6 min manat olmuşdur. Ümumi torpaq sahəsinin 2,3 dəfə, ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi 1,8 dəfə, o cümlədən əkin yerinin 1,8 dəfə, orta hesabla bir kənd təsərrüfatı müəssisəsinə düşən kənd təsərrüfatına yararlı torpaq sahəsinin 1,6 dəfə azalması kənd təsərrüfatının inkişafının ekstensiv yox intensiv inkişafından xəbər verir [11].

**Cədvəl 1**

**Kənd təsərrüfatının əsas makroiqtisadi göstəriciləri (milyon manat)**

| | Əsas kapitala yönəldilmiş investisiya | Əsas fondlar, ilin sonuna balans dəyəri | Ümumi daxili məhsul | Ümumi məhsul | Ümumi gəlir |
|---|---|---|---|---|---|
| **2000** | 6,5 | 2611,4 | 751,0 | 1112,4 | 11,2 |
| **2001** | 8,3 | 2672,3 | 780,3 | 1242,2 | 43,5 |
| **2002** | 18,5 | 2705,8 | 834,8 | 1342,9 | 49,3 |
| **2003** | 37,4 | 2743,4 | 876,0 | 1450,5 | 53,3 |
| **2004** | 35,0 | 2800,2 | 923,5 | 1572,7 | 104,9 |
| **2005** | 40,7 | 2983,3 | 1072,0 | 1844,8 | 147,6 |
| **2006** | 58,3 | 3439,5 | 1263,2 | 2115,5 | 165,5 |
| **2007** | 243,3 | 4122,3 | 1816,2 | 2918,6 | 369,3 |
| **2008** | 336,5 | 4494,3 | 2131,4 | 3505,9 | 501,0 |
| **2009** | 266,6 | 4840,4 | 2179,5 | 3805,5 | 671,5 |
| **2010** | 431,0 | 5099,8 | 2344,9 | 3877,7 | 716,1 |
| **2011** | 437,3 | 5613,3 | 2736,4 | 4525,2 | 716,2 |

**Mənbə:** http://www.stat.gov.az/source/agriculture/




**Mənbə**: http://www.stat.gov.az/source/agriculture/

**Qrafik 1. Kənd təsərrüfatının əsas makroiqtisadi göstəriciləri (milyon manat)**




**Mənbə**: http://www.stat.gov.az/source/agriculture/

**Qrafik 2. Əsas kapitala yönəldilmiş investisiya və ümumi daxili məhsul arasında asılılıq**

Aşağıda Excel proqramından istifadə olunaraq, kənd təsərrüfatının bir çox makroiqtisadi göstəriciləri arasında qarşılıqlı aşılılığın riyazi-statistik ifadəsi verilmişdir.

Əsas kapitala yönəldilmiş investisiya və ümumi daxili məhsul:

$$ÜDM = 4,116İ + 817,2; R^2 = 0,959.$$

Əsas kapitala yönəldilmiş investisiya və ümumi məhsul:

$$ÜM = 6,89İ + 1340,0; \; R^2 = 0.940.$$

Əsas kapitala yönəldilmiş investisiya və ümumi gəlir:

$$ÜG = 1,599İ + 40,01; \; R^2 = 0,932.$$

Əkin yeri min ha və ümumi daxili məhsul:

$$ÜDM = 190,4Ə_y + 237,5; \; R^2 = 0,913.$$

Kənd təsərrüfatı təyinatlı əsas istehsal fondları və ümumi daxili məhsul:

$$ÜDM = 224,5Ə_f + 907,5; \; R^2 = 0,785.$$

Cədvəl 1 və digər cədvəllərin və statistik məlumatlar əsasında kənd təsərrüfatının əsas makroiqtisadi göstəricilərinin qarşılıqlı asılılığını və əsas istehsal resurslarından asılılığını əks etdirən qurulmuş tənliklərdən aydın olur ki, əsas kapitala yönəldilmiş investisiyanın 1 milyon manat artımı ÜDM-in 8176.1 milyon manat, ÜM-in 1346,9 milyon manat, ÜG-in 41,6 milyon manat artımına, əkin yerinin min ha artımı ÜDM-in 427,9 milyon manat, kənd təsərrüfatı təyinatlı əsas istehsal fondlarının 1 milyon manat artımı ÜDM-in 11320 milyon manat artımına səbəb olduğunu söyləmək olar.

Araşdırmalar göstərir ki, kənd təsərrüfatı sahəsində istehsalın ən vacib xüsusiyyətlərindən biri, istehsalın müxtəlif təbii-iqlim şəraitindən asılı olaraq təşkil edilməsi və müxtəlif ərazilərdə həyata keçirilməsidir. Bu prosesdə kifayət qədər nəqliyyat vasitələrinin olması və kənd təsərrüfatı sahəsinin maddi-texniki resurslarla təchiz edilməsi vacib məsələlərdəndir. Kənd təsərrüfatında istehsal vasitəsi kimi toxumlardan, əkin materiallarından, yemlərindən və s. də geniş istifadə olunur. Bütün bunlar isə lazımi qədər tikinti obyektlərinin və istehsal əhəmiyyətli binaların olmamasını tələb edir ki, bunun üçün də lazımi maddi və maliyyə resursları tələb olunur. İstehsal əhəmiyyətli tikililər, yəni mal-qara saxlanması üçün tövlələr, yem anbarları, toxum və əkin materialları üçün saxlama yerləri və s. lazımdır.

Eyni zamanda, kənd təsərrüfatı sahəsində torpaq, əmək, material və maliyyə resurslarından düzgün, səmərəli istifadə edilməsi məqsədilə həm bitkiçilik, həm heyvandarlıq, həm də köməkçi istehsal sahələri arasında optimal nisbətlərin yaradılması da zəruridir. Kənd təsərrüfatı istehsalının ən vacib xüsusiyyətlərindən biri də, istifadə olunan texnikanın səviyyəsi və şəraitindən asılıdır. İstehsal avadanlıqları (maşın-mexanizmlər, kombayn, kənd təsərrüfatı texnikası və s.) kənd təsərrüfatı sahəsində yerini dəyişdiyi halda, əmək predmetləri daimi bir yerdə qalır. Etiraf edilməlidir ki, kənd təsərrüfatı sahəsinin texniki silahlanma səviyyəsi sənaye sahələrindən çox geridədir.

Təhlillər göstərir ki, kənd təsərrüfatının ərazi və mövsümi xüsusiyyətləri müəssisələrin texnikaya və əsas istehsal vasitələrinə olan tələbatını xeyli artırır. Bitkiçilik və heyvandarlıq sahələrində əmək proseslərinin təşkili bir-birindən fərqlənir. Burada işçilər, sənayedə olduğu kimi daimi iş yerlərinə malik deyillər. Bu isə kənd əhalisinin məşğulluğunun təmin edilməsində müəyyən çətinliklər yaradır. Beləliklə, iqtisadiyyatın digər sahələri ilə müqayisədə kənd təsərrüfatının özünəməxsus xüsusiyyətlərini nəzərə almadan sahələrin maddi-texniki bazasının, istehsalın təşkilinin və idarəetməsinin, həmçinin istehsal resurslarından istifadənin iqtisadi səmərəliliyini müəyyənləşdirib, onun yüksəldilməsinə nail olmaq qeyri-mümkündür.

Tədqiqatlar göstərir ki, maddi-texniki ehtiyatlar ilə maddi-texniki baza arasında həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri vardır. Belə ki, maddi-texniki bazanın keyfiyyət dəyişiklikləri istehsal prosesində bütün istehsal vasitələrinin qarşılıqlı əlaqəsi və birliyinin ön plana çəkilməsilə fərqlənir. Əgər bu birlik pozulduqda və yaxud istehsal prosesində istehsal vasitələrinin bir-iki elementi, tutaq ki, əmək aləti, maşın, cihaz çatışmadıqda istər-istəməz bu texnoloji prosesin pozulmasına gətirib çıxarır. Ona görə də maddi-texniki bazaya sistemli və bütövlük baxımından qiymət verilməlidir. Texnoloji proseslərə əməl edilməsi maddi-texniki bazanın texnoloji cəhətdən formalaşmasını, onun normal səviyyədə olduğunu göstərir.

Məlumdur ki, kənd təsərrüfatında məhsul istehsalının artırılması kənd təsərrüfatı subyektlərinin maddi-texniki bazasından, əsas istehsal vasitələri və maddi dövriyyə vasitələri ilə təmin edilmə səviyyəsi ilə bağlıdır. Burada iqtisadiyyatın ayrı-ayrı istehsal sahələrində texnoloji proseslərə sistemli şəkildə əməl edilməsi, maddi-texniki baza ünsürlərinin tələblərə uyğun şəkildə qurulmasından və inkişaf etdirilməsindən asılıdır.

Eyni zamanda, kənd təsərrüfatının maddi-texniki bazasının özünəməxsus xüsusiyyətləri vardır. Ona görə də təsərrüfatların maddi-texniki bazasını möhkəmləndirmək üçün bu sahənin inkişafına diqqət yetirilərkən, onun təşkil etdiyi ünsürlərin xüsusiyyətləri mütləq nəzərə alınmalıdır. Əvvəldə də qeyd etdiyimiz kimi, torpaq kənd təsərrüfatının maddi-texniki bazasının inkişaf istiqamətlərini müəyyən əsas tərkib hissələrdən biridir. Torpağın keyfiyyəti və ərazi xüsusiyyətləri eyni olmadığı üçün, məhsul istehsalına müxtəlif səviyyədə məsrəflər sərf olunur. Münbitliyi aşağı olan torpaqlar daha çox maddi və əmək məsrəfləri tələb edir, istehsal vasitələri xərcləri səviyyəsinin artmasına təsir göstərir. Ölkəmizin ərazisi təbii-iqtisadi şəraiti, torpağın münbitliyi və yararlığı, relyef xüsusiyyətləri baxımından regionlara bölünür. Bu gün ölkə ərazisi 10 regiondan - Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran-Astara, Quba-Xaçmaz, Dağlıq-Şirvan, Aran, Naxçıvan, Kəlbəcər-Laçın və Yuxarı Qarabağ iqtisadi rayonlarından ibarətdir.

Araşdırmalar göstərir ki, ayrı-ayrı iqtisadi rayonlarda kənd təsərrüfatı məhsullarının istehsalı prosesində eyni maşın və mexanizmlərdən istifadə edilmir. Təbii ki, regionlarda yetişdirilən bitkiçilik və heyvandarlıq məhsullarının növündən və xüsusiyyətlərindən asılı olaraq, müasir kənd təsərrüfatı texnikasından istifadə olunması zərurəti yaranır [7]. Maddi-texniki bazadan səmərəli istifadə edilməsi, istehsal prosesinin mövsümi xarakteri ilə də bağlıdır. Belə ki, kənd təsərrüfatı məhsullarının istehsalında torpağın şumlanmasından başlayaraq, hazır məhsulun anbara daşınmasınadək yerinə yetirilən iş prosesində müxtəlif növ texnika, avadanlıq və əmək alətlərindən istifadə olunur.

Elmi-təcrübi nailiyyətlər sübut edir ki, aqrar sahədə həddindən artıq becərilmə aparılanda torpağın daxili quruluşu pozulur, mikrobioloji proses zəifləyir və bununla da hər hektardan məhsuldarlıq orta hesabla 12-30% aşağı düşür [1]. Digər tərəfdən isə bu, artıq əmək məsrəfi və enerji qüvvəsi sərfinə, istehsal xərclərinin artırılmasına səbəb olur. Buna görə də, kənd təsərrüfatında torpağın becərilmə sayılan azaldılması üçün bir neçə əməliyyatın eyni vaxtda görülməsinin böyük əhəmiyyəti vardır. Belə olduğu halda, aqrar sahənin maddi-texniki bazasının tərkib elementlərinin universallaşdırılması obyektiv zərurətə çevrilir.

Kənd təsərrüfatının maddi-texniki xüsusiyyətlərindən biri də onun özündə yem, üzvi gübrələr, cavan heyvanlar və s. kimi tərkib elementlərinin istehsal edilməsidir. Bioloji qanunlar əsasında inkişaf edən çoxillik əkmələr, bitkilər, məhsuldar heyvanlar, iş heyvanları və sair sahələrin inkişafına uyğun istehsal aparatı formalaşır. Bu prosesin özü də kənd aqrar

sahədə maddi-texniki bazanın xüsusiyyətlərini xarakterizə edən başlıca və əsas cəhətlərdən biridir.

Ümumiyyətlə, aqrar sahədə istehsalın artımına və bu sahənin dayanıqlı inkişafına nail olmaq üçün kompleks tədbirlərinin həyata keçirilməsi zəruridir. Buna görə də aqrar sahədə yeni mülkiyyətçilər sinfinin yaradılması və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, çoxnövlü təsərrüfatçılığın inkişafının təmin edilməsi, yeni iqtisadi-istehsal əlaqələrinin inkişaf etdirilməsi, aqrar bölməyə dövlət investisiya qoyuluşunun artırılması, sahənin maliyyə vəziyyətinin sabitləşdirilməsi, xarici investisiyaların cəlb edilməsi, yeni torpaq münasibətlərinin təkmilləşdirilməsi, bank, maliyyə-kredit, vergi və sığorta sistemin səmərəliliyinin təmin edilməsi, yeni aqrolizinq və aqroservis xidməti qurumlarının yaradılması, mütərəqqi texnika və texnologiyaların tətbiqi kimi məsələlərin həll edilməsi də çox vacib və mühümdür.

## Ədəbiyyat


1. Abbasov Q.N., Həsənov M.Q. «Aqrar bazar və onun iqtisadi mexanizmi». Bakı, 2002, 112 səh.
2. «Aqrar islahatlar 10 ildə» (respublika elmi-praktiki konfransının materialları). Bakı, 2005, 435 səh.
3. «Aqrar islahatların nəticələri və dayanıqlı inkişaf problemləri» (respublika elmi-praktiki konfransının materialları). Bakı, 2006, 320 səh.
4. Əhmədov İ.V. «Kənd təsərrüfatının idarə edilməsi». Bakı, 2006, 880 səh.
5. Xəlilov H.A. «Aqrar iqtisadiyyatda sistem transformasiyaları və modernləşdirmə şəraiti». Bakı, 2005, 228 səh.
6. İmanov Q., Həsənli Y. «Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri (makroiqtisadi təhlil)». Bakı, 2006, 248 səh.
7. Məmmədov A.İ. «Kənd təsərrüfatının iqtisadiyyatı». Bakı, 1992.
8. Niftullayev V.M. «Kənd təsərrüfatının iqtisadiyyatı». Bakı, 1996, 360 səh.
9. Добрынин В.А. «Экономика сельского хозяйства». Москва, 1990, 471 стр.
10. Новичков В.И., Калашников И.Б., Новичкова В.И. «Аграрная политика (учебное пособие). Москва, 2001.
11. http://www.stat.gov.az


## USAGE ANALYSIS OF AGRICULTURAL PRODUCTION AND RESOURCE POTENTIAL IN AZERBAIJAN

**A.V.Aliyev**

## SUMMARY

This article analyzes the usage of agricultural production and resourse potential in Azerbaijan and the dependence of the existence and development of agriculture on the production and recourse potential, as well as on the biological and natural conditions. Basic macroeconomic indicators of agriculture are considered. The equations are derived that describe the relationship between the investment and the GDP, gross production volume, gross revenue, etc.

# АНАЛИЗ ИСПОЛЬЗОВАНИЯ ПРОИЗВОДСТВЕННОГО И РЕСУРСНОГО ПОТЕНЦИАЛА СЕЛЬСКОГО ХОЗЯЙСТВА В АЗЕРБАЙДЖАНЕ

**А.В.Алиев**

## РЕЗЮМЕ

В статье представлен анализ состояния использования производственного и ресурсного потенциала сельского хозяйства в Азербайджана и зависимость существования и развития сельского хозяйства от производственного и ресурсного потенциала, а также от природно-биологических условий. Рассмотрены основные макроэкономические показатели сельского хозяйства, составлены уравнения, отражающие зависимость между инвестициями в основной капитал и ВВП, валовым объемом производства, валовым доходом и пр.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 336.71

# AZƏRBAYCANIN BANK TƏŞKİLATLARINDA KORPORATİV MƏDƏNİYYƏTİN TƏŞƏKKÜLÜNÜN BAŞLICA XÜSUSİYYƏTLƏRİNİN EMPİRİK QİYMƏTLƏNDİRİLMƏSİ

**T.İ.Səfərov**
Azərbaycan Dövlət İqitisad Universiteti
Bakı, İstiqlaliyyət küçəsi 6
e-mail: toghrulsafarov@yahoo.com

***Açar sözlər:*** korporativ idarəetmə, korporasiya, menecer, elmi yanaşma
***Keywords:*** corporate management, corporation, manager, scientific approach
***Ключевые слова:*** корпоративный менеджмент, корпорация, менеджер, научный подход

Azərbaycanın bank sektoru yeganə yerdir ki, bütün kredit təşkilatlarında korporativ idarəetmə fəaliyyət göstərir, korporativ münasibətlərin bütün iştirakçılarının mənafelərini nəzərə almaqla bankların məqsədlərinə nail olmaq üçün işlər aparılır. Bunun sayəsində bu sahədə fəaliyyət göstərən banklar özlərinin bilavasitə fəaliyyət istiqamətləri üzrə mühüm irəliləyişə nail olmuşlar. Cədvəl 1-də "Kapital Bank" ASC-nin maliyyə vəziyyəti göstərilmişdir.

*Cəbvəl 1*

*"Kapital Bank"ASC-nin maliyyə nəticələri*
*(min AZN)*

| *Göstəricilər* | *2007* | *2008* | *2009* | *2010* |
|---|---|---|---|---|
| **Aktivlər** | | | | |
| Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri | 75.353 | 113.370 | 104,768 | 169.636 |
| Kredit vəsaitlərindən alınacaq məbləğlər | 13.588 | 11.968 | 8.636 | 5.059 |
| Satış üçün mövcud olan investisiya qiymətli kağızları | 185 | 185 | 310 | 27.771 |
| Müştərilərə verilmiş kreditlər | 106.831 | 362.958 | 317.277 | 477.660 |
| Assisiasiya olunmuş müəssisələrə investisiyalar | 1.557 | 1.464 | 1.360 | 1.234 |
| Əmlak və avadanlıqlar | 75.507 | 78.721 | 76.503 | 83.604 |
| Qeyri-maddi aktivlər | 1.708 | 1.661 | 2.841 | 2.843 |
| Digər aktivlər | 23.906 | 15.200 | 4.846 | 2.767 |
| **Cəmi aktivlər** | **298.963** | **585.527** | **516.540** | **770.574** |
| **Öhdəliklər** | | | | |
| Müştərilər qarşısında öhdəliklər | 130.432 | 188.768 | 177.293 | 313.749 |
| Kredit təşkilatları, AR Mərkəzi Bankı və dövlət təşkilatları qarşısında öhdəliklər | 74.901 | 298.613 | 248.405 | 363.914 |
| Təxirə salınmış mənfəət vergisi öhdəlikləri | 8.038 | 8.599 | 7.846 | 6.543 |
| Potensial öhdəliklər üçün ehtiyatlar | - | - | 552 | 1.802 |
| Digər öhdəliklər | 5.493 | 5.630 | 5.177 | 4.598 |
| **Cəmi öhdəliklər** | **218.864** | **501.610** | **439.273** | **690.606** |
| **Kapital** | | | | |
| Səhmdar kapital | 24.000 | 24.000 | 24.000 | 30.000 |

| | | | | |
|---|---|---|---|---|
| Əlavə ödənilməmiş kapital | 20.870 | 20.870 | 20.870 | 20.870 |
| Binalar üçün yenidən qiymətləndirmə ehtiyatı | 26.248 | 24.923 | 25.357 | 24.884 |
| Bölüşdürülməmiş mənfəət | 8.653 | 14.124 | 7.040 | 4.214 |
| **Cəmi kapital** | **79.771** | **83.917** | **77.267** | **79.978** |
| **Cəmi öhdəliklər və kapital** | **298.635** | **585.527** | **516.540** | **770.574** |

Cədvəl 1-dən göründüyü kimi, "Kapital Bank" ASC-nin aktivləri 2010-cu ildə 2007-ci ilə nisbətən aktivləri və cəmi öhdəlikləri və kapital təxminən (770.574:298.963) 2,6 dəfə artmış, səhmdar kapitalı isə 24,000 min manatdan 30,000 min manata yüksəlmişdir.

"AtaBank" ASC-nin 31 dekabr 2011-ci il tarixinə icmal balansı Cədvəl 2-də verilmişdir.

*Cədvəl 2*

*"AtaBank" ASC-nin 31 dekabr 2011-ci il tarixinə icmal balansı*

*(min manat)*

| | |
|---|---|
| **Aktivlər** | |
| Nağd pul | 11 396,3 |
| Müxbir hesabları | 16 066,3 |
| Kreditlər | 146 704,2 |
| Qiymətli kağızlar | 47 747,1 |
| Ehtiyyatlar | -7 458,1 |
| İnvestisiyalar | 694,6 |
| Hesablanmış faizlər | 2 782,3 |
| Xalis əsas vəsaitlər | 10 805,8 |
| Digər aktivlər | 2 277,7 |
| **CƏMİ** | **231 016,2** |
| **Passivlər** | |
| **Öhdəliklər** | **199 163,9** |
| Hüquqi şəxslər | 43 562,5 |
| Fiziki şəxslər | 113 730,7 |
| Banklar | 37 865,6 |
| Digər öhdəliklər | 4 005,1 |
| **Kapital** | **31 852,2** |
| Nizamnamə kapitalı | 25 000,0 |
| Keçən illərin mənfəəti | -147,2 |
| Cari ilin mənfəəti | 3 111,3 |
| Yenidən qiymətləndirmə | 3 888,1 |
| **CƏMİ** | **231 016,2** |

"Kapital Bank" ASC-nin səhmlərinin 99,7% "Paşa Holdinq"-ə, Atabankın səhmlərinin 76%-i "Ataholding" ASC-yə və 24%-i isə fiziki şəxslərə, "TexnikaBank" ASC-də pay bölgüsü belədir: World Wines Private Compony-75%, Etibar Əliyev-15%, Kazimir Caspian Fund Limited-10%. "Bankların, sığorta və təkrarsığorta şirkətlərinin kapitallaşma səviyyəsinin artırılmasının stimullaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə 11 noyabr 2008-ci il tarixli Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı verilmişdir. Qeyd olunanları nəzərə alaraq "Kapital Bank" ASC-nin Səhmdarlarının ümumi yığıncağının 11 dekabr 2008-ci il tarixli (01 №-li protocol) və 5 aprel 2010-cu il tarixli (01 №-li protokol) qərarlarına əsasən 2009,

2010 və 2011-ci illər üzrə əldə olunacaq mənfəət “Kapital Bank” ASC-nin kapitallaşma səviyyəsinin artırılması məqsədilə nizamnamə kapitalına yönəldiləcəkdir.

28 oktyabr 2008-ci il tarixli "Bankların, sığorta və təkrarsığorta şirkətlərinin kapitallaşma səviyyəsinin artırılmasının stimullaşdırılması haqqında" qanunu əsas tutaraq "AtaBank" ASC-nin 29 iyun 2010-cu il tarixli Səhmdarlarının Ümumi Yığıncağının qərarına əsasən «AtaBank» ASC-nin 2009-2011-ci (3 il) illər ərzində mənfəətinin nizamnamə kapitalının artırılmasına yönəldilməsi barədə qərar qəbul edilmişdir.

“AccessBank” Qapalı Səhmdar Cəmiyyəti 29 oktyabr 2002-ci il tarixində Azərbaycan Mikromaliyyələşdirmə Bankı qismində təsis olunub. 2008-ci ilin sentyabr ayında bankın adı dəyişilərək “AccessBank” olub. O, Azərbaycanın və mikromaliyyə sahəsinin inkişafı naminə çalışan, Triple-A reytinqinə malik beynəlxalq təşkilatların rəhbərliyi altında fəaliyyət gostərən 6 səhmdara məxsusdur. 2010-cu ilin sonunda nizamnamə kapitalı, hər birinin nominal dəyəri 2,09 AZN olan 20 milyon səhmdən ibarət olmaqla, 41,8 milyon AZN təşkil edib. 2010-cu ilin mart ayında, bölüşdürülməmiş mənfəətin kapitallaşdırılması nəticəsində bu gostərici artaraq 21,8 milyon AZN təşkil etmişdir. 2011-ci ilin mart ayında bölüşdürülməmiş mənfəətin kapitallaşdırılması nəticəsində səhm kapitalı daha 26 milyon AZN həcmində artıb və 67,8 milyon AZN təşkil edib. Beləliklə, səhmlərin nominal dəyəri 3,39 AZN həcminədək yuksəlib, səhmlərin paylaşdırılması və sayı isə dəyişməz qalıb.

“AccessBank” Qapalı Səhmdar Cəmiyyəti 29 oktyabr 2002-ci il tarixində Azərbaycan Mikromaliyyələşdirmə Bankı qismində təsis olunub. 2008-ci ilin sentyabr ayında bankın adı dəyişilərək “AccessBank” olub. O, Azərbaycanın və mikromaliyyə sahəsinin inkişafı naminə çalışan, Triple-A reytinqinə malik beynəlxalq təşkilatların rəhbərliyi altında fəaliyyət gostərən 6 səhmdara məxsusdur. 2010-cu ilin sonunda nizamnamə kapitalı, hər birinin nominal dəyəri 2,09 AZN olan 20 milyon səhmdən ibarət olmaqla, 41,8 milyon AZN təşkil edib. 2010-cu ilin mart ayında, bölüşdürülməmiş mənfəətin kapitallaşdırılması nəticəsində bu gostərici artaraq 21,8 milyon AZN təşkil etmişdir. 2011-ci ilin mart ayında bölüşdürülməmiş mənfəətin capitallaşdırılması nəticəsində səhm kapitalı daha 26 milyon AZN həcmində artıb və 67,8 milyon AZN təşkil edib. Beləliklə, səhmlərin nominal dəyəri 3,39 AZN həcminədək yuksəlib, səhmlərin paylaşdırılması və sayı isə dəyişməz qalıb.

Bizdə fəaliyyət göstərən hər bir kredit təşkilatı əməkdaşların öz iş yerlərində davranışına aid qayda və göstərişlərini hazırlayır və əməkdaşlıq üçün əhəmiyyət kəsb edən dəyərlərə söykənərək fəaliyyətini qurur.

Azərbaycan banklarında korporativ mədəniyyət araşdırılarkən müəyyən olunmuşdur ki, korporativ mədəniyyət təşəkkül taparkən milli ideyalogiya, mədəniyyət adət və ənənələri nəzərə alınmşdır. “Kapital Bank” ASC-də korporativ mədəniyyət işçilərin davranış qaydalarını tənzimləyir. Bankın imicini-nüfuzunun formalaşmasına xidmət etməklə, əməkdaşlar üçün mənəvi, etik və hüquqi dəyərləri müəyyən edir.

Etik davranış qaydaları ilk növbədə Bankda işçilərin davranışına nəzarəti təmin edir, onu peşə daxilində bir çox ixtisaslara tətbiq etməyə imkan verir və təsvir edilən normalara əməl edilməsi üçün effektiv vasitələri təklif edir.

***Mənəvi dəyərlərə*** işçinin işdə və işdənkənar davranışı, ictimai fəaliyyəti daxildir.

***Etik dəyərlərə*** Bankın imicinin qorunması, Bankın əmlakına münasibət və s. daxildir.

***Hüquqi dəyərlərə*** qanunvericiliyə münasibət, bankdaxili prosedurlara əməl edilmə-

si, məxfi və xidməti istifadə üçün məlumatların qorunması və s. daxildir.

***İşgüzar etiket*** – İşgüzar – professional (peşəkar) mühitdə davranış və ünsiyyətdir. İşgüzar etiket ətrafdakı insanlara hörmət və nəzakət, xeyirxahlıq və diqqət əsasında qurulur. “Kapital Bankda” hər bir işçi işgüzar münasibətlərdə subordinasiya qaydalarına ciddi əməl etməlidir. Müştərilərlə münasibətdə isə Bankda xidməti həyata keçirən hər bir işçi Bankın mənafeyini müdafiə edərək müştəri ilə ünsiyyətdə olarkən aşağıdakılara əməl etməlidir:

- peşəkar səviyyədə xidmət;
- düzgün, ədalətli və qərəzsiz münasibət;
- öhdəliklərin vaxtinda yerinə yetirilməsi;
- müştərilər haqqinda məlumatlarin məxfiliyinə hörmət;
- müştərilərə qayği;
- məhsul və xidmətlərin keyfiyyətinin daima təkmilləşdirilməsi və münasib qiymətlərin tətbiqi;
- məhsul və xidmətlərin düzgün və qərəzsiz reklam edilməsi.

Müştərinin fikrinə, hisslərinə və təsəvvürünə anlayışlı yanaşmalı, onun şəxsiyyətini müsbət qəbul etməli, müştərinin çatışmamazlıqlarından asılı olmayaraq, onu şəxsiyyət kimi görməli və ona hörmətlə yanaşılmalıdır. Müştəri ilə qarşılıqlı əlaqədə razılaşma əldə etmək, bir-birini anlamağa cəhd göstərmək və qarşılıqlı münasibətlərin əməkdaşlıq formasında inkişaf etdirilməsinə çalışılmalıdır.

Tanımadığınız adama diqqətlə baxmayın. Bu nəzakətsizlik və hətta təhqir kimi qiymətləndirilir.

Digər məsələ rəqiblərə yanaşmanın qurulmasıdır. Fikrimizcə hər bir bank rəqiblərə hörmətlə yanaşmalı və qeyri-sağlam və haqsız rəqabətdən qaçmalıdır.

“Kapital Bank” ASC-nin Etik kodeksində konfidensiallıq şərtləri xüsusi qabardılmışdır. Bu Məcəllə Bankın fəaliyyətinin bütün sahələrini əhatə etdiyi üçün əməkdaşlar aşağıdakı məlumatların mütləq konfidensiallığını (məxfiliyini) təmin etməlidir:

- bankin şəxsi xarakterli məlumatlari;
- bank sirri ilə bağli qaydalar;
- bankin müştəriləri haqqinda məlumatlar;
- bankin personali haqqinda məlumatlar;
- vəzifə mövqeyinə görə bankin işçisinə məlum olan və ölkənin milli təhlükəsizliyi ilə bağlı məlumatlar və s.

Kapital bankın strateji məqsədləri sırasında aşağıdakıları qeyd etmək olar:

- əsas göstəricilər üzrə ölkənin bank sistemində liderlər sırasında olan mövqeyini qorumaqla daha da inkişaf etdirmək;
- xarici maliyyə bazarlarına inteqrasiya olunmaq üçün sağlam maliyyə vəziyyətini təstiq edən reytinqlərə malik olmaqla xidmətin beynəlxalq standartlarına cavab verməsini təmin etmək;
- aparilan əməliyyatların həcminə və mürəkkəbliyinə uyğun olan, korporativ idarəetmə standartlarının tələblərinə cavab verən riskləri idarəetmə sisteminə malik olmaq;
- standart texnologiyaları fərdi yanaşma ilə uzlaşdıran universal banka çevirmək;
- xidmətin keyfiyyətinin monitorinqi sistemini tətbiq etmək, motivasiya sistemi ilə uyğunlaşdırılması əsasında onun keyfiyyətini artırmaq, riteyl biznesində qabaqcıl mövqeyini qorumaqla inkişaf etdirmək;
- birinci dərəcəli universal bank statusuna uyğun olaraq, müştərinin tələbatı və fəaliy-

yət xüsusiyyətlərini nəzərə almaqla kompleks bank məhsulları və xidmətləri təklif etmək, çarpaz məhsul satışının tətbiq edilməsi vasitəsilə işin səmərəliliyini yüksəltmək;

- yüksək keyfiyyətli xidmət səviyyəsinə nail olmaq üçün tədrisin, rotasiya, maddi və mənəvi motivasiya sisteminin yeni forma və metodlarını tətbiq edərək korporativ ruh və qarşılıqlı kömək şəraitində fəaliyyət göstərən, yüksək mənəvi dəyərlərə, peşəkarlığa və operativ qərarlar qəbul edən komandaya malik olmaq;
- biznes-vəzifələrin yüksək keyfiyyətlə yerinə yetirilməsinə, informasiyaların müasir işlənməsini təmin edən idarəetmə modellərinin təkmilləşdirilməsinə, yeni innovasiya məhsullarının bazara çıxarılmasına, əməliyyatların tam avtomatlaşdırılmasına və təhlükəsizliyinin təmin edilməsinə yönəldilmiş informasiya texnologiyalarını inkişaf etdirmək;
- bank xidmətləri üzrə daxili texnologiya və proseslərin optimallaşdırılmasını xidmətdən istifadənin sadələşdirilməsinə, standartlaşmasına və avtomatlaşdırılmasına yönəltmək;
- bankin struktur bölmələrini vahid korporativ stilə uyğunlaşdırmaq;
- bank respublikanın maliyyə bazarında mövqeyini daha da mökəmləndirəcək və birinci dərəcəli universal bank səviyyəsinə cavab verən maliyyə və əməliyyat nəticələrinə nail olacaqdır.

Artıq birinci fəsildə müəyyən olunmuşdur ki, korporativ mədəniyyətin əsas komponentlərinin formalaşmasında təşkilatın missiyasının( niyyətinin), fəlsəfəsinin və kredosunun əvəzsiz rolu vardır bu baxımdan Kapital bankın – Azərbaycan Respublikası ərazisində özəl, korporativ və dövlət müştərilərinin tələblərinini ödəmək məqsədilə fəaliyyət göstərir və bu, öz əksini bank xidmətlərinin çeşidliyində, onların yüksək keyfiyyət dərəcəsində tapır. Bank real sektora sərmayə yatırmaq, regionların sosial-iqtisadi inkişafına dəstək vermək vasitəsilə milli iqtisadiyyatın yüksəlməsinə yardımçı olmaq vəzifəsini özünə şərəf bilir. lakin bankın kredosu fikrimizcə, dəqiq idadə olunmamışdır və göstərilir ki, Azərbaycanın bank bazarında lider olmağa çalışır. Sosial yönümlü, sosial-iqtisadi inkişafa təkan verən bankdır və s.

"Dəmirbankın" bu məsələ ilə bağlı fikirləri tamamilə başqa cürdür. Bankın strateji baxışı:

Sosial yönümlü bank kimi biz öz müştərilərimizə geniş çeşiddə bank xidmətləri təklif edirik və onların rifahına və inkişafına doğru çalışırıq. Özümüzü bank ictimaiyyətinin bir hissəsi kimi hesab edərək və korporativ idarəetmənin yüksək standartlarına tabe olaraq, biz ictimaiyyət qarşısında şəffaflığa və məsuliyyətə, gəlirliyə və maliyyə stabilliyinə doğru çalışırıq. Bankın Strateji Baxışına əsasən, 2008-2010-cu illər dövrünün sonuna bank aşağıdakı meyarlara tam cavab verəcəkdir:

- sosial yönümlü bank;
- daxili bazarda liderlərdən biri və xarici bazarda ekspert;
- effektiv və çevik struktur;
- fond birjalarında mühüm iştirakçı.

Bankın Strateji Baxışına əsasən bankın tərtib olunmuş Missiya Hesabatı aşağıdakı kimidir:

- Respublika daxilində böyük filial şəbəkəsinə malik olan bank kimi sahibkarlığa dəstək və regionların inkişafı üzrə dövlət proqramlarının reallaşdırmasında aktiv iştirak edilməsi;
- Müştərilərin bank xidmətlərinə olan bütün tələbatlarını ödəməyə çalışması, hər bir

müştəriyə fərdi yanaşmanın tətbiq olunması, işçilərin peşəkarlığı sayəsində qeyri-standart vəziyyətlərdə çıxış həllinin tapılması;

- Müştərilərinin tək maliyyə problemlərinin həlli ilə deyil, həm də onların biznesinin inkişafına mane olan problemlərin həlli ilə də məşğul olması, əlaqələrin konfidensiallığını qorunması şərti ilə müştərilərə biznesin inkişafı üçün həll yollarının tapılmasında köməklik edilməsi
- Biznesin aparılmasında qətiyyətlə düzgün mövqenin tutulması və düzgün bank kimi nüfuzunu qorumaq üçün öz müştəriləri və kontragentləri qarşısında bütün öhdəliklərin yerinə yetirilməsi;

Bank Strateji Baxışından və Missiya Hesabatından irəli gələn aşağıdakı strateji məqsədləri müəyyən etmişdir:

- sosial yönümlü bank statusunun yaradılması və bu imicin qorunması;
- daxili bazarda maksimal iştirak və xarici bazara çıxış;
- effektiv və çevik təşkilati strukturun yaradılması və inkişafı;
- bankin investisiya cəlbediciliyinin artırılması.

"TuranBankın" strateji baxışı - respublikanın bütün regional mərkəzlərində satış şəbəkəsi olan, əhali, kiçik və ortasahibkarlığa xidmət göstərən, xarici investisiyalı universal bank etmək kimi müəyyənləşdirilmişdir. Niyyəti isə "TuranBank" peşəkar komandası ilə müştərilərinə bütün növ bank xidmətlərini yüksək keyfiyyətlə göstərməklə, onların inkişafını dəstəkləyən, investorlarının investisiyalarının dəyərinin dinamik artımını təmin edən şəffaf bank olması kimi izah olunur. Dəyərlərinə: Etibarlılıq Təhlükəsizlik Düzgünlük Şəffaflıq Yüksək keyfiyyətli xidmət Müştəri ilə tərəfdaşlıq Bankın səhmlərinin gəlirliliyi Azərbaycan iqtisadiyyatına xidmət Ölkə qanunlarına riayət və hörmət.

TexnikaBank isə göstərir ki, peşəkar və təşəbbüskar işçi heyəti onun müvəffəqiyyətlərinin açarıdır. Bank öz əməkdaşlarını ən dəyərli aktivi sayır və institsional inkişaf bankın strategiyasında prioritet hesab olunur. "İşçilərin "Etik davranış məcəlləsi" ilə müəyyən edilən davranış qaydaları, mənəvi, etik və hüquqi dəyərlər bankın nüfuzunun formalaşmasına xidmət edir.

TexnikaBank müştərilərlə münasibətlərə xüsusi önəm verir. Müştərilərlə birbaşa olan və xidmət göstərən hər bir işçi müştərilərə qayğı və peşəkar səviyyədə xidmət göstərməklə yanaşı, düzgün, ədalətli, qərəzsiz münasibətlər yaradır, məlumatların məxfiliyinə hörmətlə yanaşır və öhdəliklərin vaxtında yerinə yetirilməsini təmin edir.

Yarandığı gündən AccessBankın Səhmdarları və İdarə Heyəti bankın təşkilində və korporativ idarə edilməsində ən yüksək standartlara və beynəlxalq təcrübələrə əsaslanır. Bankın Təşkilati Strukturu, siyasət, prosedur və vəzifə təlimatlarında göstərilən bütün öhdəlik və məsuliyyətlərlə müəyyən olunur. Həmin siyasət və prosedurların yoxlanılması və təkmilləşdirilməsi, eləcə də, bütünlüklə, Bankda Korporativ İdarəetmə davamlı və daimi bir prosesdir. AccessBank-ın Korporativ İdarəetmə siyasətinə riayət etməsi 2010-cu ildə Standard & Poor's Reytinq Agentliyi tərəfindən təsdiqlənib – həmin agentlik, Azərbaycanın bank sektoru haqqında Transparency & Disclosure (T&D) Survey (Şəffaflığın və Açıqlanmanın Müşahidəsi) şərhində AccessBank-I "Azərbaycanın ən şəffaf bankı" elan edib. AccessBank-ın peşə yönümündə təlimatlandırılmış işçi heyəti AccessBank-ın uğurunun əsasını təşkil edir. Bank işçi heyətinin seçilməsi və işə qəbul olunması prosesinin şəffaf və bərabərhüquqlu şəkildə həyata keçirilməsindən fəxr duyur. Bank əsasən universitet məzunlarını işə qəbul edir və bu zaman əvvəlki bank təcrübəsindən daha çox birliyə və motivasiyaya önəm verir. Geniş təlimatlandırma vasitəsi ilə yeni

işçi heyətinə peşəkar və bankçılıq təlimləri verilir və bu təlimlər daxili seminarlar vasitəsi ilə, eləcə də iş prosesində təmin olunur. Bankın sürətli inkişafı dinamik karyera imkanları yaradır. Əvvəllər xarici menecerlərin tutduğu rəhbər vəzifələrdə indi artıq yerli mütəxəssislər çalışır və yalnız Baş Menecer vəzifəsini əcnəbi mütəxəssis tutur. Beləliklə, AccessBank-da təcrübəli, sınanmış, etibarlı, loyal, öz işini müstəqil icra etməyə və müstəqil düşünməyə qadir olan işçi heyəti fəaliyyət göstərir. AccessBank-ın mərkəzləşdirilmiş idarəetmə strukturunda Baş Ofis departamentlərinin texniki rəhbərliyi iyerarxik struktur təşkil edir və burada filiallardakıheyət özlərinin müvafiq filial menecerlərinə hesabat verir.

AccesBankın niyyəti – Azərbaycanda mikro və kiçik biznesmenlərin, eləcə də aşağı və orta gəlirli ailələrin maliyyət xidmətlərindən istifadə etmələrinə inkan yaratmakdan ibarətdir.

Respublikamızın bank sektorunda fəaliyyət göstərən kredit təşkilatların təhlili deməyə imkan verir ki, bu təşkilatlarda korporativ idarəetmə və korporativ mədəniyyət Bazel komissiyası tərəfindən hazırlanan standatrlar əsasında qurulmuşdur. Bunalara əməl etmə isə həm daxili psixaloji mühitə müsbət təsir edir, həm də xarici mühitdə bank haqqında müsbət imicin formalaşmasına xidmət göstərir.

Beləkilə, korporativ mədəniyyətin ayra-ayrı komponentlərindən istifadə və inkişaf etdirmə Azərbaycanın bank sektorunun gündəlik reallığına çevrilmişdir: bank təşkilatlarına günü-gündən artan tələblərə adekvat cavabı şərtləndirərək onlara lazımı rəqbət üstünlüyi verir.

## Ədəbiyyat

1. О.С.Виханский. Стратегическое управление: Учебник. – 2-е изд., - М.: Гардарики, 2005 г. – 296 с.
2. И.Н.Герчикова. Менеджмент: Учебник. – 3-е изд., перераб. и доп. – М.: Банки и биржи, ЮНИТИ, 1997. – 501.
3. Инновационный менеджмент. Учебник для вузов / С.Д.Ильенкова, Л.М.Гохберг, С.Ю.Ягудин и др. Под ред. С.Д.Ильенковой. – М.: Банки и биржи, ЮНИТИ, 1997. – 327 с.
4. К.Камерон, Р.Куинн. Диагностика и изменение организационной культуры/ Пер. с англ. под ред. И.В.Андреевой. – СПб: Питер, 2001. – 320 с.: с ил.
5. В.В.Козлов, А.А.Козлова. «Корпоративная культура: «костюм» успешного бизнеса», УП, №11, 2004 г.

## EMPIRICAL EVALUATION OF MAIN CHARACTERISTICS OF THE FORMATION OF CORPORATE CULTURE IN BANKING ORGANIZATIONS IN AZERBAIJAN

**T.I.Safarov**

## SUMMARY

This article presents a discussion of duties and liabilities of parties in corporate management. Advantages of conducting ratings of the efficiency of corporate management are stressed. Reasons of corporate confilicts are analyzed and the ways to eliminate them are suggested.

# ЭМПИРИЧЕСКАЯ ОЦЕНКА ОСНОВНЫХ ХАРАКТЕРИСТИК ФОРМИРОВАНИЯ КОРПОРАТИВНОЙ КУЛЬТУРЫ В БАНКОВСКИХ ОРГАНИЗАЦИЯХ АЗЕРБАЙДЖАНА

**Т.И.Сафаров**

## РЕЗЮМЕ

В статье речь идёт об обязанностях сторон в корпоративном управлении. Отмечена важность ведения рейтингов эффективности корпоративного управления. Анализированы причины возникновения корпоративных инцидентов и предложены пути их преодоления.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 28:338.24

# MÜASİR İDARƏETMƏ SİSTEMİNDƏ İSLAMA KONSEPTUAL YANAŞMA MƏSƏLƏLƏRİ

**P.H.Rüstəmov**
Azərbaycan Dövlət İqitisad Universiteti
Bakı, İstiqlaliyyət küçəsi 6
e-mail: rustamovparviz@yahoo.com

***Açar sözlər:*** islam menecmenti, islam idarəetmə sistemi, islama konseptual yanaşma, elmi yanaşma
***Keywords:*** Islamic management, Islamic management system, conceptual approach to Islam, scientific approach
***Ключевые слова:*** исламский менеджмент, исламская система управления, концептуальный подход к исламу, научный подход

İslam idarəetməsi - ümumi məqsədləri həyata keçirmək üçün cəmiyyətin bəşəri, maddi qüvvələrini təşkil etmək və hər hansı bir mütəşəkkil insan birliyinin fəaliyyətinin ayrılmaz hissəsi sayılır. İslam idarəetmə elmi sırf idarəçiliklə bağlı biliklərin mənimsənilməsini nəzərdə tutur. Bu elm prinsiplərə söykənən şəxsi bacarıq, məharət və müəyyən keyfiyyətlərin olmasını tələb edir. Burada islam idarəetməsi iki baxımdan: bilik və sənət baxımından nəzərdən keçirilməlidir.

İslama görə, iki növ bilik vardır. Birinci növ biliyin mənbəyi Vəhydir. Bu cür biliyin əhatə dairəsi məhduddur. İkinci növ bilik insanın fəalliyəti, həyat təcrübəsi sayəsində meydana gəlir

Birinci növ biliyə gəlincə, insan üçün kifayətdir ki, səmadan nə nazil olubsa, onu öyrənsin və ona düzgün əməl etsin.

İkinci növ biliyi isə səma insanın öz öhdəsinə buraxmışdır ki, onun ayrı-ayrı hissələrini və təfsilatını duyğuları, təfəkkürü və təcrübəsi əsasında özü üçün aydınlaşdırsın. Lakin bu elmin mənimsənilməsində əqidənin müəyyən etdiyi ümumi əxlaq prinsipləri nəzərə alınmalıdır.

İslam idarəetmə sənəti isə idarəetmə subyektinin vəzifələri ilə bağlı məsələləri nəzərdə tutur. İslamda bu vəzifələr pozitiv idarəetməyə dair ədəbiyyatda nəzərdə tutulan vəzifələrdən fərqlənir, çünki pozitiv idarəetmə prinsiplərinə görə idarəetmə subyektinin sırf maddi əsaslar üzərində qurulmuşdur və bu işin mahiyyətini mümkün qədər az qüvvə sərf etməklə bacardıqca çox mənfəət götürmək niyyəti təşkil edir.

İslam iqtisadi sistemi - insanların həyat tərzini nizamlayan və tənzimləyən sosial-iqtisadi, sosial-siyasi, hüquqi-etik, mədəni-əxlaq qaydalarını əhatə edən bütov bir elmi sistemdir.

İslam iqtisadiyyatı - İslamın ictimai və əxlaq normaları ilə müəyyən edilən xüsusi iqtisadi inkişaf yolunun mümkünlüyü haqqında təsəvvürləri ifadə etmək üçün işlədilən termindir.

İslam idarəetməsi elmi nəzəriyyə əsasında təşkil olunmalıdır. Elmi nəzəriyyə insan fəaliyyətinin mədsədlərinin müəyyən edilməsində mühüm rol oynayan səbəb-nəticə aydın-

laşdırılmasına kömək edir. Düzgün nəzəriyyələr yeni bilik və informasiyalar verdiyi üçün gerçəkliklə üzləşəndə öz sabitliyini saxlayır. Məhz islam idarəetmə nəzəriyyəsi də belədir. Burada müxtəlif təbiətli sistemlər daxilində insanın fəaliyyət və davranışını izah etməklə onu düzgün istiqamətləndirməyə imkan yaradır, cəmiyyətdəki problemləri aşkar edir və onların həlli yollarını göstərir. Belə nəzəriyyələr baş verən dəyişiklikləri nəzərə almaqla və insanların davranışına göstərə biləcəyi təsirləri düzgün hesablamaqla cəmiyyətin qarşısında duran məqsədlərin yerinə yetirilməsinə kömək edir. İslam idarəetmə nəzəriyyəsi bu xüsusiyyətlərinə görə fərqlənir.

İslam idarəetmə nəzəriyyəsindən danışılarkən ilk növbədə bu dinin yaradıcısı və son peyğəmbər olan Həzrəti Məhəmməd (s.ə.s.) idarəetmə sistemində özünə məxsus olan prinsip və idarəedici keyfiyyətləri nəzərdən keçirməliyik. Həzrəti Məhəmməd (s.ə.s.) idarəetmə sistemində özünə məxsus olan prinsipləri aşağıdakılardan ibarətdir:

1. məqsədi yetərincə tanımaq;
2. məqsədin düzgünlüyünə inam;
3. məqsədin şəffaflığı və insanları bu barədə məlumatlandırmaq;
4. düzgün və dəqiq üslublardan istifadə;
5. elm və yetərli məlumat;
6. güclü intellekt, sağlam düşüncə tərzi və düzgün analiz qabiliyyəti;
7. proqramlı hərəkət və təşkilatçılıq.

Həzrəti Məhəmməd (s.ə.s.) həyatını idarəetmə prinsipləri baxımından araşdırdıqda, onun çox güclü siyasi lider olduğunun şahidi oluruq. O, nə qədər dini, mədəni və ictimai şəxsiyyətdirsə, bir o qədər də siyasi xadim və ideal rəhbərdir. İslam dini universal bir məktəb olub, insan həyatının bütün sahələrinə şamil olduğu kimi, o da eyni zamanda qayğıkeş müəllim, yenilməz sərkərdə, güclü siyasətçi, abid və arif olmuşdur. O, humanist prinsiplərə əsaslanan dəqiq metodlarla öz dövlətini təsis və idarə etdi, sağlam cəmiyyət qurmağa nail oldu. Onun sosial-siyasi idarəetməsi bu gün də insanlar üçün ən gözəl örnək, ictimai və siyasi liderlər üçün ən ideal modeldir.

Qurani-Kərimdə İslamdan əvvəl mövcud olan dövlətlərdən heç bir şəkildə bəhs etmədən konstitutsiya və ya hökumətlə əlaqədar məsələləri götürüb onun prinsiplərini müəyyənləşdirməyə imkan verən bir çox ayə mövcuddur. Bunlar Müsəlmanlara siyasi olaraq camaatı necə idarə edəcəklərini bildirən ayələrdir.

Diqqətimizi ilk cəlb edən xüsusiyyət, hakimiyyətin yalnız Allaha aid olduğudur. Eləcə də insanın ancaq Allahın naibi (xəlifəsi) və onun əmanətindən məsul olmasının heç bir şübhəyə yol verməyəcək şəkildə qətiyyətlə ifadə edilməsidir. Çünki müsəlmanların xəlifə olaraq seçdiyi, Hz. Əbu Bəkir, Hz. Ömər, Hz. Osman və Hz. Əli (ra) kimi örnək şəxsiyyətlər müsəlmanlar üçün, təqlid ediləcək gözəl nümunə idilər və eyni zamanda hökmdar deyildilər. Xüləfayi-Raşidinin (Rəşid xəlifələri) dövlət idarəsi özlərinə məxsus bir hökumət şəkli idi. Onların idarəsi nə monarxiya idarəsi, nə də respublika idarə forması deyildi. Xüləfayi-Raşidinin hükumət quruluşu, özlərinə məxsus bir quruluş idi. Bunu aşkar etmək olar kı əshabələr, başqalarını təqlid etməkdən vaz keçib onun yerinə şəxsən öz idarə quruluşlarını icra etdilər.

Demək olar kı xilafət, İslamiyyətə aid bir idarə qurluşudur. Bu, həm dünya həm də axirət işlərinin xalq tərəfindən tətbiq edilib nizama qoyulmasını təmin edən bir idarədir. Xəlifə isə, həmin idarənin başında olan məsul şəxsdir. Bununla birlikdə xəlifə xristian dünyasında olduğu kimi dini bir başcı deyildir, onun hər bir hərəkət və davranışlarının mənbəyi dindir. Ona görə də onun idarəsi dini əmr və qadağalarla məhdudlanmışdır. Bu

baxımdan o, dünyanın digər hökmdar, padşah, şah, sultan, kral və imperatorlarına bənzəmir. O, daha başqa xüsusiyyətlər daşıyır. Bundan ötrü də xilafətlə digər hökmdarlar arasında böyük fərq vardır. Xəlifəlikdə isə məsələ tamamilə başqa cür idi. Belə ki, nə Hz. Peyğəmbər (səs), nə Hz. Əbu Bəkir (ra), nə Hz. Ömər(ra), nə Hz. Osman (ra), və Hz. Əli (ra), nə də onlardan sonra heç kəsə övladlıq, qohumluq, eyni qəbilədən olmaq, yaxud hər hansı yaxınlığa görə xəlifəlik verilmişrdi. Başqa sözlə, xələflə sələf arasında heç bir qohumluq bağları əhəmiyyət kəsb etmirdi. Əsas meyar elm, şəxsiyyət, qabiliyyət, keyfiyyət və İslami dəyərlərə sədaqətin müstəsna dərinliyi idi.

Ümumilikdə götürdükdə Həzrəti Məhəmmədən (s.ə.s.) sonra ilk dörd Rəşidi xəlifələri dövründə İslam idarəetmə prinsiplərinə əsaslanan istiqamətlərdə inkişafının əsası qoyulmuşdur. Bu dövrdə İslam idarəetmə sisteminin əsasları müəyyənlişmişdir. Rəşidi xəlifələri dövründə İslam idarəetmə sistemində əsasən Qurani-Kərimdən irəli gələn surə və ayələrin həyata keçirilməsinə üstünlük verilmişdir.

Azərbaycanının dahi şairi, mütəfəkkir və filosofu Nizami Gəncəvi (1141-1209) XII əsrdə yaşayıb yaratmışdır. O, islam iqtisadi idarəçiliyin haqqında əsərlərində insan, onun dünyada yeri və rolu, insanın insana, insanın cəmiyyətə və onu əhatə edən ətraf mühitə münasibəti, cəmiyyətin ədalət və təbii qanunlar əsasında qurulması və idarə edilməsi kimi həyati məsələlər əsas yer tutur.

Orta əsrlərdə yaşamış məşhur Azərbaycan alimi Məhəmməd Nəsrəddin Tusinin (1201-1274) İslam iqtasidi idarəetməsilə əlaqədar tədqiqatları özünə məxsus yer tutmaqdadır. O, fəlsəfə, məntiq, əxlaq və s. elmlərlə dərindən məşğul olmuş, cəmiyyətin sosial-iqtisadi quruluşu, onun müxtəlif qanunları, idarə edilməsinin üsulları, qaydaları haqqında nəzəri və əməli əhəmiyyətli baxışları olmuşdur. Onun məşhur «Əxlaqi-nasiri» və «Maliyyə haqqında» əsərlərində idarəetmə nəzəriyyəsi haqqında geniş bəhs olunmuşdur. O, əsərlərində İslam idarəetmə sisteminin və təsərrüfatçılıq qaydalarının təkmilləşdirilməsi istiqamətində araşdırmaları yüksək qiymətləndirilir. Nəsrəddin Tusi cəmiyyətin sosial-iqtisadi quruluşu və münasibətləri haqqında mükəmməl idarəetmə nəzəriyyəsi yaratmışdır.

Şərqin böyük mütəfəkkiri, sosioloqu, tarixçisi və filosofu İbn Xəldun (1334-1406) XIV əsrdə yaşayıb yaratmış şəxsiyyətlərdəndir. Onun 7 cilddən ibarət olan əsərlərinin birinci 3 cildi «Müqəddimə» adı ilə dəfələrlə ərəbcə nəşr olunmuş və türk dilinə çevrilərək 1988-ci ildə İstanbulda çap olunmuşdur. İbn Xəldunun əsərlərində İslam iqtisadi idarəetmə sistemini özündə birləşdirən konsepsiyanı yaratmışdır:

- əməyə idraklı münasibətin olması;
- təsərrüfatsızlıq və xəsisliklə mübarizənin aparılması;
- əmlak və sosial-iqtisadi bərabərliyin mümkünsüzlüyünün dərk edilməsi.

Klassik İslam idarəetmə nəzəriyyəsi ilə bağlı tədqiqatlar digər islam mütəfəkkirləri Məhəmməd əl-Xorəzm, İbn Sina, Biruni, Ömər Xəyyam, İbn-əl-Xaysam, Məhımmıd Füzuli, Abdus Salam və başqalarının əsərlərində öz geniş əksini tapmışdır.

Avropada da İslam idarəetmə nəzəriyyəsi ilə bağlı bir çox tədqiqatlar aparılmışdır. Uzun müddət İslamı öyrənmiş və onu yeganə kamil din hesab etmiş alman şairi İ.V.Höte (1749-1832) «Qərb-Şərq divanı»nda yazırdı: «Əgər İslam Allaha təslim olmaqdırsa, bizim hamımız İslam əqidəsində yaşayırıq və bu əqidədə öləcəyik».

Bernard Şou (1856-1950) «Həzrəti Məhəmməd (s.ə.s.)- Allahın elçisi» əsərində yazırdı: «Mən həmişə Həzrəti Məhəmməd (s.ə.s.) dininə, malik olduğu mözüzəvi həyat gücünə və enerjiyə görə dərin ehtiram bəsləmişəm. Mənim fikrimcə, İslam taleyin cürbəcür fitnələrini və sivilizasiya fərqlərini dəf etmək yolunda uğur qazana bilən yeganə dindir.

Mən qabaqcadan görürəm ki (bu, artıq bu gün də aydındır), avropalılar bir-birinin ardınca İslam dinini qəbul edəcəklər».

Müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin İslam iqtisadi idarəetmə sistemində irəli sürdüyü konsepsiya bu gün beynəlxalq miqyaslı əhəmiyyət daşımaqdadır. Belə ki, bu böyük insan beynəlxalq miqyaslı düşüncələrində müasirləşməyə xüsusi önəm versə də, bunun milli-mənəvi dəyərlərin, tarixi adət və ənənələrin zəifləməsi hesabına olmasının əleyhinə olmuşdur. Ümummilli Lider Heydər Əliyev dəfələrlə öz çıxışlarında söyləmişdir: «Dinimiz mütərəqqi dindir və İslam bunu əsrlər boyu sübut etmişdir; bu dinin ümumbəşəri əhəmiyyəti vardır».

Ümumiyyətlə, islam Azərbaycan xalqının çox önəmli və zəngin milli-mənəvi atributu sayılırdı və bu ölkənin beynəlxalq aləmdə gerçək siyasi, iqtisadi müstəqilliyini qoruması, öz milli simasını və varlığını saxlaması üçün həmin zəngin xəzinəyə müraciət etməsi lazım gəlirdi. Ümummilli Lider Heydər Əliyev bütün işlərdə olduğu kimi, burada da həm məsələnin nəzəri cəhətlərini bilən, onu düzgün həyati məcraya istiqamətləndirən rəhbər, həm də onun icra mexanizmini tənzimləyən praktik bir dövlət xadimi kimi fəaliyyət göstərmişdir.

Məşhur Azərbaycan filosofu və alimi professor Maqsud Fərhadoğlunun vicdan azadlığının konstitusiya prinsipləri, cəmiyyət miqyasında milli-mənəvi savlaşdırıcı əhəmiyyəti və azadfikirlilik məsələlərinə həsr etdiyi «Dinşünaslığın əsasları» adlı kitabı bu sahədə yazılmış ən qiymətli əsərlərdəndir. Kitabda İslamın elmə olan müsbət münasibətini islam ölkələrində uzun əsrlər boyu alimlərin tutduğu şərəfli mövqedə əks olunur. İslam cəmiyyətində alimə, müəllimə olan hörmət və məhəbbət, bəlkə də başqa heç bir ölkədə olmamışdır: alim ağsaqqaldır, tərbiyəçidir, yol göstərəndir. Təkcə onu söyləmək kifayətdir ki, Quranı-Kərimə görə alim bilik və tərbiyənin vəhdətinin təcəssümüdür. İslamda hətta alimin müharibədə iştirak etməkdən azad edilməsini nəzərdə tutur. İslam idarəetməsində elmə müsbət münasibətinə dair Həzrəti Məhəmmədə (s.ə.s.) istinadən çox saylı rəvayətlər, hədislər vardır. Həmin hədislərin birində qeyd olunur ki, elm öyrənmək yoluda atılmış hər bir addım Bədr və Uhud döyüşündə həlak olmuş müsəlmanların şəhidliyi qədər savab işdir. Alim və abidin nisbəti müqayisəsizdir: alim günəşdirsə, abid ulduzdur.

Yeni bazar münasibətləri şəraitində Azərbaycanda İslam iqtisadi idarəetməsini ilk dəfə nəzəri və kompleks şəkildə tədqiqatını professor Hacı Məhəmməd Həsən Xanlar oğlu Meybullayev tərəfindən işlənilmişdir. Onun iri həcmli «İslam iqtisadiyyatı» adlanan monoqrafiyasında islamın nəzəri və idarəetmə məsələləri geniş şərh olunmuşdur. O, öz monoqrafiyasında İslam idarəetmə sistemi haqqında danışarkən müasir şəraitdə dövlətin idarəetmə sistemini xüsusi qeyd etməyin vacibliyini vurğulayırdı. Çünki iqtisadi fəaliyyətin müxtəlif davranış qaydalarının tənzimlənməsi, nizamlanması bilavasitə mövcud olan idarəetmə sistemi ilə həyata keçirilir. İdarəetmə sistemi iqtisadı fəaliyyətin istiqamətini, qarşıya qoyulan məqsədlərin əldə olunmasını təmin edir. İslam iqtisadiyyatında idarəetmə sistemi də mənəvi dəyərlərin meyarı ilə formalaşır, şəriət hökmləri ilə tənzimlənir və dəyişilən davranış qaydaları ilə nizamlanır. Beləki, bir qayda olaraq idarəetmə sistemi inandırma, məcburetmə, maraqoyatma və əməletmə prinsiplərinə əsaslandığına görə hər bir dövlət, ölkənin iqtisadiyattına müdaxilə etmə səviyyəsini müəyyən edir. İslam iqtisadiyyatın idarə olunması üçün inandırma, məcburetmə prinsipləri bilavasitə dini mənəvi dəyərlərdən irəli gəldiyinə görə daha çox maraqoyatma və əməletmə prinsipləri üstünlük təşkil edir. Məhz bununla əlaqədar olaraq dövlətin iqtisadiyyata müdaxilə səviyyəsi müəyyən olunur.

Azərbaycanın görkəmli iqtisadçı alimləri professor Hacı İsmayıl Əli oğlu Feyzullabəyli və professor Əvəz İslam oğlu Bayramovla birlikdə yazdıqları «İslam (sosial-iqtisadi münasibətləri)» elmi monoqrafiyasında iqtisadi həyat, əmək, kapital, ticarət, idarəetmə, iqtisadi-sosial demokratiya, sosial-iqtisadi mühafizə, ictimai şüurun saflaşdırılması və s. məsələlərin həlli şərh olunmuşdur. İslam idarəetmə nəzəriyyəsində Azərbaycanın görkəmli iqtisadçı alimi professor H.S.Həsənovun «Korporativ idarəetmənin təməl daşları» adlı elmi monoqrafiyası bu sahədə yazılmış ən samballı əsərlərdəndir. Monoqrafiyada bu məsələ özünə məxsus şəkildə şərh edilmişdir. Biznes etikası iqtisadi institutların formalaşmasına, peşəkarların biznesdə fəaliyyətinə bilavasitə təsir edir. Cəmiyyətin iqtisadi institutları birbaşa mənəviyyata müdaxilə edir və bu nöqteyi-nəzərdən də biznes etikasının makrosəviyyəsinin əhəmiyyətini dəyərləndirmək çətindir. Beləki, beynəlxalq biznes etikasının əsaslandığı istiqamətlərdən biri də dini etikadır. Onun əsasında «Aldatma», «Oğurlama», «Sənə yaxın olana yalandan şahidlik etmə» və s. İslamın mənəvi-etik qanun və normaları durur. Bu baxımdan, rəhbər və tabeçilikdəkilər arasında işgüzar ünsiyyət etikası pozulduqda kollektivdə insanların əksəriyyəti özlərini narahat, mənəvi cəhətdən müdafiəsiz hesab edirlər. Rəhbərin işçiyə münasibəti işgüzar ünsiyyətin bütün xarakterinə təsir edir, çox halda isə onun əxlaqi-psixoloji iqlimini müəyyənləşdirir. İlk növbədə, məhz bu səviyyədə əxlaq etolonları və davranış qaydaları formalaşmalıdır.

İslam idarəetmə nəzəriyyəsində iqtisadçı alimi professor E.M.Hacızadənin «Sosiallaşan iqtisadiyyat» adlı elmi monoqrafiyasında İslamın perspektiv iqtisadi reallıqlar baxımdan elmi tədqiqat araşdırması xüsusi əhəmiyyət kəsb edir. Monoqrafiyada göstərilmişdir ki, İslam sosial-iqtisadi konsepsiyası bir sira dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edir. Hal-hazırda dövlət səviyyəsində İslamın iqtisadi prinsipləri bir neçə ölkədə həyata keçirilir. Ənənəvi İslam cəmiyyətləri Qərbin texnoloji gücünün iqtisadiyyatının və mədəniyyətinin müasir üstünlüyünə iki aspekdə cavab verməlidir:

1. Müasir Qərb mədəniyyətinə adaptasiya olunmaqla məsafə fərqini aşaraq inkişafa nail olmaq. Bu istiqaməti İslamın transformasiyası kimi xarakterizə etmək olar.

2. Fundamental və ya İslamçı mövqeylidir. Beləki, onun məqsədini Qərbin mədəniyyətinin mənimsəməklə deyil, öz inkişafını İslam mədəniyyətinin dəyərləri əsasında möhkəmlətməkdən ibarətdir.

Məhz yeni bazr münasibətlər şəraitində İslam ölkələri daha çox yüksək informasiya texnologiyalar sferasında genişlənən tədqiqatlara üstünlük verməlidir.

Nəticə etibarilə İslam idarəetməsi öz növbəsində bəşəriiyətin inkişafında əsas faktor rolunu oynamış, eyni zamanda milli-mənəvi, sosial-iqtisadı sahələrin tənzimlənməsində xalqların dünyagörüşünə hakim kəsilmişdir. Bu baxımdan, İslam idarəetməsi olmadan milli-mənəvi və sosial-iqtisadı sahələrin inkişafı mümkün deyildir. Belə ki, 1400 ildən artıq bir dövrdə İslam bu keyfiyyətlərinə görə bütövlükdə bəşəriyyətin inkişafına öz misilsiz töhvələrini vermişdir.

## Ədəbiyyat

1. Qurani-Kərim.
2. Cəmilov M.F. Dinşünaslığın əsasları. Bakı, Bakı Biznes Universitetinin nəşriyyatı, 1998.
3. Feyzullabəyli İ.Ə., Bayramov Ə.İ. İslam (sosial-iqtisadi münasibətləri). Bakı, Az.DİU-nun nəşriyyatı, 2008.

4. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı, «Elm» nəşriyyatı, 2006.
5. Həsənov H.S. Korporativ idarəetmənin təməl daşları. Bakı, «Gənclik» nəşriyyatı, 2012.
6. Meybullayev M.X. İslam iqtisadiyyatı. Bakı, «Ünsiyyət» nəşriyyatı, 2001.

## ISSUES OF CONCEPTUAL APPROACH TO ISLAM IN MODERN MANAGEMENT SYSTEM

**P.H.Rustamov**

**SUMMARY**

This work presents a brief trip back to the history of the methods of Islamic management. The author claims that the principles of Islamic management should be brought into conformity with the realities of the 21st Century.

## ВОПРОСЫ КОНЦЕПТУАЛЬНОГО ПОДХОДА К ИСЛАМУ В СОВРЕМЕННОЙ СИСТЕМЕ УПРАВЛЕНИЯ

**П.Г.Рустамов**

**РЕЗЮМЕ**

В статье представлена краткая история методов исламского управления и исследован ряд их свойств. Автор подчёркивает необходимость адаптации исламского менеджмента к реалиям XXI столетия.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 330.16

# STRATEJİ İDARƏETMƏDƏ İNSAN AMİLİ VƏ ONUN PSİXOLOJİ MAHİYYƏTİ

**Mehmet Reşat Güvenc**
Odlar Yurdu Universiteti
Bakı, K.Rəhimov küçəsi 13
e-mail: resat_guvenc46@hotmail.com

***Açar sözlər:*** idarəetmə, strategiya, insan faktoru, iqtisadiyyat
***Keywords:*** management, strategy, human factor, economy
***Ключевые слова:*** управление, стратегия, человеческий фактор, экономика

Azərbaycan Respublikasında son zamanlar həyata keçirilən iqtisadi islahatlar təsərrüfat subyektlərinin rəqabət qabiliyyətliliyini yüksəltməyə imkan verən təsərrüfatçılıq siyasəti və strategiyasının işlənib hazırlanmasını tələb edir. Belə bir şəraitdə təşkilatların və onların fəaliyyəti baş verən dəyişikliklərə sadəcə olaraq reaksiya verməklə məhdudlaşmamalıdır. Çünki hazırda elmi cəhətdən əsaslandırılmış prosedurların qabaqcadan dərk edilməsi və nizamlanması əsasında təşkilatın məqsədinin dəyişən xarici mühitə uyğunlaşması zəruriliyi özünü daha qabarıq sürətdə göstərməkdədir.

Xarici mühitdə baş verən dəyişikliklərin və bununla əlaqədar olan qeyri müəyyənliyin artdığı bir şəraitdə təşkilatın inkişafının idarə edilməsinin müasir aləti strateji idarəetmə metodologiyasıdır.

Təcrübə göstərir ki, kompleks planlaşdırma və idarəetməni həyata keçirən təşkilatlar daha uğurlu fəaliyyət göstərərək, sahədəki orta mənfəətlə müqayisədə daha çox mənfəət əldə edir. Planlaşdırma təcrübəsi olan bir çox rəhbərlər və sadəcə olaraq enerjili insanlar bütün diqqətlərini daha çox bazarları tutmağa, mümkün olduğu qədər daha rəngarəng məhsullar istehsal edərək müxtəlif müştəri qruplarının tələbatlarının ödənilməsinə cəlb edərək öz qüvvələrini müxtəlif fəaliyyət istiqamətləri üzrə səpələdiyinə görə arzu edilən uğura nail ola bilmirlər. Uğur qazanmaq üçün isə güclərin məqsədyönlü şəkildə təmərküzləşdirilməsi və düzgün strategiya seçilməsi lazımdır. Başqa sözlə, kim öz strategiyasını yaxşı planlaşdırarsa o da daha tez uğura nail olar.

Strategiya sözü yunan sözü olub, "stratoqos" sözündən götürülmüş və mənası "general məharəti" deməkdir. Bu terminin hərbi mənşəli olması heç də təəccüb doğurmamalıdır. Çünki strategiyadan istifadə etməklə bir çox sərkərdələr dünyanı fəth etmiş və döyüşlərdə həmişə qələbə çalmışlar. Strategiya qərar qəbul edərkən təşkilat rəhbərlərinin öz əllərində cəmləşdirdiyi qaydaların məcmusunu əks etdirir, təşkilatın məqsədini və ona nail olmağın əsas yollarını müəyyən edərək vahid hərəkət istiqamətinin seçilməsində müstəsna rol oynayır. Odur ki, strategiya təşkilatın mümkün hərəkətlərinin və qəbul edilən idarəçilik qərarlarının sərhədlərini müəyyən edir.

Təşkilatın strategiyası strateji vəziyyətin prioritetlərini, resursları və strateji məqsədlərə nail olunması üzrə atılacaq addımların ardıcıllığını müəyyən edən baş hərəkət planını özündə əks etdirir. Strategiyanın başlıca vəzifəsi təşkilatın hazırki vəziyyətindən rəhbərliyin gələcəkdə görmək istədiyi vəziyyətə çatdırılmasından ibarətdir. Seçilmiş ob-

yektdən asılı olaraq, strateji idarəetmənin aşağıdakı istiqamətlərini fərqləndirirlər.

Korporativ strategiya bütövlükdə təşkilatın strategiyası-biznes strategiyası-təşkilatın ayrı-ayrı strateji bölmələrinin strategiyası:

- funksional strategiya-funksional təsərrüfatçılıq zonalarının strategiyası.

Korporativ strategiyaya misal olaraq təşkilatın müəyyən strateji təsərrüfatçılıq zonasında (müəyyən bazar seqmentində)həyata keçirdiyi strategiyanı göstərmək olar. Biznes-strategiyaya nümunə olaraq, çoxsahəli elektrotexnika kompaniyasında məişət soyuducularının istehsalı üzrə ixtisaslaşan bölmələrin strategiyasını göstərmək olar.

Strateji idarəetmə metodologiyasının meydan çıxması və ondan praktiki istifadə edilməsi ilk növbədə təşkilatın xarici mühitində baş verən dəyişikliklərin xarakterindən irəli gələn obyektiv səbəblərlə əlaqədardır. Strateji idarəetmənin mahiyyəti ondan ibarətdir ki, bir tərəfdən dəqiq təşkil edilmiş kompleks strateji planlaşdırma fəaliyyət göstərir, digər tərəfdən isə təşkilatın idarə edilməsinin strukturu forma "strateji planlaşdırma" ya cavab verir və elə qurulmuşdur ki, uzun müddətli strategiyanın hazırlanmasını təmin etsin.

Strateji idarəetmə metodolojiyasının inkişafının aşağıdakı mərhələlərini bir-birindən fərqləndirmək lazımdır.

Birincisi: icrayə nəzarət əsasında idarəetmə. Bu zaman təşkilatın dəyişikliklərə reaksiyası hadisə baş verdikdən sonra biruzə verir.

İkincisi: ekstapolyasiya əsasında idarəetmə. Bu zaman dəyişikliklər tempi sürətləndiyinə baxmayaraq gələcək inkişaf haqqındakı fikirləri keçmiş tendensiyalara (uzunmüddətli planlaşdırmaya) ekspolyasiya etmək yolu ilə söyləmək olar.

Üçüncüsü: dəyişiklikləri qabaqcadan görmək əsasında idarəetmə. Bu gözlənilməz hadisələr meydana çıxdıqda və dəyişikliklər tempi sürətləndirdikdə baş verir. Lakin bu halda gələcək tendensiyaları qabaqcadan nəzərə almaq və onlara uyğun strategiya hazırlamaq mümkün olmur.

Dördüncüsü: çevik və cəld qərarlar qəbul edilməsi əsasında idarəetmə. Bu bir çox mühüm məsələlərin sürətlə baş verdiyi indiki dövrdə özünü qabarıq şəkildə biruzə verir. Çünki onları vaxtında nəzərə almaq qeyri mümkündür. Keçmiş SSR-nin uzun müddətli planlaşdırmanı misal çəkmək lazımdır.

Strateji idarəetmə təkamül yolu ilə strateji planlaşdırmadan yaranır. O prinsipcə yeni strategiyaların həyata keçirilməsində çətinliklərlə üzləşən firmalarda daha çox maraq yaradır. Strateji idarəetmə özündə nəyi əks etdirir? Suala cavab vermək üçün ilk növbədə kommersiya və qeyri kommersiya təşkilatların təşkilatı davranışlarına nəzər salaq. Bu təşkilatı davranış üslubları ilə idarəetmə növlə arasında sıx əlaqənin mövcud olduğuna görə lazımdır.

Müasir təşkilatların bazarda davranışı. Yeni idarəetmə təşkilatının idarəedilməsinin təkmilləşdirilməsinin əsası olmalıdır. Operativ idarəetmə şəraitində bu prinsiplər istehsalın tələbata, bazar tələbatının ödənilməsinə tabe olmasının təşkilati idarəetmə mexanizminin xarakterini başa düşməyə imkan verir. Sistem və situasiyalı yanaşmalar əsasında qurulan strateji idarəetmə konsepsiyasını başa düşmək üçün bu prinsiplər xüsusilə vacibdir. Bu strateji planlaşdırma prosesinin strukturunu, bazarın strateji seqmentləşdirilməsinin rolu və metodologoyasını başa düşməyə strateji alternativlərin təhlilindən və strategiyanın seçilməsində istifadə olunan yeni metodoloji alətlərdən baş çıxarmağa, strateji dəyişikliklər şəraitində qarşıya qoyulmuş məqsədlərə çatmağa kömək edən strategiyanın reallaşdırılmasının idarəedilməsi sisteminin və idarəetmənin təşkilati strukturunun layihələşdirməyə və nəzərdə tutmağa imkan verir.

Kommersiya və qeyri kommersiya təşkilatlara artım üslubuna nisbətən sahibkarlıq üslubundan daha tez-tez istifadə edirlər. Qeyri kommersiya təşkilatların sahibkarlıq üslubundan yalnız öz inkişafının ilkin mərhələlərində istifadə edirlər. Bu zaman onlar öz vəzifələri dairəsini müəyyən edirlər. Təşkilati strukturu formalaşdırırlar və özlərinin sosial əhəmiyyətliliyini göstərirlər. Növbəti mərhələdə onlar bir qayda olaraq davranışın artım üslubuna keçirlər. Davranışın sahibkarlıq üslubuna çox vaxt fəaliyyətlərinin effektliyi bazar dinamikasının təsiri ilə bir başa bağlı olan xüsusi fərdi kommersiya təşkilatları əl atırlar. Fərdi kommersiya təşkilatları daima dəyişikliklər hesabına yüksəlişi imkanlarının sahibkarlıq axtarışını aparırlar.

Davranışın müxtəlif üslublarından istifadə edən təşkilatlar öz xüsusiyyətlərinə görə əhəmiyyətli dərəcədə fərqlənirlər. Məsələn: davranışın artım üslubundan istifadə edən firma öz məqsədini mənfəətin reallaşdırılmasında görür. Onun təşkilati strukturu nisbətən sabitdir işi resurslarının emalının texnoloji prosesinin gedişinə uyğun olaraq aparır. İstehsal miqyasında qənaət effektiv fəaliyyətin əsas faktoru hesab olunur. Davranışın sahibkarlıq üslublarını dəstəkləyən təşkilatın isə xarakteristikaları başqa cürdür: məqsəd-potensial mənfəətliliyin optimallaşdırılması mühitin şərtlərinə adekvat şəkildə dəyişən çevik təşkilatı struktur yaradılır. İdarəetmə qərar problemlərini qabaqcadan görülməsinin yolu ilə imkanların aktiv axtarışından sonra qəbul edilir.

Kommersiya təşkilatlarının idarəetmə sisteminin yenidən təşkil olunması təcrübəsi göstərir ki, davranışın bir üslubundan digərinə keçidlərin dəyişikliklərlə və vaxtın vəsaitlərin əhəmiyyətli məsrəfi ilə bağlıdır. Bu hakimiyyətin yenidən bölüşdürülməsini tələb etdiyindən psixoloji cəhətdən insanlar üçün çox çətindir. Öz növbəsində təşkilatda hakimiyyətin yenidən bölgüsü onun təşkilat strukturunun yenidən qurulması zəruriliyi ilə vəzifə funksiyalarının dəyişdirilməsi ilə, idarəetmə iyerxiyasının müxtəlif vəziyyətləri arasında qərar qəbul etməkdə hüquq və məsuliyyətin yenidən bölgüsü ilə bağlıdır.

Strateji planlaşdırma davranışın sahibkarlıq üslubuna sistem yanaşmanı nəzərdə tutur. Müasir izahatda artım üslubu konservativ kimi sahibkarlıq üslubu isə aqressiv yüksəlişə istiqamətlənən kimi təqdim olunur. Rəhbər o zaman dəyişikliklərə gedə bilər ki, təşkilat xarici mühitdə çətin problemlərlə qarşılaşsın və bu problemlər onun firmanın effektliliyini saxlamaq üçün yeni imkanlar tapmağa məcbur etsin.

Strateji idarəetmə-strategiyaların işlənib hazırlanması və reallaşdırılması üzrə təşkilatın fəaliyyətləri ardıcıllığını müəyyən edən prosesi əks etdirir. O, məqsədlərin qoyuluşunu, strategiyaların işlənib hazırlanmasını, lazımı resursların müəyyən olunması və təşkilata qarşıya qoyulmuş vəzifələrə nail olmağa imkan verən xarici mühitlə qarşılıqlı əlaqələrin saxlanılmasını da özündə birləşdirir.

## Ədəbiyyat

1. Плужников К.И. Глобализация производства и транспортных услуг. М.: Транслит. 2008, 320 с.

2. www.imt.org, BVF-nin rəsmi saytı

3. Кортунов С.В. Современная внешняя политика России: стратегия избирательной вовлеченности. М.: ГУ-ВШЭ. 2009, с.18.

4. Пивоваров С.Э., Тарасевич Л.С. Международный менеджмент. СПб.: Питер. 2008, с.12-14

5. Barton D. Taking Stock: 10 years after the Asian Financial Crisis // The McKinsey Quarterly. 2007. No December. p.106

6. Исаченко Т.М. Торговая политика Европейского Союза. М.: ГУ-ВШЭ. 2010, с.15-26

7. Пузанова Е.П. Мировая экономика и международные экономические отношения. М.: Феникс. 2004, с.204-219

8. Теоретическая экономика. Под ред.: Г.П.Журавлевой и Н.Н.Мильчаковой. М.: Банки и биржи. ЮНИТИ. 1997, с.422-423

## HUMAN FACTOR IN STRATEGIC MANAGEMENT AND ITS PSYCHOLOGICAL ASPECTS

**Mehmet Resat Guvenc**

### SUMMARY

Economic reforms carried out lately in Azerbaijan are known to require the development of economic policies and strategies aimed at improving the competitiveness of businesses. The modern way of managing the economy in the current period marked with the growing uncertainty and rapid change is a management methodology. This article presents a detailed study of the role of human factor in the strategic management and its psychological aspects.

## ЧЕЛОВЕЧЕСКИЙ ФАКТОР В СТРАТЕГИЧЕСКОМ УПРАВЛЕНИИ И ЕГО ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ

**Мехмет Решат Гювендж**

### РЕЗЮМЕ

Как известно, экономические реформы, проводимые в последнее время в Азербайджанской Республике, требуют разработки хозяйственной политики и стратегии, направленной на повышение конкурентоспособности хозяйственных субъектов. Современным путем управления развития хозяйства в настоящий период, обусловленный ростом неопределенности и частых изменений, является управленческая методология. В статье на подробном материале исследуются человеческий фактор в стратегическом управлении и его психологические аспекты.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2013 - № 37

UOT № 339.56

# XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNDƏ RİSKİN PROQNOZLAŞDIRILMASI VƏ AZALDILMASI

**Nuri Ok**
Ağrı Universiteti
Erzurum Yolu 4 Km 04100 Merkez, Ağrı, Türkiyə
e-mail: nok@agri.edu.tr

***Açar sözlər:*** xarici ticarət əlaqələri, risk faktoru, iqtisadiyyat
***Keywords:*** foreign trade relations, risk factor, economy
***Ключевые слова:*** внешнеторговые связи, фактор риска, экономика

Beynəlxalq ticarət əlaqələri sistemində əsas halqalar həm daxili, həm də xarici amillərlə şərtlənən risklərə daha böyük dərəcədə məruz qalan xarici və müştərək şirkətlərdir. Riskli situasiyalar xüsusilə yeni əmtəələrin xarici bazarlara çıxışı zamanı qərar qəbulu prosesində qarşıya çıxır.

Əmtəə təklifinin yeniləşdirilməsi şirkətlərə xarici bazarda möhkəmlənməyə, rəqabət qabiliyyətliliyini saxlamağa, satış həcmini genişləndirməyə imkan verir. Lakin yeni əmtəənin xarici bazara çıxarılması əhəmiyyətli dərəcədə çətinlik və risklərlə bağlıdır. Amerika ekspertlərinin fikrincə (1, 191), təklif edilən yeniliklərin 32%-nin kommersiya uğursuzluğu bazar tələbinin qeyri-düzgün qiymətləndirilməsi, 13% qeyri-düzgün satış siyasətinin seçilməsindən, 14% yüksək qiymətlər, 10% satışın düzgün vaxtda başlanmaması, 8% rəqiblərin əks-təsiri və yalnız 23% texniki səbəblər üzündən baş verir.

Belə səhvlər əsasən riskin yetərincə qiymətləndirilməməsi nəticəsində baş verir. Yeni əmtəələrin istehsalı və risk obyektiv olaraq bir-birilə ilə qarşılıqlı əlaqədə olan proseslərdir.

Müasir şəraitdə yeni əmtəələrin xarici bazara çıxarılması zamanı qərar qəbulunun konseptual modeli özünə dörd əsas mərhələni daxil edir:

- birinci mərhələyə şirkətin potensial imkanlarının nəzərə alınması ilə yeni əmtəənin optimal variantlarının seçilməsi və bazarın vəziyyətindən asılı olaraq hər bir variant üzrə riskin müəyyənləşdirilməsi daxildir;
- ikinci mərhələdə bu və ya digər bazar situasiyasının baş verməsi ehtimalının nəzərə alınması ilə hər bir strategiya üçün gözlənilən faydalılığın qiymətinin hesablanması əsasında əmtəənin optimal satış strategiyası seçilir;
- üçüncü mərhələ özünə mövcud bazar konyunkturunun dəyişməsi zamanı müştərək və ya xarici şirkətin strategiyasının müəyyənləşdirilməsini daxil edir;
- sonuncu mərhələdə bazar situasiyasının baş verməsinin aprior ehtimallarının seçilməsinin etibarlılığı yoxlanılır və bu ehtimalların dəqiqləşdirilməsindən gözlənilən faydalılıq hesablanır.

Bütün bunlar ixrac oriyentasiyalı xarici və müştərək şirkətlərin risk şəraitində dünya bazarına çıxışının formalaşdırılması və reallaşdırılmasının kompleks metodikasının işlənib hazırlanmasını tələb edir.

Biz bir sıra alimlərin (2, 14-16) fikirləri ilə razılaşırıq ki, riskin düzgün qiymətləndirilməsi mümkün itkilərin həcmini obyektiv təsəvvür etməyə və onların qarşısı-

nın alınması yollarını təyin etməyə imkan yaradır:

1) göstəricilər sistemi formalaşdırılır.

$\{X_i\}_{r-1,\ldots,N}$ - ekspertlərin fikrincə, şirkət fəaliyyətinin ayrı-ayrı tərəflərini ən yaxşı şəkildə xarakterizə edən göstəricilər sistemi.

2) Göstəricilər sisteminin hər bir $X_i$ qiymətinə $r_i$ göstəricisinin ($X_i$ göstəricisinin əhəmiyyətliliyi) qiyməti uyğunlaşdırılır.

3) $\{X_i\}_{r-1,\ldots,N}$ göstəricilər sistemi $r_i$ göstəricisinin qiymətinin azalması qaydasında qoyulur:

$$r_i \geq r_r \ldots \geq r_N .$$

Göstəricilərin əhəmiyyətliliyi Fişbern qaydası üzrə qərar qəbulu üçün faydalılıq nəzəriyyəsinə uyğun olaraq hesablanır:

$$r_i = \frac{2(N-i+1)}{(N+1)N} \quad (\sum_{j=1}^{N} {}_{ri} = 1) \cdot$$

Əgər bütün göstəricilər eyni əhəmiyyətliliyə malikdirlərsə, onda $r_i = \frac{1}{N}$.

4) Bu metodikanın əsas məsələsi $X_i$ göstəricisinin səviyyəsinin müəyyən edilməsidir:

$\lambda_{ij}$ - $x_i (j = 1,\ldots,S)$ göstəricisinin $j$-cu səviyyəsi,

harada ki, $\lambda_{ij}$ - $i$-ci göstəricinin $j$-cu səviyyəsi; $S$ isə göstəricinin səviyyələrinin sayıdır.

5) şirkətin ekspert strategiyasının kompleks risk göstəricisinin qiyməti ($Q$) aşağıdakı düsturla hesablanır:

$$Q = \sum_{j=1}^{S} S_i \sum_{i=1}^{N} r_i \lambda_{ij} ,$$

